ZAUR ƏLİYEV

# TÜRKDİLLİ XALQLARIN DİASPORLARI

"ADİLOĞLU"
Bakı - 2009

**Məsləhətçilər:** **Mahmud Kərimov,**
*akademik, AMEA-nın prezidenti, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası İdarə Heyətinin sədri*

**Nazim İbrahimov,**
*Diasporla İş üzrə Dövlət Komitəsinin sədri*

**Elmi redaktor:** Əlikram Tağıyev,
*fəlsəfə elmləri doktoru, professor*

**Rəyçilər:** İlham Məmmədzadə,
*fəlsəfə elmləri doktoru, professor,*

Nəriman Qurbanov,
*dövlət qulluğunun baş müşaviri,*

Məryəm Seyidbəyli,
*tarix elmləri namizədi*

**Redaktor:** Elşad Miraləm,
*dövlət qulluğunun kiçik müşaviri*

**Zaur Əliyev. «Türkdilli xalqların diasporları».** Bakı, «Adiloğlu», 2009. 296 səh.

*Kitabda türkdilli xalqların diasporları, onların məskunlaşma coğrafiyası, tarixi, təşkilati strukturu, müasir durumu ilə bağlı məlumatlar toplanmışdır. Nəşrdə türkdilli dövlətlərin xarici siyasətinin formalaşmasında, türkdilli xalqların problemlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor amilinin rolunu əks etdirən məqamlara da toxunulmuşdur. Kitab türkdilli xalqların tarixini və diaspor mövzusunu araşdıran tədqiqatçılar, alimlər və mütəxəssislər, eləcə də xarici ölkələrdə yaşayan azərbaycanlılar üçün nəzərdə tutulmuşdur.*

$Ə\frac{4722110018}{121 - 2009}$ qrifli nəşr

© Z.Əliyev, 2009



# MÜNDƏRİCAT

1. Giriş .......... 5-13
2. Azərbaycan diasporu .......... 14-151
3. Türk diasporu .......... 152-174
4. Qazax diasporu .......... 175-193
5. Qırğız diasporu .......... 194-215
6. Özbək diasporu .......... 216-230
7. Türkmən diasporu .......... 231-245
8. Tatar diasporu .......... 246-270
9. Tarixi və müasir türk dövlətləri .......... 271-277
10. İstifadə olunmuş mənbələr .......... 278-295

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev**: *«Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Ona görə də, tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Bizim xalqlarımız bu həsrətlə yaşayıblar və nəticədə də bir-birinə qovuşublar. Bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir».*

**Mustafa Kamal Atatürk:** "... *Mənim yaradılışımda fövqəladə bir şey varsa, türk olaraq dünyaya gəlməmdir... Mənim həyatda yeganə fəxrim, sərvətim, türklükdən başqa bir şey deyildir... Ey Türk istikbalının övladı! Möhtac olduğun qüdrət damarlarındakı əsl qanda mövcuddur... Türk cocuğu əcdadını tanıdıkca daha böyük işlər yapmak üçün özündə qüvvət bulacaktır... Bir Türk dünyaya bədəldir... Nə mutlu Türkəm deyənə!*





## GİRİŞ

Qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik təcrübəsinə malik türk xalqları bəşər sivilizasiyasının inkişafında, müasir dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında fəal rol oynamaqdadır. Türk xalqlarının minilliklər ərzində formalaşmış zəngin mədəni irsi dünya mədəniyyət xəzinəsinə əvəzsiz töhfələr vermiş, insanlığın təkamül tarixində xüsusi yerə malik olmuşdur.

Tədqiqatçıların qənaətinə görə, türk xalqlarının tarixi vətəni Altay-Ural dağları, Yenisey çayı hövzəsi olmuşdur. İlk dəfə Orxon-Yenisey kitabələrində və qədim Çin mənbələrində adları hallandırılan türklərin məskunlaşdığı ərazilər Ön Asiyadan başlayaraq Mərkəzi Amerikaya qədər böyük bir coğrafi məkanı əhatə edir.

Tarixən qurucu və yaradıcı xalq kimi tanınan türklərin ilk böyük köçü eramızdan əvvəl II minilliyə təsadüf etmişdir. Bu dövrdə türk xalqları Orta Asiya, Ön Asiya, Anadolu, Egey dənizi sahilləri, Sibir, Ural dağlarının cənubu və Hindistanın Pəncab bölgəsində məskunlaşmışlar. Eramızın VI-VII əsrlərində İkinci böyük köç zamanı bir qədər də Qərbə hərəkət edərək Mərkəzi Avropa və Balkan ölkələrində yaşayış məntəqələri, möhkəm qalalar, zəngin şəhərlər və məbədlər inşa etmişlər. Hun, avar, bulqar, qıpçaq və oğuzların qazandığı şanlı zəfərlər bu ərazidə Qərbi Hun, Avar və Bulqar türk dövlətlərinin yaranması ilə nəticələnmişdir.

Beləliklə, Asiyanın mərkəzində, habelə cənub, qərb və şərq hissələrində formalaşmış qədim türk mədəniyyəti bütün dünyaya yayılmağa başlamışdır. Avropa və Asiyanın bir çox ərazilərindəki yer adlarının, maddi-mədəniyyət abidələrinin araşdırılması bu qənaətə gəlməyə imkan verir ki, bəşər sivilizasiyasının formalaşmasında türklərin özünəməxsus rolu olmuşdur. Bu köçlər türklərin təkcə mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin formalaşmasına deyil, eyni zamanda özünəməxsus ictimai münasibətlər sisteminin yaranmasına da ciddi təsir göstərmişdir.

Tarixin keşməkeşlərinə baxmayaraq, türklər öz doğma dilini və mədəniyyətini qoruyub saxlamışlar. Etnoqraflar türk dilini 4 əsas dil qrupuna bölürlər: Oğuz (türk, Azərbaycan, qaqauz və türkmən dilləri), Qıpçaq (başqırd, karaim, qaraqalpaq, qaraçay-balkar, qazax, qırğız, Qərbi Krım tatarcası, kumık, noqay, tatar), Uyğur (uyğur və özbək dilləri), Sibir türkcəsi (altay, xakas, dolğan, sor, tofa, tuvin, yakut, sarı uyğur türkcəsi, çulim türkcəsi).

BMT-nin 1995-ci il hesabatına görə, türk xalqlarının ümumi sayı 165 milyon nəfərdir. Lakin bəzi qaynaqlarda bu rəqəm 200 milyon, bəzilərində isə 300 milyon göstərilir.

Hazırda türklərin məskunlaşdığı əsas ərazilər Balkanlardan Yaxın Şərqə, Orta Asiyadan İrana, Çin və Monqolustandan Rusiyanın ən ucqar şimal bölgələrinə qədər böyük bir coğrafiyanı əhatə edir. Bununla yanaşı, Qərbi Avropa, ABŞ və Avstraliyada da yüz minlərlə türk yaşayır.





Türklərin tarixdəki izləri onların qurub-yaratdıqları qüdrətli dövlətlər və imperiyalardır. İlk qüdrətli türk imperiyası eramızdan əvvəl III əsrdə yaranmış Böyük Hun İmperatorluğu olmuşdur. Bu imperiyanın hüdudları Sakit okeandan Xəzər dənizinin şərq sahillərinədək böyük bir ərazini əhatə etmişdir. Məşhur «Böyük Çin Səddi» məhz məğlubedilməz türklərə qarşı çəkilmişdir. Böyük Hun İmperatorluğunun süqutundan sonra Şərqi və Mərkəzi Avropaya gələn hunlar burada digər türk tayfaları ilə birləşərək V əsrdə Qərbi Hun İmperiyasını qurmuşlar. Qərbi Roma İmperiyasını və Bizansı diz çökdürən Atilla məhz bu dövlətin qüdrətli hökmdarı olmuşdur. Lakin onun ölümündən sonra imperiya bir neçə dövlətə parçalanmış, yerində isə Bulqar, Avar, Xəzər və Suvar türk dövlətləri yaranmışdır.

Mərkəzi Asiyadakı türklər də möhtəşəm imperiyalar qurmuşlar. Hunlar və bu birliyə daxil digər türk tayfaları VI əsrdə Göytürk İmperiyasını yaradaraq özlərini ilk dəfə rəsmən «türk» adlandırmışlar. Şimali Hindistanda isə türklər Ağ Hun dövlətinin əsasını qoymuşlar. Bu əsrlərdə Mərkəzi Asiyadakı türklərin digər hissəsi isə Uyğur, Xakas dövlətlərini yaratmışdır. Bu dövlətlər güclәndikcə, zaman-zaman bir-birini əvəzlədikcə regionda yaşayan türk tayfaları birləşərək vahid etnos kimi formalaşmağa başlamışlar.

Xilafət yürüşləri dövründə türklərin yaşadığı əraziləri ələ keçirən ərəblər bu qədim etnosun bir çox mədəni dəyərlərini əxz etmişlər. VIII əsrdən etibarən yüksək döyüş qabiliy-

yətləri və qəhrəmanlıqları ilə seçilən türklər Xilafət ordusunda və idarəetmədə ən yüksək vəzifələri tutmuşlar.

Xilafətin süqutundan sonra türk etnosları Aralıq dənizindən başlayaraq Himalay dağlarına qədər böyük bir ərazidə yeni dövlətlər qurmuşlar. Azərbaycan ərazisində Sacilər, Salarilər, Şirvanşahlar, Rəvvadilər, Şəddadilər, Mərkəzi Asiyada Samanilər, Qaraxanilər, Qəznəvilər və s. kimi dövlətlər türk xalqlarının tarix səhnəsində yenidən yüksək mövqe tutmasının göstəricisi olmuşdur.

Oğuzların Qınıq boyundan olan Səlcuqlar XI əsrdə pərakəndə türk dövlətlərini birləşdirərək böyük bir imperiya yaratmışlar. Səlcuq İmperiyası türk xalqlarının formalaşması prosesinə ciddi təsir göstərmişdir. Məhz Səlcuq İmperiyasının timsalında qüdrətli dövlət yaratmış türklər İslam dünyasına qarşı yönəlmiş Səlib yürüşlərinin qarşısını almışlar.

XIII əsrdə Böyük Səlcuq İmperatorluğunu Osmanlı İmperatorluğu əvəz etmişdir. Kiçik Asiyada meydana çıxan Osmanlı İmperiyası orta əsrlər Avropasının ən böyük dövlətlərindən olan Bizansla Anadolu uğrunda həlledici mübarizəyə başlamış, 1453-cü ildə Konstantinopolun fəthi ilə Bizansın varlığına son qoymuşdur. Osmanlı İmperiyası ilə yanaşı, Teymuri, Ağqoyunlu, Səfəvi və Böyük Moğol İmperatorluqları da türk xalqlarının dövlətçilik tarixində mühüm yer tutmuşlar.

XV əsrdə Azərbaycan ərazilərində qurulmuş Qaraqoyunlu, Ağqoyunlu dövlətləri, XVIII əsrdən başlayaraq XIX əsrin əvvəllərinə qədərki dövrdə mövcud olmuş Azərbaycan





xanlıqları Türk xalqlarının milli dövlətçilik tarixində öz izini qoymuşdur.

XIX əsrdə Azərbaycan ərazilərinin Rusiya və İran arasında bölünməsi ilə nəticələnmiş "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılması prosesi başlamışdır. Bu müqavilələr Azərbaycanda müstəqil dövlətçilik ənənələrinə ciddi zərbə vurmuş türk dünyası ilə əlaqələrinin məhdudlaşmasına səbəb olmuşdur.

XX əsrin əvvələrində türkçülük ideyaları yenidən siyasi səhnədə dirçəlməyə başlamışdır. Osmanlı İmperiyasında vüsət alan, daha sonra Azərbaycana və Mərkəzi Asiyaya yayılan türkçülük hərəkatı yenidən türklərin dünyanın siyasi səhnələrinə çıxmasına imkan yaratmışdır.

I dünya müharibəsi zamanı Osmanlı Türkiyəsi ciddi itkilərə məruz qalmışdır. Bu müharibə dövlətin əsaslarını sarsıtmışdır. Osmanlı Türkiyəsinin müharibədə düçar olduğu məğlubiyyət xalqın mənafelərinə zidd olan bəzi müqavilələrin imzalanmasına gətirib çıxarmışdır. Lakin böyük dövlət xadimi Mustafa Kamal Atatürkün rəhbərliyi altında başlamış azadlıq mücadiləsi türk xalqının öz istiqlaliyyətini qoruyub saxlamasını təmin etmişdir. Türk xalqının fədakar mübarizəsi 1923-cü ildə demokratik Türkiyə Cümhuriyyətinin qurulması ilə nəticələnmişdir.

Məhz belə bir mürəkkəb tarixi mərhələdə Azərbaycan xalqı da öz müqəddəratını müəyyən etmək hüququna əsaslanaraq, Xalq Cümhuriyyətini elan etdi. AXC-nin yaran-

ması Azərbaycanda milli dövlətçilik ideologiyasının konseptual əsaslarının formalaşmasında müstəsna rol oynamışdır. Türkçülük, müasirlik və islamçılıq Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ideologiyasının əsas prinsipləri kimi qəbul olunmuşdur.

1920-ci ildə Bolşevik Rusiyasının təcavüzü nəticəsində ADR-in süqutundan sonra Azərbaycan yeni bir siyasi mərhələyə qədəm qoymuşdur. SSRİ-nin təsis edilməsi və Azərbaycanın ittifaqın tərkibinə daxil edilməsi respublikada milli şüurun inkişafı, milli ənənələrin qorunub saxlanılması imkanlarını xeyli dərəcədə məhdudlaşdırmışdır.

Sovet Azərbaycanı SSRİ-nin inkişafına böyük töhfələr bəxş etsə də, onun ərazilərinin bir hissəsi heç bir hüquqi əsas olmadan Ermənistana verilmiş, 30-cu illərdə, daha sonra isə 1948-ci ildə yüz minlərlə azərbaycanlı öz doğma yurd-yuvasından didərgin salınmışdır. Moskvanın laqeyd münasibəti Azərbaycanın ittifaqın ən geridə qalmış respublikalarından birinə çevrilməsinə səbəb olmuşdu. Azərbaycanlılar özlərini daim təzyiq altında hiss edir, təqiblərə məruz qalır, ağır sosial durumda yaşayırdı.

1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi respublikanın həyatında mühüm dəyişikliklərə səbəb oldu. Heydər Əliyevin respublikanın siyasi rəhbəri seçilməsi ilə cəmiyyətin həyatının bütün sahələrində sürətli inkişaf və yüksəliş dövrü başlanmışdır. 1970-1982-ci illərdə Azərbaycanda 200-dən çox yeni müəssisə





tikilmiş, neftayırma və neft maşınqayırması müəssisələri tamamilə yenidən qurulmuşdur. İri elektron, elektrotexnika, radiotexnika və cihazqayırma sənayesi zavodları inşa edilmiş, həmin illərdə Azərbaycanda sənaye istehsalı 2 dəfədən çox artmışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərin ən böyük nailiyyətlərindən biri də yüksək ixtisaslı kadrların hazırlanması ilə əlaqədar görülmüş uzaqgörən tədbirlər idi. Məhz Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək azərbaycanlı gəncləri mükəmməl təhsil almaq üçün keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərinə göndərmişdir. Heydər Əliyevin gərgin əməyi, zəngin dövlətçilik təcrübəsi nəticəsində mili-mənəvi dəyərlərin qorunub saxlanmasına və ana dilinin inkişafına zəmin yaradılmışdır. Azərbaycan dili Konstitusiyada dövlət dili kimi təsbit olunmuş, yüzlərlə ziyalımız siyasi hakimiyyətin təqiblərindən məhz bu görkəmli dövlət xadiminin siyasi himayəsi sayəsində xilas olmuşdur. 1969-1982-ci illər Azərbaycan tarixinə böyük quruculuq və iqtisadi tərəqqi dövrü kimi daxil olmuşdur. İqtisadiyyat, mədəniyyət, elm və təhsil sahələrində inkişaf, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə ölkədə milli özünüdərk prosesinin təkamülünə böyük təkan vermişdir.

1991-ci ildə SSRİ-nin süqutu isə nəinki Azərbaycanın, eləcə də bütün türk dünyasının tarixində yeni bir mərhələnin başlamasına səbəb olmuşdur. Bu hadisədən sonra post-sovet məkanında yeni türkdilli ölkələr dünyanın siyasi səhnəsinə çıxmışdır. Bu, faktiki olaraq türk dünyasının siyasi

coğrafiyasının genişlənməsi demək idi. Yeni türk dövlətlərinin yaranması türk dünyasının birliyi ideyasının geniş şəkildə yayılması üçün stimul yaratmışdır. XX əsrin sonu - XXI əsrin əvvəllərindən başlayaraq dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər yaradan cahanşümul hadisə – Sovetlər Birliyinin dağılması, ikiqütblü dünyanın birqütblü dünya ilə əvəz edilməsi, soyuq müharibənin yerini sonra terror və qanlı müharibələrin alması, qloballaşma prosesinin sürətlənməsi, yeni respublikaların və dövlətlərin yaranması beynəlxalq münasibətlər sistemində modern nəzəriyyələrin və münasibətlərin yeni formullarını işləyib hazırlamağı labüd etdi. Məhz belə bir dövrdə türkdilli dövlətlərin birliyi ideyası gündəmə gəldi. Bu ideya qloballaşan dünyanın reallıqları və mürəkkəb şərtlərinin mümkün mənfi təsirlərindən sığortalanmaq, bu şərtlər altında türkdilli xalqların özünəməxsusluğunu qoruyub saxlamaq, milli-mənəvi dəyərlərinin mühafizəsini təmin etmək, milli maraqlarını müdafiə etmək məqsədinə xidmət edir.

Ötən dövr ərzində türkdilli xalqların birliyinə xidmət edən müxtəlif tədbirlər həyata keçirilmişdir. Türkdilli ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantılarının təşkili ənənəsinin əsası qoyulmuş, Türkdilli Ölkələrin Parlament Assambleyası yaradılmış, kütləvi informasiya vasitələri, elmi müəssisələr, ictimai qurumlar arasında sıx əməkdaşlıq əlaqələri qurulmuşdur. Türkdilli xalqların qarşılaşdığı problemlərin həlli, bu xalqların məruz qaldığı haqsızlıqlar barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ortaq mənafelərdən





doğan ümumi məqsəd kimi qəbul olunmağa başlanmışdır. Türkdilli xalqların diasporları arasında əməkdaşlığın inkişaf etdirilməsi də məhz bu məqsədə xidmət edir.

Oxucuların diqqətinə təqdim olunan bu kitabda türkdilli xalqların diasporları, onların məskunlaşma coğrafiyası, tarixi, təşkilati strukturu, müasir durumu ilə bağlı məlumatlar toplanmışdır. Nəşrdə türkdilli dövlətlərin xarici siyasətinin formalaşmasında, türkdilli xalqların problemlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor amilinin rolunu əks etdirən məqamlara da toxunulmuşdur. Kitabda Azərbaycan, türk, qazax, qırğız, özbək, türkmən, tatar, diasporları haqqında məlumat verilir, onların məskunlaşma coğrafiyası haqqında informasiyalar oxucuların diqqətinə çatdırılır. Kitabın nəşrində əsas məqsəd türkdilli xalqların diasporları haqqında məlumat verən mənbə yaratmaqdır. İnanırıq ki, kitab hər bir oxucu üçün maraqlı olacaq, türkdilli xalqların tarixini və diaspor mövzusunu araşdıran tədqiqatçılar, alimlər və mütəxəssislər, eləcə də xarici ölkələrdə yaşayan azərbaycanlılar üçün mənbə rolunu oynayacaqdır.

## AZƏRBAYCAN DİASPORU

Bu gün Azərbaycan diasporunun tarixinin nə zaman başladığı barədə müxtəlif fikirlər var. Biz müxtəlif mənbələrə istinadən diasporumuzun formalaşma tarixini bir neçə dövr üzrə tədqiq etməyə çalışmışıq.

**İslama qədərki dövr:** Azərbaycan diasporuna dair tədqiqatlarda İslam dininə qədərki dövr barədə məlumatlara rast gəlmək olmur. Bu tarixdə ehtimal olunur ki, azərbaycanlılar tək-tək və ya kiçik qruplarla Asiya və Avropa ölkələrinə mühacirət etmişlər və burada yerli əhali tərəfindən assimilyasiyaya uğraması onlar barəsində məlumat boşluğunun əsas səbəbidir.

Eramızın I əsrində Albaniya və Roma İmperiyası arasında dostluq və ticarət əlaqələri saxlanılırdı. Bu əlaqələr sayəsində alban tacirləri və sənətkarları Roma və onun nəzarətində olan ərazilərə sərbəst gedə bilirdilər.

Albaniya və digər dövlətlər beynəlxalq ticarətə qoşulmuşdular. Azərbaycanlı tacirlər Avropa və Asiya ölkələrinə tez-tez səfərlər edirdilər. Çox zaman isə bu ölkələrdə qalaraq geri qayıtmırdılar. Sasanilərin hakimiyyət illərində və İslama qədərki dövrdə azərbaycanlılar Roma, Çin, Hindistan, İran kimi ölkələrlə əlaqələr qurmuşdular. Bu əsrdə baş verən müharibələr zamanı əsir düşən azərbaycanlılar zorla doğma yurd-yuvalarından köçürülərək digər məmləkətlərə





aparılmışlar. Bu illərdə bir-birinin ardınca dünyanın müxtəlif bölgələrindən axışan türk tayfaları özlərilə yerlərin həyat tərzini, etnoqrafiyasını, fərqli mentalitetlərini, dünyagörüşlərini, toponimiyasını gətirirdilər. Onlar yeni coğrafi şəraitə nə qədər sürətlə uyğunlaşsalar da, özünəməxsusluqlarını da qoruyub saxlamağa çalışırdılar. Bu baxımdan, Azərbaycan diasporunun formalaşma və təşəkkül tarixini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**İslam dininin qəbulu ilə əlaqədar Azərbaycanda ərəbdilli elm və mədəniyyətin inkişafı və bununla bağlı olaraq yüzlərlə azərbaycanlı şair, alim, mütəfəkkir, sənət xadimlərinin islam dinli dövlətlərə və digər ərazilərə mühacirəti:** VII əsrin sonundan etibarən Azərbaycanda İslam dininin yayılması prosesi başlandı. Yerli atəşpərəstlərin çox hissəsi İslam dinini qəbul etməyərək Hindistan, Çin və digər ölkələrə mühacirət etməli oldular.

Bu dövr Azərbaycan ərazisində İslam dininin bərqərar olması, ərəbdilli elm və ədəbiyyatın yayılması ilə xarakterizə olunur. Azərbaycanın Məkkə, Bağdad, Mədinə və digər ərəb şəhərləri ilə ticarət, mədəni, elmi əlaqələrinin yaranması nəticəsində soydaşlarımızın bəziləri bu şəhərlərə köçməli olmuşlar.

Bağdad, Kufə, Bəsrə, Hələb, Dəməşq, Qahirə və başqa şəhərlərin mədəni və iqtisadi inkişafında mühüm rolu olan soydaşlarımız bütün sahələrdə özlərinə layiqli yer tutmağa çalışır, ümumi mədəni xəzinəyə öz töhfələrini verirdilər. Ərəb mənbələrində Azərbaycanın elm, ticarət və müxtəlif peşə sa-

hibləri barədə məlumatlara rast gəlmək olar. Bəsrədə yaradılan "Saflıq Qardaşları" cəmiyyəti barəsində bir mənbədə qeyd edilir ki, cəmiyyəti yaradanlardan biri azərbaycanlı idi. Bu cəmiyyətdə azərbaycanlıların sayı çox idi. "Saflıq Qardaşlarının və vəfa munislərinin traktatları" adlı geniş məzmunlu ensiklopediyanın 5 müəllifindən biri də azərbaycanlı Əbülhəsən Əli ibn Harun əz-Zəncani olmuşdur.

Azərbaycandan mühacirət edənlər ərəb ordusunda da xidmət göstərirdilər. Xüsusilə, Xəlifə əl-Mötəsim ibn Harun ər-Rəşidin zamanında azərbaycanlıların Bağdad və Bağdad ətrafı ərazilərdə yerləşdirilməsi başlandı. 735-ci ildə Bağdadda azərbaycanlılar məhəlləsi yarandı. Samirə şəhərinin salınması ilə İraqda azərbaycanlılar da daxil olmaqla, digər türkdilli xalqların ilk böyük koloniyası meydana gəldi.

Bu dövrdə azərbaycanlı elm və ədəbiyyat xadimləri ətraf regionlarda da tanınırdı. İbn Qüteybənin "Kitab əş-şer və şüara", Əbdülfərəc İsfahaninin "Kitab əl-acani" və 1875-1940-cı illərdə yaşayıb-yaratmış azərbaycanlı ədib Mirzə Məhəmmədəli Tərbiyyətin "Danişməndane-Azərbaycan" kitablarında xəlifəlik dövründə tanınmış azərbaycanlıların adları çəkilir. VII-VIII əsrlərdə böyük nüfuz sahibi olan azərbaycanlılardan beşinin adı xüsusi hörmətlə çəkilir: Musa Şəhavat, Əbül Abbas əl-Əma, İsmayıl ibn Yəsar, eləcə də, onun oğlu İbrahim və qardaşı Məhəmməd.

Musa ibn Şəhavat barəsində ərəb mənbələrində kifayət qədər məlumata rast gəlmək mümkündür. Orta əsrlər ümumi





ərəb poeziyasında nüfuz sahibi olan Musa ibn Şəhavatın şeirləri xilafətdə və sarayda sevilmişdir. Əbülfərəcin "Nəğmələr kitabı"nda Musa ibn Şəhavat barəsində deyilir: «Musa əslən Azərbaycandandır. O tez-tez Azərbaycana gedir, oradan qənd və digər şirniyyat alıb gətirirdi». Şirniyyata olan meylinə görə Şəhavat (Şirin) ləqəbi alan Musa xilafətdə vəzifəli şəxslərlə yaxşı münasibətlərə malik idi. 686-687-ci illərdə İraq valisi Həmzə ibn Abdullaha həsr etdiyi mədhiyyə, Mədinə qazisi Əbubəkr ibn Əbdürrəhman barəsində yazdığı həcv, hikmətli sözləri, şeirləri günümüzə qədər gəlib çıxan Musa ibn Şəhavat, eyni zamanda, ticarətlə məşğul olurdu.

İsmayıl ibn Yəsar, onun oğlu İbrahim və qardaşı Məhəmməd də azərbaycanlı idilər. Onlar Mədinə və Şam şəhərlərində yaşamışlar. Qazandığı nüfuz və tutduğu mövqe səbəbilə İsmayıl ibn Yəsar vətəni ilə əlaqəli məsələlərdə Azərbaycanın mövqeyini müdafiə edirdi. Bu səbəbdən ətrafında olan ərəb şairləri onu hədələyərək, vətənpərvər olduğu üçün onu sıxışdırdılar. Şüubiyyə hərəkatının fəal üzvü olan ibn Yəsar ərəb mənbələrinin yazdığına görə, «əcəmilərlə (azərbaycanlılar) fəxr etmək xəstəsi idi».

VII-VIII əsrlərdə Məkkədə yaşayan şair və alimlərdən biri də, bir sıra mərsiyə, mədh və həcvlər müəllifi Əbdül-Abbas əl-Ərma idi. Xilafətdə uş əl-Ərma sənətinə görə hamı tərəfindən sevilirdi.

Bu dövrün azərbaycanlıları barəsində geniş tədqiqat aparan Nazim Rizvan ərəblərə məxsus şəhərlərdə yaşayıb-yarat-

mış Əbu Bəkir Əhməd ibn Harun ibn Ruh əl-Bərdici, Əbusəid Əhməd Hüseynoğlu Bərdəi, Əbülhəsən Kəsxini, Hüseyn ibn Fərəc ibn Mühəmməd Abdullah ibn Səlmasi, Əbu ən-Məcid əl-Urməvi, Əbdül-Qasım Bərdai, Əbu Tahir ibn Səlmas, Yəhya Əli oğlu Xətib Təbrizi, Əbülhəsən Əli ibn Həsən Miyanəci, Əbuhəfis Ömər ibn Əli Zəncani, Əbu Ömər Osman Səfbəndi, Əbu-Fəde Məhəmməd ibn Ömər ibn Yusif ibn Məhəmməd əl-Urməvi və Azərbaycan mühacirətinin digər görkəmli nümayəndələri barədə ətraflı məlumat verir. Bunlar içərisində Əbülhəsən Bərdaşinin adını xüsusilə qeyd etmək olar. Ərəb Şərqində onlardan sonra XV əsrə qədər tanınmış azərbaycanlılardan Şəmsəddin Xoylu (1187-ci ildə anadan olub), onun oğlu Şihabəddin Xoylu (1229-1294), Siracəddin Urməvi (1198-1283), Əfzələddin Hunəidci (1193-1248), Səfiəddin Urməvi (1246-1316), Tacəddin Təbrizi (1277-1346), Şərəfəddin Marağî (1327-1388) və digərlərinin adlarını çəkmək olar.

**Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində azərbaycanlıların çalışması, ticari, mədəni əlaqələrin inkişafı Azərbaycan milli təfəkkürünün region xalqlarının intibahında rolu. Cəmiyyətlər və təriqətlər, dövlətlərarası münasibətlər, diplomatik əlaqələr dövrü:** X əsrdən başlayan bu dövr XIX əsrə qədər müxtəlif tarixi hadisələrin inkişafı ilə müşayiət olunur. Bu dövrdə Azərbaycan, Asiya və Avropanın bir sıra dövlətləri ilə hərtərəfli əlaqələri var idi. XII əsrdən başlayaraq, Azərbaycanda ictimai-siyasi həyatda müxtəlif təriqətlər və dini qruplar yaranmışdır ki, onların fəaliyyətində tək Azərbaycanda deyil, başqa şəhərlərdə yaşayan azərbaycanlılar da fəal iştirak edirdilər. Xüsusilə, «Əxi Qardaşları Birliyi»nin üzvləri sırasına xaricdə və daxildə yaşayan tanınan azərbaycanlılar daxil idi. Kiçik Asiya, İran, Cənubi Qafqaz, Türkiyə, Yaxın Şərqdə ardıcılları və filialları olan "Əxi Qardaşları Birliyi" azərbaycanlıların feodal zülmünə qarşı mübarizəsini dəstəkləyir, azərbaycanlı gənclərin elm və mədəniyyət mərkəzlərində çalışmasına yardımçı olurdu.





Sufi cəmiyyətləri barəsində də elmi ədəbiyyatda məlumatlara rast gəlinir. Belə cəmiyyətlərdə fəal olan azərbaycanlılar bir çox şəhərlərdə tanınmışlar.

Bu dövrdə Azərbaycan ərazisi Əmir Teymur və Qızıl Ordanın hücumlarına məruz qalmışdı. Bir çox şəhərlər yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi qətl edilmiş, sənətkarlar, elm və mədəniyyət xadimləri əsir götürülərək aparılmışdır. Əsir azərbaycanlılar sürgün edildikləri dövlətlərdə öz icmalarını yaratmışlar.

Azərbaycan memarları, ixtiraçıları, ədəbiyyatşünasları, tacirləri, elm xadimləri, musiqiçiləri və hərbçiləri yaşadıqları ölkələrin ictimai həyatında mühüm yer tutmuşlar. Bəhmənyar ibn Mərzban və Nəsrəddin Tusi kimi azərbaycanlı alimlərin adları bütün dünyada məşhur idi. Nəsrəddin Tusi və Bəhmənyarın əsərləri ilə, hətta Avropada da tanış idilər. Xristafor Kolumbun Amerikaya üzərkən əlində Nəsrəddin Tusinin çəkdiyi xəritə, onun ixtirası olan astronomik cihazların olması barədə məlumatlar mənbələrdə qeyd olunur.

Azərbaycan memarlıq məktəbinin nümayəndələri Orta Asiya və Yaxın Şərqin Səmərqənd, Ürgənc, Buxara, Hələb, Məşhəd, İsfahan, Bağdad kimi zəngin şəhərlərində əzəmətli abidələrin tikintisində də iştirak edirdilər.

Azərbaycanlıların yayılma coğrafiyası genişmiqyaslı olmuşdur. Azərbaycanlılar məskunlaşdıqları ölkələrin ictimai-mədəni həyatında fəal rol oynayır, yerli əhali ilə qaynayıb-qarışırdılar. Belə azərbaycanlılar barəsində Qərb mənbələrində də məlumat verilir.

Mənbələrdə, xüsusilə, azərbaycanlı memarların yaratdıqları möhtəşəm memarlıq nümunələrindən geniş söhbət açılır. Bu sahədə geniş tədqiqat aparan Cəfər Qiyasi "Yaxın-uzaq ellərdə" kitabında azərbaycanlı memarların adlarını çəkir və onların tikdiyi abidələrdən yazır. Qiyasinin tədqiqatlarına görə, Xəlifə Ömərin hakimiyyət illərində Kufə şəhərində məscidin inşası üçün azərbaycanlı memarlar dəvət edilmişdi. Səmərqənddə böyük tikintilərdə iştirak edən memarlardan Məhəmməd Yusif Təbrizi, Fəxxar Zeynəddin Şəms Təbrizi, Heratda Mahmud Məğşun Nəqqaş Təbrizi, Əli Memar, Yusif Qutqaşınlı, Hacı Əli Hafiz Təbrizi, Hindistanda rəssam Mir Seyid Əli Təbrizi və Ağa Mirək Qiyas, Bağdadda Əhməd əl-Xəqani Zəriqələm Təbrizi, Xocə Əlişah Təbrizi, Xəttat Mübərənşah Zəriqələm, Türkiyədə Əsir Əli, Həsən Firuz oğlu, Məhəmməd Mahmud oğlu Ərazi, Bədrəddin Təbrizi və digərlərinin adlarını çəkmək olar. Bütün adları sadalanan memarlar, rəssam və xəttatların əl işləri indi də bir çox şəhərlərdə qalmaqdadır.





Orta əsrlərdə Azərbaycanın diplomatik əlaqələri inkişaf edirdi. Əsasən Avropa ölkələrilə geniş əlaqələrə diqqət verilirdi. 1599-cu ildə I Şah Abbas İspaniyaya Hüseyn Əli bəyin başçılığı ilə Əliqulu bəy, Bünyad bəy və Oruc bəy Bayatdan ibarət nümayəndə heyətini konsulluq xidmətinə göndərmişdir. Diplomatik heyət missiyalarını bitirdikdən sonra geri qayıtmamış, İspaniya vətəndaşlığını qəbul etmişlər. Əliqulu bəy – Don Filip, Bünyad bəy – Don Dieqo, Oruc bəy isə sonradan onu məşhur edəcək Don Juan adını alaraq burada yaşamışlar. Oruc bəy Rusiya, Rumıniya, Çexiya, İtaliya, Fransa və Portuqaliyanı gəzmiş, Səfəvi dövlətinin tarixi haqqında əsər yazmışdır.

XIX əsrə qədər davam edən bu dövr Azərbaycan mədəniyyəti, incəsənəti, elmi, memarlığı, ədəbiyyatının inkişafı kimi tarixdə xüsusilə qeyd olunur. Bu dövrdə azərbaycanlıların köçürülməsi prosesi nəticəsində Səmərqənd, Hindistan, İraq, Orta Asiya, Türkiyə, İran kimi ərazilərdə çoxsaylı həmvətənimiz məskunlaşmışdır.

**Azərbaycanın Rusiya tərəfindən işğalı illərində azərbaycanlıların Rusiya, Türkiyə, Avropa və Asiya ölkələrində məskunlaşması:** 1918-ci ilə qədər davam edən bu dövr Azərbaycanın çar Rusiyası tərəfindən işğalı illərindən başlayır. Bu illərdə Azərbaycan diasporunun Rusiya, Türkiyə, Avropa və Asiya ölkələrində formalaşması prosesi getmişdir. Ru-

siya zadəganları və tacirlərinin mənafeyi keşiyində duran Çar Rusiyası yeni torpaqlar tutmaqla imperiyanın sərhədlərini genişləndirmək istəyirdi. Qafqazın işğalı strateji və iqtisadi önəm daşıyırdı. 1801-ci ildən başlanan genişmiqyaslı əməliyyatlar Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi və Qafqazın tam ələ keçməsi planının ilk mərhələsi idi.

Tədqiqatçılar Rusiya işğalı illərində Avropa və Asiya bölgələrində baş verən Azərbaycan mühacirətini üç dövrə bölür. Bu mühacirət prosesi Azərbaycan diasporunun formalaşmasına təkan verməklə yanaşı, diasporda ziyalı təbəqənin nüfuzunun artmasına səbəb oldu.

1) Birinci dövr 1813-cü il "Gülüstan" müqaviləsindən başlayır. Bu mühacirət zəif, pərakəndə olsa da, ruslara qarşı ölkə xaricində və daxilində müqavimət hərəkatının yaranması ilə əlamətdar oldu.

2) 1828-ci il "Türkmənçay" müqaviləsindən sonra mühacirətin ikinci mərhələsi başlayır. Bu müqavilənin imzalanmasından sonra yüzlərlə azərbaycanlı vətəni tərk edərək, xarici ölkələrdə məskunlaşmışdır. Artıq ikiyə parçalanmış Azərbaycan diasporunda şimali və cənubi azərbaycanlılar termininin yaranmasına səbəb olan "Türkmənçay" müqaviləsi diasporda psixoloji-mənəvi dəyişiklik yaratmağa, mühacir azərbaycanlıların dünyagörüşündə müəyyən fərqlərin meydana gəlməsinə səbəb oldu.





3) 1853-1856-cı illər Krım, 1877-1878-ci illər rus-türk müharibələri azərbaycanlıların digər ölkələrə mühacirət etməsinə səbəb oldu.

4) 1908-1918-ci illəri əhatə edən dördüncü mərhələni Azərbaycan diasporu nümayəndələrinin ictimai fəaliyyətə marağının artması kimi səciyyələndirmək olar. Türkiyə, İran, Rusiya və Avropa ölkələrində siyasi mübarizəyə başlayan azərbaycanlılar ictimai təşkilatlar yaradaraq, diasporumuzun birləşməsi, həmrəyliyi istiqamətində çalışırdılar. Əli bəy Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu kimi tanınmış azərbaycanlılar diasporda aktiv ictimai-siyasi fəaliyyətin başlanmasında mühüm rol oynamışlar.

Bu dövrdə Cənubi Azərbaycandan Avropa ölkələrinə köçən soydaşlarımız arasında elm, ədəbiyyat və incəsənət xadimləri yetişmiş və yaşadıqları ölkələrdə nüfuz sahibi olmuşlar. Bu kontekstdə xüsusilə "Danişməndani-Azərbaycan" adlı sanballı bir əsər nəşr etmiş Məhəmmədəli Tərbiyətin adını çəkmək olar.

Azərbaycan diasporunun bu dövrdə yaşamış görkəmli nümayəndələrindən Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Abuturab Vəzirov, Mirzə Məhəmməd Şəfi, Sadıq bəy Cəfərov, Mirzə Abdulla Vəzirov, Mirzə Həsən Tahirov, Məhəmməd Əliyev, Mirzə Cəfər Rzayev, Mirzə Abdulla Qafarov kimi şərqşünaslarla yanaşı, həkim İbrahim Mehmandarov, elm xadimi Nəcəfqulu oğlu Şahtaxtinski, hərbçi İbrahim bəy Aslanbəyov, ticarətçi Zeynalabdin Məşədi Əli

oğlu və digər şəxslər Rusiya, Gürcüstan, Polşa kimi ölkələrdə yaşamış və tanınmışlar. Bu dövrdə yaşamış varlı azərbaycanlıların bəziləri Fransa, Almaniya, Polşa, Finlandiya, Türkiyə, İsveçrə, İsveç kimi ölkələrdə malikanələr almış və sonradan bura köçərək daimi yaşamışlar. Avropa ölkələrinə təhsil almaq məqsədilə gələn azərbaycanlı gənclərin çoxu tarixi-siyasi hadisələr səbəbilə vətənə geri dönə bilməmiş və Avropada məskunlaşmışlar.

**Azərbaycan Demokratik Respublikasının (1918-1920) süqutundan sonra Avropa, Asiya və Amerikada Azərbaycan diasporunun fəaliyyəti:** Azərbaycan diasporunun fəaliyyətində ciddi dönüş cəmi 23 ay ömrü olan, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Respublikasının süqutundan sonra baş verdi. İlk dəfə olaraq genişmiqyaslı mühacirət prosesi nəticəsində minlərlə azərbaycanlı vətəni tərk edərək Asiya, Avropa və Amerika ölkələrinə səpələndi. Aprel işğalı Azərbaycan siyasi mühacirətini ictimai milli hadisəyə çevirdi. Sosial tərkibi genişlənən Azərbaycan diasporu Türkiyə, Şimali Azərbaycan və Cənubi Azərbaycandan gələn azərbaycanlılar hesabına güclənərək siyasi fəaliyyətə qoşuldu. Azərbaycan diasporunun tərkibi varlı sinfin nümayəndələri, siyasi baxışlarına görə ölkəni tərk edənlər, ziyalı təbəqə, iqtisadi səbəbdən başqa dövlətlərə köçən orta və aşağı sinfin nümayəndələrindən təşkil olunmuşdu.

Azərbaycan diasporunun bir hissəsi assimilyasiya olunaraq başqa xalqlar içərisində əriməyə meylli olsa da, 20-ci





illərin mühacirlərinin çox hissəsi Vətənə dönmək ümidini itirməmiş, fəal ictimai-siyasi mübarizəyə qoşulmuş, dərnəklər, cəmiyyətlər yaratmış, mətbuat təsis etmiş, Azərbaycanın hər iki hissəsində gedən prosesləri izləmiş, hətta bu proseslərə təsir göstərməyə çalışmışlar.

1908-1918-ci illər mühacirəti dövründə Azərbaycan diasporunun Qafqazdan və Rusiyadan olan digər türkdilli diasporlarla yaratmış olduğu əməkdaşlıq yeni gələn azərbaycanlılara yardımçı olmağa çalışmaqla, Qafqaz Konfederasiyası ideyasını, onun ideoloji-nəzəri əsaslarını təbliğ edirdi. Aprel işğalından sonra baş verən mühacirət prosesi 1917-ci ilin oktyabr inqilabından sonra başlanan «ağ mühacirətin» 1919-1921-ci illərdə milli respublikaların Qızıl ordu tərəfindən işğal olunması ilə yaranan, nisbətən kiçik, ikinci dalğası idi.

Azərbaycanın işğalı ilə barışmayan Azərbaycan diasporu bu illərdə müstəqil Azərbaycanın xaricdə olan rəsmi nümayəndəliklərinin diplomatik fəaliyyətinə də yardımçı olmuşdur. Azərbaycan diasporunun vasitəsilə bir çox beynəlxalq təşkilatlara çıxış yolu tapan Azərbaycan nümayəndə heyəti Sovetlər tərəfindən Azərbaycanın işğalına kəskin etirazını bildirmişdir. 1920-ci ilin iyulunda keçirilən Beynəlxalq San-Remo konfransında Əlimərdan bəy Topçubaşov işğal faktını pisləmiş, Azərbaycanın bolşeviklərdən təmizlənməsini tələb etmişdir. Həmin ilin noyabrında Cenevrədə Millətlər Cəmiyyətinin iclasında da iştirak edən Əlimərdan bəy diasporumuzun yardımı ilə başçılıq etdiyi heyətlə birgə 1922-

ci il London və Genuya, 1923-cü il Lozanna konfranslarına gedərək Azərbaycanın milli mənafeyinin müdafiəsində durmuşlar. Məhz belə fəallığın müsbət nəticəsi olaraq, Genuya konfransı bolşeviklərin Azərbaycan adından danışmağa səlahiyyətləri olmadığı haqqında qərar qəbul etmişdi.

Bu dövrdə Cənubi Azərbaycandan başlanan siyasi mühacirətdə diasporumuzun tərkibini genişləndirdi. Azərbaycanın işğal altında olmasına baxmayaraq, diasporla Vətən arasında sıx əlaqə var idi. Azərbaycanda baş verən hadisələri diqqətdə saxlayan Azərbaycan diasporu mətbuat vasitəsilə xaricdə yaşayan bütün azərbaycanlıları məlumatlandırırdı. Qafqaz və türkdilli diasporla əlaqədə olan Azərbaycan diasporu sovetlərin işğalı altında olan torpaqların azadlığı uğrunda mübarizəyə qoşulmuşdu. Azərbaycanlılar Fransa, Almaniya, Türkiyə, ABŞ, Skandinaviya ölkələrində milli kimliklərini qorumağa çalışırdılar.

Azərbaycan diasporu 1926-cı ildə Berlində təsis olunan Qeyri-Rus Millətlərin Siyasi Mübarizə Komitəsində də təmsil olunurdu. Lakin azərbaycanlılar da daxil olmaqla, xaricdə Rusiya tərəfindən işğal olunmuş ölkələrin mühacirlərinin hüquqları beynəlxalq dövlətlər tərəfindən tanınmırdı.

1922-ci ildə "Nansen pasportu" – şəxsi vərəqə layihəsinin Millətlər Cəmiyyəti tərəfindən qəbul olunmasından sonra qaçqın kimi qeydə alınan şəxslər Millətlər Cəmiyyətinin himayəsinə keçirdilər. Ancaq bu qayda milli mühacirlərə, xüsusən müsəlmanlara şamil olunmurdu. Buna baxmayaraq, bəzi azərbaycanlılar bu qanundan yararlanaraq Qərb dövlətlərinə mühacirət etdilər.





Azərbaycan Demokratik Respublikası az vaxtda tarixi əhəmiyyətə malik bir iş görə bildi. Tarixən Şərq dünyasında yeniliklərdə birinci olan Azərbaycan ilk dəfə olaraq Şərqdə dünyəvi demokratik respublika qura bildi. Azərbaycan Avropa ailəsinə daxil olmaqla, beynəlxalq münasibətlər sistemində 23 ay müstəqil dövlət kimi öz sözünü dedi.

Bu dövrdə "Bir kərə yüksələn bayraq bir daha enməz!" ideyası Azərbaycan diasporunun əsas şüarı idi. Ancaq diasporun bütün cəhdləri, fəaliyyəti nəticəsiz qalırdı. Artıq siyasi mövqeyini möhkəmləndirmiş Sovetlər İttifaqı ilə dünya dövlətləri hesablaşmalı olurdu. Bu səbəbdən də Azərbaycan diasporunun bir çox nümayəndələri fəaliyyətini donduraraq, Amerika qitəsinə mühacirət etməli oldu. Bir hissə mübarizədən kənara çəkildi. Lakin başda M.Ə.Rəsulzadə, Ə.Topçubaşov olmaqla, mühacir azərbaycanlıların bir qismi istiqlal mübarizəsini davam etdirirdi.

1930-1937-ci illərdə Azərbaycanda bolşeviklərin "xalq düşməni" axtarışlarının nəticəsi olaraq, ilk böyük mühacirət başlandı. İrana, Türkiyəyə qaçan bəylər, qaçaqlar, varlı kəndlilər sonradan Avropa və Amerika qitəsinə, Asiya ölkələrinə daimi yaşamağa köçürdülər. Rusiya, Orta Asiya ərazilərində kütləvi sürgün edilənlər hesabına bu ərazilərdə Azərbaycan diasporunun formalaşmasının təməli qoyuldu. Azərbaycanın tanınmış şəxsləri, Hüseyn Cavid, Böyükağa Talıblı,

Əhməd Cavad, Mikayıl Müşfiq, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Ruhulla Axundov və yüzlərlə ziyalının "xalq düşməni" adı altında sürgün edilməsi və qətlə yetirilməsi Azərbaycan diasporunda hiddət və kədər hissi ilə qarşılandı. Ceyhun bəy Hacıbəyli qardaşı Üzeyir Hacıbəyliyə yazdığı məktublarda hadisələrdən təəssüfləndiyini bildirirdi.

Bütün bunlara baxmayaraq, xaricdəki azərbaycanlılar milli müqavimət hərəkatını saxlamır, mübarizəni davam etdirirdilər. Azərbaycanlıların Avropa ölkələrində nəşr etdirdikləri mətbuat orqanlarında vətəndən xəbərlər diasporda diqqətlə izlənirdi.

1934-cü ildə təsis olunan Qafqaz Konfederasiya Şurasında təmsil olunan Azərbaycan diasporu Qafqaz siyasi mühacirətilə əməkdaşlıq edirdi. Azərbaycan diasporunun fəaliyyəti II dünya müharibəsi illərində də xeyli fəallaşdı.

**1939-1945-ci illərdə davam edən II dünya müharibəsində azərbaycanlıların iştirakı və Azərbaycan diasporunun fəaliyyəti:** 1939-cu ildə Adolf Hitlerin "ali irq və yeni ərazilərə" hakim olmaq üçün başladığı müharibədə Azərbaycan və azərbaycanlılar kənarda qalmadılar. Müharibədə azərbaycanlılar Sovet ordusu tərkibində xidmət edib və öz igidliyi, rəşadəti, cəsurluğu ilə tarixə adlarını qızıl hərflərlə yazdılar. Mehdi Hüseynzadə, Həzi Aslanov, Gəray Əsədov, İsrafil Məmmədov və yüzlərlə qəhrəmanımızın adı bu gün də sevinc və qürurla xatırlanır.





1941-ci ildə artıq faşistlər 2 milyondan çox sovet əsgərini əsir götürmüşdülər və onların içərisində azərbaycanlılar da çox idi.

İlk dəfə olaraq Nuru Paşa və general Arnilat türk-tatar əsirlərindən milli legionerlər yaradaraq müharibədə sovetlərə qarşı döyüşməsi fikrini Almaniya Xarici İşlər Nazirliyində bildirdilər. İlk zamanlar bu təklif bəzi səbəblərə görə qəbul olunmadı.

Hitler legionlar yaradılmasına 1941-ci ilin sonlarında razılıq vermişdi. Əvvəlcə əsirləri milliyyətlərinə görə ayıran komissiyalar təşkil edildi. 500-600 adamı birləşdirən 25-30-a yaxın komissiya bu işlə məşğul olurdu. 1941-ci ilin dekabrında Rozenberq rəsmən türk, gürcü və qafqazlı müsəlman legionların yaradılması əmrini vermişdi. Qafqazlı müsəlman legionu sonradan azərbaycanlı və şimali qafqazlı legion olmaq üzrə iki yerə ayrılmış, 1942-ci il baharın sonlarında Volqa tatarlarının legionu təşkil edilmişdir.

Bir faktı qeyd edək ki, Bakı və Batumi Hitler üçün istisna təşkil edirdi. Bu əraziləri heç kimə güzəştə getməyəcəklərini bildirən alman rəhbərliyi əsasən Bakını ələ keçirməyə çalışırdı. Almaniya Hərbi Hava Qüvvələrinin Baş Komandanlığı Batumi-Bakı neft kəməri, Ucar, Poylu və Yevlax üzərində gizli kəşfiyyat uçuşları keçirirdi. 1942-ci il oktyabrın 1-də Şportpamestdakı çıxışında Hitler düşmənin neft mənbələrinin ələ keçirilməsi və ya mənbələrlə əlaqənin

kəsilməsi tapşırığını vermişdi. Bununla əlaqədar Azərbaycan legionerlərinin yaradılması prosesi sürətlə aparılırdı və azərbaycanlılar imperiya təhlükəsizliyinin baş idarəsinə və digər kəşfiyyat orqanlarına cəlb olunur, onlara bu istiqamətdə aparılan hərbi əməliyyatlarda iştirak etmək tapşırığı verilirdi. Şərq Nazirliyinin tabeçiliyində komissiyaların yaradılması işinə Almaniyada və Avropada yaşayan azərbaycanlılar cəlb olunurdu. M.Ə.Rəsulzadə Azərbaycan komissiyasına rəhbərlik edirdi.

Almanlar Hitlerin göstərişi ilə əsirlərdən təşkil olunmuş legionlar yaradırdılar. Məhəmməd Əmin Rəsulzadə legionlar yaradılmasının əleyhinə deyildi. Çünki legionların yaradılması azərbaycanlıların bir yerdə cəmləşməsinə imkan verirdi. İkinci bir səbəb də yenə azərbaycanlıların vəziyyətinin yaxşılaşması ilə bağlı idi. Çünki legionlar yaradılana qədər azərbaycanlıları qruplara bölüb müxtəlif yerlərə göndərirdilər. Kim bilir orada hansı çətinliklərlə qarşılaşırdılar. Müharibə başlayandan-1941-ci il noyabrın 1-nə kimi almanlar tərəfindən iki milyondan çox keçmiş Qızıl ordu əsirləri toplanmışdı. Hətta Rozenberq bu rəqəmin 3.6 milyon olduğunu· söyləyirdi. Belə vəziyyətdə ayrıca legionun yaradılmasına ehtiyac vardı.

İlk azərbaycanlı əsirlər digər xalqlardan olanlarla birgə ober-leytenant Baron fon Qouberin başçılığı ilə 444 saylı təhlükəsizlik diviziyasına birləşdirildi. İlk legionların qərargahı əsasən Polşada yerləşirdi. Azərbaycan legionuna əvvəl-





cə qrup halında Abbas bəy, Atam Əlibəyov, Fətəlibəyli Düdənginski və Fuad Əmircan başçılıq edirdi. Yaradılmış hərbi legionda azərbaycanlıların sayı 70 minə yaxın idi. Azərbaycan legionunda “boz qurd”, “aslan” kimi batalyonlar vardı.

Bu diviziyaları sonradan cəbhə bölgələrinə göndərirdilər. Onu da qeyd edək ki, 804, 805, 806, 807 saylı Azərbaycan taburlarında tək əsirlər deyil, Azərbaycan diasporunun nümayəndələri də xidmət edirdilər.

Lakin Azərbaycan diasporu alman rəsmiləriIə Azərbaycanın sonrakı taleyilə əlaqəli məsələlərdə razılığa gələ bilmirdi. M.Ə.Rəsulzadənin rəhbəri olduğu "Azərbaycan komitəsi" Almaniya·Xarici İşlər Nazirliyilə görüşündə müharibədən sonra Azərbaycanın müstəqilliyini tanımasını istədi. Lakin almanlar konkret cavab vermədiklərindən, Berlini tərk edən Rəsulzadə ilə birgə Azərbaycan diasporunun bəzi hissəsi Almaniyanı dəstəkləməkdən imtina etdi.

Almaniyanın Ankara səfirliyi vasitəsilə Frans fon Papen Türkiyədəki Azərbaycan və digər türkdilli diasporlar ilə əlaqə qurdu. Onun təklifinə etirazdan sonra Türkiyəyə qayıdan Rəsulzadə yenə Azərbaycanın istiqlalına çalışırdı.

1943-cü il noyabrın 6-da Berlinin məşhur Kayzerhof mehmanxanasında böyük təntənə ilə Milli Azərbaycan Komitəsinin qurultayı keçirilir. Qurultayın çıxardığı qərarda 1918-ci il 28 maydan 1920-ci il 27 aprelə qədər davam etmiş Milli Azərbaycan hökuməti dövrü Azərbaycan xalqının şanlı tarixinin ən parlaq səhifəsi kimi qiymətləndirilirdi.

Qərarda, həmçinin, Azərbaycanın bolşevik istilasına uğradıqdan sonra keçən 23 illik müddət ərzində istiqlal mübarizəsinin davam etdiyi, istiqlala nail olmaq üçün Almaniya ilə əməkdaşlığın zəruriliyi vurğulanırdı.

Azərbaycan diasporunun fəaliyyəti II dünya müharibəsi illərində azərbaycanlı hərbi əsirlərin qətlə yetirilməsinin qarşısını almaqla yanaşı, Avropa azərbaycanlılarının Vətənin istiqlalı amalı ətrafında birləşdirilməsinə şərait yaratdı. Böyük uğurlardan biri də müharibədə məğlub olmasına baxmayaraq, 1945-ci ilin martın 17-də Azərbaycanın dövlət müstəqilliyinin Almaniya tərəfindən tanınması idi.

II dünya müharibəsində Antanta Birliyinin qələbəsi, Almaniyanın məğlubiyyəti azərbaycanlı legionerlərin pərakəndə və tam nizamsız halda parçalanmasına səbəb oldu. Sovet əks-kəşfiyyat idarəsinin qorxusu, Vətənə qayıtdıqdan sonra keçmiş hərbi əsirlərə qarşı amansız rəftar onların geri qayıtmamasının başlıca səbəbi idi. ABŞ-ın əsir düşərgələrində saxlanılan əsirlərin bir qismi Sovetlər Birliyinə təhvil verildi, qalanları Avstriya, Fransa, Türkiyə, İordaniya, İraq, Avstraliya, İsveçrə, İtaliya, İspaniya, Argentina, Çin, Cənubi Amerika və Birləşmiş Ştatlara pərakəndə halda mühacirət etməli oldular. Bu şəxslərin cüzi bir hissəsi istisna olmaqla, qalanları tamamilə qapalı bir həyat yaşamağa, gizlənməyə və passiv fəaliyyət göstərməyə məcbur olmuşlar.

**1946-1988-ci illərdə Azərbaycan diasporunun fəaliyyəti:** İlk zamanlar azərbaycanlılar Avropa ölkələrində ciddi





problemlərlə üz-üzə qalmalı olurdular. Onlara təzyiqlər edir, çalışdıqları, yaşadıqları yerlərdə sıxışdırılırdılar. Azərbaycanlıların hüquqlarını qoruyan ilk təşkilat 1951-ci il fevralın 8-də ABŞ-da yaradılan Amerika Komitəsi (sonradan Amerikada Rusiya xalqlarının Qurtuluş Komitəsi) oldu.

İkinci Dünya Müharibəsindən sonra 1951-ci ilin sentyabrın 16-da Münhendə keçirilən Şimali Qafqaziya Milli Qurultayında məhz 1934-cü ildə qəbul edilmiş Qafqaz Konfederasiyası sazişinə əsaslanaraq, belə bir qərar qəbul edilmişdi: *"Bütün Qafqaz xalqlarının müqəddərat və mənfəət birliyinə inanan Şimali Qafqaz Qurultayı, müştərək vətənimizin qurtuluşu və konfederasion əsasları üzərində müstəqil Qafqaz dövlətinin qurulması üçün Azərbaycan, Gürcüstan və Ermənistan təmsilçilərinin say göstərməsini Komitəyə tövsiyə edir".*

İkinci dünya müharibəsindən sonra mühacir təşkilatların birləşib antisovet mübarizə aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Digər tərəfdən, müxtəlif ölkələri təmsil edən ayrı-ayrı mühacir təşkilatlarının mövcudluğu bəzi hallarda daxili çəkişmələrin meydana çıxmasına səbəb olurdu. Bu dövrdə iki azərbaycanlı təşkilatı da mövcud idi. Bunlardan biri 1924-cü ildə fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzi idi. Azərbaycan Milli Mərkəzi İkinci Dünya Müharibəsindən sonra Ankarada yerləşirdi və onun rəhbəri M.Ə.Rəsulzadə idi.

Belə bir vaxtda antibolşevik cəbhənin yaradılmasını vacib sayan "Amerikan Komitəsi" fəaliyyətə başladı.

"Amerikan Komitəsi"nə əvvəl C.Layons, sonradan isə ABŞ-ın Moskvadakı keçmiş səfiri Alan Gerk başçılıq edirdi. "Amerikan Komitəsi" bildirirdi ki, millətlər, xalqlar Sovet hökumətinin diktatorluğu altında qaldıqca, insanların azad və hürriyyət içində yaşaması mümkün olmayacaq.

1951-ci il noyabrın 7-də Qərbi Almaniyanın Visbaden şəhərində beş mühacir rus və beş qeyri-rus millətini təmsil edən təşkilatların nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransa Ukrayna, gürcü, Azərbaycan, Şimali Qafqaz xalqlarının nüfuzlu nümayəndələri qatılmamışdı. Konfransda çıxış edən A.Kerenski "Bölünməz Rusiya" ideyasını müdafiə edir, qeyri-rus mühacirlər isə Birləşmiş Millətlər Təşkilatının insan haqlarına aid prinsiplərini önə çəkirdilər. Konfransın yekunu kimi bir bəyannamə imzalandı. Bəyannaməni azərbaycanlı təmsilçilər də imzaladılar. "Rusiyanın bölünməzliyi" ideyası ilə çıxış edən, Azərbaycanın istiqlalını Azərbaycan xalqının (eləcə də digər Rusiya istilasına məruz qalmış digər xalqların) öz "iç işi" kimi qəbul etməyən rus mühacirləri ilə bəyannaməni imzaladığına görə "Milli Birlik Məclisi" M.Ə.Rəsulzadənin şiddətli tənqidlərinə məruz qaldı. Bir çox şəhərlərdə yığıncaqlar keçirildi, təmsilçilərin hərəkəti pisləndi.

M.Ə.Rəsulzadə Kerenskinin hansı ideyalarla mübarizə apardığına bələd olduğundan onun başçılıq etdiyi rus təşkilatı ilə əməkdaşlığın əleyhinə idi. Kerenski "Bölünməz Rusiya"nın qəti tərəfdarı idi və hələ 20-30-cu illərdən bu mübarizəsini davam etdirirdi. 1930-cu ildə Kerenskinin "Gün" məcmuəsində (№60) "Rus xalqı üzərində diktatura" adlı məqaləsi çap edilmişdi. Və elə həmin il M.Ə.Rəsulzadə "Odlar yurdu" dərgisində Kerenskiyə "Nə ondandır, nə bundan" adlı cavab məqaləsini çap etdirdi. M.Ə.Rəsulzadə məqalə-məktubda Sovet İttifaqındakı türk respublikalarının istiqlal və azad dövlət qurmaq istəklərinə istehza ilə yanaşan Kerenskini tənqid etdi. O, Kerenskini xalqların apardığı milli-azadlıq hərəkatının mahiyyətini anlamağa çağıraraq yazırdı: *"Biz həmişəlik olaraq cənab Kerenskiyə bildiririk ki, heç bir "separatizm"dən, "Rusiyanın bölünməsi"ndən söhbət gedə bilməz. Bizcə, bu söz tamam başqa anlamda işlədilir: birincisi, öz ölkəsini xarici işğaldan qurtarmağa yönələn xalq hərəkatını "separatçı" adlandırmaq düzgün deyildir".*

1953-cü ilin martında isə ABŞ dövlətinin maliyyələşdirdiyi "Bolşevizmlə Mücadilə Koordinasiya Mərkəzi" tərəfindən istiqamətləndirilən "Qurtuluş", sonradan "Azadlıq" radiosu ilk verilişlərinə başladı. Azərbaycanlıların həmrəyliyinin güclənməsində «Azərbaycan şöbəsi»nin fəaliyyətə başlaması mühüm rol oynadı. Bu münasibətlə yayılan müraciətdə bildirilirdi: "Qulaq asın, qulaq asın! Bu gün yeni "Qurtuluş" radiostansiyası verilişlərinə başlayır. Stalinin polis terroru bizi öz evimizdə susmağa məcbur etsə də, xaricdə azad danışa bilərik. Azadlığa olan əbədi cəhdimiz xalqımızın qəlbində sönmədi. Bizim ilk tapşırığımız azadlığa çağırışdır. Kommunist rejiminə müqavimət hissi də xalqımızı tərk etməyib.

Biz azərbaycanlılar, eləcə də Sovet İttifaqının digər xalqları kommunizmi məhv edib, qəsb edilmiş azadlığımızı qaytarmağa tam qərarlıyıq. Bizim harada olmağımızdan asılı olmayaraq, istər Sovet İttifaqında, istərsə də xarici ölkələrdə olsun, yalnız bir istəyimiz vardır: Kreml hakimiyyətinin yıxılması. Biz, hamımız – gənclərimiz, yaşlılarımız Stalinin dəmir pərdəsi arxasında yaşayıb əzab çəkən sizlərlə bir istək və arzudayıq". Beləliklə, 1953-cü ilin martından "Qurtuluş" radiosunun Azərbaycan redaksiyası fəaliyyətə başladı. "Azərbaycan" redaksiyasının ilk baş redaktoru mayor Ə.Fətəlibəyli oldu. Sovetlər Birliyindən xəbərlər verən radio Azərbaycan musiqiləri, xəbərləri, ədəbi-mədəni proqramları ilə qısa zaman ərzində xaricdə yaşayan azərbaycanlıların əsas informasiya mənbələrindən birinə çevrildi.

Radioda Fətəlibəylinin «Azərbaycanı əsrlər boyu azərbaycanlılar idarə etmişlər və bundan sonra da idarə etməlidirlər. Ana torpağı rus imperiyasının boyunduruğundan azad etmək lazımdır» - sözləri təkrar-təkrar verilirdi.

"Azadlıq" radiosu fəaliyyətə başladığı ilk gündən Ə.Fətəlibəyli sovet siyasətinin əleyhinə verilişlər hazırlayırdı. Qeyd edək ki, mühacir və legionerlərin əllinci illərdəki bu fəallığı Sovet dövlətini ciddi narahat etməyə başladı. Belə ki, Sovet dövləti həmin dövrdə kommunist ideologiyasına qarşı mücadilə aparanları sıradan çıxarmağa dəfələrlə cəhdlər göstərdi. Bu əməliyyatların həyata keçirilməsində böyük təcrübəsi olan, geniş şəbəkəli "KQB" ("DTK") əsas





rol oynayırdı. Bu qurum 1917-ci ilin dekabrında yaradılmış və daha çox "daxili düşmən" axtarmağa meylli idi. Məhz həmin təşkilatın fəallığı ilə 1954-cü ilin noyabrın 20-də "Azadlıq" radiosunun "Azərbaycan" baş redaksiyasının baş redaktoru Ə.Fətəlibəyli-Düdənginski Münhenin "Alpenplate-6" meydanındakı bir mənzildə qətlə yetirildi. Qeyd edək ki, mayor Ə.Fətəlibəyli-Düdənginskinin qətli ilə bağlı Almaniyada nəşr edilən "Abendzeytunq", "Der Ştern" və "Kuik" qəzetlərində geniş məlumatlar verildi.

Sovet təhlükəsizlik orqanları tərəfindən Ə.Fətəlibəyli-Düdənginskinin qətlə yetirilməsi Azərbaycan diasporuna vurulan ağır mənəvi-psixoloji zərbə oldu. Bu qətldən sonra Azərbaycan diasporu zamanla siyasi fəaliyyəti passivləşdirərək mədəni-ədəbi tədbirlərə daha çox üstünlük verməyə başladı. Mətbuatda Azərbaycanın elm və mədəniyyətinin təbliğat işinə diqqət artdı. Xüsusilə, Türkiyə və Cənubi Azərbaycandan olan soydaşlarımızın mühacirəti hesabına Azərbaycan diasporunun Avropa və Amerikadakı tərkibi genişlənirdi.

Azərbaycanla əlaqələr müxtəlif vasitələrlə qurulurdu. «Azadlıq» radiosunun «Azərbaycan şöbəsi»-nin arxivlərində müharibədən sonra bura gələn onlarla məktub saxlanılır. Ancaq məktub sahiblərinin təhlükəsizliyi üçün müəlliflərin adı dəyişdirilmiş və ya silinmişdir.

1946-cı ildə isə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti təsis olundu. 1960-cı ildə «Vətən səsi» adlı qəzet nəşr edən cəmiyyət 1982-ci ildən bu

qəzeti ərəb, kiril və latın əlifbası ilə «Odlar yurdu» adı ilə çap etməyə başladı. «Odlar yurdu» xarici ölkələrdə yerləşən Azərbaycan cəmiyyətlərinə göndərilirdi. DTK-nın nəzarəti altında həyata keçirilən bu işlərin məqsədi siyasi təbliğat olmasına baxmayaraq, xaricdə yaşayan azərbaycanlıların doğma vətənlə əlaqəsinin qurulması üçün əvəzsiz vasitə idi. «Bakı» və «Baku» qəzetləri redaksiyasının nəzdində buraxılan «Odlar yurdu» xaricdə yaşayan bəzi azərbaycanlıların Vətənə dönməsində də mühüm rol oynadı.

Bu dövrdə Rusiya və keçmiş Sovetlər Birliyi dövlətlərində diasporumuzun təməlini qoyan mühacirət prosesi başlandı. Qazaxıstanda xam torpaqların istifadəyə verilməsi, Baykal-Amur magistralının çəkilişi, Volqaboyu, Tümen və digər ərazilərdə neft yataqlarının istismarı azərbaycanlıların miqrasiyasında mühüm rol oynadı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-ci illərdə Fransa, İtaliya, Danimarka, Portuqaliyada Azərbaycan Mədəniyyət Günləri keçirən Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti «Sovet Azərbaycanı bu gün» adlı bülleteni rus, ingilis, ərəb, fars dillərində nəşr edərək yayırdı. Bu cəmiyyət vasitəsilə Azərbaycanın Şərq ölkələri ilə də mədəni əlaqələri qurulurdu. 1973-cü ildə keçirilmiş Bağdad yarmarkasında Azərbaycanın Sovetlər Birliyini təmsil etməsi burada yaşayan minlərlə soydaşımızın həyatında yaddaqalan iz qoydu.





Bu illərdə Türkiyə, Almaniya, Fransa, Amerika və s. ölkələrdəki azərbaycanlılar mədəni və ədəbi irsimizi layiqincə təbliğ etməyə çalışırdı. Mətbuat orqanlarında tez-tez çıxışlar edirdilər. 1960-1970-ci illərdə Cənubi Azərbaycandan gənc intellektual nəslin təhsil və təkmilləşmə məqsədilə, Türkiyədəki azərbaycanlıların iqtisadi vəziyyətlə əlaqədar mühacirət prosesi Azərbaycan diasporunun fəaliyyətinə təsirini göstərirdi. 1979-cu il İran İslam İnqilabından sonra azərbaycanlıların kütləvi şəkil alan mühacirəti də bu prosesdə mühüm rol oynadı. Türkiyə, Almaniya, İsveç, Amerika kimi ölkələrdə məskunlaşan azərbaycanlı mühacirlər öz hüquqlarının bərpasına yardım göstərmək üçün beynəlxalq təşkilatlara müraciət edirdilər.

80-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan diasporu ilə əlaqələrini gücləndirən «Vətən» Cəmiyyəti, eyni zamanda, tanınmış azərbaycanşünaslarla intensiv əməkdaşlıq edirdi. Azərbaycanın tanınmış alimləri, mədəniyyət və incəsənət xadimləri, ədəbiyyatşünaslar və şairlərlə xaricdəki soydaşlarımızın görüşlərini təşkil edən «Vətən» Cəmiyyəti mühacir həmvətənlərimizlə Azərbaycanda yaşayan qohumları arasında əlaqə yaratmağa çalışırdı.

1986-1992-ci illərdə «Vətən» Cəmiyyəti müxtəlif xarici ölkələrdə 50-dək Azərbaycan mədəniyyət mərkəzi, dərnək, ocaq, əncümən və cəmiyyətlər yaratmışdır.

Adları çəkilən qurumlar fəaliyyəti müddətində ciddi olmasa da, müəyyən informasiya və mədəni xarakterli mə-

lumatlar toplamış, qarşılıqlı əlaqələrin yaranmasına kömək göstərmişdi. 80-ci illərin ortalarından başlayaraq dünyanın «qüdrətli dövləti» hesab olunan Sovetlər Birliyi dərin ictimai-siyasi böhrana düçar oldu. Birliyə daxil olan respublikalar, Azərbaycan daxil olmaqla, müstəqillik uğrunda mübarizəyə başladı.

1987-ci il noyabrın 2-də Parisdə erməni institutunda «akademik» Abel Aqanbekyanın «torpağın ermənilərə verilməsi» çıxışı Ermənistan tərəfindən Azərbaycana qarşı işğalçı siyasətin yeridilməsinə təkan verdi. Sovet rəhbərliyinin ermənipərəst mövqeyi Dağlıq Qarabağda qanlı müharibənin başlamasına, erməni diaspor və lobbisinin siyasi arenada Azərbaycana qarşı cəbhə açmasına səbəb oldu.

Bu proseslərin başlanması fonunda "20 Yanvar" hadisələrinin təşkilatçısı olan ermənilər və rusların törətdiyi qanlı olay Azərbaycan diasporunda nifrət və kədər hissi ilə qarşılandı. Vətənlə əlaqələrini gücləndirən dünya azərbaycanlıları ölkəmizə humanitar yardımlar göstərməyə başladılar.

1990-cı ilin iyununda Çexoslovakiyanın paytaxtı Praqada və ondan bir ay sonra Londonda «Cəmiyyət və Zaqafqaziya tarixi» beynəlxalq konfranslarında iştirak edən Azərbaycan nümayəndə heyətləri ilə görüşən Azərbaycan diasporunun nümayəndələri Azərbaycana öz köməklərini təklif etmiş və bu istiqamətdə konkret addımlar atmışdılar.

1987-ci ildən başlanan hadisələr xaricdə yaşayan azərbaycanlılarda böyük narahatlıq hissi doğurmuş, onların





fəaliyyətində canlanma yaratmışdır. Azərbaycanın haqq işinin dəstəklənməsi üçün fəallıqlarını artıran soydaşlarımız təsis etdikləri dərnək və cəmiyyətlərin fəaliyyət prinsiplərində dəyişikliklər etməli oldular.

1989-cu il dekabrın 31-də İstanbulda ilk dəfə keçirilən Ümumdünya Azərbaycanlıları Konqresi və 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsüylə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresi azərbaycanlıların həmrəyliyi istiqamətində atılmış ilk mühüm siyasi addımlar idi. Ancaq təbliğat işinin zəif olması səbəbilə bu iki mühüm tədbir kütləvi informasiya vasitələrində geniş işıqlandırılmadı. Buna baxmayaraq, tədbir iştirakçıları bir sıra beynəlxalq birliklərə müraciətlər qəbul etmişdi. Bu tədbirlərdə ilk dəfə olaraq 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik və milli birlik günü kimi qeyd edilməsi ideyası irəli sürülmüşdür.

Dünya azərbaycanlılarının həmrəylik tarixində digər mühüm bir hadisə İstanbuldakı «Azərbaycan Kültur və Dayanışma Dərnəyinin» sədri Nihat Çətinqayanın təşkilatçılığı ilə 1990-cı il noyabrın 3-dən 6-dək bu şəhərdə Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayının keçirilməsi idi. Böyük Britaniya, Fransa, İsveç, Norveç, İspaniya, Estoniya, Almaniya, Azərbaycan və digər ölkələrdən olan nümayəndələrinin iştirakı ilə Qurultay yüksək səviyyədə keçirildi. Qurultayın mühüm işlərindən biri respublikada baş verən hadisələri obyektiv və operativ surətdə dünyaya çatdırmaq, azərbaycanlılar arasında əlaqənin güclənməsi məqsədilə

«Dünya Azərbaycan-Türk Dərnəkləri Birliyi»nin nizamnaməsinin qəbul olunması oldu.

Qurultayın gəldiyi qərarlar içərisinə Bakıda «Həmvətənlərimiz» adlanan muzeyin yaradılması, informasiya işinin gücləndirilməsi, Azərbaycan təşkilatlarının bir mərkəz ətrafında birləşdirilməsi, konqresin işçi qrupunun yaradılması, azərbaycanlılar və təşkilatlar barədə sorğu kitabının hazırlanması, Qarabağ məsələsində lobbiçilik etmək, beynəlxalq təşkilatlara mütəmadi müraciətlərin edilməsi, Azərbaycandakı bacı və qardaşlara humanitar yardımın göstərilməsi və s. məsələlər daxil idi.

1991-ci ilin yanvarında Azərbaycan Respublikası Nazirlər Kabineti ayrı-ayrı respublikalarda formalaşan azərbaycanlı icmalar ilə əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, doğma dilin və ənənələrin inkişafında onlara kömək göstərmək haqqında qərar qəbul etmişdir. Bunun ardınca həmin il martın 28-dən 30-dək Bakı şəhərində Mədəniyyət Nazirliyinin xəttilə Azərbaycan Mədəni Cəmiyyətlərinin sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirildi.

Artıq bu dövrdə Avropa və Amerikanın bir sıra şəhərlərində azərbaycanlıların qurultayı, beynəlxalq konfranslar, mədəni və ədəbi tədbirlər keçirilmişdir.

1991-ci ildə Sovetlər Birliyi kimi nəhəng imperiya daxilindən və xaricdən edilən təsirlərin nəticəsində dağıldı. Müasir tarixin böyük və önəmli hadisələrindən biri olan imperiyanın dağılması beynəlxalq münasibətlər sistemində təsirsiz qalmamış, dövlətlərarası münasibətlərə yeni məzmun və forma gətirmişdir.





**Müstəqillik əldə edildikdən sonra Azərbaycan diasporunun fəaliyyəti:** 1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının elan edilməsi bütün dünya azərbaycanlılarının böyük sevincinə səbəb oldu. Müstəqilliyini bərpa etmiş Azərbaycan diasporla sistemli əlaqələr qurmaq istiqamətində mühüm addımlar atmağa başladı. Azərbaycan diasporuna dövlət və ictimai səviyyədə diqqət artdı. Xaricdə yaşayan soydaşlarımızın problemləri, hüquqlarının müdafiəsi, təşkilatlanması barədə kütləvi informasiya vasitələrində dərc olunan məqalələr, kitablar, televiziya verilişlərinin sayı çoxaldı. Azərbaycan diasporunun ali təhsil müəssisələrində və elmi mərkəzlərdə dərindən öyrənilməsi prosesi başlandı. Respublikada həyata keçirilən iqtisadi və dövlət quruculuğu işində ölkə daxilində yaşayan azərbaycanlılarla yanaşı, xaricdə yaşayan soydaşlarımızın da yaxından iştirakı üçün zəmin yarandı. 1991-ci il dekabrın 16-da Heydər Əliyevin təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə hər il 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi barədə qərar qəbul edildi. Naxçıvan Ali Məclisi bu qərarında analoji qərarın qəbulu ilə bağlı respublika parlamentinə çağırış etdi. Həmin il dekabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası da analoji qərar qəbul etdi.

Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlılar öz tarixi torpaqlarında bərqərar edilmiş müstəqil dövlətin maraqlarını müdafiə etməyə çalışır, onun inkişafına töhfə verməyə səy göstərirdilər. Bu, faktiki olaraq, dünya azərbaycanlılarının milli həmrəylik hərəkatı tarixində yeni bir səhifənin açılmaqda olduğunu göstərirdi.

1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra ümummilli lider Heydər Əliyev əksər xarici səfərlərində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı icmalar ilə görüşür, onları tarixi vətənin mənafeləri ətrafında sıx birləşməyə çağırırdı. İlk belə görüş 1994-cü ildə Türkiyədə yaşayan azərbaycanlılarla keçirilmişdir. Həmin il fevralın 10-da Türkiyəyə rəsmi səfəri zamanı bu ölkədə yaşayan azərbaycanlılarla görüşündə Heydər Əliyev dünya azərbaycanlıları arasında həmrəyliyin vacibliyini xüsusi olaraq vurğulamışdır: «Harada olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda, respublikadan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar».

Heydər Əliyev dünya azərbaycanlılarının ümumi məqsədlər ətrafında birləşməsini təmin etməyə çalışır, soydaşlarımız arasında əlaqələrin inkişafına dəstək verir, onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakını mühüm vəzifə kimi qiymətləndirirdi.





Ümummilli lider Heydər Əliyevin 1996-cı ilin iyulunda Almaniyaya səfəri zamanı soydaşlarımızla görüşdə söylədiyi nitqində müdrik tövsiyələrindən biri məhz fikir, əməl birliyinə aid idi: «Hamının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər. Mən Azərbaycanın Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən bir şəxs kimi deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birincidir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir!»

Heydər Əliyev soydaşlarımız arasında ideya və məqsəd birliyinin formalaşmasını əsas vəzifə kimi xarakterizə edirdi. Bu, kifayət qədər uzaqgörən və müdrik bir yanaşma idi. Çünki bu dövrdə dünya azərbaycanlıları arasında milli həmrəyliyin möhkəmləndirilməsinə nail olmaq baxımından birlik ideyasının əsasında duran amillərin dəqiq izah olunmasına ehtiyac var idi.

Müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı bir sıra sosial-iqtisadi, habelə hərbi və siyasi problemlər xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında birliyin yaranmasını zəruri edirdi. Bu birliyin yaranmasına ideoloji dəstək isə məhz Azərbaycan dövləti tərəfindən verilməli idi. 1994-cü ildə Böyük Britaniyaya rəsmi səfəri zamanı azərbaycanlılarla keçirilmiş görüşdə Heydər Əliyev soydaşlarımızın bir araya toplanmasını mühüm hadisə kimi qiymət-

ləndirmişdi: «Mənə elə gəlir ki, buraya toplaşanların indiki müstəqil Azərbaycan Respublikasından, yaxud başqa yerdən gəlməsini aydınlaşdırmağın elə bir mənası yoxdur. Əsas məna bundadır ki, nəhayət, azərbaycanlılar da bir yerə toplaşa bilərmiş, qərib ölkələrdə bir-birilə əlaqə saxlaya, bir-birinə dayaq ola bilərmiş və öz vətənləri – Azərbaycan torpağı haqqında düşünə bilərmişlər».

1995-ci ildə Belçikada yaşayan azərbaycanlılarla keçirilmiş görüşündə Heydər Əliyev Azərbaycan Respublikası üçün xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması, onların problemlərinin həllinin vacib olduğunu xüsusi olaraq vurğulamaqla, xaricdə yaşayan soydaşlarla işin dövlət üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd etdi. «Bilməlisiniz ki, biz – Azərbaycandakı soydaşlarınız, azərbaycanlılar da bütün dünyada yaşayan azərbaycanlılarla çox maraqlanırıq. İndi müstəqil bir dövlət olan Azərbaycan bütün dünyada yaşayan azərbaycanlıların qayğısına qalır, onların barəsində fikirləşir, düşünür».

1996-cı ildən etibarən Azərbaycan Respublikası Prezidentinin 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciət ənənəsinin əsası qoyulmuşdur. Həmin il dekabrın 28-də ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarına müraciət edərək onları bir daha azərbaycançılıq ideyaları uğrunda birliyə, tarixi vətənin maraqlarının müdafiəsi işində fəal iştirak etməyə çağırmışdır. Sənəddə





Heydər Əliyev soydaşlarımızı Azərbaycan dövlətinin maraqlarını inamla müdafiə etməyə çağırır, müstəqil respublikamızın tarixi maraqlarının qorunması işini bütün dünya azərbaycanlılarının borcu kimi səciyyələndirirdi.

1996-cı ildən isə xaricdəki diaspor təşkilatının pərakəndəliyinin ortadan götürülməsi istiqamətində uğurlu addım atıldı. 1997-ci il iyunun 27-dən 29-dək ABŞ-da keçirilən Dünya Azərbaycanlılarının Konqresinin təsis toplantısı mühüm tarixi əhəmiyyətə malik idi. Konqresdə Şimali və Cənubi Azərbaycanın problemləri birgə müzakirə olundu. 660-dən çox nümayəndənin iştirakı ilə keçirilən konqres siyasi fəaliyyətin mühüm qolu olan lobbiçilik mexanizminin işlənib hazırlanmasını məqsəd kimi qarşıya qoydu. Bu günə qədər DAK-ın qurultay tarixinə və qəbul edilən qərarlara qısa nəzər salaq:

**DAK-ın I Qurultayı:** ABŞ-ın Los-Anceles şəhərində 1997-ci il iyulun 27-29-da keçirilib. 600-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Azərbaycan lobbisinin yaradılması təxirəsalınmaz vəzifə kimi nəzərə alınsın;
- Azərbaycan diasporunun ABŞ siyasətinə təsir etmək gücünə malik iqtisadi bazası yaradılsın;
- İranda - Cənubi Azərbaycanda yaşayan soydaşların haqları qorunsun.

**DAK-ın II Qurultayı:** ABŞ-ın Vaşinqton şəhərində 1998-ci il mayın 30-31-də keçirilib. 250-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvinə çalışmaq;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin təcavüzə məruz qaldığını dünyada tanımaq;
- Cənubi Azərbaycanın milli muxtariyyəti.

**DAK-ın III Qurultayı:** Almaniyanın Köln şəhərində 1999-cu il oktyabrın 2-3-də keçirilib. 100-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin qeyd-şərtsiz azad edilməsi;
- Dünyadakı Azərbaycan diaspor təşkilatlarının birləşməsi;
- Cənubi Azərbaycanda azadlıq hərəkatına dəstək və s.

**DAK-ın IV Qurultayı:** Fransanın Strasburq şəhərində 2000-ci il oktyabrın 21-22-də keçirilib. 100-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- İşğal olunmuş ərazilər və Qarabağ məsələsi;
- Demokratiya və insan haqları;
- Cənubi Azərbaycanda azadlıq hərəkatının vəziyyəti və s.

**DAK-ın V Qurultayı:** İsveçin Malmö şəhərində 2001-ci il avqustun 10-12-də keçirilib. 250-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Lobbiçilik və DAK;





- Azərbaycan problemlərini dünyaya çatdırmaq;
- Türk dünyası və diasporu ilə əməkdaşlıq;
- Diasporların təşkilatlanması və s.

**DAK-ın VI Qurultayı:** Niderland Krallığının Haaqa şəhərində 2002-ci il oktyabrın 11-13-də keçirilib. 200-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Qarabağ forumu;
- Azərbaycan diasporunun güclənməsi və lobbiçilik;
- Cənubi Azərbaycanda vəziyyət və s.

**DAK-ın VII Qurultayı:** Almaniyanın Köln şəhərində 2004-cu il fevralın 22-29-da keçirilib. 300-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Turk dünyası ilə əlaqələr;
- Azərbaycan diasporunun problemləri;
- Dağlıq Qarabağ problemi;
- Cənubi Azərbaycanda soydaşlarımızın vəziyyəti və s.

**DAK-ın VIII Qurultayı:** İsveçin Stokholm şəhərində 2005-ci il mayın 20-22-də keçirilib. 200-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- Dağlıq Qarabağ problemi və uydurma erməni soyqırımı;
- Azərbaycan diasporunun təşkilatlanma məsələsi;
- Türk dünyası ilə hərtərəfli əməkdaşlıq və s.

**DAK-ın IX Qurultayı:** Almaniyanın Köln şəhərində 2007-ci il iyulun 7-8-də keçirilib. 250-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- DAK-ın beynəlxalq təşkilatlarda nüfuzunun artırılması;
- Qarabağ problemi;
- Türk-Azərbaycan diasporlarının birgə fəaliyyəti;
- Cənubi Azərbaycan məsələsi və s.

DAK-ın təsis olunması xaricdə yaşayan azərbaycanlıların diaspor quruculuğu prosesinə daha fəal şəkildə cəlb olunmasına şərait yaratdı. Soydaşlarımızın təşkilatlanması prosesi sürətləndi, dünyanın müxtəlif ölkələrində azərbaycanlı icmalar, cəmiyyətlər və birliklər formalaşmağa başladı.

2001-ci ilin mayın 23-də ümummilli lider Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 724 saylı Sərəncam imzaladı. Sərəncama uyğun olaraq, həmin il noyabrın 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. I Qurultayda 36





ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Tədbirdə Azərbaycan 130-dan çox dövlət və ictimai qurumdan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur.

Yüksək səviyyədə keçirilən bu mötəbər məclisə soydaşlarımız böyük həvəslə gəlmiş, tarixi Vətən qarşısında hesabatlarla çıxış etmişlər. Qurultay dünya azərbaycanlılarının birliyinin yaranmasında mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir.

Dünya Azərbaycanlılarının I Qurultayının qəbul etdiyi qətnamədə deyilirdi: «Azərbaycanlıların Müstəqil Azərbaycan dövləti ilə mədəni, ictimai, siyasi, iqtisadi və s. əlaqələri daha da gücləndirilsin və bu zaman nəzərə alınsın ki, Müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı, milli mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil respublikaya hər hansı formada – daxildən, yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir».

Heydər Əliyev qurultaydakı nitqində bildirmişdir: «Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!» Ümummilli lider Heydər Əliyevin bu fikirləri dünya azərbaycanlılarının təşkilatlanması prosesinin tarixi zərurət olduğunu göstərirdi.

Qeyd etmək lazımdır ki, qurultaya qədər bu sahədə, həqiqətən, ciddi problemlər mövcud idi. Dünya Azərbaycanlılarının I Qurultayının həmvətənlərimizə ünvanladığı müraciətdə də bu problem öz əksini tapmışdır: «Bu gün dünyanın hər yerində yaşayan azərbaycanlılar müxtəlif dövrlərdə mühacirət etmiş insanların övladlarını, nəsillərini və Azərbaycandan kənarda yaşayan digər soydaşlarımızı təmsil edir. Soydaşlarımızın əksəriyyəti özgə millətlər içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dinimizi qoruya bilmiş və övladlarına ötürmüşlər. Amma bir həqiqət qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi əhatə edən dövr ərzində dünya azərbaycanlıları yaşadıqları dövlətlərdə bir-birilə birlik nümayiş etdirə bilməmiş, mütəşəkkil qaydada təşkilatlanmamış, icmalar şəklində təmsil olunmuş, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə gətirib çıxarmışdır».

Beləliklə, ümummilli lider Heydər Əliyevin tövsiyələri,





xalqımızın mənəvi birliyi, azərbaycançılıq ideyaları dünya azərbaycanlılarının I qurultayında öz parlaq təcəssümünü tapmışdır. Xarici ölkələrdə yaşayan bir çox həmvətənlərimizin iştirak etdiyi bu qurultayda ümummilli lider Heydər Əliyevin proqram xarakterli çıxışı diasporumuzun formalaşmasında, bütövlükdə milli-tarixi proseslərin inkişafında keyfiyyətcə yeni mərhələ açmışdır.

Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə gətirib çıxaran addım olmuşdur. Şübhəsiz, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçmiş bu tarixi hadisə Azərbaycan diasporunun daha mütəşəkkil şəkildə və dinamik fəaliyyətinə təkan vermişdir. Vacib məqamlardan biri də bundan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi bu tədbirlərin hər biri xaricdə yaşayan soydaşlarımızın milli maraqlarımızın gerçəkləşdirilməsində yaxından iştirakına təminat yaratmışdır.

Məhz bu ali toplantıda xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə xüsusi dövlət orqanının təsis olunması, habelə xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hüquqi bazasının yaradılması ideyası gündəmə gəldi. «Mən qurultayın sonunda belə nəticəyə gəldim ki, həqiqətən, Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Güman edirəm ki, biz bu günlərdə belə bir orqanı yaradacağıq, əlaqələr daha da genişlənəcək, inkişaf edəcək, irəliyə doğru gedəcəkdir» - deyə qurultaydakı nitqində Heydər Əliyev vurğulamışdı. 9-10 noyabr 2001-ci

ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında erməni vəhşiliklərini əks etdirən foto-stend təşkil edilmiş, müvafiq materiallar toplusu dünyanın müxtəlif yerlərindən gələnlərə çoxaldılaraq yaymaq üçün verilmişdir.

I Qurultaydan keçən dövr ərzində dünya azərbaycanlılarının vahid ideya və məqsəd ətrafında birləşdirilməsi, mütəşəkkil və çevik diasporun, güclü lobbinin yaradılması üçün görülmüş tədbirlər azərbaycançılıq ideologiyasının uğurla həyata keçirildiyinin təsdiqi kimi yaddaşlara həkk olundu. Ümummilli lider Heydər Əliyevin başladığı bu çətin və şərəfli yolda əldə edilmiş nailiyyətlər Azərbaycan Respublikası və onun hüdudlarından kənarda yaşayan azərbaycanlılar arasında sosial-mədəni, ictimai-siyasi, mənəvi əlaqələrin qurulmasında, möhkəmləndirilməsində, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımızın təşkilatlanaraq, vahid güc mərkəzi kimi özünü tanıtmasında mühüm rol oynamışdır.

Diaspor quruculuğunun mühüm sahələrindən biri də xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsidir. Bu siyasət uzun illər boyu Heydər Əliyevin bilavasitə məqsədyönlü fəaliyyəti sayəsində reallaşdırılmışdır. 2002-ci il dekabrın 27-də qəbul edilmiş və ümummilli lider Heydər Əliyevin 21 fevral 2003-cü il tarixli Fərmanı ilə qüvvəyə minmiş «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu XXI əsrdə xaricdə yaşayan soydaşlarımız və həmvətənlərimiz qarşısında çox geniş perspektivlər açır və onların ölkəmizin milli mənafeləri ətrafında daha sıx birləşdirilməsini nəzərdə tutur. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirir.





«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun qəbulu bir daha təsdiq etdi ki, dünya azərbaycanlılarının milli birliyinin və tərəqqisinin təminatçısı Azərbaycan Respublikasıdır. Qanunda bu siyasətin həyata keçirilməsilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsasları müəyyənləşdirilmişdir. Sənəddə Azərbaycan diasporu ilə bağlı təsbit olunmuş maddələrin həyata keçirilməsi, səmərəliliyinin artırılması, diasporumuzun təşkilatlanması, dünya azərbaycanlılarının birliyinin yaranmasına, dövlətimizin bu sahədə apardığı ardıcıl siyasətin təbliğinə nail olmaq məqsədilə Dövlət Komitəsinin də qarşısında konkret vəzifələr qoyulmuşdur. Şübhəsiz ki, ümummilli lider Heydər Əliyev bu tarixi qərarlara imza atmaqla Azərbaycan diasporunun daha mütəşəkkil şəkildə və dinamik fəaliyyətinə əsas yaratmış oldu. Vacib məqamlardan biri də budur ki, Azərbaycan dövlətinin həyata keçirdiyi bu tədbirlərin hər biri xaricdə yaşayan soydaşlarımızın milli maraqlarımızın gerçəkləşdirilməsində yaxından iştirakına təminat yaratmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılmış Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi – dünya azərbaycanlılarının təşkilatlanması üçün diaspor quruculuğu sahəsində gördüyü işlər həmvətənlərimizin mənəvi-ideoloji birliyinin yaradılmasına ciddi təkan vermişdir. Komitə müxtəlif ölkədə fəaliyyət göstərən Azərbaycan icmaları və cəmiyyətləri ilə mütəmadi görüşlər keçirir, diaspor nümayəndələri ilə söhbətlər aparır və onları müstəqil dövlətimizin inkişafı naminə dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların qüvvəsinin səfərbər edilməsinin vacibliyinə inandırmağa çalışır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı ilin 8 fevral tarixli Fərmanı ilə həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirilmişdir.

Dünya azərbaycanlılarının II qurultayına dünyanın müxtəlif ölkələrindən ümumilikdə 1231 nümayəndə seçilmişdir. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdir.

Qurultayda Azərbaycan Respublikası 27 dövlət və hökumət qurumundan, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə və 625 qonaq ilə təmsil olunmuşdur.

Qurultay nümayəndələri və qonaqlar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif





sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər, bir sözlə, Azərbaycanı sevən, onun inkişafını və tərəqqisini arzulayan insanlar idi. Qurultayda xarici ölkələrin - Türkiyə, Latviya, Estoniya, Litva, Ukrayna, Moldova, Belçika, Avstriya, İsveçrə, Kanada ali qanunvericilik orqanlarının üzvlərindən ibarət 64 nəfər qonaq qismində iştirak etmişdir.

Dünya Azərbaycanlılarının II Qurultayının Qətnaməsi, Dünya azərbaycanlılarının II qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti, Dünya Azərbaycanlılarının II Qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatına (YUNESKO) müraciəti, Azərbaycan və türk diaspor təşkilatlarına müraciəti qəbul olunmuşdur.

Qurultay 109 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının və 23 nəfərdən ibarət İdarə Heyətinin yeni tərkibini təsdiqləmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yekdilliklə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dünya Azərbaycanlılarının həmrəyliyi sahəsindəki xidmətlərinə görə bir qrup diaspor fəalı «Şöhrət» Ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Xaricdəki azərbaycanlılar parçalanmış, iki hissəyə bölünmüş bir xalqın təmsilçisi olmaqla, onlar arasında hüquqi-siyasi status, vətəndaşlıq mənsubiyyəti, fərqli sosial-siyasi anlayış və baxışlar fərqi var.

Son iki yüz ildə Azərbaycan diasporunun yaranmasında 3 müxtəlif ölkənin vətəndaşı olan azərbaycanlılar – Azərbaycan Respublikası, İran İslam Respublikası və Türkiyə Respublikasından köçmüş soydaşlarımız iştirak ediblər. Buna görə, etnomədəni və sosial-siyasi hüquqi dəyərlər baxımından 3 müxtəlif cəmiyyəti təmsil edirlər. Azərbaycan, İran və Türkiyə dövlətləri ilə vətəndaşlıq mənsubiyyəti, fərqli sosial-siyasi mühitlərin təsiri Azərbaycan diasporunun nümayəndələri arasında fərqli mövqe və ümumi problemlərə müxtəlif yanaşma meyllərinin formalaşmasını şərtləndirir.

Onu da qeyd edək ki, bəzən Gürcüstan, Dağıstan və Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar Azərbaycan diasporunun tərkib hissəsi kimi verilir. Bu fikirlər və yanaşmalar kifayət qədər yanlışdır. Bu ərazilərdə yaşayan azərbaycanlılar öz dədə-baba, etnik torpaqlarında yaşamaqla diaspor hesab edilə bilməz.

**Azərbaycan Respublikasından miqrasiya etmiş azərbaycanlılar.** Buraya XX əsrin əvvəllərindən ölkəni tərk edən





azərbaycanlıların nəvə-nəticələri, II dünya müharibəsi dövründə xarici ölkələrdə məskunlaşmış və 1990-cı ildən sonra ölkədən mühacirət edən şəxslər daxildir.

XX əsrin əvvəllərindən ölkəni tərk edən azərbaycanlıların indiki nəslinin nümayəndələri diaspor işinə ata-babalarının işinin davam etdirmək borcu kimi yanaşır. Onlar ABŞ, Fransa, Böyük Britaniya və s. ölkələrdə doğulduqlarından fərqli sosial-mədəni mühitdə formalaşmışlar.

İkinci qrup (II dünya müharibəsi dövründə xarici ölkələrdə məskunlaşmış) olan soydaşlarımızın çoxu özlərindən sonra yeni bir azərbaycanlı nəslini formalaşdıra bilməmişlər. Onlar uzun illər sovet əks kəşfiyyatının qorxusundan tamam qapalı və gizli həyat yaşadıqlarından ictimai fəallığa meyl göstərməmişlər. Nəticədə bəzi azərbaycanlıların övladları türk, alman və başqa xalqların təsiri altında böyümüş, assimilyasiya olunmuşlar. İkinci qrupun nümayəndələri olan soydaşlarımızın müəyyən hissəsi intellektual və maddi cəhətdən yaşadıqları ölkələrdə güclü mövqeyə və nüfuza malikdirlər. Lakin bu insanlar artıq məskunlaşdıqları ölkənin vətəndaşlarıdır və demək olar ki, Azərbaycana onların hüquqi bağlılığı yoxdur. Bu baxımdan, onlarla əlaqələrin yaradılması və mənəvi-psixoloji bağlılığın gücləndirilməsi istiqamətində iş aparmağa ehtiyac var.

Üçüncü qrupun (1990-cı ildən sonra ölkədən mühacirət edən şəxslər) nümayəndələri müxtəlif səbəblərdən Azərbaycanı tərk edən şəxslərdir. Bunların içərisində xaricdə

təhsil alan və yaşayan azərbaycanlı gənclər diasporun ən fəal qanadını təşkil edir. Xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin diaspor quruculuğuna cəlb olunması bu sahənin prioritetlərindən biridir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin verdiyi məlumata görə, son illərdə xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı xeyli artmışdır. Hazırda dünyanın aparıcı universitetlərində Azərbaycanın orta məktəblərini bitirmiş 3000-dən artıq gənc təhsil alır.

Müstəqilliyimizin ilk illərində gənclərimiz təhsil almaq üçün yalnız Türkiyə Respublikasına göndərilirdisə, 1993-cü ildən sonra ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə bu coğrafiya daha da genişlənmişdir. Hazırda Türkiyə Respublikasında 694, Rusiya Federasiyasında 183, Ukraynada 22, Misir Ərəb Respublikasında 48, Çin Xalq Respublikasında 16, Çexiya Respublikasında 6, Slovakiya Respublikasında 2, Rumıniyada 4, Avstriyada 1, Fransada 1 azərbaycanlı tələbə təhsil alır.

2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 35 nəfər Azərbaycan gənci dövlət hesabına müxtəlif ölkələrin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, bu gün xarici ölkələrdə fəaliyyət göstərən bir sıra nüfuzlu Azərbaycan icmalarının - Ümumrusiya Azərbaycan Konqresinin, Ukrayna Azərbaycanlıları Konqresinin, Belarus Azərbaycan İcmaları Kon-





qresinin, «Eston – Azərbaycan» Mədəniyyət Mərkəzinin, «Litva Azərbaycanlıları» və Latviya Azərbaycanlılarının «Azəri» cəmiyyətlərinin və bir çox başqa icma və birliklərin rəhbərləri məhz vaxtilə ümummilli lider Heydər Əliyevin dəstəyi və təşəbbüsü ilə xarici ölkələrdə təhsil almış azərbaycanlılardır. Məlum olduğu kimi, 70-ci illərdə SSRİ məkanının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələrini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc təhsil almış və yüksək ixtisaslara yiyələnmişdir.

Azərbaycan Prezidenti xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclərin problem və qayğılarının həllini həmişə diqqət mərkəzində saxlayır, onların aradan qaldırılması məqsədilə Azərbaycanın müvafiq dövlət və hökumət orqanlarına lazımi göstərişlərini, tövsiyələrini verir. Xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərdə də Prezident İlham Əliyev azərbaycanlı gənclərlə daim maraqlanır.

Xaricdə təhsil alan tələbələrlə iş bu gənclərin milli-mənəvi dəyərlərimizə sədaqətinin qorunub saxlanılmasına, onların tarixi Vətənlə əlaqələrinin itirilməməsinə, ölkəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsinə istiqamətlənmişdir. Diaspor quruculuğunda və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaradır. Bu mühüm amili nəzərə almaq və onun real həyatda öz təsdiqini

tapmasına stimul yaratmaq Diasporla İş üzrə Dövlət Komitəsinin strateji məqsədlərindən biridir.

Xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclər də dövlətin yaxın dəstəyi, yardımı sayəsində təhsil aldıqları ölkələrdə müxtəlif dərnəklər və ictimai birliklər yaradır, vətənimizin problemləri barəsində dünya ictimaiyyətində obyektiv təsəvvürlərin formalaşdırılması prosesində fəal iştirak edirlər. Buna Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (AMOR), İstanbulda fəaliyyət göstərən «Xəzər» klubunu, Ankarada «Araz» tələbələr birliyini, İzmirdə Azərbaycanlı Tələbələr Birliyini, Almaniyanın Essen şəhərində Azərbaycanlı Akademiklər Birliyini, Sankt-Peterburqda Azərbaycanlı Gənclər İttifaqını, Vyanada Azərbaycanlıların Akademik Birliyini, Çexiyada «Azəri-Çex» Cəmiyyətini, Buxarestdə Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyasını, Moskvada Azərbaycanlı Tələbə Gənclər Assosiasiyasını və Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətinin Gənclər Təşkilatını, 2005-ci ildə yaradılmış Çexiya-Azərbaycan Gənclər Cəmiyyətini nümunə göstərmək olar. Bunlardan başqa, ABŞ-ın Sent-Luis şəhərində Missurinin Azərbaycan Cəmiyyəti, Polşada Azərbaycan İnformasiya Mədəniyyət Mərkəzi, İtaliyanın Padova «Dostluq» Azərbaycan Assosiasiyası, Tokio Universitetində Azərbaycan-Yaponiya Dostluq Cəmiyyəti, Parisdə Azərbaycanlı Tələbələr Assosiasiyası kimi təşkilatlar uğurla fəaliyyət göstərir.





2005-ci ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)»nda xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, onların hüquqlarının müdafiəsi məsələlərinə də xüsusi yer ayrılmışdır. Proqramda Bakı şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin keçirilməsi, xarici ölkələrdə «Azərbaycan haqqında nə bilirsiniz?» mövzusunda müsabiqənin təşkili kimi müddəaların öz əksini tapması bu siyasətin təzahürüdür.

Azərbaycan Respublikasından keçmiş soydaşlarımızın 3-cü qrupunun bir hissəsini də sosial-iqtisadi səbəblərlə Azərbaycanı tərk edən şəxslər təşkil edir. Bu qrupu çox zaman məhəlli mühacirət adlandırırlar – yəni, bir neçə ölkədən keçməklə mühacirət edirlər və bu səbəbdən də onlar barəsində statistik araşdırma aparmaq çox çətindir. Lakin onların böyük bir hissəsinin Rusiya Federasiyası, Ukrayna, Belarus, Qazaxıstan və digər MDB ölkələrində məskunlaşdığını söyləmək mümkündür. Təqdirəlayiq haldır ki, bu qrupa daxil olan azərbaycanlı miqrantlar diaspor işində də fəal iştirak edirlər.

**Cənubi azərbaycanlılar:** Azərbaycan diasporunun ən böyük qanadını təşkil edən cənublu soydaşlarımız XX əsrdə 5 əsas dalğa ilə xarici ölkələrə mühacirət ediblər. Cənubi Azərbaycanlılar termini 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrindən sonra yaranıb. Bu tarixlərə qədər yalnız bir – Bütöv Azərbaycan var idi ki, onun

sərhədləri geniş idi və burada yaşayan millətlərin bir dili - Azərbaycan dili və bir vətəni - Azərbaycan var idi.

Lakin "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ikiyə parçalanan Azərbaycanın Rusiya tabeçiliyində olan hissəsi Şimali, İran əsarəti altında olan hissəsi isə Cənubi Azərbaycan adlandırılmağa başlandı.

XX əsrin əvvəllərinə qədər Cənubi Azərbaycanda Qərb və Şərq ölkələrinə mühacirət prosesləri baş verib. Lakin Cənubi Azərbaycan mühacirət tarixi bizdə lazımi səviyyədə tədqiq edilməyib. Tədqiqatçılar XX əsrdən etibarən Cənubi Azərbaycandan başlanan mühacirət prosesini siyasi və iqtisadi səbəblərlə bağlayırlar. Bu prosesi tarixi dövrlərə görə aşağıdakı qruplara bölmək olar:

1. 1920-ci illər - Bu mühacirət əsasən siyasi səbəblərlə baş verib.

2. 1930-40-cı illər - Sosial (təhsil və elmi məqsədli), iqtisadi (iş qurmaq, səylərini artırmaq) - səbəbli mühacirət prosesi.

3. 1950-ci illər - İranda hərbi diktatura rejiminə etiraz edən azərbaycanlıların siyasi mühacirəti.

4. 1960-cı illər - İranda yaşayan soydaşlarımızın inkişaf etmiş dövlətlərə təhsil və təkmilləşdirmə məqsədli mühacirəti.

5. 1978-1979-cu illər - İran İslam İnqilabından sonra azərbaycanlıların xarici ölkələrə mühacirəti.

Azərbaycan diasporunun mühüm qanadını təşkil edən cənublular əsasən, ziyalılar və biznesmenlərdən ibarətdir. Mühəndis, inşaatçı, həkim, texnoloq, nəqliyyatçı və s. peşə-





lərdə çalışan soydaşlarımızın bir çoxu peşəkar mütəxəssis hesab olunurlar. Akademik təhsilə maraq böyük olduğundan, hazırda diasporumuzda ziyalılar təbəqəsi çoxluq təşkil edir. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən soydaşlarımız Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elm dairələrində tanınırlar.

Azərbaycanlıların böyük bir hissəsi də ticarət sahəsində çalışır və kifayət qədər güclü mövqeyə, iri kapital mənbələrinə malikdirlər. Geniş investisiya imkanları olan cənubluların sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatında fəal rol oynayır. Soydaşlarımız məskunlaşdıqları ölkələrin siyasi və iqtisadi elitasında da nüfuz sahibidirlər. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular böyük imkanlara malikdirlər.

**Türkiyə azərbaycanlıları:** Azərbaycan diasporunun üçüncü qanadını türkiyəli azərbaycanlılar təşkil edir. Əsasən İğdır vilayətində məskunlaşan soydaşlarımız digər Türkiyə şəhərlərində və bölgələrində də yaşayırlar. Ancaq İğdır azərbaycanlıların yaşadıqları ən sıx bölgədir. Buna görə də, İğdırdan olan azərbaycanlılar diasporumuzun türkiyəli azərbaycanlılar qanadının əsas nümayəndələridir.

Türkiyəli azərbaycanlılar Avropa ölkələrində çoxluq təşkil edir. Hazırda Almaniya, Belçika, Danimarka, Niderland Krallığı, İsveç, Finlandiya, Norveç, Böyük Britani-

yada Türkiyə azərbaycanlıları çox sayda məskunlaşıblar. Onların bu ölkələrə köçməsi 1950-ci illərdən – Türkiyədən Avropaya kütləvi mühacirətindən başlayır.

Türkiyə azərbaycanlılarının Avropa ölkələrinə mühacirəti razılaşdırılmış, normallaşdırılmış, məqsədli və kvotalı mühacirət idi. Türkiyənin Avropa və digər ölkələr ilə imzaladığı əmək müqavilələrindən irəli gələn şərtlər əsasında azərbaycanlılar bu ölkələrə işləmək üçün miqrasiya etmişlər.

Köçdükləri ölkələrdə maddi və sosial vəziyyətlərini normallaşdıran soydaşlarımız sonradan ailələrini, qohum-əqrəbalarını öz yanlarına gətirirdilər. Ailələrin birləşdirilməsi adlanan bu proses azərbaycanlıların yaşadıqları ölkələrdəki demoqrafik strukturun kəmiyyət və keyfiyyət baxımından dəyişilməsinə və zənginləşməsinə gətirib çıxardı.

Türkiyə azərbaycanlılarının Avropa ölkələrinə mühacirəti diasporumuzun sosial tərkibinin gəncləşməsinə və keyfiyyət göstəricilərinin dəyişməsinə xeyli kömək etdi. Türkiyəli gənclər menecment, kompüter mütəxəssisi, texniki xidmət sahələri, turizm kimi ali ixtisas istiqamətləri seçərək müstəqil sahibkara çevrilirdilər. Eyni zamanda, azərbaycanlı gənclərin bir-birilərilə ailə qurmaları sayəsində Avropada yeni azərbaycanlı ailələri yaranmışdır.

Vətənə nostalji hisslərlə bağlı olan Türkiyə azərbaycanlıları övladlarının milli ruhda böyüdülməsi, milli dəyərlərə münasibəti, Azərbaycan dili, mətbəxi, musiqisi, ədəbiyyatı və folkloru məsələlərində mühafizəkardılar. Bununla





paralel olaraq, onların ictimai şüurunda türkiyəçilik faktoru, türkçülük ideologiyası aparıcı yerdədir. Gənclər milli ruhda böyüdülmələrinə baxmayaraq, Avropa və Qərb dəyərlərinin təsiri altındadırlar. Əsasən ticarətlə məşğul olan türkiyəli soydaşlarımız siyasi fəaliyyətdə əvvəllər passiv olsalar da, son zamanlar bir qədər fəallaşıblar.

Göründüyü kimi, Azərbaycan diasporu özünün çoxçalarlı və çoxşaxəli tərəfləri ilə seçilir. Azərbaycan diasporunda mövcud olan bəzi problemlərin aradan götürülməsi üçün isə mütləq azərbaycançılıq ideologiyasını da geniş surətdə tətbiq etmək lazımdır. Dünya azərbaycanlılarının həmrəyliyi, birliyi, Azərbaycan dövləti faktoru ətrafında birləşməsi üçün azərbaycançılıq ideologiyasının təbliği və yayılması əsas vəzifələrdən biridir.

**İdeologiya:** Azərbaycan xalqı qədim tarixə, zəngin mədəniyyətə malikdir. Xəzərin sahillərində yerləşən, Qərblə Şərqin qovuşduğu bir məkan olan Azərbaycan qədim dövrlərdən təkcə tükənməz təbii sərvətlər mənbəyi və neft diyarı kimi yox, həm də böyük tarixi şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri yetirən bir məmləkət kimi tanınmışdır. Qədim dövrlərdən başlayaraq bu günümüzə qədər Azərbaycan xalqının gözəl adət-ənənələrini, milli-mənəvi dəyərlərini, etnik psixoloji xüsusiyyətlərini özündə yaşadan və birləşdirən bir baxışlar sistemi yaranmış və formalaşmışdır. Babək, Koroğlu, Qaçaq Nəbi, Mehdi Hüseynzadə kimi qəhrəmanlarımız, Nizami, Füzuli, Nəsimi, Sabir, Cəlil Məm-

məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun, Nəsrəddin Tusi, Yusif Məmmədəliyev, Bəhmənyar kimi dahi şair və yazıçılarımız, Cavanşir, Məhəmməd Cahan Pəhləvan, Şah İsmayıl Xətai, Nəriman Nərimanov, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov kimi dövlət xadimlərimiz milli ideyalarının yaranmasında, formalaşmasında, qorunmasında və yayılmasında mühüm rol oynamışlar.

Azərbaycançılıq ideologiyası XX əsrin ikinci yarısında özünün daha dinamik və yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu, bilavasitə XX əsrin ikinci yarısından başlayaraq dövlət və siyasət səhnəsinə çıxmış, özünün titanik fəaliyyəti ilə dünya siyasətinin korifeylərindən birinə çevrilmiş, zəmanəmizin görkəmli ictimai-siyasi və dövlət xadimi, böyük tarixi şəxsiyyət və dünya azərbaycanlılarının ümummilli lideri olan Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycan rəhbəri seçilən Heydər Əliyev sonrakı 34 illik fəaliyyəti dövründə Azərbaycan xalqının və millətinin şanını, şöhrətini, qürurunu və iftixarını bütün dünyaya tanıtmış və dünyanın ən böyük azərbaycanlısı və dünya azərbaycanlılarının ümummilli lideri adını qazanmışdır.

Dünya şöhrətli siyasətçi olan Heydər Əliyev siyasi həyatın və dövlət quruculuğunun digər sahələrində olduğu kimi, azərbaycançılıq ideologiyasının formalaşmasında və inkişafında da misilsiz xidmətlər göstərmişdir.

Heydər Əliyevin uzun müddət dövlət idarəçiliyi sistemində fəaliyyət göstərən bir tarixi şəxsiyyət kimi əldə etdiyi





nailiyyətlər bütün dünyada "Azərbaycan" və "azərbaycanlı" sözlərinin mahiyyətini, dəyərini və tutumunu xeyli artırmışdır. Heydər Əliyev öz varlığı və siyasi fəaliyyəti ilə bütün dünyada olan azərbaycanlılara hörmət və ehtiram qazandırdı. Onun azərbaycançılıq qarşısında ən böyük xidmətlərindən biri məhz bundan ibarətdir.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının elmi-nəzəri bazasının müasir dövrün tələbləri əsasında formalaşmasında da mühüm rol oynamışdır. Heydər Əliyev demişdir: "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin, siyasi partiyaların bir ideya ətrafında birləşməsinə yol açmalıdır".

Başqa sözlə, "kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın" deyərək o, bütün azərbaycanlıları vahid bir ideya ətrafında birləşməyə, milli birliyə çağırırdı.

Heydər Əliyev milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq ideologiyasının əsas prinsiplərinin "dövlətçilik" və "milli vətənpərvərlik"dən ibarət olduğunu dəfələrlə vurğulamışdır. Onun söylədiyi "Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir, dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır" fikri hər bir

azərbaycanlının qəlbinə hakim kəsilmişdir.

Heydər Əliyevin azərbaycançılıq ideologiyası qarşısında xidmətlərindən biri də keçmiş SSRİ-nin Moskva, Sankt-Peterburq, Ulyanovsk, Rostov, Taqanroq kimi şəhər və vilayətlərində Azərbaycanla bağlı abidələr qoyulması, elm və incəsənət xadimlərinin yubileylərinin keçirilməsi, Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarına heykəllərin qoyulması, küçə və meydanlara adların verilməsi sahəsində göstərdiyi xidmətdir. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosu üzvü kimi Moskvada fəaliyyət göstərərkən Nizami Gəncəvinin "Xəmsə"sinin Moskvada çap edilməsi, Qara Qarayevin SSRİ Bəstəkarlar İttifaqının katibi, Tahir Salahovun SSRİ Rəssamlar İttifaqının birinci katibi kimi fəaliyyəti, Fikrət Əmirovun "Min bir gecə" baletinin bütün ittifaq televiziyası ilə göstərilməsi, "Nizami", "Dədə Qorqud", "Babək", "Nəsimi" və digər milli ruhlu tarixi bədii filmlərin SSRİ ekranlarına çıxması, xarici ölkələrə səfərlər zamanı azərbaycanlıların da nümayəndə heyətlərinin tərkibinə daxil edilməsi Heydər Əliyevin bu ideologiya sahəsində göstərdiyi xidmətlər sırasındadır.

Müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən Heydər Əliyevin təşkilatçılığı ilə Bakıda Məhəmməd Füzulinin 500 illiyinin, "Dədə Qorqud" dastanının 1300 illiyinin dünya səviyyəsində qeyd olunması, dünya şöhrətli musiqiçi M.Rostropoviçin Azərbaycana dəvət olunub dəfələrlə konsertlərinin təşkil edilməsi, xarici səfərlərdə dünyanın Vaşinqton, Paris, London, Tokio, Roma, Moskva və s. böyük şəhərlərində neft müqavilələrinin imzalanmasıyla dünyanın diqqətini Azərbaycana yönəltməsi onun azərbaycançılıq ideologiyasına verdiyi layiqli xidmət nümunələridir. Heydər Əliyev Siyasi Büro üzvü kimi Moskvada fəaliyyət göstərərkən Azərbaycan mədəniyyəti ilə bağlı tədbirləri tez-tez təşkil edir, özü şəxsən həmin tədbirlərdə digər dövlət xadimləri ilə bərabər iştirak edir, tabeliyində olan qurumların rəhbərlərini də bu işə şəxsən cəlb edirdi. Bu onun milli vətənpərvərlik hisslərinin yüksək olmasından, öz xalqına və millətinə nə qədər bağlı olmasından xəbər verirdi.





Azərbaycan dilinin dövlət dili statusu alması, onun bir ünsiyyət vasitəsi kimi bugünkü səviyyədə inkişaf etməsi, qrammatik elmi əsaslarının yaradılması, latın qrafikasına keçilməsi məsələləri də Heydər Əliyevin birbaşa xidməti sayəsində mümkün olmuşdur.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin dəqiq təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, «azərbaycanlı» anlayışının sosial-fəlsəfi məzmununu dəqiq şəkildə müəyyənləşdirən konsepsiya kimi nəzərdən keçirilir. «Ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi azərbaycançılıq ideologiyasının diaspor

quruculuğunda üstün cəhəti ilk növbədə onun milli maraqlarımızın tam palitrasını əhatə etməsidir. Milli-mənəvi, əxlaqi, dünyəvi, humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz bu xüsusiyyətlərinə görə müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedici və perspektivlidir. Azərbaycançılıq məfkurəsinin belə sistemli xarakteri müxtəlif mühacir nəsillərini də birləşdirməyə imkan verir. Maraqlıdır ki, vaxtilə birtərəfli mövqe tutmuş Türkiyə, Rusiya, Qərb və Şərq yönümlü bir çox siyasi qüvvələr də, artıq onun dünya dövlətləri, iqtisadi-siyasi regionlarla ahəngdar, balanslaşdırılmış münasibətlər qurulmasının əhəmiyyətini dəyərləndirməyə başlamışlar. Azərbaycançılığın mühüm meyarlarından olan bu cəhət məskunlaşdıqları ölkələrə, yəni fərqli mühitlərə meyilli olan soydaşlarımızın ümumi amal ətrafında birləşməsinə imkan verən əsas amillərdəndir».

Azərbaycançılıq ideologiyası cəmiyyətin ən müxtəlif sosial təbəqələrini təmsil edən insanları vahid bir məqsəd ətrafında birləşdirə bilməklə, dünya azərbaycanlıları arasında milli həmrəyliyin yeni bir formulunu yaratmış oldu. Bu ideologiyanın səciyyəvi cəhətlərindən biri Azərbaycan xalqının milli mentalitetinin xarakterik xüsusiyyətlərini nəzərə almasında idi. Azərbaycançılıq ideologiyasının diaspor





üçün cəlbediciliyi onun daxili rəngarəngliyi ilə bərabər, konseptual bütövlüyü, milli özünüdərkə imkan verən tamlığı, müəyyənliyidir. Digər ideoloji meyllərdən, məsələn, islamçılıqdan, avropaçılıqdan, türkçülükdən, avrasiyaçılıqdan fərqli olaraq, azərbaycançılıq hər bir azərbaycanlının milli özünüdərkinə, milli müəyyənliyinə, özünü digər toplumlardan fərqləndirməsinə geniş imkan verir.

Uzun müddət tarixi vətənindən ayrılmış, fərqli etnik-mədəni mühitlərə adaptasiya olunmuş soydaşlarımız üçün bu, həm ayrı-ayrı fərdlərin azərbaycanlı kimi milli özünüdərki, həm onların vahid milli zəmində təşkilatlanması, həm də Azərbaycan diasporunun İslam, Türk, Qafqaz, İran və digər yönümlü toplumlardan seçilərək Azərbaycan xalqının tarixi mənafeləri ətrafında birləşməsi baxımından çox mühüm amildir. Azərbaycançılıq ideologiyası bu birliyi şərtləndirən ortaq cəhətləri özündə ehtiva etməklə, harada yaşamasından, hansı sosial mühitdə yetkinləşməsindən asılı olmayaraq, bütün azərbaycanlıları bir araya gətirə biləcək milli konsepsiya kimi formalaşmışdır. "Azərbaycançılıq təlimi milli ənənələrin və cərəyanların, dini və praqmatik nəzəriyyələrin keçid dövrünə məxsus müxtəlif iqtisadi prosesləri, cəmiyyətin industrial və postindustrial inkişafının bütün çalarlarını özündə birləşdirir. Bu mümkün təsəvvürlərin, dünyanın inkişafı, cəmiyyət, ailə və insan haqqında dünyagörüşünün zəngin bazası əsasında meydana gələn hədsiz dərəcədə elektik və sinkretik olan vətəndaşlıq təlimidir".

Azərbaycançılıq ideologiyası siyasi baxışlarına, dünyagörüşünə, ictimai statusuna görə insanlar arasında fərq qoymur. Onun əsasında yalnız etnik-milli xüsusiyyətlər deyil, həm də vətən qarşısında borc amili dayanır. Yəni, burada milliyyətcə azərbaycanlı olmaq əsas şərt deyil, ən vacib məsələ milliyyətindən asılı olmayaraq, Azərbaycanı sevən hər bir insanın bu ideya ətrafında birləşməsinin vacibliyini aşılamaqdır. Bu baxımdan, fikrimizcə, dünya azərbaycanlılarının həmrəyliyinin təmin olunması sahəsində azərbaycançılıq ideologiyasının rolundan danışarkən, olduqca əhəmiyyətli bir amil – «vətəndaş cəmiyyəti» anlayışı xüsusi qeyd edilməlidir. Azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq, respublikamızın ərazisində yaşayan və ya başqa ölkələrə köçmüş bütün vətəndaşlara hüquqi və mənəvi müstəvidə bərabər münasibət bəslənilir. Məhz buna görə, ötən əsrin 1990-cı illərinin ortalarından digər ölkələrə miqrasiya etmiş qeyri-azərbaycanlı vətəndaşlar, ilk növbədə ruslar, yəhudilər və başqaları Azərbaycan diaspor təşkilatları ilə əlaqələr qurur və onların işində fəal iştirak edirlər.

Azərbaycançılıq ideologiyasının digər səciyyəvi cəhəti Azərbaycan dövlətini dünya azərbaycanlılarının siyasi istinadgahı olması ideyasını təbliğ etməsindədir. Milli dövlətçilik ideyası, dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycanda doğulmuş bütün azərbaycanlıların vətəni kimi dərk edilməsi azərbaycançılığın mühüm meyarlarındandır. Bu konseptual ideya özlüyündə əhəmiyyətli olmaqla bərabər, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi müstəvidə təminatı üçün də fəlsəfi əsas yaradır. Məhz bu ideoloji zəmin xaricdə yaşayan azərbaycanlılarla işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, digər tərəfdən, onları ölkəmizdəki iqtisadi layihələrə cəlb etməyə və beləliklə də, vətənə daha sıx bağlamağa imkan vermişdir. Olduqca qısa vaxt ərzində azərbaycançılıq ideologiyasının bu qədər populyarlaşmasının və dünya azərbaycanlıları tərəfindən qəbul edilməsinin əsas səbəblərindən biri də fikrimizcə, məhz yuxarıda qeyd etdiklərimizlə bağlıdır.

Heydər Əliyev dünya azərbaycanlılarının ümdə vəzifəsindən bəhs edərək deyirdi: «Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün, harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməli və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur. Zaman-zaman qəlbimizdə yaşatdığımız müstəqillik və azadlıq ideyalarının həyata keçdiyi bu tarixi sınaq altında dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vətən təəssübkeşliyinə, övladlıq haqqına dərin inam ifadə edərək, sizi azad, müstəqil, demokratik Azərbaycan dövləti uğrunda səfərbər olmağa və milli həmrəyliyə çağırıram».

Ümummilli liderimizin müəyyən etdiyi düzgün xarici siyasət və bünövrəsini qoyduğu, qurub-yaratdığı güclü Azərbaycan Respublikasının bu gün dünyada olan nüfuzu, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin Prezident olduğu müddətdə atdığı uğurlu addımları sayəsində bu problemin də tezliklə həll olunacağına və azərbaycanlıların milli qürurunun tapdalanmayacağına inam yaradır. Heydər Əliyev təsadüfən söyləməmişdir: "...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planları, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

**Heydər Əliyev və türk dünyası:** Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda dövlət fəaliyyətinin bütün sahələri kimi, xarici siyasət də regional və beynəlxalq reallıqlar nəzərə alınmaqla, yenidən quruldu. Bu, tarazlı, siyasi illüziya və romantikadan uzaq, gerçəkçi və milli maraqları maksimum təmin edəcək siyasət idi. Ümummilli lider Azərbaycanın dünyaya inteqrasiyasının strateji istiqamətlərini müəyyənləşdirərkən ölkəmizin türk dünyası, türkdilli ölkələrlə münasibətlərinə xüsusi yer ayırmışdı.

Bu baxımdan, Azərbaycan-Türkiyə əlaqələrinin keyfiyyətcə yeni məcrada qurulması prioritet önəm kəsb edirdi. Çünki öncəki hakimiyyət dövründə Türkiyə ilə münasibətlərdə siyasi eyforiya və şüarçılığın üstünlük təşkil etməsi real tərəfdaşlıq üçün zəmin yaratmamışdı. Bir çox hallarda bu





münasibətlərin hər iki ölkədəki populist siyasətçilərin bəyanatları ilə idarə edilməsi normal dövlətlərarası münasibətlərə zərər vururdu.

Yeri gəlmişkən, Heydər Əliyev hakimiyyətə gələndən sonra həmin populist qüvvələr Azərbaycanın, guya Türkiyədən uzaqlaşacağı, Rusiyanın boyunduruğuna düşəcəyi barədə əsassız iddialar səsləndirməyə başlamışdı. Xüsusilə, Azərbaycanın 1993-cü ilin sentyabrında MDB-yə üzv olması həmin dairələr tərəfindən geniş spekulyasiya mövzusuna çevrilmişdi.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə parlamentində etdiyi çıxışında həmin ittihamları rədd edərək, Azərbaycanın MDB-yə üzvlüyünün nə bütövlükdə ölkəmizin suverenliyinə, nə də ayrılıqda Türkiyə ilə münasibətlərə zərrə qədər də xələl gətirməyəcəyini bildirdi. Əksinə, bu üzvlük Azərbaycanın Mərkəzi Asiyadakı türk respublikaları ilə səmərəli əməkdaşlığına da bir zəmindir: «Biz bu birliyə daxil olmaqla nə uduzduq? Heç nə uduzmadıq, amma qazandığımız o oldu ki, biz vaxtilə möhkəm, sıx əlaqələrimiz olan respublikalarla əlaqələri saxlayaraq, iqtisadiyyatımızın inkişafı üçün müəyyən şərait yaradırıq».

Heydər Əliyev Türkiyə parlamentində söylədiyi həmin nitqdə iki ölkənin strateji tərəfdaşlığının ən mükəmməl formulunu da səsləndirdi: «Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir». Sonralar dillər əzbəri olan bu sözlər ölkələrimizin qardaşlıq münasibətlərinin kredosuna çevrildi: «Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir,

dinimiz birdir. Ona görə də, tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Bizim xalqlarımız bu həsrətlə yaşayıblar və nəticədə də bir-birinə qovuşublar. Bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir».

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin bəyan etdiyi hər bir fikir və tezisin arxasında mütləq real əməl, praktik nəticə dayanıb. «Bir millət - iki dövlət» bəyanatı da gəlişi gözəl söz olaraq irəli sürülməmişdi. Heydər Əliyevin bu müdrik kəlamı Azərbaycan və Türkiyənin güclü, qüdrətli dövlətlər olmasını və bu gücün səfərbər edilərək ortaq mənafe və ümumi, «bir millət» fəlsəfəsi üzərində köklənən hədəflərə yönəlməsini ehtiva edir.

Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişi ilə Türkiyə ilə münasibətlər gerçək tərəfdaşlıq, qarşılıqlı fayda və səmimi anlaşma üzərində təşəkkül tapdı. O, Azərbaycana rəhbərlik etdiyi 10 ildə dəfələrlə Türkiyədə səfərdə olmuş, Türkiyənin dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişlər.

Bu intensiv təmaslar, daimi məsləhətləşmələr fonunda iki ölkənin xarici siyasəti, beynəlxalq müstəvidəki addımları daha əlaqəli və bir-birini tamamlayan oldu. Bu siyasət sayəsində Azərbaycan müstəqil dövlət quruculuğunda üzləşdiyi çətinliklərdə hər zaman Türkiyəni yanında gördü, eyni





zamanda, atdığı addımlarda, həyata keçirdiyi iqtisadi layihələrdə daima Türkiyəni göz önündə tutdu.

Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan xarici neft şirkətləri ilə ilk müqaviləni («Azəri-Çıraq-Günəşli» yataqları üzrə) imzalayanda Türkiyənin (TPAO şirkəti) payı çox cüzi – 1,75 faiz olmuşdu. Bunun səbəbi isə Türkiyənin bu müqavilə üzrə danışıqlara gec qoşulması, Qərb sərmayədarları ilə müqayisədə astagəllik etməsi olmuşdu. Lakin sonradan Heydər Əliyev qardaş ölkənin xahişini nəzərə alaraq, Azərbaycanın layihədəki payı hesabına Türkiyəyə əlavə 5 faiz ayrılması barədə qərar verdi. Nəticədə Türkiyə «Əsrin müqaviləsi»nin mühüm iştirakçılarından birinə çevrildi və indi Azərbaycan neftinin dünya bazarında satışından böyük dividendlər əldə edir. 1996-cı ildə Azərbaycanın imzaladığı ikinci böyük müqavilə – «Şahdəniz» layihəsində Türkiyəyə daha yüksək – 9 faiz pay ayrıldı. Ümumilikdə, Azərbaycanın ayrı-ayrı neft-qaz layihələrində Türkiyənin 35 faiz payı var.

Heydər Əliyevin Azərbaycan-Türkiyə tərəfdaşlığına verdiyi ən böyük töhfə isə, sözsüz ki, ölkəmizin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri vasitəsilə Türkiyə üzərindən dünyaya açılması oldu. Bu marşrutların gerçəkləşməsi, xüsusilə, əsas neft kəmərinin Ceyhana çəkilməsi Heydər Əliyevin mürəkkəb geosiyasi şəraitdə, dünya gücləri və neft nəhəngləri ilə apardığı gərgin danışıqlarda nümayiş etdirdiyi titanik səylər hesabına mümkün olmuşdu.

«Şübhəsiz, mənim ürəyimdən keçən arzu bu xətti Ceyhana çəkməkdir. Onun çəkilməsi tək məndən asılı deyil. Amma vaxtı gələndə hər şeyi həll edəcəyik» - deyə Heydər Əliyev 1996-cı ildə Türkiyənin işgüzar dairələri ilə görüşdə bildirmişdi. O, Türkiyənin iş adamları ilə hər görüşdə onları Azərbaycana sərmayə qoymaqda daha təşəbbüskar olmağa, başqa əcnəbi sərmayədarlardan geri qalmamağa çağırırdı: «İndi dünyanın ən böyük şirkətləri respublikamıza gəlirlər. Azərbaycanın iqtisadiyyatının gələcəyi çox genişdir. Türkiyəli iş adamlarına bir daha deyirəm ki, gecikməyin, erkən gəlin, daha yaxşı yerlər tutun».

Bu, böyük liderin uzaqgörən, praqmatik ümumtürk təəssübkeşliyinin göstəricisi idi və tədricən müsbət nəticələrini verdi. 90-cı illərin ortalarından Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrildi. Yeri gəlmişkən, son illər iki ölkənin ticarət dövriyyəsi bir neçə dəfə artaraq 2007-ci ildə 1 milyard dollara çatıb. Türkiyənin Azərbaycana investisiyalarının həcmi 2 milyard dollardan çoxdur. Düzdür, ölkələrimiz arasında nəqliyyat infrastrukturunun yetərli olmaması hələlik bu sahədə geniş potensialdan tam istifadə etməyə imkan vermir. Bununla yanaşı, əminliklə demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin gerçəkləşməsi bu əlaqələrə güclü təkan verəcəkdir.

Heydər Əliyevin Azərbaycan-Türkiyə tərəfdaşlığının real zəmin və möhkəm əsaslar üzərində qurulmasına verdiyi töhfələr qardaş ölkə tərəfindən yüksək qiymətləndirilib. 1997-





ci ildə Heydər Əliyev Türkiyənin ən yüksək ordeni – «Dövlət nişanı» ilə təltif olunub, 1999-cu ildə böyük öndərə Atatürk Sülh Mükafatı təqdim olunub, Heydər Əliyevə Türkiyənin 10-a yaxın universitetinin «Fəxri doktoru» adı verilib.

Heydər Əliyevin Türkiyə ilə münasibətlərdə yeritdiyi müdrikanə siyasət, sadəcə, iki ölkənin sıx tərəfdaşlığına deyil, bütövlükdə ümumtürk inteqrasiyasına tarixi töhfə olmuşdur. Çünki nəticə etibarilə güclü Türkiyə güclü Azərbaycan deməkdir, iki dövlətin birlik və bərabərliyi isə digər türk dövlətlərinin inteqrasiyası üçün praktik örnəkdir.

Məhz buna görə də, Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlığı da daima prioritet saymışdır. Çünki Azərbaycan bu coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə bu körpünün real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapmasında müstəsna rol oynamışdır.

Heydər Əliyev Türkdilli ölkələrin dövlət başçılarının 1994-2001-ci illərdə keçirilmiş 6 sammitinin hamısında (18-19 oktyabr 1994-cü il - İstanbul, 28 avqust 1995-ci il - Bişkek, 21 oktyabr 1996-cı il - Daşkənd, 9-10 iyun 1998-ci il - Astana, 8 aprel 2000-ci il - Bakı, 26-27 aprel 2001-ci il - İstanbul) iştirak etmişdir və bu əməkdaşlıq formatında Azərbaycanın fəal, təşəbbüskar mövqeyi hər zaman öndə olmuşdur.

Bu gün Azərbaycanın Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə, ortada olan iqtisadi layihələrə nəzər salsaq, onların hamısında Azərbaycanın təşəbbüslərini, Heydər Əliyevin müəllifliyini qeyd edə bilərik. 1998-ci ildə «Böyük İpək yolu» layihəsinə (Avropa-Asiya nəqliyyat dəhlizi) Bakıda, Azərbaycanın ev sahibliyi ilə start verilməsi, 1999-cu ildə Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə Şərq-Qərb enerji dəhlizi üzrə tarixi İstanbul anlaşmalarının əldə olunması məhz Heydər Əliyevin liderliyinin nəticəsi idi. Türk dövlətlərinin mədəni inteqrasiyasının mühüm təməli olan TÜRKSOY təşkilatının formalaşması, bu formatda bir çox layihələrin reallaşması da Azərbaycanın fəal rolu sayəsində mümkün olub.

«Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin – milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək iş birliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq» - deyə Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısında bəyan etmişdi.





**Azərbaycan diasporunun yayılma coğrafiyası**: Təqribi sayı 50 milyon nəfər olan dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Azərbaycan diasporu mövzusunun aktuallığı azərbaycanlıların yayılma coğrafiyasının araşdırılmasını və soydaşlarımızın sayının dəqiqləşdirilməsini zərurətə çevirmişdir.

Hələlik bu istiqamətdə konkret statistik göstəricilərin olmaması obyektiv reallıqdan irəli gəlir. XX əsrin əvvəllərinə qədər respublikadan xaricə mühacirət edən soydaşlarımızın şəxsiyyət vəsiqələrində «Rusiya təbəəsi» yazılması onların milliyyətinin də «rus» kimi təqdim edilməsi ilə nəticələnmişdir.

O dövrlərdə qonşu Rusiyaya köçən azərbaycanlılar «tatar», Türkiyədə məskunlaşanlar isə «Azərbaycan türkü» kimi tanınır və qeydə alınırdı. Müasir İran ərazisində yaşayan soydaşlarımızın isə «İran təbəəsi» kimi təqdimatı prosesi gedirdi. Belə arzuolunmaz vəziyyət xarici ölkələrdə yaşayan azərbaycanlıların rus, türk və fars diasporlarının tərkib hissəsi kimi qəbul edilməsinə səbəb olmuş, nəticədə soydaşlarımız başqa xalqların diasporları içərisində assimilyasiya olunmaq təhlükəsi ilə üzləşmişlər.

Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub saxlamış,

tarixi Vətənlə əlaqələrini itirməmişlər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşmışlar. Onların sayı Birləşmiş Ştatlarda 400 minə çatır. Amerika qitəsinin digər ölkələrində – Argentina, Braziliya, Kanada və Meksikada da soydaşlarımız məskunlaşmışlar.

Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti İrandan miqrasiya etmiş soydaşlarımızdır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bir qism soydaşımızın bu qitəyə axını diasporumuzun tərkibinə və sosial-iqtisadi fəaliyyətinə öz təsirini göstərdi.

Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Son zamanların statistik göstəricilərinə əsasən, Avropa azərbaycanlılarının sayı Türkiyədə 3 milyona, Rusiya Federasiyasında 2,5 milyona, Ukraynada 500 minə, İsveçdə 30 minə, Almaniyada 100 minə, Niderlandda 20 minə yaxındır.

Niderland Krallığı, Belçika, Danimarka, İsveçrə və Almaniyada yaşayan soydaşlarımızın əksəriyyəti Türkiyədən köçmüş azərbaycanlılardır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Estoniya, Belarus, Rusiya, Ukrayna, Moldova və Fransadakı soydaşlarımız isə İrandan və Azərbaycan Respublikasından köçənlərdir.

Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışdı. Onların bir çoxu Banqladeşdə,





Hindistan, Əfqanıstan, Pakistan, İordaniya və Orta Asiya respublikalarında, İndoneziya, Yəmən Ərəb Respublikası, Yəmən Demokratik Respublikası, Çin, Birləşmiş Ərəb Əmirliklərində, Oman, Səudiyyə Ərəbistanı və Suriyada, İraqda məskunlaşmışlar.

Afrika qitəsində məskunlaşmış azərbaycanlıların Misir, Əlcəzair və Sudanda yaşadığına dair məlumatlar var. Ümumilikdə, son zamanlar aparılan araşdırmalar nəticəsində Cənubi Afrika Respublikası və Zairdə də soydaşlarımızın məskunlaşdıqları müəyyən edilmişdir. Avstraliya qitəsində isə təxminən 8 minə yaxın azərbaycanlının yaşadığı barədə məlumatlar var.

Dünyanın müxtəlif ölkələrində azərbaycanlıların sayı aşağıda göstərilən cədvəldə əks etdirilir *(təxmini hesablamalara görə):*

| № | Ölkənin adı | Azərbaycanlıların sayı |
|---|---|---|
| 1. | ABŞ | 400 000 |
| 2. | Almaniya | 200 000 |
| 3. | Avstraliya | 8 000 |
| 4. | Avstriya | 3 000 |
| 5. | Belçika | 3 000 |
| 6. | Belarus | 6 600 |

| | | |
|---|---|---|
| 7. | Böyük Britaniya | 20 000 |
| 8. | Çexiya | 2 000 |
| 9. | Çin | 30 000 |
| 10. | Danimarka | 25 000 |
| 11. | Estoniya | 1 800 |
| 12. | Gürcüstan | 500 000 |
| 13. | İraq | 800 000 |
| 14. | İran | 30 000 000 |
| 15. | İsveç | 30 000 |
| 16. | İsveçrə | 4 000 |
| 17. | İspaniya | 5 000 |
| 18. | Qazaxıstan | 90 000 |
| 19. | Qırğızıstan | 15 000 |
| 20. | Kanada | 170 000 |
| 21. | Latviya | 1 700 |
| 22. | Litva | 1 500 |
| 23. | Moldova | 6 000 |
| 24. | Niderland | 20 000 |
| 25. | Norveç | 3 000 |
| 26. | Özbəkistan | 60 000 |
| 27. | Rumıniya | 2 000 |
| 28. | Rusiya | 2 500 000 |





| | | |
|---|---|---|
| 29. | Türkiyə | 3 000 000 |
| 30. | Türkmənistan | 33 300 |
| 31. | Ukrayna | 500 000 |
| 32. | Yaponiya | 10 000 |
| 33. | Yeni Zelandiya | 2 000 |

**Avstriya.** Azərbaycan və Avstriya əlaqələrinin tarixi orta əsrlərə təsadüf edir. Əsasən ticarət üzərində qurulan ikitərəfli əlaqələr nəticəsində Azərbaycan xalçaları, zərgərlik məmulatları, ipəyi Bizans və Rusiyadan keçməklə Avropanın bu dövlətinə də gəlib çıxmışdır.

Hələ 1473-cü ildə Azərbaycan Ağqoyunlular dövlətinin hökmdarı Uzun Həsən Avstriya-Macarıstandan Azərbaycana gələn nümayəndə heyətilə görüşmüş, sonra venesiyalı Katerino Zena vasitəsilə Avropa monarxları, o cümlədən Milan, Avstriya və Macarıstan krallarına məktub göndərmişdir. Sonradan Vyanaya Uzun Həsənin başqa səfiri, venesiyalı Nikolo Qrolo gəlmiş, ikitərəfli əlaqələrin inkişafına çalışmışdır.

Avstriya ilə münasibətlər tarixin sonrakı illərində də davam etmişdir. 1599-cu ildə Səfəvi hökmdarı Şah Abbas başda Hüseynəli bəy olmaqla, digər şəxsləri Avropaya, o cümlədən Avstriyaya səfirliyə göndərmişdir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində də Bakıda Avstriya-Macarıstan konsulluğu fəaliyyət göstərirdi. I Dünya Müharibəsindən sonra bu ölkəyə azərbaycanlıların pas-

siv mühacirəti başlayır. Əsasən iqtisadi və sosial səbəbli mühacirət bolşevik işğalından sonra siyasi xarakter alır. Avropanın bir çox ölkələri kimi Avstriya da Azərbaycan siyasi mühacirlərini qəbul edir.

Azərbaycanlıların Avstriyada məskunlaşmasının ikinci böyük dalğasına II dünya müharibəsindən sonra əsir düşmüş azərbaycanlıların Vətənə geri qayıtmayaraq Avstriya ilə paralel digər ölkələrdə məskunlaşmasını aid etmək olar. Avstriyada məskunlaşan təqribən 5 minə yaxını Sovet vətəndaşlarının müəyyən hissəsi soydaşlarımız idi. Sonradan bu şəxslərə cənublu və türkiyəli soydaşlarımızın qoşulması Avstriyada Azərbaycan diasporunun formalaşmasına səbəb olmuşdur.

Hal-hazırda Avstriyada azərbaycanlıların sayı 3 min göstərilir. Hazırda Avstriyada 5 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Ötən müddətdə Avstriyada azərbaycanlı icması tərəfindən xalqımızın tarixinin və mədəniyyətinin təbliği ilə bağlı müxtəlif tədbirlər təşkil olunmuşdur. Qeyd etmək yerinə düşər ki, türk dünyasının dostu, tarixçi alim mərhum Erix Fayql da məhz avstriyalı idi.

**Avstraliya.** Dünyanın 5-ci qitəsi – Avstraliyada 8 minə yaxın soydaşımız məskunlaşıb. Əsasən türkiyəli və cənublu azərbaycanlılardan ibarət olan Azərbaycan diasporunun tərkibi son 10 ildə şimaldan bura iqtisadi mühacirətin artması səbəbi ilə günü-gündən genişlənir. Avstraliyaya azərbaycanlıların mühacirəti 1950-ci illərdən başlayır. Əvvəl Türkiyə ilə Avstraliya arasında imzalanmış miqrasiya





müqavilələrinə uyğun olaraq, buraya Türkiyə azərbaycanlılarının daxil olduğu kütləvi mühacirət başlandı. Əsasən orta sinfin nümayəndələri içərisində olan azərbaycanlılara ziyalıların çoxluq təşkil etdiyi Cənubi Azərbaycan mühacirlərinin də qoşulması burada diasporumuzun formalaşmasına şərait yaratdı. Müstəqillik əldə edildikdən sonra Avstraliyada fəaliyyətini genişləndirən soydaşlarımız buraya Azərbaycandan musiqiçilər, alimlər, yazıçılar, incəsənət ustalarını bir neçə dəfə dəvət ediblər. Sidneydə Azərbaycanla əlaqəli də müxtəlif tədbirlər həyata keçirilib.

**Almaniya.** İqtisadi potensialına, zəngin mədəniyyətinə, yüksək həyat tərzinə və digər xüsusiyyətlərinə görə Avropanın mərkəzi hesab olunan Almaniya ilə Azərbaycanın mədəni - iqtisadi - ticari əlaqələrinin tarixi çox qədimdir. Hələ 1473-cü ildə Ağqoyunlu hökmdarı Uzun Həsənin alman imperatoru Fridrix Habsburqa göndərdiyi məktub iki dövlət arasında münasibətlərin qədimliyinin bariz nümunəsidir.

Almaniyanın Azərbaycana marağı artdıqca, almanların Bakı və digər rayonlara mühacirəti başlamışdır. Almaniyadan Azərbaycana köçənlərdən Yun-Ştillinqin banisi olduğu "İsanın Qafqazda zühur etməsi" dini təriqətinin ardıcılları çoxluq təşkil edirdi. Artıq 1815-ci ildən başlayaraq, Azərbaycanda Ellendorf və Dineşfeld koloniyalarında almanlar məskunlaşmağa başlamışlar. Forer qardaşlarına məxsus şirkət şərab istehsalına, Siemens qardaşlarına məxsus şirkət isə mis və qiymətli filizlər axtarışına kapital qoyurdular.

Almanların Azərbaycan iqtisadiyyatı ilə yanaşı, ədəbiyyatı, mədəniyyəti, incəsənətinə marağı olduqca böyük idi. Bunun nəticəsində Azərbaycana məxsus qədim əlyazmalar, sənət əsərləri, zərgərlik məmulatları, xalçalar, saxsı və mis qab-qacaq, qədim məişət və ov alətləri Almaniyaya aparılmış və bu günə qədər də geri qaytarılmamışdır.

1844-cü ildə Mirzə Şəfi Vazehin əsərlərinin Almaniyada böyük maraqla qarşılanmasında Fridrix Bodenştedtin xidmətləri böyükdür. Azərbaycana səfər edən Bodenştedt 1851-ci ildə "Mirzə Şəfinin nəğmələri" adlanan kitabı nəşr etdirmişdir.

1881-ci il noyabrın 5-də isə Almaniyada Fridrix Vilhelm teatrında "Mirzə Şəfinin nəğmələri" adlanan operetta səhnəyə qoyulur. Emil Pol Korx və Luiz Rotun birgə işi olan operetta burada böyük maraq doğurmuşdur.

Mirzə Şəfi poeziyası ilə paralel olaraq, Azərbaycan şifahi və yazılı ədəbiyyatı da Almaniyada təbliğ olunurdu. 1813-cü ildə Höte 12 fəsildən ibarət "Qərb-Şərq" divanında dahi şairimiz Nizami Gəncəviyə "Oxu kitab" adlanan şeir həsr etmişdir. Bundan əlavə, Reman Dits 1813-cü ildə «Kitabi-Dədə Qorqudda atalar sözləri və məsəllər» mövzusunda kitab çap etmişdir. 1815-ci ildə isə "Basatın Təpəgözü öldürməsi boyu" alman dilində oxuculara təqdim olunmuşdur.

Bu əlaqələr XX əsrin əvvəllərində də intensiv şəkildə davam etmişdir. Almaniyanın Avropada qüdrətli dövlət olması azərbaycanlıların bu ölkəyə mühacirətinə əsas yaradırdı. 1913-cü ildən etibarən alman kitabxanalarında Azərbaycandan bəhs edən müxtəlif səpkili kitablar mövcud idi ki, onların bəzilərini bura köçən ziyalı azərbaycanlılar aparmışdı.





Demokratik Respublika qurulandan sonra Azərbaycandan Almaniyaya Frayberq, Dağ-Mədən Akademiyası, Münhen, Dertştad, Leypsiq, Rena, Hamburq universitetlərində təhsil almağa 50 nəfər tələbə göndərilmiş və onların çox hissəsi burada daimi qalaraq geri dönməmişlər.

ADR-in süqutundan sonra azərbaycanlıların çoxsaylı köçdükləri ölkələr içərisində Almaniya üstünlük təşkil edirdi. Burada məskunlaşan soydaşlarımız Azərbaycan istiqlalının bərpa olunması istiqamətində fəal iş aparırdılar.

Almaniyada Azərbaycan diasporunun formalaşması və burada yaşayan azərbaycanlıların fəaliyyəti II dünya müharibəsi illərində də davam etmişdir. Azərbaycan legionerlərinin müəyyən hissəsini artıq Almaniyada çoxdan məskunlaşan soydaşlarımız təşkil edirdi. Azərbaycanlı legionerləri ruhlandırmaq məqsədilə "Hücum", "Azər", "Milli Birlik" kimi qəzetlərlə yanaşı, "Vineta" adlanan təbliğat şöbəsinin radioverilişlər şöbəsində Azərbaycan dilində verilişlər aparılırdı və burada "Anama məktub", "Novruzgülü", "Milli müstəqillik", "Azərbaycan nə uğrunda döyüşür?" proqramları açılmışdı.

1943-cü ildə isə Berlin şəhərində Ə.F.Düdənginskinin təşəbbüsü ilə keçirilmiş Milli Azərbaycan Qurultayı Almaniyada fəaliyyət göstərən Azərbaycan dərnəklərinin vahid orqanının yaradılması işində mühüm rol oynadı. Üçrəngli Azərbaycan milli bayrağının altında keçirilən Qurultayın 5

maddədən ibarət olan qərarına Azərbaycan Demokratik Respublikasının uğurları, fəaliyyət dövrü, Alman-Azərbaycan dostluğu və türkdilli diasporla mehriban əlaqələr qurulmasından bəhs edən müddəalar daxil idi.

Bu tarixdə Berlin şəhərində alman rəhbərliyi tərəfindən rəsmən tanınan "Mühacir Azərbaycan hökuməti" Azərbaycan diasporunun fəallığı üçün təkan vermişdir.

Azərbaycanlıların lideri M.Ə.Rəsulzadə ilə alman hökumətinin müharibədən sonra Azərbaycanın taleyi məsələsində razılığın əldə olunmaması bir sıra ziyalı soydaşlarımızın bu ölkəni tərk etməsinə səbəb oldu.

II dünya müharibəsinin Almaniyanın məğlubiyyəti ilə bitməsi buradakı azərbaycanlıların fəaliyyətinə təsir göstərdi. İctimai fəaliyyətlərini fəallaşdıran soydaşlarımızın çox hissəsinin digər ölkələrə səpələnməsinə baxmayaraq, 1952-ci il sentyabrın 12-dən 19-dək Almaniyanın Ştranberq və Münhen şəhərlərində keçirilən konfransda həvəslə iştirak etdilər. Konfransın gedişində İtaliya, Fransa, Almaniya, İran, Türkiyə və Avstriyadan gələn soydaşlarımız "Azərbaycan Milli Məclisi", "Milli Birlik" adlandırılan qurumda birləşərək birgə fəaliyyət göstərmək barədə müzakirələr apardılar.

Lakin zamanla Almaniyada iqtisadi islahatların aparılması, ölkənin dirçəlməsi yolunda görülən işlər diasporların siyasi fəaliyyətini bir qədər passivləşdirdi. 1980-ci illərin əvvəllərindən yenidən Azərbaycan diasporu burada öz fəaliyyətini genişləndirməyə başladı. Almaniyanın müxtəlif şəhərlərində Azərbaycan mədəni təşkilatları təsis olundu.





1989-cu ildə Almaniyanın birləşməsi, Sovetlər Birliyinin çökməsi və Azərbaycanın müstəqillik əldə etməsi Almaniya-Azərbaycan münasibətlərində yeni mərhələnin başlaması ilə nəticələndi. Buradakı azərbaycanlıların fəaliyyətinə təsirini göstərdi. Təhsil proqramı əsasında azərbaycanlı tələbələrin Almaniyaya oxumağa göndərilməsi, azərbaycanlı həkim, mühəndis, inşaatçı, texnoloqlar və digər peşə sahiblərinin bu ölkəyə miqrasiyası müstəqillik illərinin əsas hadisələrindən idi. Azərbaycanlıların hazırda da kütləvi köçdükləri ölkələr içərisində Almaniya üstünlük təşkil edir.

Almaniya diasporumuzun Şimal, Cənub və Türkiyə qanadları arasında ümumi fikir ayrılığına baxmayaraq, bu üç qanad arasında birləşməyə doğru addım müstəqillik illərindən sonra daha da canlandı. Ermənistan tərəfindən müharibəyə sövq edilən Azərbaycan torpaqlarının 20 faizinin işğalı, 20 Yanvar və Xocalı soyqırımları və xalqımızın başına gətirilən digər faciələr Almaniyadakı azərbaycanlılar tərəfindən biganə qarşılanmırdı. Onlar Vətənə, qaçqınlara yardım məqsədilə bir sıra tədbirlər həyata keçirir.

Azərbaycan mədəniyyətinin Almaniyada Azərbaycan diasporu tərəfindən təbliğ olunması işi də sürətləndi. Türk, ərəb, latın və kiril əlifbaları ilə Azərbaycanın tarixi ədəbiyyatına, folkloruna, mədəniyyətinə aid kitabın çapı daha da artmaqla, qəzet və jurnalların sayı nəzərəçarpacaq dərəcədə

çoxaldı. Almaniyada soydaşlarımız Azərbaycanla bağlı çoxsaylı kitablar nəşr edirlər.

**ABŞ.** Amerikanın əhalinin siyahıyaalma Bürosunun (US Gensus Bureu) 2001-2002-ci illər arası yaydığı məlumatda hazırda ölkə əhalisinin 12,2 faizini qaradərililər, 4 faizini Asiya mənşəlilər, 70 faizini ağdərililər, 2,7 faizini aborigenlər (hindular, eskimolar) təşkil edir. ABŞ-da yaşayan azərbaycanlıların sayı isə 400 min nəfərə yaxındır.

Azərbaycanlıların Amerikaya mühacirəti barədə dəqiq tarixi məlumat yoxdur. Bəzi mənbələrdə XVII əsrdə Rusiyadan, Osmanlı Türkiyəsindən və Azərbaycandan mühacirlərin getməsi barədə fikir söylənir, lakin bu fikirlər rəsmən təsdiqlənmir. Bu səbəblə Birləşmiş Ştatlara azərbaycanlıların mühacirət tarixi XIX əsrin sonu - XX əsrin əvvəlindən götürülür ki, buraya miqrasiya etmiş həmvətənlərimiz azərbaycanlı kimi qeydiyyata məhz bu tarixdən düşməyə başlayıblar. Amerikaya köçən ilk soydaşlarımız əsasən tacirlər və ziyalı təbəqəsi idi. Şərti olaraq, Birləşmiş Ştatlara Azərbaycan mühacirətini 4 dövrə bölmək olar:

1. XIX əsrin sonu - XX əsrin 20-ci illəri. Bu dövrdə Azərbaycandan Amerikaya köçən mühacirlərin tərkibi yəhudilər, ermənilər və Azərbaycan türklərindən ibarət idi. İran təbəəsi, Rus təbəəsi kimi qeydiyyata düşən azərbaycanlıların milli mənsubiyyəti rus və iranlı olaraq göstərilirdi.

2. 1920-1940-cı illər. Bu illər arası Birləşmiş Ştatlara axını güclənən azərbaycanlıların burada məskunlaşma səbəbi siyasi mühacirət idi. 1920-ci ildə bolşeviklərin Azərbaycan Demokratik Respublikasını süquta uğratmasından sonra Avropa və Asiya ölkələri ilə yanaşı, Amerikaya da köçən azərbaycanlıların siyasi fəaliyyəti bir qədər artmışdı. Lakin onların burada nə sosial bazası, nə də formalaşmış icması yox idi. Azərbaycanlılar pərakəndə halda bir neçə ştatda məskunlaşmışlar. Zamanla Azərbaycan icması formalaşmağa başladı ki, bunun təşkilatçısı ziyalı təbəqəsi idi.





3. 1945-ci ildən 1990-cı illərə qədər olan dövr. Bu illər arası Amerikaya köçən azərbaycanlıların əksər hissəsini II dünya müharibəsində əsir düşmüş azərbaycanlı əsgərlər və Cənubi Azərbaycandan miqrasiya edən soydaşlarımız təşkil edirdi.

II dünya müharibəsindən sonra ABŞ-da Azərbaycan diasporunun təşkilatlanma işi güclənməklə, siyasi fəallıq dövrü başlandı. Türkiyədən, Cənubdan və Şimaldan köçən azərbaycanlılar pərakəndə halda olsalar da, siyasi fəaliyyətə maraq göstərirdilər. İlk dəfə olaraq, 1947-ci ildə Türkiyədən ABŞ-a köçən soydaşlarımızın "Azərbaycan" cəmiyyətini yaratması mühüm tarixi hadisə idi. Saleh bəy Şeyxzamanovun rəhbərliyi ilə fəaliyyətə başlayan «Azərbaycan» cəmiyyəti Nyu-York şəhərində yerləşirdi. «Zəbt olunmuş millətlər» adlı keçmiş milli respublikaların təşkilatlarının birləşdiyi birliyin üzvü olan "Azərbaycan" cəmiyyəti Amerika hökumətinin yardımı ilə fəaliyyət göstərirdi.

II dünya müharibəsindən sonra soydaşlarımızın əsas problemi Amerikada yaşamaq hüququ əldə etmək üçün sə-

nəd verərkən milliyyətin rus və ya iranlı yazılması idi. 1940-cı ildə yaradılan «Amerika Komitəsi» azərbaycanlıların da hüquqlarını qoruyurdu. Soydaşlarımız öz haqq səslərini dünya birliyinə çatdırmaqla yanaşı, sovetlərdə işğal altında olan Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində işlərini fəallaşdırdılar. İlk dəfə olaraq, 1954-cü ildə Azərbaycan mühacirətinin tanınmış nümayəndəsi Zahid xan Xoyski 1984-cü ildə Amerikanın ali qanunverici orqanında çıxış etdi. Zahid xan Xoyski Konqresə Sovetlər Birliyinə daxil olan respublikalar haqqında məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan təmsilçisi kimi dəvət olunmuşdu. Zahid xan Azərbaycan müstəqilliyinin bərpası barədə çıxış etmiş və vətənimiz barədə ətraflı məlumat vermişdir.

1942-ci ildə açılan "Amerikanın səsi" radiostansiyası vasitəsilə Azərbaycan və azərbaycanlılar barədə informasiyalar verilir, milli kimliyimizin, musiqimizin, ədəbiyyatımızın, dilimizin, mətbəximizin və digər ənənələrimizin qorunub saxlanılması və təbliğinə xidmət edən proqramlar fəaliyyət göstərirdi.

Avropada yaşayan soydaşlarımızın bir qisminin 1990-cı ilə qədər olan dövr ərzində ABŞ-a köçməsi diasporumuzun daha da güclənməsinə və say tərkibinin genişlənməsinə səbəb oldu. Bu miqrasiyanın məntiqi nəticəsi olaraq, Azərbaycan diaspor təşkilatlarının da sayı artırdı. İlk zamanlar yaşlı nəsil bir-birilərilə müxtəlif klub və cəmiyyətlər vasitəsilə əlaqə qururdusa, zaman öz işini görürdü. İnsanlar yaşa dolduqca əlaqələr zəifləyirdi.





Amerikanın ali məktəblərində hüquq, iqtisadiyyat, texniki elmlər üzrə ixtisaslaşıb öz sahələri üzrə məşhurlaşan soydaşlarımız da az olmayıb və onların çoxu bu gün də ABŞ-da yaşayır.

Amerikanın neft, texnika, iqtisadiyyat, kosmik tədqiqatlar, hüquq sahələrində nüfuz əldə edən soydaşlarımız haqqında danışarkən NASA-da tanınmış mütəxəssis Cavad Herti, dünyaşöhrətli alim Əli Əsgər Lütfizadə, qaz lazerini kəşf edərək 1993-cü ildə Albert Eynşteyn mükafatına layiq görülən Əli Cavan, neft sənayesi üzrə məşhur alim Bican Fəzullahi, neft biznesmeni və neft sənayesi üzrə mütəxəssis Firudin Əminzadə və digər şəxslərin adlarını çəkmək mümkündür.

4. 1990-cı illərdən sonrakı dövr. Azərbaycan Respublikası 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlıların Qərb ölkələrinə, xüsusən ABŞ-a miqrasiyası başlandı. Bu prosesin iştirakçıları ziyalılar, elm və mədəniyyət xadimləri, eyni zamanda, iş tapmaq ümidilə ABŞ-a üz tutanlar idi. Azərbaycanlıların miqrasiyası ABŞ-dakı diasporun fəaliyyətinə də öz təsirini göstərdi. Diasporumuz ilk növbədə Bakıda 1990-cı ildə ruslar tərəfindən həyata keçirilən Qanlı yanvar hadisəsinə etiraz səslərini ucaltdı. Bunun ardınca, 1997-ci ildə qəbul edilən ədalətsiz 907-ci düzəlişə qarşı Amerika azərbaycanlılarının çıxışı başlandı. Dağlıq Qarabağ ətrafında Ermənistanın təcavüzkarlıq siyasəti və BMT-nin 1992-ci ildə qəbul etdiyi qətnamələrə əməl edilməməsi və 1992-ci il 26 fevral əsrin faciəsi – Xocalı soyqı-

rımının baş verməsi Amerikada Azərbaycan diasporu tərəfindən ciddi etirazla qarşılandı.

Azərbaycanlılar kompakt halda Nyu-York, Los-Anceles, Batton-Ruc, Miçiqan, Nyu-Cersi, Vaşinqton və digər şəhərlərdə məskunlaşıblar. Azərbaycanlılar ən çox biznes və xidmət sferalarında fəaldırlar.

Amerikada özlərini Azərbaycan diasporunun nümayəndələri hesab edən bakılı yəhudilərin fəaliyyəti də diqqətəlayiqdir. Azərbaycan naminə gördüyü işləri müsbət qiymətləndirən Azərbaycan yəhudiləri, "Еврейский мир", "Вечный Нью-Йорк", "Русская реклама", "Newstay", "New Worker" mətbuat orqanlarında Azərbaycanı dəstəkləyirlər.

Bu gün Los-Anceles, Pitt Kalambus, Vest-Delfiya şəhərlərində formalaşmış "Tehranseles", "Bakı-Kalambus", "Təbrizfiya" məhəllələrində xeyli sayda azərbaycanlı yaşayır. Pitt Kambusda ingilis və ispan dillərilə yanaşı, Azərbaycan dilində reklam və elanlara da rast gəlmək olar. 2001-ci ildə azərbaycanlı Mehmet Azəri Vest-Delfiyada mer vəzifəsinə seçilmişdir. San-Fransisko, Los-Anceles, Vaşinqtonda Azərbaycan dilini radiodalğalarda eşitmək olar. azərbaycanlıların və türklərin yaxınlaşması prosesi sürətlənməkdədir və türkdilli mediada Azərbaycan müəlliflərinin yazıları və çıxışlarına çox yer verilir.

ABŞ-da Türkiyə və Azərbaycana qarşı erməni, yunan diasporlarının fəaliyyətinə layiqli cavablar verilməsi faktı ilə də qarşılaşmaq olar. Uydurma "Erməni soyqırımı",





"907-ci düzəliş", Kipr, "kürd" məsələləri gündəmə gələndə, Azərbaycan diasporu da türk diasporu ilə yanaşı müraciətlər qəbul edir, etiraz səslərini ucaldırdı. Azərbaycanı təbliğ edən sərgilər, konfranslar və digər tədbirlər Birləşmiş Ştatlarda son zamanlar daha çox keçirilməkdədir. ABŞ-da populyar qəzetlərin səhifələrində də Azərbaycan və Azərbaycan diasporu barədə müsbət yazılara rast gəlmək olar.

Amerika azərbaycanlıları ABŞ hökumətinə "907-ci düzəliş", Dağlıq Qarabağ problemi, Cənubi Azərbaycanda insan hüquqları və s. mövzularla bağlı bəyanatlar göndərirlər. Amerika ali məktəblərində, diaspor təşkilatlarında Vətənlə əlaqələr qurulması istiqamətində canlanma hiss olunur. 20 Yanvar, Xocalı soyqırımı kimi faciəli günlərimizi anma tədbirləri ilə yanaşı, Novruz bayramı, 28 may – İstiqlal Günü, 31 dekabr – Dünya azərbaycanlılarının Həmrəyliyi Günü və digər milli bayramlarımız böyük və təntənəli halda keçirilir.

2001-ci il 11 sentyabr hadisələri zamanı azərbaycanlıların amerikalılar ilə birgə olması diasporumuzun mövqeyini gücləndirirdi. Bu proses indinin özündə də davam edir və konqresmenlər arasında Azərbaycanpərəst şəxslərin sayı artmağa başladı. Artıq Amerika siyasi və rəsmi dairələrində Azərbaycan diasporunun dəstəklənməsi müşahidə olunur. Azərbaycanın haqlı olması barədə müsbət çıxışlar edilir, fikirlər səslənir.

Amerikaya hər səfərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycanlılarla tez-tez görüşməsi birləşməyə və həmrəyliyə təkan verirdi. Bu cür

görüşlər zamanı ümummilli lider Dağlıq Qarabağ məsələsini önə çəkərək azərbaycanlıların bu istiqamətdə işlərini və qüvvələrini səfərbər etmələrini tövsiyə etmişdir.

Dövlət səviyyəsində diaspora dəstək artdıqca, Amerikadakı Azərbaycan diasporunun fəaliyyəti güclənir. ABŞ-da yaşayan soydaşlarımız KİV-lə əlaqə sahəsində və diasporun təşkilatlanması sahəsində bir sıra uğurlar əldə etmişdir.

**Belarus.** Buraya azərbaycanlıların ilkin mühacirəti XX əsrin əvvəllərinə təsadüf edir. II dünya müharibəsindən sonra, xüsusilə, 1970-ci illərdə soydaşlarımız Belarusa elm, təhsil almaq məqsədilə köçürdülər. Burada daimi məskunlaşan azərbaycanlı mühacirlər Belarusun sosial-iqtisadi həyatında mühüm rol oynayıblar.

1991-ci ildən sonra Belarusda Azərbaycan diasporunun formalaşması prosesi başlandı. Hazırda Belarusda 7 minə yaxın azərbaycanlı yaşayır. Onların məskunlaşdığı əsas şəhərlər Minsk, Tallin, Magilyov və digərləridir.

2002-ci il noyabrın 23-də Minsk şəhərində burada yaşayan azərbaycanlıların konqresi keçirilib. 150-dən çox nümayəndənin iştirak etdiyi konqresdə Belarus Azərbaycan İcmaları Konqresi yaradılıb. Konqresin əsas məqsədi Belarusda pərakəndə halda yaşayan azərbaycanlıları vahid mərkəzdə birləşdirmək, soydaşlarımızın milli-mədəni hüquqlarını qorumaq və onların ölkənin ictimai-siyasi həyatında iştirakını təmin etməkdir.





**Belçika.** Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Belçikada da soydaşlarımız məskunlaşıblar. Son statistik məlumatlara əsaslanaraq belçikalı azərbaycanlıların sayının 3 minə qədər olduğunu qeyd edə bilərik. Əsasən türkiyəli azərbaycanlıların üstünlük təşkil etdiyi Belçikaya cənub və şimallıların kütləvi mühacirəti 1970-ci illərdən sonra başlayıb. Türkiyədən Avropa ölkələrinə əmək xarakterli mühacirətdə buradakı azərbaycanlılar intensiv iştirak etmişlər. Türk diasporunun tərkibində ilkin fəaliyyətə başlayan azərbaycanlılar şaxta, dəmir yolu, zavod və digər işlərdə çalışırdılar. Soydaşlarımızın Belçikaya adaptasiyası və yerli cəmiyyətə inteqrasiyası onların bir sıra dövlət işlərində çalışmasına da şərait yaratmışdı.

Hazırda adi fəhlədən varlı biznesmenə qədər iş sahələrində tanınan azərbaycanlıların Belçikada nüfuzu var. Yerli xalqla bir sırada azərbaycanlılar da öz sahələrində işgüzarlıq, əməksevərlik göstərirlər. Onlar ictimai fəaliyyətdə türk diasporu ilə həmrəylik nümayiş etdirirlər. Türk diasporunun Belçikada nəşr etdirdikləri kütləvi informasiya vasitələrində Azərbaycan diasporuna da xüsusi yer verilir.

Azərbaycan-Belçika Parlamentlərarası dostluq qrupu iki dövlət arasında münasibətlərin inkişafı ilə paralel olaraq buradakı soydaşlarımızın taleyi ilə də yaxından maraqlanır. Belçika dövlətinin Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olması diasporumuzun fəaliyyətinə müsbət təsir göstərir.

1980-ci ildən başlanan informasiya-təbliğat işlərini digərlərinə nisbətdə götürəndə fəal hesab etmək olar. 1987-ci

ildə Belçikada türk dilində nəşr edilən "Qürbət" qəzeti Azərbaycanla əlaqəli məlumatlar dərc edirdi. Hazırda Belçikada "Azərbaycan evi" təşkilatına məxsus www.diaspora-az.com saytı Belçika azərbaycanlıları barədə xəbərlər yayır. Belçikada bir neçə Azərbaycan təşkilatı fəaliyyət göstərir.

**Böyük Britaniya.** Böyük Britaniya ilə Azərbaycanın münasibətləri XVIII əsrin əvvəllərindən başlayıb. Azərbaycanın neft sənayesinə maraq göstərən ingilislərin məşhur və nüfuzlu şirkətləri Azərbaycan neftinə investisiya qoymağa başladılar. XIX əsrin sonlarından etibarən azərbaycanlıların Böyük Britaniyaya mühacirəti başlandı. XX əsrin onilliklərində soydaşlarımız Britaniyada öz icmalarını yaratmağa nail olmuşlar. Cənubi Azərbaycandan bu ölkəyə kütləvi mühacirət 50-60-cı illərdə başladı.

II dünya müharibəsindən sonra artıq Böyük Britaniyada Azərbaycan diasporunun formalaşması prosesi başlandı. 1991-ci ildə Azərbaycan Dövlət müstəqilliyini elan etdikdən sonra Britaniya azərbaycanlıları xeyli fəallaşıblar. Son məlumatlara görə, Böyük Britaniyada 20 minə yaxın azərbaycanlı yaşayır. Jurnalist-tədqiqatçı Fazil Rəhmanzadənin araşdırmalarına görə, Britaniyada Cənubi və Şimali Azərbaycandan, Türkiyədən bura köçən mühacirlərlə yanaşı, Gürcüstandan, 1988-ci il deportasiyası nəticəsində Ermənistandan, Orta Asiyadan və Rusiyadan köçən azərbaycanlılara da rast gəlmək olar.





Britaniyada azərbaycanlılar digər türkdilli xalqlarla sıx əməkdaşlıq edirlər. 1990-cı ildə Londonda təsis olunan Dünya Türkləri Komitəsində təmsil olunan azərbaycanlılar bir sıra tədbir və görüşlərdə türkdilli diasporun nümayəndələrinin iştirakını təmin edirlər. Hazırda türkdilli diasporlarla birgə fəaliyyət göstərən Azərbaycan diasporu burada mütəşəkkil qruplardan hesab olunur.

Azərbaycan-Böyük Britaniya arasında olan tərəfdaşlıq münasibətləri burada yaşayan soydaşlarımızın fəaliyyətinə müsbət təsir göstərir. London, Mançestr, Edinburq, Dublin və digər iri şəhərlərlə yanaşı, kiçik şəhərlərdə də çoxsaylı azərbaycanlılar məskunlaşıblar. Soydaşlarımız elm və iqtisadi sahədə xeyli uğurlar əldə ediblər. Böyük Britaniyanın ali və orta məktəblərində, iri şirkətlərində yüzlərlə azərbaycanlı çalışır. Siyasi cəhətdən fəal olan həmvətənlərimiz Azərbaycanı burada təmsil etməyə çalışır, kütləvi informasiya vasitələri ilə əlaqələr qurmağa səy göstərirlər.

Britaniya azərbaycanlılarının əksəriyyəti cənubi azərbaycanlılardan ibarətdir. Cənublular burada kifayət qədər maddi və intellektual imkanlar əldə ediblər. Soydaşlarımız Böyük Britaniyanın iqtisadiyyatının və elminin inkişafında müəyyən rol oynayıblar. Əsasən iqtisadi və texniki mütəxəssislər kimi dövlət və iri şirkətlərə işə dəvət olunan azərbaycanlılar ictimai həyatda da fəal iştirak etməyə çalışırlar.

Soydaşlarımız informasiya sahəsində də bir sıra uğurlar əldə ediblər. Britaniyanın tanınmış TV kanalları və qəzetlərin-

də Azərbaycanla əlaqəli bir sıra məqalələr və çıxışlar olub və bu proses hazırda da davam etməkdədir. "Times", "Herald Tribun of Europa" və digər tanınmış qəzetlərlə yanaşı, "BBC" və digər TV kanallar Azərbaycana böyük diqqət verirlər.

**Cənubi Afrika Respublikası.** Ümumilikdə, bu dövlətdə nə qədər soydaşımızın yaşaması barədə dəqiq məlumatlar yox dərəcəsindədir. Lakin son vaxtlar KİV orqanlarında azərbaycanlıların fəallaşması barədə xəbərlər dərc olunur. CAR azərbaycanlılarının çox hissəsini Cənubdan olan soydaşlarımız təşkil edir. Əsasən ticari sahədə iş aparan soydaşlarımız CAR-da orta səviyyəli təbəqəyə aiddir. Burada şimaldan olan azərbaycanlılar sayca azlıq təşkil edirlər. Onların əksəriyyəti müəyyən işlə bağlı olaraq CAR-da məskunlaşmalı olublar. 2002-ci ildə paytaxt Pritoriya şəhərində ilk Azərbaycan cəmiyyəti təsis olunub. Afrikanın cənubunda yaşayan azərbaycanlıları bir araya gətirmək, mədəni tədbirlər və Azərbaycanı layiqincə CAR-da təmsil etmək cəmiyyətin əsas məqsədləridir.

**Danimarka.** Bu ölkədə soydaşlarımızın sayı 2,5 minə yaxın göstərilir. Buraya azərbaycanlıların mühacirəti üç əsas dövrə bölünür:

1. 1890-1918-ci illər – passiv mühacirət dövrü. Bu illərdə cənubdan, şimaldan və əsasən Türkiyədən köçən azərbaycanlılar iri şəhərlərdə məskunlaşırdılar. Əksəriyyəti ziyalılar və ticarətçilər olan azərbaycanlıların yerli cəmiyyətə inteqrasiyası uzun vaxt aparıb.





2. 1920-1990-cı illər azərbaycanlıların mühacirətinin fəal dövrüdür. Xüsusən 1941-1945-ci və 1960-cı illərdə Azərbaycandan və Türkiyədən olan soydaşlarımızın çoxsaylı qrupları Danimarkanın paytaxtı Kopenhagendə və digər şəhərlərdə məskunlaşıblar. Bu mühacirlər qapalı və gizli həyat yaşamalarına baxmayaraq, ticari-iqtisadi sahələrdə xeyli uğurlar əldə ediblər. Yerli əhali və türk diasporunun nümayəndələrilə qarışıq nikaha girən azərbaycanlıların bir hissəsi milli kimliklərini qoruyub saxlaya biliblər.

3. 1991-ci ildən sonrakı dövr. Müstəqillik əldə olunduqdan sonra şimaldan kütləvi halda başlayan mühacirət nəticəsində Danimarka yüzlərlə təhsil, iş və yaşamaq üçün gələn azərbaycanlını qəbul etmişdir.

Danimarka azərbaycanlıları bir qədər fəal hesab olunurlar. Xüsusən, Danimarkada azərbaycanlı gənclərin fəaliyyəti qənaətbəxş hesab oluna bilər.

Azərbaycandakı prosesləri diqqətlə izləyən Danimarka azərbaycanlıları Qanlı yanvar, Xocalı faciəsi və torpaqlarımızın işğal günlərində etiraz çıxışları edir, milli bayramları bir yerdə keçirirlər. Əsasən mədəni tədbirlərin tez-tez həyata keçirildiyi Danimarkada fəaliyyət göstərən "Azərbaycan radiosu"nun işini müsbət qiymətləndirmək olar. Radio Azərbaycan musiqi mədəniyyəti, poeziyası ilə əlaqədar çoxsaylı proqramlar hazırlayıb. www.indvandlerradio.dk saytından radio barədə ətraflı məlumat əldə etmək olar. Danimarkada əsasən Türkiyədən köçmüş, xüsusilə iğdırlı azərbaycanlılar üstünlük

təşkil edirlər. Onların yaxşı təmin olunan işləri, biznesləri var. Soydaşlarımız Danimarkada müxtəlif sahələrdə çalışırlar. Əsas etibarı ilə orta təbəqə sinfinə aid olan Danimarka azərbaycanlılarının bir neçə təşkilatı var.

**Estoniya.** Azərbaycanlıların Estoniyaya nə zaman gəldiyi barədə dəqiq məlumat yoxdur. Hələ XIX əsrin sonlarında Estoniya kitabxanaları və mahal müəssisələrində Azərbaycanın tanınmış şair və ədiblərindən Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif və Mirzə Fətəli Axundovun alman dillərinə tərcümə edilən kitabları barədə məlumat verilir. 1851-ci ildən etibarən Yuxan Kiyv, Qustav Vulf və Anna Haov dahi Vazehin əsərlərini alman dilindən eston dilinə tərcümə etmişlər. 1978-ci ildə Molla Pənah Vaqifin tanınmış eston yazıçısı F.R.Kreysvald tərəfindən eston dilinə tərcümə olunmuş müxəmməsləri "Skala" qəzetində dərc olunmuşdur.

Azərbaycan ədəbiyyatına artan maraq bu dövrdə Estoniyanın böyük universitetlərindən biri olan Tartu Universitetində təhsil alan soydaşlarımız tərəfindən Azərbaycan Tələbələri Birliyinin yaradılması ilə nəticələnir. Birliyin əsas işi ədəbiyyat klubunda Azərbaycan dahilərinin əsərlərini eston dilinə tərcümə edərək yaymaq idi. XX əsrin əvvəllərində təsis olunan "Bakı Eston Cəmiyyəti"nin əsas məqsədi məhz Azərbaycan ədəbiyyatını təbliğ etməkdən ibarət olmuşdur.

1991-ci il Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra xaricdə yaşayan soydaşlarımızdan Estoniyada yaşayanlar qısa zaman ərzində fəal diaspor formalaşdıra-





raq, ətrafında burada yaşayanları toplaya biliblər. Estoniya azərbaycanlıları əsasən ticarətlə məşğul olurlar. Lakin burada ziyalı təbəqəsi də azlıq təşkil etmir. Əsasən, Tartu, Tallin, Narva şəhərlərində məskunlaşan azərbaycanlıların ictimai fəaliyyəti diqqətəlayiqdir. Hüquq, ədəbiyyat, texnika, ticarət və digər sahələr üzrə çalışan azərbaycanlılar içərisində dövlət vəzifələrində çalışanlar da var. Təqribi sayı iki minə qədər olan azərbaycanlılar Estoniyanın ictimai, iqtisadi, siyasi, mədəni həyatında mühüm rol oynayır. Eston dövlət və ictimai xadimlərilə isti münasibətləri olan soydaşlarımız bu ölkəyə gələn hər bir azərbaycanlıya kömək əlini sevə-sevə uzadır.

Estoniyada ana dili qorunur. Azərbaycanlı uşaqlar eston və ingilis dilində tədris alırlar ki, bu da onların gələcəkdə hakimiyyət orqanlarında təmsil olunmasına şərait yaradır. Artıq Estoniyada Azərbaycan məktəbləri fəaliyyət göstərir.

Azərbaycanlı Eldar Əfəndiyev parlamentin üzvüdür. O, eyni zamanda, Azərbaycan-Estoniya-Türkiyə qrupunun da rəhbəridir.

2004-cü il dekabrın 15-də Estoniya hökumətinin qərarı ilə Tallin şəhərində akademik Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti təsis olunub. Universitet Tallində fəaliyyət göstərən bir çox assosiasiyaların təşəbbüsü ilə yaradılıb. Təhsil ocağının fəaliyyətinin bir qismini Estoniya hökuməti maliyyələşdirəcək. Universitetin əsas vəzifələri Estoniyada yaşayan bütün xalqları türkdilli və

Qafqaz xalqlarının mədəniyyəti, dili və tarixi ilə tanış etmək, müxtəlif millətlər arasında tolerant multimədəni əlaqələr formalaşdırmaq, türkdilli və Qafqaz xalqlarını Estoniyanın mədəniyyəti və tarixi ilə tanış etmək, bu xalqların yerli cəmiyyətə inteqrasiyasına nail olmaqdır. Təhsil ocağında ilkin olaraq filologiya, tarix, mədəniyyətşünaslıq, iqtisadiyyat və hüquq fakültələrinin açılması nəzərdə tutulur. Estoniyada Azərbaycan diasporuna məxsus bir sıra ictimai təşkilatlar və kütləvi informasiya vasitələri var.

Hazırda Estoniyadakı Azərbaycan diasporu yaxın zamanlarda burada məscid tikməyi planlaşdırıb. Eyni zamanda, burada fəaliyyət göstərən «Bakı klubu» iki dövlət və xalq arasında əlaqələrin möhkəmlənməsinə təkan verir. Soydaşlarımızın informasiya təbliğatı işi də fəal sayıla bilər. www.az.ee, www.azeri.ee, www.irs.ee, www.islam.pri.ee, www.fidan.ee saytlarını yaradan azərbaycanlılar dövlətimiz və diaspor işi haqqında ətraflı məlumatları yerli ictimaiyyətə təqdim edirlər.

**Fransa.** Fransaya azərbaycanlıların mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayıb. Lakin Fransanın Azərbaycana maraqları XV-XVI əsrlərə təsadüf edir. Hələ 1697-ci ildə Parisdə nəşr edilən Bartelemi D.Erblonun "Şərq kitabxanası" əsəri Azərbaycan ədəbiyyatı, mədəniyyəti və şairləri haqqında Fransada ilk yazılı mənbədir.

XIX əsrin sonlarından başlayaraq, Fransanın Avropadakı mövqeyinin güclənməsi azərbaycanlıların bu ölkəyə





mühacirətini sürətləndirdi. Azərbaycanın imkanlı və ziyalı təbəqəsinin Fransada malik olduqları iş yerləri, mülklər onların ailələri və qohum-əqrəbalarının buraya köçməsinə şərait yaradırdı. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev kimi milyonçuların Fransanın iş adamları ilə birgə bizneslərinin olması Fransa-Azərbaycan əlaqələrinin inkişaf etməkdə olduğunu göstərirdi. Azərbaycan Demokratik Respublikasının süqutundan sonra azərbaycanlıların kütləvi köçdükləri ölkələr içərisində Fransa ön yerlərdən birini tuturdu. Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Ceyhun bəy Hacıbəyli, Ümbülbanin kimi tanınmış azərbaycanlılar Fransada məskunlaşmışlar.

1991-ci ildə dövlət müstəqilliyimiz elan ediləndən sonra Fransa-Azərbaycan ikitərəfli əlaqələrinin qurulması Azərbaycan diasporunun fəaliyyətinə də təsirini göstərdi. Dağlıq Qarabağ ətrafında baş verən proseslərdə Ermənistanı himayə edən aparan Fransanın bu addımı soydaşlarımız tərəfindən qəzəblə qarşılandı. Bunun nəticəsi olaraq, Fransada bir-birinin ardınca "Qarabağ tarixi və indiki dövr", "Qarabağ" (məqalələr toplusu), "Dağlıq Qarabağ", "Dağlıq Qarabağın tarixi və ona aid sənədlər" kitabları nəşr olundu.

**Gürcüstan**. Gürcüstan postsovet məkanında etnik tərkibinə görə ən zəngin ölkələrdən biri kimi tanınır. 1989-cu ilin məlumatına görə, burada əhalinin 30 faizindən çoxu başqa millətlərin nümayəndələrindən ibarətdir. Rəsmi statistik göstəricilərə görə, Gürcüstanda hal-hazırda 300 min

nəfərdən çox azərbaycanlı yaşayır. Lakin bu rəqəm mübahisəlidir, çünki bir sıra qeyri-hökumət təşkilatları azərbaycanlıların sayının 500 min, hətta 600 min civarında olduğunu bildirir. Bəzi dairələrin müxtəlif rəqəmlər üzərində israr etməsinə baxmayaraq, azərbaycanlıların Gürcüstanda ən böyük etnik qrup olduğu danılmazdır.

Hazırda Gürcüstan ərazisində azərbaycanlılar yaşayan kəndlərin sayı 200-dən çoxdur. İndi Gürcüstan ərazisində soydaşlarımızın ümumi sayı qeyri-rəsmi hesablamalara görə, yarım milyon nəfərdən artıqdır.

2000-ci ildə keçirilmiş əhalinin ümumi siyahıyaalınmasının nəticələrinə görə isə Gürcüstanda 289.761 nəfər (Gürcüstan əhalisinin 6,5 faizi qədər (ölkə əhalisinin sayı 4.371.535 nəfərdir)) azərbaycanlı yaşayır. Göründüyü kimi, azərbaycanlılar Gürcüstandakı milli azlıqlar arasında say çoxluğuna görə birinci yeri tutur (İkinci yeri tutan ermənilərin sayı – 248 min 929 nəfər, yəni, ölkə əhalisinin 5,7 faizi). Qeyri-rəsmi məlumatlarda isə azərbaycanlıların sayı daha çox göstərilir. Maraqlıdır ki, rəsmi statistika çox tez-tez dəyişir. Belə ki, 2004-cü ildə Statistika Departamentinin keçirdiyi sorğuda azərbaycanlıların sayının 247.789 min nəfərə endiyi göstərilir.

Gürcüstanda soydaşlarımız əsasən Kvemo-Kartli, Şida-Kartli və Kaxet bölgələrində məskunlaşmışlar. Onlar yığcam halda Marneuli, Bolnisi, Dmanisi, Qardabani rayonlarında, Zalqa rayonunun Ərcivan elatında, Kaxet bölgəsinin Qaraçöp elatında, qismən isə Tetrisxaro (Ağbulaq),





Zalqa (Barmaqsız), Telavi, Laqodex, Kaspi, Msxeta, Qori rayonlarında yaşayırlar.

Son məlumatlara görə, azərbaycanlıların sayı şəhər və rayonlar üzrə aşağıdakı kimidir:

| Sıra № | Şəhər və rayonun adı | Sayı (nəf.) | Rayon əhalisinə nisbətdə (faiz) |
|---|---|---|---|
| 1. | **Tbilisi şəhəri** | 12 000 | - |
| 2. | **Rustavi şəhəri** | 10 000 | - |
| 3. | **Bolnisi rayonu** | 55 000 | 60,0 |
| 4. | **Dmanisi rayonu** | 25 000 | 60,5 |
| 5. | **Qardabani rayonu** | 60 000 | 45,0 |
| 6. | **Marneuli rayonu** | 125 000 | 70,0 |
| 7. | **Tetrisxaro rayonu** | 1 500 | - |
| 8. | **Zalqa rayonu** | 2 000 | 5,0 |
| 9. | **Laqodex rayonu** | 9 000 | - |
| 10. | **Saqareco rayonu** | 18 768 | 30,0 |
| 11. | **Telav rayonu** | 8 225 | 7,0 |
| 12. | **Karel rayonu** | 1 000 | 2,2 |
| 13. | **Kaspi rayonu** | 3 200 | 5,0 |
| 14. | **Qori rayonu** | 600 | - |
| 15. | **Msxeta rayonu** | 1 300 | 4,0 |

Gürcüstan Respublikasında azərbaycanlılar yaşayan ən iri kəndlər aşağıdakılardır:

| Sıra № | Rayonun adı | Əhalinin sayı (nəfər) |
|---|---|---|
| 1. | **Bolnisi rayonu:** | |
| | ***Kəpənəkçi*** | 7 012 |
| | ***Anxlı*** | 6 500 |
| | ***Faxralı*** | 6 915 |
| | ***Saraclı*** | 3 100 |
| | ***Darbaz*** | 2 800 |
| 2. | **Dmanisi rayonu:** | |
| | ***Yırğançay*** | 2 800 |
| | ***Oruzman*** | 2 150 |
| | ***Hamamlı*** | 2 100 |
| | ***Qarabulaq*** | 1 600 |
| 3. | **Qardabani rayonu:** | |
| | ***Qardabani şəhəri*** | 15 000 |
| | ***Təhlə*** | 8 400 |
| | ***Kosalı*** | 6 343 |
| | ***Nəzərli*** | 5 996 |
| | ***Soğanlıq*** | 5 550 |
| | ***Sərtcala-Muğanlı*** | 4 700 |
| | ***Candar*** | 4 500 |
| | ***Qaracalar*** | 4 220 |





| | | |
|---|---|---|
| 4. | **Marneuli rayonu:** | |
| | ***Marneuli şəhəri*** | 25 000 |
| | ***Görarxı*** | 16 000 |
| | ***Sadaxlı*** | 11 000 |
| | ***Qaçağan*** | 8 000 |
| | ***Qızılhacılı*** | 7 500 |
| | ***Alget*** | 5 394 |
| | ***Keşəli*** | 3 320 |
| | ***Əzizkənd*** | 3 096 |
| | ***Qaş-Muğanlı*** | 2 200 |
| | ***Kirəc-Muğanlı*** | 1 800 |
| 5. | **Tetrisxaro rayonu:** | |
| | ***Kosalar-Şıxlı*** | 1 500 |
| 6. | **Zalqa rayonu:** | |
| | ***Ərcivan-Sanan*** | 2 000 |
| 7. | **Laqodex rayonu:** | |
| | ***Qabal (4 paralel)*** | 9 000 |
| 8. | **Saqareco rayonu:** | |
| | ***Qaraçöp elatı*** | 18 768 |
| 9. | **Telav rayonu:** | |
| | ***Qaracalar*** | 8 225 |
| 10. | **Kaspi rayonu:** | |
| | ***Sakadaq-İano (Tatuşağı)*** | 1 200 |
| 11. | **Msxeta rayonu:** | |
| | ***Sixisdziri (Körpüdibi)*** | 400 |

**Niderland Krallığı.** Avropanın bu dövlətində təqribən 20 minə qədər soydaşımız məskunlaşıb. Niderland Krallığı azərbaycanlılarının çox hissəsi Türkiyədən olan soydaşlarımızdır. Haaqa, Amsterdam, Antverpen, Rotterdam və digər mərkəzlərdə məskunlaşan azərbaycanlılar diaspor işində də fəal iştirak edir.

Azərbaycanlıların əksəriyyəti holland dilində danışa bilir. Bu göstərici soydaşlarımızın yerli cəmiyyətə adaptasiya olunmasının bariz nümunəsidir. Burada türk, rus diasporları ilə əməkdaşlıq münasibətləri quran azərbaycanlılar xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin yerli ictimaiyyətə çatdırılması istiqamətində fəal iş aparırlar.

**İraq.** Antik coğrafiyada Mesopotomiya adlanan ərazi VII əsrdə ərəblərin nəzarətinə keçdikdən sonra İraq adlandırıldı. Mühüm geosiyasi və iqtisadi mövqeyə malik olan İraq əhalisinin 91-95 faizini müsəlmanlar təşkil edir ki, bunun da 20 faizi türkmən adlandırılan azərbaycanlılardır.

İraqda yaşayan soydaşlarımız özlərini və bizi türkmən adlandırırlar. Elmi ədəbiyyatda "türkmən" etnoniminin "tərəkəmə" sözünün cəmi olan "tərəkəmun"dan meydana gəlməsini, bəzilərində isə "türkmanənd" biçimində işlənməsinə rast gələ bilərik ki, bu da "türkəbənzər" deməkdir. Ərəb mənbələrində türkmənlərin Türkmənistan, Əfqanıstan və İranda yaşamış türkmən tayfası olduğu qeyd edilir. Bununla tarixi faktları təhrif edən ərəb mənbələri kökündən yanılırlar. "Əsl türk, ulu türk" mənasını verən türkmənlər barəsində İslam Ensiklopediyasında deyilir: "İraq türkmənləri, yəni, oğuzcanın azəri türkcəsini qonuşan türklər". Bəzən türk mənbələri türkmənlərin osmanlı türklərinin bir qolu olduğu barədə fikir söyləyirlər, oxşarlıq kimi türkmənlərin dilində osmanlı türklərinin leksikonuna məxsus sözlərin olmasını göstərirlər. Düzdür, bu bilgidə bəzi həqiqətlər var, lakin türkmən yazı dilində osmanlı türkcəsinin elementləri özünü göstərməsinə baxmayaraq, xalq dilinə olan nüfuzu qüvvətli olmayıb.





Bəzi fərqləri nəzərə almasaq, İraq türkmənlərinin ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Bütün faktlar, dil, ənənə, musiqi, folklor, mətbəx, inanc və digər eynilik türkmənlərin məhz Azərbaycan türkləri olmasını təsdiq edir.

İraq türkmənləri ölkənin şimalında – əsasən Kərkük vilayətində: Kərkük şəhəri, Tuz Xurmatu, Altun körpü, Təzə Xurmatu Daquq, Badava, Bəşir, Böyük hasar, Biləvə, Qarabulaq, Qızılyar, İttixar, Yayçı, Yarvərli, Yengicə, Köküz, Cümbədlər, Leylan, Ömər, Məndən, Tərcil, Tisin, Toxmaqlı, Türgələn, Çardaxlı kəndlərində, Kifri, Tərətəppə, Əbud, Birəvçulu, Bostamlı, Talxanlu, Qaranaz, Ənbuhəsən, Ənbusabah, Əmirli, Əski Kifri, Yeşiltəpə, Kəhriz, Kinkirban, Kötəburun, Laqum, Məftun, Para-para, Pirvaz, Pirəhməd, Səyyad, Süleyman bəy, Hel Mənzil, Üçtəpə, Xasadarlı, Hasarlı, Hələvə, Cabbarlı, Şirvanə kimi şəhər və qəsəbələrdə yaşayırlar. Bundan başqa, Liyalə vilayətində, Şahraban, Dəlli Abbas, Məndəli Qarağan, Qızlarbat, Qızıl-

ça, Mənzəriyyə, həmçinin Ərbil, Mosul, Bağdad, Samirə kimi iri şəhərlərdə də türkmənlərin sayı az deyil.

İraqda türkmənlərin məskunlaşması eramızın VII əsrinə təsadüf edir. İlk zamanlar əsgəri bir heyət olaraq Bağdadda xidmət edən türkmənlər sonradan ciddi nüfuz qazanmış və həmişəlik burada qalmalı olmuşlar. Xüsusilə də, xəlifə Möhtəsim öz ətrafına xeyli türkmən toplamışdı.

Xilafətin Səlcuq türklərinin nüfuzu altına keçməsindən sonra soydaşlarımızın siyasi, hüquqi və mədəni inkişafı dirçəldi. Mosul (1127-1228), Ərbil (1144-1232) atabəylikləri yarandı, xüsusilə, şimal əyalətlərindən İraqa köçürülən türklərin vəziyyəti yaxşılaşdı. Tədricən Bağdad və onun ətrafında yerləşən ərazilər türkmənlərin nəzarətinə keçdi. Cəlayirilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə İraq türkmənləri bütün sahələrdə yüksək dövlət postlarında təmsil olunurdular. Türkmənlərin elm, ədəbiyyat, memarlıq, musiqi sahəsində uğurları artmağa başladı. Azərbaycan türkcəsi fars və ərəb dilləri kimi üstün mövqe qazandı. Qaraqoyunluların hakimiyyəti illərində türk dili dövlət səviyyəsində nüfuz qazandıqdan sonra mədrəsələrdə ana dilimizdə tədrisə başlandı. İraq türkmənləri Bağdad ətrafı ərazilərdə sıx-sıx məskunlaşıb, bəzi yerlərdə sayca ərəblərdən üstün olmaqla, doğma mədəniyyəti, musiqi və ədəbiyyatı, ənənələri təbliğ edirdilər. Burada yerləşən dini ziyarətgahlara, ticari məqsədlə İraqa edilən səfərlər İraq türkmənləri üçün çox rahat və sərbəst idi.





Osmanlı İmperiyasının qüvvətlənməsi, yeni ərazilər əldə etmək iddiası 1514-cü ilin məşhur Çaldıran döyüşündən sonra İraqın bu dövlətin nəzarətinə keçməsinə şərait yaratdı. Şah Abbasın dövründə qısa müddətə geri qaytarılan İraq sultan VI Murad tərəfindən yenidən Osmanlı İmperiyasının tabeliyinə keçirildi. Osmanlı dönəmində İraqa Anadoludan türk ailələri köçürülməyə başlandı. XVIII əsrin əvvəllərində isə Qarabağ xanı Pənahəli xan bu ərazidən əvvəllər İraqa köçürülmüş elatları geri qaytarmağa cəhd göstərdi.

I dünya müharibəsinə qədər Osmanlı İmperiyasının tabeliyində qalan İraqda soydaşlarımızın hüquqları, mövqeyi qismən də olsa qorunurdu. 1920-ci ildə qurulan İraq hökumətində bir Kərkük azərbaycanlısı nazir postuna təyin olundu. 1922-ci ildə İraq-Böyük Britaniya sazişinin 3-cü maddəsinə görə, azərbaycanlılar ana dilində təhsil almaq hüququ əldə etdilər. Lakin onlara verilən hüquqlar sonradan İraq hökuməti tərəfindən kobud şəkildə pozuldu.

1958-ci ildə İraqda respublika qurulmasında yaxından iştirak edən türkmənlər ilk illər müəyyən hüquqlar əldə etdikdən sonra 1959-cu ilin 1 fevralında Bağdadda türkmən dilində radio açıldı. 1960-cı ildə Bağdadda Türkmən Qardaşlıq Klubu (sonradan Ocaq oldu) yaradıldı. İraq türkmənlərinin iradəsilə təşkil olunan klub onların rəsmi nümayəndəliyi kimi sosial-mədəni sahədə fəaliyyət göstərməyə başladı. 1961-ci ildə "Qardaşlıq" jurnalının nəşrə başlaması klubun ilk mühüm işlərindən idi. İraq türkmənlərinin tari-

xini, həyat tərzini, dünya görüşünü əks etdirən jurnal 156 saylı 1977-ci il 6 fevral tarixli qərarla BƏƏS partiyasının nəzarətinə keçdikdən sonra nüfuzunu itirdi.

1968-ci il 17 iyun inqilabından sonra İraq türkmənlərinə ana dillərində təhsil almaq, doğma dildə jurnal, qəzet nəşr etmək, Kərkük televiziya və radiosunda verilişlər açmaq vədləri verildi. Lakin BƏƏS partiyası hakimiyyətdə möhkəmləndikdən sonra 1971-ci ildən başlayaraq, "Bağdaddan Kərkükədək hamı ərəbləşməlidir" siyasəti yeridilməyə başlandı. Rəsmi olaraq verilən hüquq və vədlərin çox hissəsi həyata keçmədi. Buna etiraz edən türkmən tələbələr, ziyalılar cəzalandırıldılar. İraq türkmənlərinin assimilyasiya olunması prosesi sürətləndirildi. Onların malik olduqları torpaq sahələri, mülklər müxtəlif bəhanələrlə zorla əllərindən alındı.

Azərbaycanlılar xristian, ərəb və kürdlərdən fərqli olaraq, seçkilər zamanı öz namizədliklərini irəli sürə bilməzdilər. Azərbaycan dili ərəb dilinin ağır təsiri altına düşdü. Doğma dildə təhsil almaq hüquqlarını itirən soydaşlarımıza hərb, polis sistemində işləmək, bu yöndə təhsil almaq qadağan olundu. Kərkük və digər ərazilərin adları ərəbləşdirildi.

Neftlə zəngin torpaqlarda yaşayan azərbaycanlılar zorla ucqar ərəb kənd və qəsəbələrinə köçürüldülər. Azərbaycan məktəbləri bağlandı. Rəsmi dairələrdə bu dildə danışmaq qadağan edildi. 7 yaşından sonra ərəb düşərgələrinə aparılan azərbaycanlı uşaqlara ərəb dili, mədəniyyəti və ideologiyası öyrədilirdi. Ərəb oğlanlarını azərbaycanlı qızlarla evləndirməyə həvəsləndirmək üçün hökumət belə gənclərə böyük miqdarda pul vəd edirdi.





Cənubdan yüzlərlə ərəb ailəsi soydaşlarımızın yaşadıqları ərazilərə köçürülərək geniş səlahiyyət və imkanlar qazanırdılar. Türkmənlərin alqı-satqı hüquqları əllərindən alındı. 1980-ci ildən sonra soydaşlarımız torpaq, ev, dükan satın ala bilməzdilər. Şəxsiyyət vəsiqəsi alarkən türkmənlərin milliyyəti zorla dəyişdirilirdi, onlar ərəb və kürd millətindən olduqlarını yazmağa vadar edilirdilər. Dövlət işlərində türkmənlər çalışa bilməzdilər. Soydaşlarımıza məxsus tarixi mədəniyyət abidələri dağılırdı. Məsələn, Kərkükdəki Daş körpü, Kərkük qalası uçurduldu. Türkmənlər zorla kürd və ərəblərin çox olduqları bölgələrə sürgün edilirdilər. Ərəb bölgələrinə köçənlər ev əşyalarını götürə bilərdilər. Lakin kürdlərin ərazisinə köçənlər üst paltarlarından başqa heç nə apara bilməzdilər. Bu cür haqsızlıqlara dözməyən yüzlərlə soydaşımız Danimarka, İsveç, Türkiyə və digər Avropa ölkələrinə mühacirət etməyə məcbur oldu. Nüfuzlu, cəmiyyətdə mövqe qazanan türkmənlər həbs edilir, gözdən salınırdılar.

Səddam Hüseynin hakimiyyəti illərində İraqdakı soydaşlarımızın vəziyyəti daha da pisləşdi. Təzyiqlər yolu ilə türkmənlərin qonşu ölkələrə köçməsini gücləndirən Səddam Hüseyn rejimi boş qalan ərazilərdə kürdləri və ərəbləri yerləşdirirdi. 8 illik müharibə illərində qardaşı qardaşa silah qaldırmağa vadar edən İraq və İran rejimlərinin amansız,

mənfur siyasətinin qurbanları əsasən hər iki ölkədə yaşayan və hər iki səngərdə vuruşan türkmənlər idi.

İraq türkmənlərinin 1990-cı ilin İraq Konstitusiyasında adları belə, çəkilmir. Konstitusiyada "İraq xalqı yalnız ərəb və kürdlərdən ibarətdir" bəndini qeyd etməklə insan hüquqlarını kobudcasına pozan, beynəlxalq hüquq normalarını tapdayan Səddam Hüseyn rejimi, aydındır ki, soydaşlarımızı bu iki xalqın içərisində "əritməyə" çalışıb. Ərəblərdən sonra İraqda ikinci böyük xalq olan soydaşlarımızın dili, mədəniyyəti son günlərdə sərt şəkildə sıxışdırılmaqda, folklor abidələri, ənənələri, mətbəx, milli varlığı yox edilməkdədir. Soydaşlarımızın kütləvi informasiya vasitələrinə çıxışı yox dərəcəsindədir.

Hazırda İraq türkmənləri ölkə daxilində və kənarda müxtəlif birliklər quraraq öz sosial-mədəni hüquqlarının bərpa edilməsinə çalışırlar. Bu sırada İraq Milli Azadlıq Hərəkatı, Şimali İraq Türkmən Cəbhəsi, Türkmən Milli Cəbhəsi, İraq Milli Türkmən Partiyası, Müstəqillər Partiyası, Qardaşlıq Ocağı, İraq türkmənlərinin Mədəniyyət Dərnəyi, İraq Türkmənlərinin Mədəniyyət və Yardımlaşma Dərnəyi, Türkmənistan Elli Gənclik və Tələbə Birliyi, Türk Milli Vəqfi, Kərkük Vəqfi kimi qurumlar var. Bu təşkilatlar İraqda başlanan hərbi əməliyyatlar zamanı burada yaşayan soydaşlarımızın zərər görməməsi və tarixi abidələrimizin qorunması üçün müəyyən işlər görmüşdür.

İraqda 1400 illik tarixə malik olan türkmənlər – azərbaycanlılar tarixin müxtəlif dövrlərində bütün çətinliklərə





baxmayaraq, öz kimliklərini, mənəviyyatını, ana dilini unutmamış, ulu babalardan qalan, misilsiz dəyərə malik ənənələri nəsildən-nəsilə ötürərək bu günümüzə çatdırmışlar.

**İsveç.** İsveçdə yaşayan soydaşlarımızın təqribi sayı 30 minə çatır. Azərbaycandan İsveçə mühacirət XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayıb. Əsasən Cənubi Azərbaycandan bu ölkəyə köçən azərbaycanlılar artıq XX əsrin ortalarında burada icmalarını yarada biliblər. Hazırda çoxsaylı media orqanları və təşkilatlarının fəaliyyət göstərdiyi İsveçdə soydaşlarımız fəal təbliğat işi apara bilir. İsveçdə Azərbaycanla bağlı bir çox tarixi sənədlərə və məlumatlara rast gəlmək olar. Xüsusilə, Upsala Universitetində Azərbaycan ədəbiyyatı, folkloru və tarixinə aid onlarla sənəd və material var.

Azərbaycanlılar İsveçin bir çox şəhərlərində məskunlaşmışlar. İsveçin "Daglus Nyhyer" ("Gündəlik xəbərlər") qəzetində verilən məlumata görə, təkcə 2002-2003-cü illərdə İsveç vətəndaşlığına 1000-dən çox azərbaycanlı daxil olmuşdur.

İsveçdə cənubi azərbaycanlılar çoxluq təşkil edir. Onların əksəriyyəti 20 ildən çoxdur İsveçdə yaşayır və bu ölkənin cəmiyyətinə artıq uyğunlaşıb. Azərbaycan Respublikasından olan miqrantlar, əsasən, son illər ərzində İsveçə mühacirət etmişlər.

Azərbaycanın dəstəyinə ehtiyaclarını gizlətməyən İsveç azərbaycanlıları informasiya sahəsində bir qədər fəaldırlar. «Tribun», «Varlıq», «Azərbaycan», «Araz» və sairə

qəzet və jurnallar nəşr edirlər.

İsveç parlamentində "Azərbaycan dostları" qrupu mövcuddur. Xocalı faciəsinin 17-ci ildönümündə Manaf Səbabinin təşəbbüsü ilə İsveç parlamentinin üç nəfər üzvü Azərbaycanda səfərdə olmuşdu. Onlar Xocalı faciəsinin nəticələri ilə, yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin qeyri-insani yaşayış şəraitləri ilə tanış olmuş, bütün bunlar haqqında İsveç və Avropa parlamentlərində məsələ qaldıracaqlarını bildirmişlər.

İsveçdə fəaliyyət göstərən İsveç Azərbaycan Federasiyası (AFİ) ölkə üzrə milli təşkilatların əksəriyyətini ("Durna", "Ulduz", "Azlink", "Günəş", "Ərk", "Savalan", "Azərbaycan Dostluq", "Yanar", "Azər", "Təbriz", "Akademik Mərkəz", "Oyanış", "Varlıq", "Türk-Az", "Babək-linşopinq", "21 Azər" və başqa təşkilatları) özündə birləşdirə bilib.

AFİ İsveçdə fəaliyyət göstərən milli təşkilatlar tərəfindən 1998-ci ildə təsis edilib. Təşkilatın məqsədi İsveçdə yaşayan azərbaycanlılar və burada fəaliyyət göstərən milli təşkilatlar vasitəsilə Azərbaycan mədəniyyətini, tarixini, dilini, adət-ənənələrini yaşatmaq, Qarabağ və digər bölgələrin işğal edilməsini, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın problemlərini ölkə ictimaiyyətinə, eləcə də İsveçdə fəaliyyət göstərən beynəlxalq təşkilatlara və dövlət strukturlarına çatdırmaqdır.

**İsveçrə.** Azərbaycanlıların təqribi sayı 4 minə qədər göstərilən İsveçrəyə soydaşlarımızın mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayıb. Bu illərdə varlı





təbəqədən olan azərbaycanlılar İsveçrəyə müalicə və istirahət məqsədilə gedirdilər. Azərbaycanlı milyonçuların külli miqdarda vəsait qoyduqları İsveçrə banklarında hazırda da hesablar qalmaqdadır. Bu ölkəyə təhsil almaq üçün də soydaşlarımız gəlirdilər. 1920-ci ilin yanvarında Rusiya və Avropa ölkələrinə müxtəlif ixtisaslar üzrə təhsil almaq üçün gedən azərbaycanlıların 50 nəfəri İsveçrəyə yola salınmışdı. Onlar təhsillərini bitirdikdən sonra geri qayıtmadılar.

II dünya müharibəsi illərində də azərbaycanlılar İsveçrədə məskunlaşmışlar. 1991-ci ildən də sonra İsveçrəyə mühacirətə gedən soydaşlarımız köhnə nəsil nümayəndələri ilə birgə Azərbaycan diasporunun formalaşdırılmasına başlamışlar.

Hazırda İsveçrədə bir neçə Azərbaycan təşkilatı və fondu fəaliyyət göstərir.

**İspaniya.** İspanların Azərbaycana və azərbaycanlı alimlərə marağı XII-XIII əsrlərdən başlanıb. Xüsusilə, Azərbaycanın görkəmli alimi Nəsrəddin Tusinin əsərləri ispan səyyahları və alimlərinin böyük marağına səbəb olmuşdur. Xristofor Kolumbun Amerika səfərini maliyyələşdirən İspan Kralının xəzinədarı, milliyyətcə yəhudi olan Qabriel Sanxes onu pul və əşyalarla təmin etmişdir. Qabriel Sanxesin əldə etdiyi sədəf üçün ləvazimatlar içərisinə müəllifi Nəsrəddin Tusi olan xəritə, miqyas (kompasın qədim növü) və digər astronomiya cihazları daxil idi.

XV əsrdən etibarən Azərbaycan dövlətləri (Ağqoyunlu, Səfəvi) Avropa ilə müntəzəm əlaqələr saxlayırdı. İspaniya ilə

də diplomatik-ticari münasibətlər qurulmuşdu. Xüsusən, Şah Abbasın dövründə qarşılıqlı əlaqələr inkişaf etmiş və 1599-cu ildə Hüseynəli bəyin başçılığı ilə İspaniya Kralının hüzuruna nümayəndə göndərilmişdir. Nümayəndə heyətinə Əliqulu bəy, Oruc bəy Bayat və Bünyad bəy daxil idi. Türkiyə əleyhinə müqavilə bağlamağa gedən elçilər Xəzər dənizi, Volqa çayı, Rusiya, Skandinaviya, Almaniya, İtaliya yolu ilə gedərək İspaniyaya çıxmış və burada naməlum səbəblər üzündən xristianlığı qəbul etmişlər. İspan Kralı III Filip onları xaç suyuna salmış və Əliqulu bəyə don Filip, Bünyad bəyə don Dieqo və Oruc bəyə isə Don Juan adı vermişdir. Bu elçilər xristianlığı qəbul etdikdən sonra İspaniya və Avropada öz müsbət keyfiyyətlərinə görə tanınmış və sevilmişlər.

1604-cü ildə isə ölkənin o zamankı paytaxtı Valyovildə Azərbaycan Səfəvi dövlətinə aid kitabın nəşr olunmasında Oruc bəyin rolu böyük olmuşdur.

İspaniyaya soydaşlarımızın mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərində daha kütləvi şəkil almışdır. Avropadan mühacirət edən azərbaycanlılar İspaniyanın paytaxtı Madriddə və digər şəhərlərdə məskunlaşmışlar. II dünya müharibəsindən sonra da xeyli sayda soydaşımız İspaniyada məskunlaşmalı olmuşdur.

1991-ci il dövlət müstəqilliyimiz elan edildikdən sonra İspaniya ilə ikitərəfli diplomatik münasibətlər qurulmuş və hazırda ticari, iqtisadi, diplomatik sahələrdə əlaqələr intensiv şəkildə inkişaf edir.





Son statistik məlumatlara əsasən İspaniyada yaşayan azərbaycanlıların təqribi sayı 5 minə yaxın göstərilir.

**Kanada.** Hazırda Kanadada 170 minə qədər azərbaycanlı yaşayır. Onların əksəriyyətini cənublular və türkiyəli azərbaycanlılar təşkil edir. Cənublu soydaşlarımız güclü maddi və intellektual imkanlara malikdirlər.

Azərbaycanlıların Kanadaya mühacirəti əsasən XX əsrin əvvəllərindən etibarən başlayıb. Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər, bununla paralel olaraq ADR-in süqutu soydaşlarımızın Kanadaya mühacirətini intensivləşdirmişdir. Lakin kütləvi mühacirət 1940-cı illərdən sonra baş verib ki, bunun nəticəsində soydaşlarımız Ontario, Ottava, Monreal, Kvebek və digər şəhərlərdə məskunlaşıblar.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Kanada azərbaycanlılarının fəaliyyətində canlanma yaranmışdır. 1989-90-cı illərdə Şimali Azərbaycandan Kanadaya mühacirət prosesinin güclənməsi buradakı diasporumuzun daha da təkmilləşməsinə şərait yaratdı.

Azərbaycanlıların Kanadada təşkil etdiyi tədbirlər siyahısına etiraz çıxışları, lobbiçilik, KİV sahəsində təbliğat, ikitərəfli əlaqələr, Kanada-Azərbaycan münasibətlərinin inkişafı və s. daxildir. İlk zamanlar güclü erməni və yunan icmalarının müqaviməti ilə üzləşən soydaşlarımız birgə fəaliyyət nəticəsində müəyyən qədər onları neytrallaşdırmağa nail olmuşdur.

Kanada azərbaycanlılarının kütləvi informasiya vasitələrində fəaliyyətini qismən müsbət qiymətləndirmək olar. Burada 1992-ci ildən etibarən təbliğat işinə diqqət yetirməyə başlayıblar. Hazırda Kanadada azərbaycanlılar tərəfindən təsis olunmuş "Odlar Yurdu" (www.radioodlaryurdu.com) yayımlanır. Bundan başqa, əvvəllər "Qurtuluş" jurnalı yayınlanırdı. Sonradan onu "İldırım" jurnalı əvəz elədi. İlk zamanlar "Azerbaijan Post" qəzeti nəşr edilirdi.

Kanada Azərbaycan Dərnəkləri Federasiyasının (KADF) təşəbbüsü ilə Kanadada "AzCan TV" adlı Azərbaycan telekanalı açılıb. KADF ilə ROGERS TV arasında bağlanan müqaviləyə əsasən, sentyabrın 1-dən efirə çıxan "AzCan TV" ilk mərhələdə həftədə 1 saatlıq proqramla ROGERS TV-nin nəzdində fəaliyyət göstərir.

**Qazaxıstan.** Orta Asiyanın aparıcı dövlətlərindən olan Qazaxıstan ilə Azərbaycanın tarixi əlaqələri orta əsrlərə gedib çıxır. Böyük "İpək yolu" dövlətləri olan Qazaxıstan və Azərbaycan arasında əlaqələr ticari və mədəni əsaslarla inkişaf etmişdir.

Hazırda təqribi sayı 90 min göstərilən Qazaxıstan azərbaycanlılarının bu ölkədə diaspor formalaşdırması XX əsrin 60-cı illərindən sonrakı dövrə təsadüf edir. 1920-ci illərdə Sovetlər Birliyində başlanan siyasi repressiyaların ən ağır zərbəsi Azərbaycana dəydi. Bunun nəticəsində azərbaycanlıların çox hissəsi Orta Asiya, Sibir kimi yerlərə sürgün edilirdilər. Belə azərbaycanlıların təqribən 120 min nəfəri Qazaxıstana sürgün





edilmişdir. İlk sürgün edilən soydaşlarımız Canbul, Çimkənd və Almatı vilayətlərində məskunlaşmışlar. Bu prosesdən sonra 40-50-ci illərdə davam edən repressiya prosesi azərbaycanlıların bura köçürülməsi ilə nəticələnmişdi. Onlar, əsasən, Gürcüstan və Azərbaycanın digər bölgələrindən olan deportantlar idilər. 1956-1960-cı illərdə isə on beş minə yaxın azərbaycanlı Qazaxıstanın xam torpağının münbitləşdirilməsinə kömək üçün buraya köçmüşlər.

Azərbaycan diasporu mədəni və ictimai fəaliyyətlə məşğul olur. Hüquq, iqtisadiyyat, ictimai işlər, texniki, elmi və digər sahələrdə çalışan soydaşlarımızın müəyyən hissəsi öz peşəsi üzrə xeyli qabağa gedərək, mühüm vəzifələr tutublar. Qazaxıstan azərbaycanlılarının çox hissəsi Vətənə gələrək, burada ailə həyatı qurmağa üstünlük verir. Qazax və ruslarla qarışıq nikaha girən bəzi soydaşlarımız isə ailələrində azərbaycanlı ənənələrini təbliğ edirlər. Azərbaycan təşkilatları Prezident N.Nazarbayevin rəhbərlik etdiyi Qazaxıstan Xalqları Assambleyasına daxildilər.

Qazaxıstanda insanların milli, dini, irqi zəmində heç bir problemi yoxdur. Bu ölkədə bacarığı sayəsində yüksək pillədə qərar tutmuş çoxlu azərbaycanlılar, beş nəfər vilayət, üç nəfər şəhər deputatımız var. Çu şəhərinin meri də azərbaycanlı Nizami Məmmədovdur. Ümumiyyətlə, dövlət strukturlarında azərbaycanlılar təmsil olunurlar. Vəkillər, alimlər arasında da xeyli soydaşımız var. Dövlət Dumasında hüquq müfəttişliyinin rəhbəri də azərbaycanlı – profes-

sor Mirbəşir Əliyevdir. Daxili İşlər Nazirliyi sistemində, hərbi sahədə, vergi orqanlarında yüksək rütbə daşıyan çoxlu həmvətənimiz fəaliyyət göstərir.

1990-cı illərdən Aktyubinsk vilayətində "Birlik", Astana şəhərində "Xəzər", Karaqanda vilayətində "Kamus", Povladar vilayətində «Vətən» və s. Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. "Nəsimi" Azərbaycan Mədəniyyət Mərkəzi Cambul vilayətinin Çu rayonunun Yeni yol – Novıy put kəndində yaradılmışdır.

Qazaxıstan azərbaycanlılarının iqtisadi və siyasi cəhətdən ən böyük təşkilatı 1997-ci ildən fəaliyyətə başlamış "Turan" Mədəniyyət Mərkəzidir. 1993-cü ilin mayında Qazaxıstan Ədliyyə Nazirliyində qeydiyyatdan keçən "Turan" ictimai-mədəni fəaliyyətlə məşğul olur. Mərkəzin rəhbərliyilə Almatıda "Ozan" şəhər Mədəniyyət Cəmiyyəti təsis olunmuş və bunun ardınca digər vilayətlərdə proses davam etmişdir.

Türk xalqlarının birliyi, mədəni tədbirlər, Qazaxıstan-Azərbaycan ikitərəfli əlaqələrinin inkişaf etməsi və s. istiqamətlərdə fəal iş aparan "Turan" Mədəniyyət Mərkəzinin analoqu olan Qazaxıstan, Qırğızıstan və Özbəkistandakı Azərbaycan ictimai-mədəni cəmiyyətlərinin konqresi "Turan"-nın missiyası daha geniş və fəaliyyət isə böyükdür. "Turan" konqresinin orqanı olan "Vətən" qəzeti qeydiyyatdan keçmişdir. Qəzet Azərbaycan, qazax və rus dillərində çap olunur.

Bu ölkədə, eyni zamanda, "Turan Ekspress" adlı qəzet də dərc edilir.





Hazırda Astana, Almatı, Taldıkurqan, Qaraqanda şəhərlərində Azərbaycan dilində "Bazar günü" məktəbləri fəaliyyət göstərir. Xoca Əhməd Yəsəvi adına Türküstan Universitetində azərbaycanlılara hər il 10 yer verilmişdir.

Almatıda ilk Azərbaycan məscidi də fəaliyyətə başlayıb. Məscidin tikintisinə 70 min ABŞ dolları həcmində vəsaitin toplanmasında Qazaxıstanda yaşayan azərbaycanlı ziyalılar, elm xadimləri, konqres üzvləri, eləcə də qazaxların özləri də yardımçı olublar.

**Qırğızıstan.** Orta Asiyanın bu dövlətilə Azərbaycan arasında münasibətlər əsasən XX əsrin əvvəllərindən inkişaf etməyə başlayıb. Təqribən 15 min nəfərə yaxın soydaşımızın yaşadığı Qırğızıstana azərbaycanlıların ilk mühacirəti 1929-1930-cu illərə təsadüf edir. Bu mühacirət, əslində, məcburi köçürülmə sayəsində baş vermişdir ki, bunun əsas səbəbi Azərbaycanda baş verən repressiya və təzyiqlər idi. Buraya köçürülən azərbaycanlılar kənd rayonları olan Çuy vadisi və onun əyaləti Arovan rayonunda yerləşdirilmişlər. Burada heç bir yerə köçmək hüququ olmadan çətin şəraitdə yaşayan azərbaycanlılar taxılçılıq, pambıqçılıq və digər kənd təsərrüfatı sahələrində çalışırdılar. Bu cür ağır şəraitə baxmayaraq, soydaşlarımız Centi-Cer, Centi-Paxta sovxozları, Sonkul rayonunda Qırğızıstan elektrik stansiyasını tikib başa çatdırmışlar.

İlk zamanlar ağır iş şəraiti və soyuq iqlimə dözməyən yüzlərlə soydaşımız vəfat edirdi. Yerli əhalinin dəstəyi və

yerli şəraitə çətinliklə də olsa adaptasiya olunmaları azərbaycanlıların tamamilə məhvinin qarşısını almışdır.

II dünya müharibəsindən sonra Qırğızıstan azərbaycanlıları elm və təhsil almaq üçün ölkənin ali məktəblərinə daxil olmağa başladılar. Bunun sayəsində Qırğızıstanda Azərbaycan diasporunun ziyalı təbəqəsi yarandı. Müəllim, zootexnik-veteranlar, mühəndis, həkim və digər peşələr üzrə təhsil alan soydaşlarımızın bir çoxu öz sahələri üzrə peşəkar mütəxəssis kimi tanınırdılar.

Tədricən Qırğızıstanda yaşayan soydaşlarımızın ölkənin ictimai-mədəni həyatında rolu artmağa başlayıb. Bişkek başda olmaqla, digər şəhərlərə köçməyə başlayan soydaşlarımız öz milli adət-ənənələrini qoruyub saxlamaqla yerli cəmiyyətə sürətlə inteqrasiya olunur. Burada öz milli bayramlarını daim təmtəraqla qeyd edən azərbaycanlılar milli mətbəximizi qırğızlara təbliğ edirlər.

**Latviya.** Təxminən 2 minə yaxın azərbaycanlının məskunlaşdığı Latviyaya soydaşlarımız əsasən Sovetlər Birliyi dövründə köçmüşlər. II dünya müharibəsindən sonra elm, təhsil, sosial-iqtisadi səbəblərlə Latviyaya yüzlərlə azərbaycanlı miqrasiya etmişdir.

1991-ci ildə Sovetlər Birliyinin dağılması Latviyada yaşayan soydaşlarımızın diaspor hərəkatında fəal iştirakına zəmin yaratdı. Latviyada yaşayan soydaşlarımız milli-mədəni tədbirlərdə bir yerə toplaşır, imkanları daxilində Vətənə kömək və dəstək verməyin yollarını müzakirə edirlər. İlk zamanlar Latviya rəsmilərinin Azərbaycan diasporuna biganəliyi müşahidə olunurdusa, son bir neçə ildə bu tendensiya müsbət istiqamətə dəyişməkdədir. Latviya kütləvi informasiya vasitələrində Azərbaycan və azərbaycanlılar barədə məlumatların yayımlanması ənənəvi xarakter almağa başlamışdır.

**Litva.** Litvada 1500 nəfərdən çox azərbaycanlı yaşayır. Soydaşlarımızın bu ölkəyə miqrasiyası II dünya müharibəsindən sonra başlayıb. Litvanın Kaunas, Vilnüs başda olmaqla, müxtəlif şəhər və rayonlarında məskunlaşan azərbaycanlılar əsasən ticari sahədə çalışırlar. Buna baxmayaraq, dövlət orqanlarında da azərbaycanlılara rast gəlmək olar. Litva azərbaycanlıları Azərbaycanın təbliği, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə həqiqətlərin bu ölkənin ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş aparmaqdadırlar.

**Moldova.** Moldovada təxminən 6 mindən çox soydaşımız yaşayır. Azərbaycanlıların bu ölkədə məskunlaşması XX əsrin ilk onilliyindən başlayıb. Azərbaycanlılar Moldovaya işləmək və təhsil almaq üçün köçürdülər və bu proses xüsusilə XX əsrin 60-80-ci illərində daha intensiv xarakter aldı. Moldovanın Kişineu başda olmaqla, digər şəhər və rayonlarına səpələnən azərbaycanlıların əsas iş yerləri ticari obyektlər və elm-təhsil müəssisələri idi. Burada 1993-cü ilə qədər pərakəndəlik və passivlik var idi. Artıq bu tarixdən etibarən təşkilatlanmaq, Vətənlə əlaqə qurmaq, birləşmək fikri tez-tez soydaşlarımız arasında səslənməyə başladı.

İlk zamanlar təbliğat sahəsində bir sıra uğurlar əldə edən Moldova azərbaycanlıları "Araz" adlı qəzet nəşr edirdilər. Moldova televiziya kanallarında, radio proqramlarında və qəzetlərdə Azərbaycan və azərbaycanlılar barəsində bir sıra məlumatlar da dərc olunmuş və yayımlanmışdı.

Hazırda Moldovada bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Bunların içərisində Moldova Azərbaycanlıları Konqresi ən böyük təşkilatdır. Konqresin azərbaycanlılar yaşayan regionlarda bölmələri fəaliyyət göstərir. MAK Azərbaycan həqiqətlərinin Moldova ictimaiyyətinə çatdırılması, ölkəmizin milli maraqlarının qorunması istiqamətində fəal iş aparır.

**Misir.** Azərbaycanlıların Misirdə məskunlaşması II dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Alman ordusunun tərkibində fəaliyyət göstərən azərbaycanlı mühacirlərin müharibədən sonra köçdükləri ölkələr içərisində Misir də var. Bəzi tarixi mənbələrdə II dünya müharibəsindən sonra əsir düşən azərbaycanlıların ingilis və fransız hərbi qüvvələrindən xilas edilərək Misirdə yerləşdirilməsi barədə məlumatlara rast gəlmək mümkündür. Misir kralı və onun yaxın adamlarının sayəsində xilas olan soydaşlarımız Misirdə evlə, işlə təmin olunmuş və özlərini qorumaq məqsədi ilə pərakəndə və gizli formada yaşamağa məcbur olmuşlar.

Cənubi Azərbaycandan da mühacirət prosesinin güclənməsi nəticəsində Misirdə azərbaycanlılar icması yaradıldı. Enerjili, intellektual və sosial baxımdan xeyli fəal və





gənc hesab olunan azərbaycanlılar 90-cı illərdən etibarən ictimai həyatda fəal iştirak etməyə başlamışlar.

**Norveç.** Burada da təqribən 3 minə yaxın soydaşımız yaşayır. Əsasən XX əsrin əvvəllərindən bu günə qədər buraya köçən azərbaycanlı Norveçə məxsus adalarda yaşayırlar. Norveç dövlətinin daxili qanunvericiliyi bura köçən ilk mühacirlərə iri şəhərlərdə yaşamaq imkanı vermir. Norveç-Azərbaycan arasında münasibətlərin günü-gündən inkişaf etməsi buradakı soydaşlarımızın fəaliyyətinə ciddi təsir göstərir. Norveç Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə norveçli musiqiçilər Bakıda, azərbaycanlı müğənnilər isə Osloda konsert proqramları ilə çıxış edirlər.

**Özbəkistan.** Azərbaycan və Özbəkistan arasında mədəniyyət və ticarət əlaqələrinin kökü qədim dövrlərə təsadüf edir. Tarixən Orta Asiyanın bu respublikasına azərbaycanlıların bir hissəsi könüllü mühacirət etmiş, bir qismi isə zorla köçürülmüşdür. Xüsusən, Əmir Teymurun Azərbaycana yürüşləri nəticəsində yüzlərlə sənətkar, elm xadimi və nüfuzlu peşə sahibləri Səmərqəndə sürgün edilmişlər.

Azərbaycanlılar Özbəkistanın ictimai-mədəni həyatında tarixən mühüm izlər qoymuşlar. Qədim Xarəzmin X əsr tikililərindən olan Beleuci yolüstü karvansara binası Şirvan ustalarının zəhmətinin bəhrəsidir. Əmir Teymurun doğma şəhəri Şəhri-Səbzdə 1380-ci ildə tikilən Ağsaray kompleksinin müəllifi də azərbaycanlı memar Məhəmməd Yusif Təbrizi idi. XIV-XV əsrlərdə Səmərqənddə inşa edilmiş Şahi-

zində türbə kompleksi isə Fəxsar Zeynəddin Şəms Təbrizi tərəfindən tikilmişdir.

Böyük bir imperiyanın yaradıcısı olan Əmir Teymur azərbaycanlı sənətkarları Səmərqənddə aparılan inşaat işlərinə cəlb etmək məqsədilə sürgün etmişdir. Bu sürgünlər XIV əsrin II yarısı - XV əsrin əvvəllərində azərbaycanlıların Özbəkistanda kütləvi şəkildə məskunlaşdırılmasına səbəb olmuşdur.

Sonrakı dövrdə baş verən ictimai-siyasi proseslər, dünyanın siyasi xəritəsində yeni dövlətlərin çoxalması, rus işğalı və s. hadisələr Özbəkistandakı azərbaycanlılar barədə məlumatların itməsinə səbəb olmuşdur. Bu səbəbdən, tədqiqatçılar Özbəkistanda Azərbaycan diasporunun formalaşmasını XX əsrin əvvəllərindən başlayaraq bu günə qədər davam edən mühacirət prosesi kimi xarakterizə edirlər. Jurnalist-tədqiqatçı Yaşar Qasım Özbəkistanda konkret olaraq Azərbaycan diasporunun formalaşma prosesini aşağıdakı mərhələlərə bölür:

- 1905-1907-ci illərdə ermənilərin Azərbaycan ərazilərində həyata keçirdiyi kütləvi qırğınlar zamanı başqa ölkələrə, o cümlədən Özbəkistana miqrasiya edənlər;
- Oktyabr çevrilişi, vətəndaş müharibələri və ümumən 1918-1920-ci illərdəki hadisələr nəticəsində mühacirət edənlər;
- 30-40-cı illərdəki deportasiya və repressiyalar zamanı Özbəkistana məcburi sürgün edilənlər;





- 1950-1960-cı illərdə aparılan quruculuq işləri ilə əlaqədar köçürülənlər;
- 60-cı illərin axırı və 70-ci illərin əvvəlində başlanan sənayeləşmə ilə xarakterizə olunan yeni dövr.

1991-ci il Azərbaycan dövlət müstəqilliyinin əldə olunmasından sonra həmvətənlərimizin Qərb və Şərq ölkələrinə başlanan kütləvi miqrasiyası azərbaycanlıların Özbəkistana mühacirətinin sonuncu mərhələsi kimi qiymətləndirilə bilər.

Müasir dövrdə Azərbaycan diasporunun Özbəkistanda sayı 60.000 nəfər civarında göstərilir. Özbəkistan azərbaycanlılarının məskunlaşdıqları əsas yaşayış məntəqələri aşağıdakılardır (rəqəmlər yuvarlaqlaşdırılmışdır):

- Daşkənd vilayəti - 20.000
- Səmərqənd vilayəti - 13.000
- Buxara vilayəti - 4.000
- Sırdərya vilayəti - 4.000
- Nəvai vilayəti - 4.000
- Fərqanə vilayəti - 3.000
- Əndican vilayəti - 3.000
- Qaraqalpaq vilayəti - 4.000 və s.

Seyid Rza Əlizadə, Maqsud Şeyxzadə kimi görkəmli şəxsiyyətlər yetişdirən Özbəkistanda Azərbaycan diasporu bu ölkənin ictimai-siyasi həyatında iştirak edir, vətənlə intensiv əlaqə saxlayır, mədəni-kütləvi tədbirlər həyata keçirir.

4 noyabr 2002-ci ildə Özbəkistanda "Azərbaycanlıların Milli Mədəni Assosiasiyası" təsis edilmişdir ki, bu birlik

6 vilayətdə filiallarını qeydiyyatdan keçirərək geniş fəaliyyət göstərir. 2003-cü ildə Daşkənddə "Azərbaycan evi" və məscid tikililərinin başa çatdırılması yeniyetmə və gənc soydaşlarımızın milli adət-ənənələr ruhunda tərbiyə olunmasına xidmət edir.

Özbəkistandakı ən böyük Azərbaycan diaspor təşkilatlarından biri də Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasıdır. Bu təşkilat Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatdırılması, milli-mədəni irsimizin təbliği, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı çox mühüm işlər həyata keçirir. Təşkilat Özbəkistanın ictimai-siyasi dairələri ilə də yaxşı əlaqələrə malikdir.

Özbəkistandan Azərbaycan mədəniyyətini ilk illər "Lalə" qızlar ansamblı, indi isə "Mehrican" Qəyyumluq Şurasının adını daşıyan "Mehrican" ansamblı təbliğ edir. Hazırda Özbəkistanda yaşayan azərbaycanlılar elm, incəsənət, kənd təsərrüfatı, biznes, idman və digər sahələrdə çalışırlar.

**Polşa.** Azərbaycan ilə Polşa əlaqələrinin başlanğıcı bəzi mənbələrdə X əsrdən götürülür. Polşa Avropa ailəsinə dövlət kimi daxil olan zaman artıq Azərbaycan ipəyi, zərgərlik məmulatları, xalçaları barədə polşalılarda ümumi məlumat var idi. Polşalı tacirlər Azərbaycana gəlir, azərbaycanlı tacirlər ilə Polşaya mal aparıb satırdılar. XVII-XVIII əsrdə Polşadan dini missiyalar Azərbaycana gəlirdi. Diplomatik münasibətlər XV əsrdən qurulduğundan, polşalı missionerlərin katolik təriqətini yaymaq üçün ölkəmizə





azad səfər edə bilirdilər. Azərbaycanlı müğənnilərin və musiqiçilərin Polşada səs yazdırması, elm-təhsil dalınca gəlməsi, ticari əlaqələr Polşa ilə Azərbaycan münasibətlərinin inkişafında böyük rol oynayırdı. XX əsrin əvvəllərindən isə Polşaya ilk azərbaycanlı mühacirlər köçməyə başlayırlar ki, onların əksər hissəsini cənublu soydaşlarımız təşkil edirdi. Lakin II dünya müharibəsi illərinin başlaması şimallıların sayının çoxalmasına şərait yaratdı. Təəssüf ki, Polşada yaşayan azərbaycanlıların bir hissəsinin milliyyətinin rus, türk və iranlı göstərilməsi burada yaşayan azərbaycanlıların təqribi sayını müəyyən etməyə maneə törədir.

Polşada azərbaycanlılar Varşava, Qdansk, Plotsk və digər şəhərlərdə məskunlaşıblar. Polşada Azərbaycanla bağlı bir çox mənbələr və sənədlər var. Abbasqulu ağa Bakıxanovun, M.Rəsulzadə və digər ədiblərimizin əsərlərində Polşa barəsində də məlumat əldə etmək olar. Polyak dillərində Azərbaycan dastanları, şeirləri, nağılları hazırda buranın arxiv və kitabxanalarında saxlanılır.

**Rusiya.** Bu gün Azərbaycan diasporunun ən geniş və intensiv fəaliyyət göstərdiyi ölkələr içərisində Rusiya Federasiyası xüsusilə diqqəti cəlb edir. Hal-hazırda qeyri-rəsmi statistikaya görə, Rusiyada 2,5 milyona yaxın soydaşımız yaşayır ki, onlar Federasiyanın 89 subyektinin hamısında məskunlaşmışlar.

Rusiya ilə Azərbaycan tarixi əlaqələri X əsrdən etibarən inkişaf etməyə başlamışdır. Zamanla Rusiyanın güclən-

məsi səbəbilə imperiya maraqlarına Azərbaycan da daxil edildi. Xüsusilə, Azərbaycan uğrunda Rusiya-Türkiyə-İran qarşıdurması qanlı nəticələr vermiş və bundan yerli əhali əziyyət çəkmişdir.

Rusiya dövlətinin qüdrətli inkişaf dövrü keçdiyi zaman başqa yerlərdə olduğu kimi, Azərbaycanda da bu dövlətə köçənlər arasında ticarət və elm xadimləri var idi. Tədqiqatçıların araşdırmalarına görə, Böyük Moskva knyazı III Vasili, İvan Qroznı və I Pyotrın çarlığı dövründə Rusiyaya köçən azərbaycanlı sənətkarlar, tacirlər, elm xadimləri Moskva, Sankt-Peterburq, Moskva ətrafı ərazilərdə məskunlaşırdılar. Azərbaycanlılar içərisində Rusiya dövlət idarələrində çalışanlar barəsində arxivlərdə məlumata rast gəlmək olar.

Rusiya Xarici İşlər Nazirliyində tərcüməçi işləmiş Nəsirov və Mirzə əbu Turab Vəzirov XVIII əsr Azərbaycan diasporunun tanınan nümayəndələri olublar. 1828-ci il "Türkmənçay" müqaviləsinə qədər Rusiyaya təhsil almaq məqsədilə gedib burada daimi yaşayan soydaşlarımızdan Mirzə Abdulla Vəzirov, Mirzə Cəfər Topçubaşov, Abbasqulu ağa Bakıxanov kimi tanınmış şəxslərin adlarını çəkmək olar.

1813-1828-ci illər imzalanan "Gülüstan" və "Türkmənçay" sülh müqavilələri Azərbaycanı bir dövlət, azərbaycanlıları bir millət kimi iki hissəyə parçaladı. Rusiya tabeçiliyində qalan Şimali Azərbaycanın vətəndaşları Rusiya təbəəsi olurdular.





1828-1991-ci illər arası Rusiyaya axını güclənən mühacirət prosesini təqribi olaraq aşağıdakı dövrlərə bölmək olar:

1. 1828-1918-ci illər – əsasən elm, sənət və digər işlərlə məşğul olan Azərbaycan mühacirləri Rusiya ərazisində say etibarı ilə seçilən icmalarını yarada biliblər. Bu illər ərzində bir çox tanınmış azərbaycanlılar imperiyanın sayılıb-seçilən insanlarından olmaqla, Rusiyanın elminə və iqtisadiyyatına öz töhfələrini vermişlər. Rusiya elmində, hərbində və iqtisadiyyatında danılmaz rolu olan azərbaycanlılardan Əliağa Şıxlinski, Mirzə Məhəmmədəli, Hacı Kazım, Mirzə Kazım bəy, Ağababa Sadıqov, İbrahim ağa Usubov və yüzlərlə digər insanın adını çəkmək olar.

2. 1922-1960-cı illər – Azərbaycan Demokratik Respublikasının süqutundan sonra bolşevik siyasi ideologiyasının tərəfdarı olan bəzi azərbaycanlılar Rusiyaya köçməyə başlamışlar. Əsasən II dünya müharibəsi illərində və müharibədən sonrakı dövrdə rus qadınları ilə ailə qurub burada yaşayan soydaşlarımız Azərbaycan mühacirətinin ikinci dalğasının nümayəndələridir.

Bununla yanaşı, 30-cu illərin repressiyaları zamanı Sibir, Mərkəzi və Orta Asiya, Rusiyanın ucqar əyalətlərinə sürgün edilən azərbaycanlılar bu ərazilərdə yaşamağa məcbur olmuş və onların çox cüzi hissəsi vətənə qayıda bilmişdir.

3. 1960-80-ci illər – bu dövrün mühacirəti sosial və iqtisadi səbəblərlə bağlıdır. İlk olaraq Rusiyanın əyalətlərində

böyük tikililər – Sibirdə Baykal-Amur magistralı, Volqaboyunda, Tümendə yeni neft yataqlarının istismarı, yeni şəhərlər salınması səbəbilə minlərlə azərbaycanlı bura köçmüş və ya köçürülmüşdür. Bu mühacirət prosesinə müvafiq olaraq II Bakı, III Bakı, IV Bakı kimi anlayışlar yaranmışdı.

1970-ci ildən isə Rusiyaya təhsil almağa gedib geri qayıtmayan azərbaycanlılar da çoxluq təşkil edirlər. Moskva, Leninqrad və digər iri şəhərlərə oxumağa gedən azərbaycanlılar təhsil müddəti bitdikdən sonra öz ixtisasları üzrə işləyərək Azərbaycan icmasının ziyalı təbəqəsini təşkil ediblər. Bu barədə Azərbaycan xalqının ümummilli lideri 2002-ci ilin 9 iyununda Rusiyaya işgüzar səfəri zamanı etdiyi nitqdə xüsusi olaraq qeyd etmişdir: «Mən o vaxt SSRİ-dən böyük çətinliklərlə ilbəil kvota alırdım. Birinci il 100 yer verdilər ki, onlar imtahansız qəbul ediləcəklər. Yəni, imtahanı Azərbaycanda verəcəklər, gəlib Moskvada imtahan verməyəcəklər. İkinci il 200, sonra 300, daha sonra bu rəqəm 800-ə qalxdı. Axır vaxtlar biz ildə 800 gənc göndərirdik. Əgər burada onlardan varsa, ola bilər, xatirələrindədir. Lenin sarayında, indi Respublika sarayı adlanır, hər il onlarla görüş keçirirdik. 17-18 yaşlı 2500 gənci avqust ayında biz Respublika sarayına yığırdıq, hamısına ağ köynəklər, qalstuk geyindirdik, hərəsinə yol pulu, bir aylıq təqaüd verirdik. Mən də harada olsam da, avqust ayının ya 29-u, ya da 30-u gərək mütləq Bakıda olaydım. Çünki mən özüm onlarla görüşməli idim.





İnanın, mən hər bir gəncə öz övladım kimi baxırdım. Mənim arxivimdə çox şeylər var. Bir çox şeyləri də mən Moskvaya köçəndə Bakıda qoyub getdim. Sonra biri Azərbaycana gəlmiş, mənim arxivimin Bakıda qalan hissəsini yandırmışdı. Əvvəl kranı açıb otaqlara su tökmüşdü, arxivdəkilər xarab olandan sonra çıxarıb yandırmışdı. Amma o şeyləri ki, mən Moskvaya aparmışdım, indi də qalır.

Hər il 800 adam ki, SSRİ-nin bütün ali məktəblərinə müsabiqədənkənar qəbul olunurdu, onların siyahısı mənim arxivimdədir. Nə üçün? Çünki bilirsinizmi, bu, mənim əsərimdir. Bunlar mənim övladlarımdır. İndi kim bunu qiymətləndirirsə, qoy qiymətləndirsin, kim unudursa, qoy unutsun. İnsanın doğma övladlarının da bəziləri, görürsən, sonra atasını unudur. Amma mən bunların hamısına övladlarım kimi baxmışam. Sözü nəyə gətirirəm? Biz hətta bu cür edirdik. Amma indi, əgər müəyyən miqrasiya gedirsə, azərbaycanlılar gəlib Rusiyada yerləşiblərsə, bunun nəyi pisdir? İndi Rusiyada bizim iki milyonluq diasporumuz var».

4. 1991-ci ildən bu günə qədər davam edən mühacirət prosesi əsasən iqtisadi səbəblərlə əlaqəlidir. Bu tarixdən başlanan mühacirət prosesi barədə tədqiqatlarda qeyd edilir ki, bu şəxslər Rusiyanın müxtəlif şəhər və rayonlarında məskunlaşdıqdan sonra diaspor formalaşdırılması zərurəti meydana çıxmışdır. Hal-hazırda sayı 2-2,5 milyona ça-

tan Rusiya azərbaycanlılarının əksəriyyətini 1991-ci ildən sonra kütləvi şəkildə bu əraziyə köçənlər təşkil edirlər.

Göründüyü kimi, Rusiyada Azərbaycan diasporunun formalaşması bir neçə mərhələdən keçib. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra buradakı soydaşlarımızın diaspor formalaşdırması prosesi xüsusi intensivliklə başlanmış və hazırda davam etməkdədir.

Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan 13 mərkəz fəaliyyət göstərsə də, bunlardan ikisi - Ümumrusiya Azərbaycanlıları Konqresi, Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti FNKA-Azerros ətrafında Azərbaycan cəmiyyətləri və təşkilatları toplaşıb və Rusiyanın bir çox bölgəsində özəkləri var. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında fəaliyyət göstərir.

Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və cəmiyyətlərini ətrafında birləşdirən iri qurumlar fəal işlə məşğul olur. Belə qurumlardan böyüyü və geniş imkanlara malik olanı Ümumrusiya Azərbaycanlıları Konqresidir. ÜAK 2001-ci il martın 5-də Moskva şəhərində təsis olunub. Azərbaycan və Rusiya rəsmi dövlət strukturları tərəfindən tanınan konqresin Rusiyanın 60-dan çox şəhərində strukturu formalaşıb. Rusiyanın demək olar ki, bütün iri şəhərlərində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri konqresin üzvləridir.

2001-ci il 4 oktyabrında ÜAK-ın birinci qurultayı keçirildi.





ÜAK-ın məqsəd və vəzifələrinə daxildir:

• Azərbaycan Respublikasının vətəndaşı olub, Rusiya Federasiyasında yaşayan azərbaycanlıların vətəndaş hüquqlarının müdafiəsi, sosial-mədəni inkişafa yardım etməklə reallaşdırmaq;

• Rusiya Federasiyasındakı azərbaycanlıların milli əlaqələrini, kimliyini və dinini, mədəni irsini qoruyub saxlamaq və inkişaf etdirmək;

• Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərini inkişaf etdirmək, milli-mədəni tədbirlərin reallaşdırılmasında iştirak, mədəni və milli əlaqələrin müxtəlif formalarda (mədəniyyət mərkəzləri, icmalar, tarixi abidələrin və məzarların qorunması, milli təhsilin inkişafı) inkişaf etməsinə dəstək;

Hazırda konqres "Азербайджанский конгресс" qəzetini nəşr edir. www. azcongress.ru internet saytını yaradıb. ÜAK-ın təşəbbüsü ilə Tümen yerli televiziyasında Azərbaycan dilində verilişlər yayımlanır.

ÜAK-dan başqa, Rusiyada Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən böyük qurumlardan biri də Rusiya Azərbaycanlılarının Milli Mədəniyyət Muxtariyyəti (FNKA-AZERROS) birliyidir. 1999-cu ildən fəaliyyətə başlayan AZERROS-la həmin ilin 10 oktyabrında Rusiya Federasiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qurum Rusiya hökuməti və Dövlət Duması yanında ölkə prezidenti V.Putinin fərmanı ilə yaradılan Məsləhət Şurası-

nın üzvüdür. Bununla Dövlət Dumasında daimi qaydasında səs hüququ əldə edən AZERROS ekstremizm, cinayətkarlıq, milli münasibətlər və s. məsələlərin müzakirəsi zamanı öz əlavə və düzəlişlərini təklif etmək, yeni layihələr təqdim etmək təşəbbüsü ilə çıxış etmək hüququna malikdir.

III Qurultaydan sonra AZERROS-un məqsəd və vəzifələri aşağıdakı kimi qəbul olunub:

- Rusiyada Azərbaycan mədəniyyətini təbliğ etmək;
- Rusiya azərbaycanlıları arasında həmrəyliyə nail olmaq;
- Rusiya azərbaycanlılarının hüquqlarının müdafiəsi;
- Rusiya-Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafı;
- Rusiyada informasiya işinin qurulması və lobbiçilik.

Hazırda AZERROS - "AZERROS-Азербайджанцы России" qəzetini və www.azerros.ru internet saytını himayə edir.

2009-cu il aprelin 18-də Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) təsis konfransı keçirilmişdir. Konfransda Rusiyanın 60-dan çox regionunda fəaliyyət göstərən 83 Azərbaycan gənclər klubu və təşəbbüs qrupundan 300-dək nümayəndə, habelə Bakıdan dəvət olunmuş qonaqlar və Rusiyanın rəsmi şəxsləri iştirak etmişlər. Toplantıda gənclərimizin qarşısında duran vəzifələr. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması zərurəti, gənclərin diaspor quruculuğu işində daha





fəal iştirakının vacibliyi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Toplantının yekununda təşkilatın nizamnaməsi səsə qoyularaq qəbul edilmiş, rəhbər orqanlara seçkilər keçirilmişdir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva yekdilliklə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri seçilmişdir.

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal təbliğat işi qurmağa nail olmuşdur. Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət» beynəlxalq təbliğat kampaniyası çərçivəsində dünyanın bir sıra ölkələrində Xocalı soyqırımı ilə bağlı tədbirlər təşkil olunmuş, bu soyqırımı aktının nəticələri barədə məlumatlar verilmiş, filmlər nümayiş olunmuşdur. Ümumiyyətlə, təşkilat qısa vaxt ərzində böyük işlər görə bilmiş, Rusiya Federasiyasında yaşayan bütün azərbaycanlı gəncləri öz ətrafında birləşdirməyə müvəffəq olmuşdur. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı hazırda dünyada ən nüfuzlu Azərbaycan diaspor təşkilatlarından biri hesab olunur.

**Türkiyə.** Tarixi mənbələrdən məlumdur ki, Azərbaycan mühacirlərinin köçdükləri ölkələr içərisində Türkiyə xüsusi yer tutur. Dil-din yaxınlığı, soy-kök eyniliyi nöqteyinəzərindən təbii hesab olunan bu proses nəticəsində tarix boyunca həm Şimali, həm də Cənubi Azərbaycandan Türkiyəyə köçən soydaşlarımızın sayı minlərlə idi. Soydaşlarımızın Türkiyəyə tarixi ictimai-siyasi hadisələr səbəbilə mü-

hacirətləri nəticəsində hələ ötən əsrin əvvəllərindən Azərbaycan diasporu formalaşmışdır. Zamanla dünyada baş verən ictimai-siyasi dəyişikliklər nəticəsində azərbaycanlıların bu ölkədə siyasi fəaliyyətində xeyli dəyişiklik yarandı.

1820-ci ildə Azərbaycan Demokratik Respublikasının süqutundan sonra azərbaycanlıların köçdükləri ölkələr içərisində Türkiyə birinci yeri tuturdu. Buradakı Azərbaycan siyasi mühacirəti ölkəni Sovet işğalından qurtarmaq üçün geniş fəaliyyət göstərmiş və mətbuat təsis edərək Azərbaycan barəsində xəbərləri yerli ictimaiyyət və burada yaşayan soydaşlarımıza çatdırmışlar. Lakin Türkiyə Cümhuriyyətinin o zamankı mürəkkəb geosiyasi şərtlər daxilində məcburən Sovetlər Birliyi tabeçiliyində qurulan Sovet Azərbaycanını tanıması burada yaşayan soydaşlarımızın fəaliyyətində passivlik və ümidsizlik yaratdı.

Azərbaycanın II dünya müharibəsindən sonra müstəqillik əldə etməsi ilə bağlı ehtimalların meydana çıxması Türkiyədə yaşayan soydaşlarımızın fəallaşmasına səbəb oldu. Xüsusilə, M.Rəsulzadənin alman dövlət qurumları ilə apardığı danışıqlar və Azərbaycan legionlarının yaradılması Türkiyə azərbaycanlıları tərəfindən rəğbətlə qarşılandı. II dünya müharibəsinin Almaniyanın məğlubiyyətilə nəticələnməsindən sonra Türkiyəyə geri dönən M.Ə.Rəsulzadə ilə bərabər Avropada yaşayan Azərbaycan siyasi mühacirətinin bir sıra görkəmli nümayəndələrinin Türkiyəyə daxil olma hüququ əldə etməsi buradakı Azərbaycan diasporunun fəaliyyətini canlandırdı. Siyasi ideoloji baxımdan güclənən Azərbaycan diasporunun köhnə və yeni nəsli arasında fikir ayrılığına son qoyan Rəsulzadə Azərbaycan Milli Mərkəzi təsis edib ətrafında çoxsaylı soydaşlarımızı birləşdirməyə nail oldu.





1990-cı ildə dünyada baş verən ictimai-siyasi proseslər, Azərbaycanın dövlət müstəqilliyi diasporumuzun formalaşması və digər azərbaycanlıların həmrəyliyi məsələlərini gündəmə gətirdi. Bu zaman artıq Türkiyədə güclü mövqeyə və maddi imkana malik olan azərbaycanlılar Azərbaycan müstəqilliyi üçün tez-tez fikirlər səsləndirməyə başladılar. İmkanlı azərbaycanlıların təşəbbüsü ilə Azərbaycan mədəniyyətinə, dövlətçiliyinə həsr olunan müxtəlif səpkili tədbirlər keçirilməyə başlandı. İlk dəfə olaraq, dünya azərbaycanlılarının birliyinə yönələn və ətrafında dünyanın bir çox bölgəsində yaşayan soydaşlarımızı toplayan tədbirlər məhz Türkiyədə keçirilmişdir.

1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlıları Konqresi, 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresi və 1990-cı il noyabrın 3-dən 6-dək İstanbulda Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayının keçirilməsi həmrəylik hərəkatının güclənməsinə mühüm təkan verdi.

Rəsul Rza, Məmməd Araz, Nigar Rəfibəyli, Elçin və digər ədiblərimizin əsərləri Türkiyədə nəşr olunmağa, tələbə mübadiləsi proqramları həyata keçirilməyə başlandı. 1991-

ci ilin 18 oktyabrında «Azəbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbulundan sonra 1918-ci ildə olduğu kimi yenə ilk olaraq Türkiyə Azərbaycanın müstəqilliyini tanıdığını bəyan etdi.

Bu gün üçün Türkiyədə Azərbaycan diasporu şərti olaraq üç hissəyə bölünür:

- Ziyalı təbəqə – Türkiyədə çalışan müəllimlər, iş adamları, mədəniyyət xadimləri, siyasi xadimlər;
- İşçi qrup – əsasən iqtisadi maraqlar güdən, siyasi-ictimai fəaliyyət göstərməyən, yalnız iqtisadi vəziyyətlərini normallaşdırmağa çalışanlar;
- Tələbələr – Türkiyənin müxtəlif təhsil müəssisələrində oxuyan gənclərdən ibarət bu qanad Azərbaycan həqiqətlərinin təbliği və iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynayır.

Müasir dövrdə Türkiyədə də Azərbaycan dostluğunun fəaliyyətində xeyli canlanma yaranmaqdadır. Türkiyədə Azərbaycan parkının salınması, Azərbaycan evlərinin və təşkilatlarının sayının artması, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün İzmir şəhərində qoyulması, Türkiyənin çeşidli TV kanallarında Azərbaycana həsr olunan proqramların sayının çoxalması və s. hadisələr və proseslər bu nəticəyə gəlməyə imkan verir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyədən keçməsi, dövlətlərarası münasibətlərin inkişaf etməsi, Azərbaycan diasporunun mövqeyinin qardaş ölkədə güclənməsinə şərait yaradır.





**Ukrayna.** Ukrayna Azərbaycan diasporunun fəal olduğu ölkələrdəndir. Ukraynaya azərbaycanlıların mühacirəti XIX əsrin sonu - XX əsrin əvvəllərində başlayıb. XX əsrin əvvəllərindən buraya təhsil almağa gələn azərbaycanlı tələbələr ictimai fəallıq göstərməyə başlayıblar. Onların fəallığı sayəsində Kiyev şəhərində Azərbaycan Milli Mədəniyyət Mərkəzi yaranmış və burada yığılan azərbaycanlılar Azərbaycan mədəniyyəti, poeziyası, ədəbiyyatı barəsində müzakirələr aparmışlar. Kiyevdən başqa, digər böyük şəhərlər - Xarkov və Lvovda da azərbaycanlı gənclər təhsil aldıqları müəssisələrdə eyni istiqamətdə iş aparırdılar. Ukraynada 1917-1918-ci illərdə tanınmış yazıçı Tağı Şahbazi Simurq Xorvak şəhərində məskunlaşaraq "Cənub səsi" adlı qəzet nəşr etmişdir.

Ukrayna da 1920-ci ildə bolşevik işğalına məruz qalandan sonra Azərbaycan-Ukrayna münasibətlərində xeyli irəliləyişlər yaranmışdır. Ukrayna-Azərbaycan arasında, eyni zamanda, tələbə-mütəxəssis mübadiləsi də aparılırdı. Müxtəlif sahələr üzrə mütəxəssis hesab olunan yüzlərlə azərbaycanlı Ukraynaya köçərək buranı özlərinə daimi yaşayış məskəni seçmişlər. Bunun nəticəsində Kiyev, Xarkov, Odessa, Lvov, Krım şəhərlərində və Valın, Vinnitso, Dnepropetrovsk, Donetsk, Zakarpatye, Zaparodce, Jitomir, İvano-Frankovsk, Kirovoqrad, Nikolayev, Poltava, Rovina, Ternopol, Suşk, Xerson, Xmelnitski, Çerkask, Çerniqo, Çernovisti vilayətlərində soydaşlarımız məskunlaşmışlar. Məskunlaşdığı şəhər

və vilayətlərin ictimai işində fəallıq göstərən azərbaycanlılar Ukrayna dövlət idarələrində də irəli çəkilməyə başlayıblar.

1991-ci ildə Sovetlər Birliyinin dağılmasından sonra müstəqillik əldə edən Ukrayna və Azərbaycan arasında ikitərəfli diplomatik münasibətlər quruldu. Artıq beynəlxalq birliyin bərabərhüquqlu üzvü olan Ukrayna və Azərbaycan bütün sahələr üzrə münasibətləri inkişaf etdirirlər.

Hazırda Ukraynada 500 min azərbaycanlı yaşayır. Bu şəxslər ötən əsrin əvvəllərindən ta bu günə qədər davam edən intensiv mühacirət nəticəsində buraya gələnlərdir. 500 min azərbaycanlının bir-biri ilə əlaqə saxlaması və ictimai fəaliyyəti bəzi ölkələrdəki azərbaycanlıların fəaliyyətindən nisbətən daha fəaldır. Bu ölkədə onlarla Azərbaycan diaspor təşkilatı, mədəniyyət mərkəzi, kütləvi informasiya vasitəsi olmaqla yanaşı, ana dilimiz həm Ukrayna ali məktəblərində, həm də Azərbaycan dilli «Həftə sonu» məktəblərində tədris edilir. Azərbaycan folklor ansambllarının yaradılması isə Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edir.

Hazırda Ukraynada çoxsaylı Azərbaycan diaspor təşkilatları və milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən böyüyü bir çox regional diaspor təşkilatlarını ətrafında birləşdirən Ukrayna Azərbaycanlıları Konqresidir.

1999-cu ilin 21 martında təsis edilən UAK-ın yaranmasında Ukraynadakı Azərbaycan səfirliyi və tanınmış azərbaycanlıların rolu böyük idi. İlk təsis yığıncağında Ukraynanın 15 vilayətində filialı olan UAK-ın zamanla filiallarının sayı artmağa başladı. Ölkənin ictimai-siyasi, iqtisadi-mədəni həyatında mühüm rol oynayan UAK-ın 27 inzibati ərazi bölgüsünün demək olar ki, hamısında vilayət təşkilatları fəaliyyət göstərir. UAK-ın əsas fəaliyyət sahələri aşağıdakılardır:





- Azərbaycan mədəniyyətini təbliğ etmək;
- Azərbaycan dilini təbliğ və tədris etmək;
- Kütləvi-mədəni tədbirlərin keçirilməsi;
- Ölkənin ictimai-siyasi, iqtisadi-mədəni həyatında iştirak etmək;
- Ukrayna-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafına töhfə vermək;
- İnformasiya-tədqiqat işi ilə məşğul olmaq;
- Azərbaycan naminə lobbiçilik etmək və s.

Ukraynada Azərbaycan diasporuna məxsus mətbuat orqanları da fəaliyyət göstərir. Bunlardan "Azərbaycanın səsi" və "Savalan" Kiyevdə, «Qobustan», «Millət» və s. qəzetlər nəşr edilir.

## TÜRK DİASPORU

Türk diasporu dedikdə, şərəfli tarixi, dünyanın bütün sahələrində əvəzedilməz izlər qoyan çoxşaxəli türk milləti adlanan qocaman ağacın bir qanadı olan Osmanlı türkləri və müasir Türkiyənin əhalisi, vətəndaşları nəzərdə tutulur. Avstraliya, Amerika, Avropa, Asiya və Afrika qitələrində məskunlaşan, təşkilatlanan və formalaşan türk diasporunun tarixi çox maraqlı və keşməkeşlidir.

Türkiyə Xarici İşlər Nazirliyinin məlumatına görə, xarici ölkələrdə türklərin sayı 5,5 milyondan çoxdur. Onlar dünyanın 70-dən çox ölkəsində məskunlaşıblar. Türklərin sayca daha çox olduqları ölkələri bu cədvəldən görmək olur (son zamanların statistikası bu rəqəmlərin bir az da artdığını göstərir):

| Sıra | Ölkə | Türklərin sayı | Tarix |
|---|---|---|---|
| 1. | Almaniya | 2 637 000 | 2003 |
| 2. | Bolqarıstan | 746 664 | 2001 |
| 3. | Fransa | 370 000 | 2003 |
| 4. | Niderland | 270 000 | 2003 |
| 5. | Şimali Kipr Türk Respublikası | 250 000 | |
| 6. | Avstriya | 200 000 | 2003 |
| 7. | Amerika Birləşmiş Ştatları | 117 575 | 2000 |
| 8. | Belçika | 110 000 | 2003 |
| 9. | Braziliya | 100 000-200 000 | |
| 10. | Yunanıstan | 150 000 | |
| 11. | Rusiya | 92 415 | 2002 |
| 12. | İsveçrə | 90 00 | 2003 |
| 13. | Makedoniya | 77 959 | 2002 |
| 14. | Böyük Britaniya | 70 000 | 2003 |
| 15. | Avstraliya | 55 000 | 2001 |
| 16. | Danimarka | 53 000 | 2003 |
| 17. | Kosova | 50 000 | 1999 |
| 18. | İsveç | 37 000 | 2003 |
| 19. | Rumıniya | 32 596 | 2002 |
| 20. | Kanada | 24 910 | 2001 |
| 21. | İran | 15 000 | |
| 22. | Norveç | 14 084 | 2006 |
| 23. | İraq | 450 000-500 000 | |
| 24. | İtaliya | 11 077 | 2004 |
| 25. | Suriya | 10 000 | 2007 |
| 26. | Cənubi Kipr | 2 000 | |
| 27. | Yaponiya | 1 194 | 2006 |
| **Yekun** | | **5 675 069 – 5 567 069** | |





Türk diasporunun formalaşma tarixi başlanğıcını Osmanlı İmperiyası dövründən və Türkiyə Respublikasının qurulmasından götürür.

Osmanlı İmperiyası dünyanın ən zəngin dövlətlərindən idi. Bu imperiyanın vətəndaşları, digər dövlətlərdə olduğu kimi, səadət ardınca başqa dövlətlərə mühacirət etmirdilər. Avropa, Asiya və Afrika qitələrində böyük ərazilərə malik olan Osmanlı İmperiyasında türklər nadir halda yaşadıqları əraziləri tərk edirdilər. Başqa dövlətlərdə yaşayan türklər yalnız işlə əlaqəli olaraq buralara gəlmişdilər. Onların çoxu öz səlahiyyət müddəti bitəndən sonra geri köçürdülər. Onların bir qismi isə çalışdıqları dövlətlərdə özlərinə yaxşı şərait yaratdıqlarından burada qalmalı oldular. Bu səbəbdən də tədqiqatçıların çoxu türk diasporunun tarixini Osmanlı dövründən götürürlər. Zamanla Osmanlı İmperiyası zəiflədikcə, nəzarət edilən ərazilər əldən çıxmasına baxmayaraq, türklərin bəziləri yaşadıqları dövlətləri tərk etməyib öz icmalarını yaradırdılar. Bununla da türk diasporunun ilkin təməli qoyulurdu.

Avropada türk diasporunun formalaşması 1950-ci illərdən başlayır. Bu tarixdən etibarən Avropa kütləvi şəkildə türk mühacirlərini qəbul etmişdi. Ailəvi halda ilk mühacirlər məskunlaşdıqları Avropa ailələrində qısa zaman ərzində özlərinə iş tapdılar. Bu mühacirlər əsasən orta yaş hüdudlarında idilər. Onlar özləri ilə Avropaya türk ənənələrini, mətbəxini, musiqisini gətirir, vətənlə sıx əlaqələrinin olmasına baxmayaraq, Avropa mühitinə tez adaptasiya olunurdular.

Bir-birinə əks olan Şərq və Qərb mədəniyyətlərinin ağırlıqlarını çiyinlərində daşıyan türk mühacirləri hər iki tərəfdən təzyiqlə üzləşirdilər. Bir tərəfdən, Qərb mədəniyyəti





ənənələrinə assimilyasiya olunan türklər digər tərəfdən, Şərq mədəniyyəti və ənənələrini Avropada təbliğ edirdi. Bu mühacirlərin əksəriyyəti daim Avropada yaşamaq məqsədi güdmürdü. Onların çoxu maddi vəziyyətlərini yaxşılaşdırdıqdan sonra Vətənə qayıdırdı. Lakin onlar vətənə dönərkən Avropa ənənələrini də özləri ilə gətirdilər ki, bu da Türkiyənin Avropaya inteqrasiya olunmasında mənəvi-psixoloji baxımdan mühüm rol oynadı.

1960-cı illərdən sonra başlanan kütləvi türk mühacirəti tərkibinə görə müxtəlif təbəqələri əhatə edirdi. Türkiyənin düşdüyü sosial-iqtisadi vəziyyət, işsizlik, inflyasiya, hökumət böhranları türklərin bir çox ölkələrə, xüsusən Avropaya mühacirət etməsinə səbəb oldu. Kompakt halda Avropa ölkələrində məskunlaşan türklər qısa zamanda öz icmalarını yaratdılar.

Türklərdə təbii-bioloji yolla artımın yüksək olması Avropada demoqrafik vəziyyət ciddi təsir göstərməyə başladı. Xarici ölkələrdə yaşayan türklərin sayının artması diaspor formalaşdırılması proseslərini sürətləndirdi. Ucuz işçi qüvvəsi və birgə halda çalışmaları onlara üstünlüklər verirdi. Zavod, fabriklərdə çalışan türklərin çoxu Avropa dillərini öyrənməyə cəhd etmirdi. Türk məhəllələrində yaşayan, həmvətənləri ilə birgə çalışan bu şəxslərin dil öyrənməyə ehtiyacları yox idi.

Ailə, nikah ənənəsini, milli ənənələrini qoruyub saxlayan türklər məskunlaşdıqları ölkənin də ənənələrinə riayət edirdilər. Təşkilatlanmanın güclü olduğu türk diasporunda

ziyalıların rolu böyükdür. Avropada, əsasən, Fransa, Almaniya, Böyük Britaniya, Niderland, Avstriya, Belçika, İsveçrə, İsveç, İtaliya, Norveçdə çoxluq təşkil edən türklərin fəaliyyəti, yaşayış tərzi yerli əhalidən xeyli fərqlənir. Əsasən fəal və bacarıqlı işçi kimi tanınan türklər ağır sənaye müəssisələrində, tikinti işlərində çalışır, xırda və orta bizneslə məşğul olurlar. Türklərin bu xüsusiyyətləri Avropada müsbət qarşılanır. Çalışqan, namuslu və çılğın olduqlarına görə fabrik, zavod rəhbərləri onları işə götürərkən tərəddüd etmir.

Avropada türklər üçün türk dili əsas ünsiyyət dili olaraq qalır. Türklər ana dilinin təbliğinə də çalışırlar. Türk mediasının Avropada yayınının güclənməsi onların Türkiyədə gedən prosesləri yaxından izləməsinə imkan yaradır.

Avropanın sosial-iqtisadi həyatının ayrılmaz tərkib hissəsi olan türk diasporu milli ənənələrə riayət edən etnik diasporlardan hesab olunur. Onların Avropaya daha tez adaptasiya olunması, işçilərinin çalışqanlığı Avropa dövlətlərinin Türkiyə ilə əmək müqavilələrinin imzalanmasına stimul yaratdı. İlk belə müqavilə 1961-ci ildə Almaniya ilə imzalanmışdır. Daha sonra 1964-cü ildə Avstriya, Belçika, Niderland, 1965-ci ildə Fransa ilə imzalanan əmək miqrasiyası barədə müqavilələr türklərin Avropa ölkələrinə miqrasiyasında böyük rol oynamışdır.

Türk diasporunun Avropada ictimai-siyasi fəaliyyəti 1970-ci illərdən başlayır. 1970-1980-ci illər arası Avropada türk təşkilatlarının sayı 156-ya çatdı. Bu dövrə qədər yalnız





Avropada 70 türk diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onların da əksəriyyəti Almaniyada təsis edilmişdi.

Türk diaspor təşkilatları mədəni, ədəbi, təbliğatçılıq işləri ilə məşğul olurlar. Günü-gündən sayı artan türk diasporu təşkilatları tərəfindən təsis olunmuş kütləvi informasiya vasitələrində sürətlə çoxalmağa başladı. 70-ci illərdə Avropada cəmi 34 türk KİV-i fəaliyyət göstərdiyi halda, 1980-ci ilə qədər onların sayı 100-ü keçmişdi.

Türkiyədə Milliyyətçi Hərəkat Partiyasının yaradılması Avropada türklərin fəaliyyətinin güclənməsinə stimul oldu. Türk KİV-i sosial, mədəni, iqtisadi problemlərlə yanaşı, siyasi mübahisələrə də geniş yer ayırmağa başladılar. 1976-cı ildə Avropada MHP-nin 106 şöbəsi fəaliyyət göstərirdi ki, bu da diasporun siyasi fəallığının kifayət qədər yüksək olduğunu sübut edirdi. MHP tərəfdarları Avropada türk kimliyini, türkçülük faktorunu təbliğ etməklə, onların assimilyasiya olunmasının qarşısını almağa çalışır, türklərə qarşı olan fikirləri dəyişmək istiqamətində iş aparırlar. Türkiyədə partiyalar arasında olan münasibətlər Avropadakı türklər arasında münasibətlərə də öz təsirini göstərməkdədir.

Avropanın sosial-iqtisadi və ictimai-siyasi həyatında fəal rol oynayan türk diasporunun maddi vəziyyəti orta səviyyəlidir. Türkiyənin əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər türk diasporunun mövqelərinin güclənməsinə şərait yaradır. Erməni, kürd və yunan diasporunun əks təbliğatına baxmayaraq, Avropada türklərə sevgi və sayğı ilə yanaşır-

lar. Türkiyənin Avropaya inteqrasiyası, atılan uğurlu addımlar türk diasporunun fəaliyyətinin daha da genişlənməsinə imkan yaradır.

**Almaniya.** XVI əsrdən etibarən türk mühacirlərinin Almaniyaya köçünün başlanmasına baxmayaraq, burada türk diasporu 1950-ci ildən sonra yaranıb. 1950-ci ildən Almaniyaya köçən türklərə "müvəqqəti qonaq", "əcnəbi işçi ", "Almaniyanın müsəlman təbəəsi", "insan haqları uğrunda mübarizə aparan ordu" və digər baxışlar mövcud idi. Zamanla türk mühacirlərinin sayının durmadan artması, ölkə ictimai-iqtisadi həyatında rolunun güclənməsi ilə onlara münasibət və baxışlarda ciddi dəyişiklik yarandı.

Almaniyaya ilk köçən mühacirlər burada daimi yaşamaq məqsədi güdmürdülər. Onlar müxtəlif sahələrdə çalışaraq maddi vəziyyətlərini yaxşılaşdırdıqdan sonra vətənə geri dönmək barədə fikirləşirdilər. Sonradan çalışdıqları sahədə onlara ehtiyacın artması, bu ölkəyə tamamilə adaptasiya olunmaları ilə əlaqədar burada daimi məskunlaşan türklər öz diasporlarını formalaşdırmağa başladılar. Almaniyada ilk dəfə olaraq, 1923-cü il aprelin 26-27-də Düsseldorf şəhərində yaşayan türklərin birinci konqresi keçirildi. İlk konqresin gedişində iştirak etməkdən ötrü Almaniyanın müxtəlif şəhərlərindən həmkarlar ittifaqlarının nümayəndələri, ziyalılar, iş adamları, təşkilat rəhbərləri, jurnalistlər və digər peşə sahibləri Düsseldorf şəhərinə gəlmişlər. Birinci konqresdə bir çox məsələlər müzakirə olunmuş və qarşıda duran vəzifələr müəy-





yənləşdirilmişdi. 1988-ci ildə türk diasporunun üzvləri və təşkilat rəhbərləri Federasiya formasında birləşərək ümumtürk işi və türk milli kimliyinin qorunub saxlanması istiqamətində birgə fəaliyyət göstərməyə başladılar. Federasiyanın yaranması diaspor təşkilatlarının kortəbii və pərakəndə fəaliyyətini aradan qaldıran, Almaniyada türklərin həmrəyliyi və milli birliyi üçün atılan mühüm addım idi.

Türklərin Avropada sayının artması və həmrəyliyinin möhkəmlənməsində 1961-ci ildə Almaniya Federativ Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış əmək miqrasiyasına dair müqavilələr mühüm rol oynadı. Seçki kompaniyalarında siyasi partiyaların türk diasporunu öz elektoratına çevirmək istiqamətində təşəbbüslərlə çıxış etməsi ölkə rəhbərliyi və siyasi elitasında türklərin Almaniyanın ayrılmaz bir hissəsi olması faktının qəbul olunduğunu göstərirdi.

Hazırda Almaniyada türklərin sayı 2 milyon 637 minə yaxın göstərilir ki, bu rəqəm ildən-ilə dəyişməkdədir. 2002-ci il Almaniya Statistik Dairəsinin hesabatında verilən məlumata görə, Almaniya türklərinin 32 faizini bu ölkədə anadan olanlar təşkil edir. Türklərin 60-70 faizi alman və türk dillərində danışır. 30-35 faiz türk isə ümumilikdə alman dilini bilmir və bu dili öyrənməyə cəhd göstərmir. Əsasən türklərin sıx yaşadığı yerlərdə məskunlaşan, türk dilində danışan və türk mediasını izləyən bu şəxslər ağır işlərdə çalışırlar.

Türklər Almaniyanın bütün şəhər və rayonlarında məskunlaşıblar. Əsasən Berlin, Bonn, Hamburq, Ştutqart,

Frankfurt-Mayn, Köln, Düsseldorf, Mayns və digər şəhərlərində yaşayan türklər sürücü, fəhlə, restoran işçisi, iqtisadçı, bank işçisi, ticarətçi və s. peşələrdə çalışırlar. Orta səviyyəli təbəqə qrupuna aid olan Almaniya türkləri içərisində imkanlı və varlı şəxslər də var. Bu şəxslər Almaniya iqtisadiyyatının güclənməsində mühüm rol oynayırlar. Almaniya iqtisadiyyatında türk diasporunun rolu getdikcə artmaqdadır. Təkcə 1982-1993-cü illərdə türklərə məxsus iş yerlərinin 3 mindən 30 minə qalxması türk biznesinin yüksələn xətlə inkişafının göstəricisi sayıla bilər.

1999-cu ilin statistik göstəricilərində Almaniyada 55 min türk firmasının olduğu qeyd edilir və 2010-cu ilə qədər bu firmaların sayının 100 minə çatacağı və burada 650 min insanın çalışacağı proqnozlaşdırılırdı. İllik gəliri 30 milyard avrodan çox olan türk firmaları alman iqtisadiyyatına böyük miqdarda kapital qoyurlar. Bunun nəticəsidir ki, artıq Almaniyanın məşhur firmaları və iri şirkətləri türk iş adamlarını özlərinə ortaq götürür və onların biliyindən, təcrübəsindən istifadə edirlər. "Ən böyük əcnəbi kapital qoyan" - etnik qrup imicini qazanan türklər Almaniyada ən çox əmlaka malik diasporlardan hesab olunur. Almaniyanı özlərinə ikinci vətən hesab edən türk diasporunun nümayəndələri idman, media, informasiya texnologiyaları, bank işi, binaların layihələşdirilməsi və tikintisi, elm və digər sahələrdə təmsil olunmaqla yanaşı, Almaniyanın ictimai həyatında da fəal iştirak edirlər.





Türk diasporu Almaniyada öz milli kimliyini, adət-ənənələrini, mədəniyyətini, mətbəxini və dinini qoruyub saxlayan əsas etnik qrup sayılır. Bu xüsusiyyətlərə baxmayaraq, türklər alman mədəniyyəti və ənənələrini də mənimsəmişlər.

Almaniyada türklər barəsində tez-tez statistik və sosioloji tədqiqatlar aparılır. Almaniyada yaşayan türklərin ailələri almanlardan fərqli olaraq, daha böyük və çoxuşaqlıdır. Türklərin ən böyük hobbiləri televiziya seyr etmək, qəzet oxumaqdır. Türklər pullarını banklarda saxlamağa üstünlük verir.

Türklər də almanlar kimi ailə başına bir avtomobilə sahibdirlər və marketlərdən deyil, türk mağazaları və səyyar ticarət köşklərindən bazarlıq etməyə üstünlük verirlər. Türklər almanlardan fərqli olaraq, alkoqollu içkilərdən az istifadə edir, üstünlüyü çay və qəhvəyə verirlər. Almaniyada şokolad alıcıları içərisində türklər birinci yeri tuturlar. Almaniyada ev sahibi olan türklərin sayı azlıq təşkil edir. Türklərin 79 faizi kirayədə yaşayır. Türklərin orta aylıq gəliri 3000-4000 avro arasında dəyişir.

Alman rəsmiləri tərəfindən bir fakt xüsusilə vurğulanır: türklər Almaniyaya sürətlə adaptasiya olunurlar. Bu isə onların səsini qazanmaq istəyən siyasi partiyalar və ictimai xadimlərin diqqət mərkəzindədir. Türkiyə Araşdırmalar Mərkəzinin 2002-2003-cü il məlumatına görə, türk seçicilərinin etimad göstərdiyi əsas partiya Sosial-Demokrat Partiyasıdır. Daha sonra Demokratik Sosializm Partiyası, Xris-

tian Demokrat Partiyası və Yaşıllar Partiyası ardıcıl olaraq növbəti yerləri tutur. Türk seçicilərinin səs verdikləri partiyalardan əsas tələbi onların Almaniya vətəndaşlığına qəbuluna dair qanunvericiliyin bir qədər yumşaldılmasıdır.

Türkiyənin Avropa Birliyinə qəbul edilməsi məsələsində narazılıq göstərən bir sıra alman ziyalıları Türkiyənin onsuz da Avropanın bir parçası olduğunu bildirirlər. Əvvəl-axır Avropa Birliyinin geri çəkiləcəyini proqnozlaşdıran ziyalılar Türkiyənin iqtisadi və siyasi rolunun artması ilə bir çox Avropa ölkəsini geridə qoyacağını inamla qeyd edirlər.

Almaniyada türk diasporu ilə Azərbaycan diasporu arasında sıx əməkdaşlıq münasibətləri var. Bir-birilərilə sıx təmasda olan türklər və azərbaycanlılar Almaniyada bir mövqedən çıxış edirlər. "Avropa Türk-İslam Kültür Federasiyası", "Avropa Türk-İslam Kültür Birliyi", "Avropa Türk-İslam Kültür dərnəkləri Birliyi" və digər təşkilatların üzvlərinin əksəriyyətini azərbaycanlılar təşkil edir. Türk xalqının dilinin, milli adət-ənənələrinin, ədəbiyyatının, folklorunun, milli kimliyinin qorunub saxlanması və təbliğ olunmasında türk diasporu ilə çiyin-çiyinə Azərbaycan diasporu yaxından iştirak edir. Azərbaycana humanitar yardım göstərən türk təşkilatları gələcəkdə də bu istiqamətdə işlər görəcəyini bildirirlər.

**Avstraliya.** «Yaşıl» qitəyə türklərin mühacirəti XX əsrin əvvəllərindən başlayır. 1911-ci ilin statistik məlumatına əsasən, bu tarixdə Avstraliyada yaşayan türklərin sayı 332-





yə çatırdı. 1954-cü ildə isə bu rəqəm 1036-ya qalxmışdı. Avstraliya türklərinin əksər hissəsi Şimali Kipr türkləridir.

1960-cı ildən başlanan kütləvi türk mühacirəti ilə əlaqədar Türkiyə və Avstraliya arasında «Avstraliyada türklərin mövqeyi və fəaliyyəti haqqında Türkiyə Respublikasının hökuməti və Avstraliya hökuməti arasında razılasma» adlı əmək müqaviləsi imzalandı. Müqavilə türk mühacirlərinin Avstraliyaya maneəsiz köçməsinə şərait yaradırdı. Bunun nəticəsində Avstraliyada türklərin sayı 1971-ci ildə 8 minə çatdı.

Hazırda sayı 54.595 minə çatan türklərin Avstraliyada formalaşdırdığı diaspor fəaliyyətinə görə bəzi ölkələrdən seçilir. Türklərin müəyyən hissəsi öz milli kimliyini qoruyub saxlamaqdan ötrü türkdilli məktəblərə gedir, öz aralarında ana dilində danışır, türk kafe-restoranlarında nahar edir və türklərə məxsus baqqallardan bazarlıq edirlər. Diasporda həmrəyliyin qorunması məqsədilə bir-biriləri ilə tez-tez əlaqə saxlayan türklər Vətənlə əlaqəsini itirmir, türk kanallarına baxır və öz musiqilərinə qulaq asırlar.

Avstraliyada Türk diasporuna məxsus KİV orqanları da mövcuddur. Onların içərisində «Darya», «Yeni Vətən», «Zaman» və «Yorum» daha populyardır.

**Kanada.** 1880-ci ildən Kanadaya köçməyə başlayan türklər 1950-ci ildən etibarən diasporlarını formalaşdırmağa başladılar. Əsasən inşaat, səhiyyə və digər sahələrdə mütəxəssis olan türklərin buraya köçməsində başlıca rol

«Türkiyə-Kanada Birliyinin» üzərinə düşürdü. 2003-cü ilin məlumatına görə, hazırda Kanadada türklərin sayı 24.910 nəfərə yaxındır. Siyasi cəhətdən burada zəif olan türklər çox zaman prinsipial məsələlərin həllində erməni və yunan diasporlarına uduzurlar.

Türk diasporu lobbi strukturunu formalaşdırmağa çalışır. Türklərə məxsus bir sıra diaspor təşkilatı – Türkiyə-Kanada Birliyi, Kanada Türklərinin Mədəniyyət Cəmiyyəti, Türk Diaspor Təşkilatları Federasiyası və başqaları fəaliyyət göstərir.

**Böyük Britaniya.** Böyük Britaniyada 70 minə yaxın (bəzi mənbələrdə 150 min) türkün yaşadığı təxmin edilir (bu rəqəmə Böyük Britaniyada mühacir və ya qeyri-leqal olan türklərin sayı da daxildir). Böyük Britaniyaya 1970-ci illərdən etibarən sıx bir şəkildə gəlməyə başlayan türklərin təxminən 75 faizi Londonda, 23 faizi isə Birmingem, Mançestr, Liverpul və Lids olmaq üzrə mərkəzi Böyük Britaniyada, qalan hissəsi isə Şotlandiya və Şimali İrlandiyada yaşamaqdadır.

Böyük Britaniya Türk Cəmiyyəti, müxtəlif illərdə fərqli məqsədlərlə Böyük Britaniyaya gələn türklər və kiprli türklərdən ibarətdir. Əksəriyyəti toxuculuq və qida sektorlarında fəaliyyət göstərir.

Böyük Britaniya Daxili İşlər Nazirliyinin statistikasına görə, hər il orta hesabla 8 minə qədər türk təhsil və digər məqsədlərlə Böyük Britaniyaya viza almaq üçün müraciət edir. Əvvəlki illərdə gələn və hələ də təhsilini davam etdirən türklərin sayı da diqqətə alındığında, 15 min ətrafında türkün Böyük Britaniya universitetlərində təhsil aldığı təxmin edilməkdədir.





Böyük Britaniya ikili vətəndaşlıq qanununu qəbul etdiyindən, onun şərtlərinə tam cavab verən əcnəbilər, öz vətəndaşlıqlarını da qoruyaraq, ingilis vətəndaşlığını əldə edə bilər. 2006-cı ilin məlumatına görə, Böyük Britaniya vətəndaşlığı alan türklərin sayı 54 minə çatır. Yenə 2006-cı ilin mənbələrinə görə, 67 min türk Böyük Britaniyada doğulduğu və ya valideynlərindən birinin bu ölkənin vətəndaşı olduğu üçün Böyük Britaniya vətəndaşıdır. Bəzi mənbələrdə isə Böyük Britaniyada yaşayan türklərin sayının, ən azı 150 min olduğu ehtimal edilir.

Böyük Britaniyada yaşayan türklərin əksər hissəsi yeyinti və tikiş sənayesi sektorlarında çalışır. Onların əhəmiyyətli bir qismi on ildən çoxdur ki, Böyük Britaniyaya mühacirət etmişlər. Daha qısa müddətdir ki burada yaşayan və xüsusilə, son 5 ildə Böyük Britaniyaya gələnlərin içərisində bank sektorunda çalışanlar və sərmayə məsləhətçiləri üstünlük təşkil edir.

Böyük Britaniyada ingilis vəkillik firmalarında və hüquq bürolarında çalışan türklərin sayı da getdikcə çoxalmaqdadır.

Statistikaya əsaslanaraq türklərin bu ölkəyə gəliş illərini və sayını cədvəl olaraq aşağıdakı kimi göstərmək olar:

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1989** | **1990** | **1991** | **1992** | **1993** | **1994** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **2001** |
| 446 | 559 | 988 | 541 | 710 | 689 | 706 | 931 | 1118 | 2154 | 2913 | 4875 | 4050 |
| **2002** | **2003** | **2004** | **2005** | **2006** | | | | | | | | |
| 8045 | 4910 | 4885 | 6765 | 5590 | | | | | | | | |

Böyük Britaniyada türk diaspor təşkilatları və mediası da fəaliyyət göstərir ki, onların əsas işləri ölkələrinin tanınması və lobbiçilikdir.

**Niderland Krallığı.** Niderland Krallığındakı türklər 1970-ci və 1980-ci illərdən sonra bura işçi olaraq gəlmiş və ailələrini də gətirərək daimi məskunlaşmışlar. Ölkədə təxminən 270.000 ətrafında türk vardır ki, bu da ölkə əhalisinin 2 faizini təşkil edir. Niderland Krallığındakı türklər Almaniyadakı türklər kimi ictimai həyatda da fəal iştirak etməyə çalışır. Niderland Krallığı Parlamentinə keçirilən seçkilərdə türk namizədlər də fəal iştirak edir və millət vəkili seçilirlər.

Türklər ölkənin hər yerində məskunlaşsalar da, onların ən sıx yaşadığı şəhər Amsterdamdır.

Bu ölkədə Avropa Birliyi xaricindən gələn immiqrantlar içində ən böyük qruplar sayı təxminən 393.000 ilə indoneziyalılar və 270.000 nəfərə çatan türklərdir.

AB ölkələrindən gələn immiqrantlar içində ən böyük qrupu almanlar (390.000) təşkil edir. Niderland Krallığında yaşayan türk mənşəli immiqrantlar bütün immiqrant mənşəlilərin içində 11,6 faizdir.





Niderland Krallığı, Almaniyaya görə daha heterogen bir immiqrant əhali quruluşuna malikdir. Almaniyada türklər immiqrant əhalinin təxminən üçdə birini təşkil etməkdədir. Bütün immiqrantlar içində 11,6 faizlik əhali nisbətinə sahib olan türklər Niderland Krallığı əhalisinin 2,2 faizini təşkil edir.

Türk diasporunun 53,7 faizi birinci, 46,3 faizi isə ikinci nəsilin nümayəndələri hesab olunur. Bəzi mənbələrdə verilən məlumata görə, Niderland Krallığındakı türklərin sayı 369.590 nəfərdir. Niderland Krallığı Statistik İdarəsinin təxminlərinə görə, 2020-ci ildə bu ölkədəki türk mənşəli əhali 440.000 nəfər olacaq. Niderland Krallığında yaşayan türklərin 27 faizi Türkiyə Cümhuriyyətinin, 73 faizi isə Niderland Krallığının vətəndaşıdır.

**Amerika Birləşmiş Ştatları.** Amerikaya türklərin ilk gəlişi hələ XVI – XVII əsrlərə təsadüf etsə də, "Yeni Dünya"ya kütləvi axın 1880-ci ildən başlanır. İqtisadi səbəblərlə izah olunan bu mühacirət prosesinin gedişində yüzlərlə türk cənub sahilləri boyu məskunlaşmışdır.

Qısa zaman ərzində yerli ictimaiyyətlə qaynayıb-qarışan türklər ilk vaxtlar bir-birilərinə yaxın ərazilərdə məskunlaşırdılar. 1924-cü ildə Amerikada etnik diasporlara qarşı başlanan narazılıq hissləri ölkəyə daxil olmaqla bağlı sərt qanunların qəbul edilməsinə əsas yaratdı. 1950-ci ildən qanunlarda edilən dəyişikliklərdən sonra digər ölkələr kimi, Türkiyə vətəndaşlarının ABŞ-a daxil olmasına da kvota

əsasında icazə verildi. 1965-ci ildə isə tamamilə liberal qanunlar qəbul olundu. Bundan sonra Amerikaya türk mühacirətinin yeni mərhələsi başlandı. Yeni mühacirlərin çox hissəsi Amerika vətəndaşlığını qəbul etdikdən sonra diasporun formalaşma prosesi sürətləndi.

Bu işdə xüsusi fəallığı ilə seçilən türk ziyalıları və tələbələri ictimai proseslərdə iştiraklarını gücləndirdilər. İlk vaxtlar siyasi fəallığı passiv olan türk diasporu zaman keçdikcə problemlərini həll edərək, işlərini daha planlı şəkildə qururdular.

Birləşmiş Ştatlarda fəaliyyətlərini genişləndirən türk diasporu sayca və maddi cəhətdən onlardan üstün olan erməni və yunan diasporlarının təzyiqləri ilə qarşılaşırdı. Amerikada türklərdən əvvəl məskunlaşmış ermənilər "məzlum xalq" imici yaratmaqla iqtisadi vəziyyətlərini yaxşılaşdırmış və bunun ardınca isə siyasi fəallıqlarını artırmışdılar. Böyük güzəştlərə malik olan ermənilər və yunanlar informasiya üstünlüklərinə əsaslanaraq, türklər barədə böhtanlar və yanlış məlumatlar yayırdılar. Böyük dövlətlərin ikili siyasətindən istifadə edən ermənilər və yunanlar müəyyən məsələlərdə türk diasporunu hətta sıxışdıra bilmişdilər.

Lakin 1990-cı ilin əvvəlindən Amerika ictimaiyyətində Türkiyə və türk diasporuna olan baxış müsbət yöndə dəyişməyə başladı. Amerika ictimaiyyəti dünyada baş verən siyasi proseslərdə Türkiyənin və türklərin rolunu və yerini daha aydın görürdü. Türkiyədə siyasi sistemin demokratik mahiyyəti, milli adət-ənənə, musiqi və mətbəxlərinin ekzotik və cəlbediciliyi amerikalıların mövqeyində və münasibətində dəyişiklik yaratdı. Türkiyənin NATO-ya üzvlüyü, ABŞ-la hərbi və siyasi müttəfiqliyi, dini inanclarında fanatikliyin olmaması, türk gənclərinin və elm xadimlərinin uğurları amerikalıların baxışlarının dəyişməsinə ciddi təsir göstərən amillər idi. Hələ ötən əsrin əvvəllərindən Türkiyəyə və türk xalqına qarşı uydurma "soyqırımı" iftirasını himayə edən erməni və yunan lobbisi 2000-ci illərin əvvəllərinə qədər Kapitoli zirvəsində çox güclü mövqeyə malik idi. 1970-ci illərdən sonra formalaşmış türk lobbisi qismən də olsa, məsələlərin həllinə təsir edə bilirdi.





Türk diasporunun sayca azlığı, seçici hüququndan pərakəndə istifadə edilməsi, diaspordaxili fikir ayrılıqları onun gücünü azaldan amillər idi. Türkiyə-Amerika münasibətlərinin inkişafı zaman keçdikcə öz hüquqlarının əhəmiyyətini anlayan, lobbiçiliyə marağı artan türklərin fəaliyyətinə təsirini göstərdi. 2000-ci ildən etibarən Türkiyənin geosiyasi mövqeyinin güclənməsi, iqtisadi inkişafı, Amerika ilə hərtərəfli əlaqələrin qurulması türk diasporunun və lobbisinin daha geniş imkanlara malik olmasına şərait yaratdı. 2001-ci il 11 sentyabr hadisəsindən sonra türk xalqının nümayiş etdirdiyi qəti və aydın mövqe iki xalq arasında münasibətlərin inkişafına təkan verdi.

Son illər amerikalı ekspertlər, tədqiqatçılar Türkiyə amilinə daha çox əhəmiyyət verməyə başlamışlar. Hazırda ABŞ-da Türkiyə və türklərlə bağlı elmi-tədqiqat işləri aparılır. Türkiyənin nüfuzu artdıqca, türk lobbisinin siyasi dairə-

lərdə mövqeyi möhkəmləndikcə əvvəllər ermənipərəst kimi tanınan bəzi siyasi xadimlər bu gün türk lobbisini və diasporunu dəstəkləyən çıxışlar edirlər.

Birinci Körfəz savaşı və Əfqanıstan əməliyyatları zamanı ABŞ-ın müttəfiqi kimi çıxış edən Türkiyə barədə Nyu-Yorkda fəaliyyət göstərən "Avrasiya qrupu"nun məlumatında bu fikirlər yer alır: "Türkiyənin NATO-da dəyəri artmışdır. Türkiyənin Avropanın təhlükəsizlik və müdafiəsində, Avropa Birliyində fəallığı Amerikada yaşayan türklərin həyatında dəyişiklik yaradacaq". Bu fikirlərin davamı olaraq, türkpərəst konqresmenlərin sayının və türk diasporunda siyasi fəallığın artdığını görə bilərik. Hələ 1991-ci ildə uydurma "erməni soyqırımı"nın konqresdə müzakirələri zamanı senator Preslerin çıxışında söylədiyi: "Mən və dostlarım Türkiyə ilə münasibətlərə böyük önəm veririk" sözləri türk lobbisinin güclənməyə başladığının bariz nümunəsidir.

2001-ci ildə ermənipərəst konqresmen Adam Şifin dediyi: "Artıq güclənməkdə olan türk lobbisi ilə Kapitoli zirvəsindəki mübarizə kəskin şəkil alacaq" sözlərinə türk lobbisinin cavabı da orijinal olmuşdu: "Biz mübarizədən qorxmuruq və güclü olan qalib gələcək". 2001-ci ildə Konqresdə Respublikaçılar Partiyasının üç üzvü – Robert Uiksler, Edvard Uitfild və Key Qrengerin təşəbbüsü ilə ABŞ-Türkiyə münasibətləri və Amerikadakı türk diasporu məsələləri ilə məşğul olan işçi qrup yaradılmışdır. İlk gündən 17 konqresmenin daxil olduğu işçi qrup üzvlərindən Tom Lentas, Den





Barton, Bob Klement və başqalarının adlarını çəkmək olar. Türkiyəyə və türk diasporuna Amerikanın böyük əhəmiyyət verdiyini bildirən işçi qrupun üzvləri gələcəkdə ABŞ-Türkiyə münasibətlərinin ardıcıl və dinamik şəkildə inkişaf edəcəyini açıqlamışlar.

Hazırda türk lobbisi iki istiqamətdə - diaspor təşkilatları və professional lobbi şirkətləri ilə əməkdaşlıq vasitəsilə iş aparır. Birləşmiş Ştatlarda türk diasporunun ən güclü və böyük təşkilatlarından biri Amerika Türk Assosiasiyaları Assambleyasıdır. ATAA Türkiyə-Amerika münasibətlərinin inkişafı, Türkiyə maraqlarının icraedici və qanunverici hakimiyyətdə təmin olunması və digər istiqamətlərdə iş aparır. 1929-cu ildə Amerikada yaşayan türklər tərəfindən təsis olunan bu assambleya gəlir məqsədi güdməyən təşkilat kimi Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Ətrafında 55-ə qədər diaspor təşkilatını birləşdirən ATAA əsasən aşağıdakı işlərlə məşğul olur:

- ABŞ-da yaşayan türklər arasında əlaqələrin qurulması;
- Türk tarixini, mədəniyyətini, musiqisini, milli adət-ənənələrini təbliğ etmək;
- Türkiyə və türklərə qarşı böhtan dolu informasiyalara layiqli cavab vermək;
- Amerikalı iş adamlarının Türkiyəyə kapital qoyuluşunu təmin etmək.

"The Turkish Times" qəzeti və "Turkish Panorrama" jurnalını nəşr edən assambleyanın illik büdcəsi 300.000-500.000 dollar arasındadır. Assambleya ilə paralel olaraq "Türk Araşdırmaları İnstitutu" diasporda fəal iş aparmaqla lobbi fəaliyyəti ilə məşğul olur. 1982-ci ildə Vaşinqtonda gəlir məqsədi güdməyən təşkilat kimi təsis olunan institut əsasən elm və təhsil istiqamətlərində iş aparır. Amerika ali məktəblərində türk tarixi və dili bölmələrinin açılmasına nail olan TAİ fəaliyyətini genişləndirməkdədir. Corcstaun, Prinston, Harvard və Portland universitetlərində türk bölmələri açan bu institutun rəhbərliyi ilə Kaliforniya, Kolumbiya, Nyu-York, Pensilvaniya, Texas və Vaşinqton ali məktəblərində türk araşdırmaları mərkəzi fəaliyyət göstərir. İllik büdcəsi 2 milyon dollar olan TAİ "Journal of Turkish Studies", "İnternational Journal of Turkish Studies","Turkey in America" və s. qəzet və jurnalların nəşrinə hamilik edir.

Fred Haynesin rəhbərliyi ilə "Amerika Türk Şurası", "Türkiyənin Amerikalı Dostları" təşkilatlarının Vaşinqtondakı "Amerikan Türk Mərkəzində" birləşərək qurduqları Şura 1994-cü ildən geniş fəaliyyət göstərir. ABŞ və Türkiyə arasında ticarət, hərbi və mədəni əlaqələrin inkişafına xidmət edən şura Orta Asiya və Qafqazdakı türklərlə Türkiyə və Amerika arasında münasibətlərin qurulmasında yardımçı olur. Digər lobbi təşkilatlarından fərqli olaraq, lobbiçilik işinə maliyyə buraxmayan Şura bunun üçün əlaqələrindən və nüfuzundan istifadə edir. Adları çəkilən qurumlardan başqa,





ABŞ-da 100-dən çox türk diaspor təşkilatı fəaliyyət göstərir. Bunlarla yanaşı, türk lobbisi professional lobbi şirkətləri ilə əməkdaşlıq edir. Əvvəllər "Gray and Company" şirkətinin xidmətlərindən istifadə edən Türkiyə "Fleishman Hillard Inc" və "Capitoline İnternational Group and Manning, Selvage and Lee" şirkəti ilə iş qurub. Türklərin Amerikanın həyatında rolu və yeri günü-gündən artmaqda və güclənməkdədir.

Bunlarla yanaşı, ABŞ-da fəal olan diaspor təşkilatlarından aşağıdakıların da adlarını sadalamaq olar:

Amerikadakı Türk Dərnəklərinin Mərkəzi
Arizona Türk Amerikan Dərnəyi
Kaliforniya Türk Amerikan Dərnəyi
Çikaqo Türk Amerikan Dərnəyi
Florida Türk Amerikan Dərnəyi
Hyuston Türk Amerikan Dərnəyi
Şimali Karolina Türk Amerikan Dərnəyi
Miçiqan Türk Amerikan Dərnəyi
Minnesota Türk Amerikan Dərnəyi
Yeni İngiltərə Türk Amerikan Dərnəyi
Şimali Texas Türk Amerikan Dərnəyi
Türk Amerikan Federasiyası
Vaşinqton Türk Amerikan Dərnəyi (Seattle, Vaşinqton)

"Voice of Anatolia", "ATV NEWS", "Turkish hour" TV kanalları ilə "Turkish Cultural hour", "Turkish music

hour", "Voice of Anatolia Radio" və digər radio kanalları fəal təbliğat işinə qoşulub. Yəhudi və Azərbaycan diasporları ilə yanaşı, digər diasporlarla geniş əlaqələr quran türk diasporu erməni və yunan lobbi qruplarını tamamilə neytrallaşdırmaq yönündə iş aparır. Amerikada yaşayan türklər öz milli adət-ənənələrini, tarixini, musiqisini, dilini, mətbəxini unutmayan bir etnik diaspor olmaqla yanaşı, bu ölkəyə asanlıqla adaptasiya olunmuşlar. Eyni zamanda, digər türkdilli diasporlarla geniş əlaqələr qurmaq yolunu tutmuşlar.





## QAZAX DİASPORU

Qazaxıstanın 2009-cu ildə açıqladığı statistikaya görə, əhalinin ən son siyahıyaalmasına görə, dünyada qazaxların sayı aşağıdakı kimidir:

Qazaxıstan - 8 milyon 720 min
Özbəkistan - 1 milyon 500 min
Rusiya Federasiyası - 700 min
Türkmənistan - 90 min
Qırğızıstan - 40 min
Ukrayna - 15 min
Tacikistan - 12 min
Belarus - 5 min
Gürcüstan - 3 min
Azərbaycan - 3 min
Moldova - 3 min
Litva - 2 min
Ermənistan - 1 min
Estoniya - 1 min
Çin - 1 milyon 296 min
Monqolustan - 157 min
Əfqanıstan - 45 min
Türkiyə - 30 min
İran - 15 min
ABŞ - 10 min

Almaniya - 7 min
Kanada - 5 min
Fransa - 4 min
Pakistan - 3 min
Böyük Britaniya - 2 min
İsveç - 1 min
Avstraliya - 0,9 min
BƏƏ - 0,8 min
Avstriya - 0,6 min
Argentina - 0,4 min
Hindistan - 0,3 min

Qazaxların yaşadıqları keçmiş Sovetlər Birliyinə daxil olan 14 respublikada və bəzi digər xarici ölkələrdə yaşayanların hamısını diaspor hesab etmirlər. Qazaxların mövqeyinə görə, sərhəd bölgələrinə yaxın dövlətlərdə yaşayan bütün qazaxlar "irredent" hesab edilməlidirlər. Qazaxların fikrincə, bu torpaqlar onlara tarixən məxsus olub və orada yaşayanlar diaspor sayıla bilməz. Bu ərazilərə Rusiyanın Qazaxıstan ilə sərhədində yerləşən Astraxan, Orenburq, Kurqan, Omsk, Dağlıq-Altay Muxtar Bölgəsi, Özbəkistanın Çirçik, Qırmızı, Myrzaşola bölgələri, Çinin Altay, Tarbagatai, Kuldja, Erenkabyrgi, Barköl Qumulu Xinjiang və Monqolustanın Bayan-ulgey əyaləti daxildir.

Dünyanın müxtəlif ölkələrinə səpələnən qazaxların 35 faizi "irredentlər", qalanları isə oralmanlar (xarici ölkələrdə yaşayan qazaxlar) – yəni, diasporun nümayəndələri hesab





edilirlər. "İrredentlər" xaricdə etnik azlıq kimi öz doğma torpaqlarında yaşayan qazaxlardır.

Qazax "irredenti" öz başlanğıcını XVI əsrdən götürür. Çinin ardınca Rusiyanın Şərqdə hegemonluq siyasəti nəticəsində qazaxlar digər dövlətlərin hakimiyyəti altında öz milli kimliklərini qoruyub saxlamağa cəhd ediblər. Bu proses Sovetlər Birliyinin dağılmasına qədər olan bütöv bir zamanı əhatə edir və müasir müstəqil Qazaxıstan dövləti qurulandan sonra milli qüvvələr bu məsələni gündəmə gətiriblər.

Dünyanın müxtəlif bölgələrinə səpələnmiş qazax diasporunun fəaliyyəti 1960-cı ilə qədər araşdırılmamışdır. Avropa, Amerika və Körfəz bölgəsinə 1960-cı illərdən etibarən əmək miqrasiyası başlanandan sonra ölkə daxilində diaspor-irredent məsələsinə diqqət artdı. Qazaxlar vətəni tərk edən ata-babaları haqqında sərbəst danışmağa və onları axtarmağa başladılar.

Qərbi Avropa və Amerika kimi ərazilərə miqrasiya edən qazaxlarla, yaxın bölgələrə – MDB və Asiya ökələrinə gedənlər arasında ciddi fərqlər hiss olunur. Avropaya və Amerikaya miqrasiya edənlər əsasən ziyalılardan ibarət idisə, MDB və Şərq ölkələrinə üz tutanlar orta və aşağı təbəqənin nümayəndələri idi. Qazax diasporunun bir xüsusiyyətini, genetik cəhətdən köçəri şəkildə uyğunlaşma və sosial-psixoloji, fizioloji baxımdan adaptasiya olunmaq bacarıqları sayəsində gücləndiklərini xüsusi olaraq qeyd etmək lazımdır.

Tarixə nəzər salsaq, qazax diasporunun formalaşması bir neçə dövrdə baş vermişdir:

– XVIII əsr – Oriat döyüşündən sonra başlanan miqrasiya;

– XVIII-XIX əsrlər arası ölkə daxilində baş verən milli qurtuluş qiyamları ilə əlaqədar;

– 1916-cı ildə milli qurtuluş hərəkatı, vətəndaş müharibəsinin nəticələri ilə bağlı;

– 1918-1920-ci illərdə Sovetlərin işğalı nəticəsində;

– 1930-cu ildə Şərqi Türküstandan (Sincan) qazaxların məcburən köçürülməsi;

– 1941-1945-ci illərdə baş verən İkinci dünya müharibəsi;

– 1950-ci ildə Sovetlər tərəfindən kollektivləşdirməyə məcbur olunan, lakin buna etiraz edərək, ölkəni tərk edənlər;

– 1960-cı illərdən başlanan əmək miqrasiyası;

– 1990-cı illərdən ta bu günə qədər müstəqil Qazaxıstandan müxtəlif səbəblərlə gedənlər.

Qazaxıstan rəsmi dairələrində və bu sahəni araşdıran tədqiqatçılarda qazax diasporu ilə bağlı yekdil bir fikir var. Diaspor Qazaxıstanın daxili siyasətinə qarışmır, beynəlxalq əlaqələr mövzusunda diasporlar ölkənin tanıdılmasında və ikitərəfli əlaqələrin qurulmasında mühüm rola malikdir.

Qeyd edək ki, Qazaxıstan öz xarici siyasətini "çoxşaxəlilik" prinsipi üzrə həyata keçirir və bu siyasət onun geosiyasi vəziyyəti, milli və dövlət mənafeyinə uyğundur. Dünyada və regiondakı geosiyasi reallıqları, yeni qlobal tendensiyaların





inkişafını nəzərə alaraq, son zamanlar Qazaxıstan öz xarici siyasət konsepsiyasına bir sıra dəyişikliklər etmişdir. Bu, hər şeydən əvvəl öz ifadəsini aşağıdakı istiqamətlərdə tapmışdır:

– Qazaxıstanın beynəlxalq təşkilatlarda fəaliyyətinin gücləndirilməsi;

– Beynəlxalq institutlarla konstruktiv əməkdaşlıq;

– Ölkənin imic siyasətinin fəallaşdırılması;

– Xarici siyasi əlaqələrin möhkəmləndirilməsi və Qazaxıstan biznesinin dünya bazarlarına doğru çıxışı üçün proqramın hazırlanması.

**Qazax irredent və diasporunun inkişaf tarixi.** Şərqi Türküstan (Sincan) içində qazaxların kütləvi miqrasiyası 1916-cı ildə Orta Asiyadakı milli qurtuluş hərəkatlarından sonra başlandı. 300 min qazax öz ölkəsini tərk edərək digər ölkələrə köçməyə məcbur oldu.

Qazax diasporunun meydana gəlməsinə səbəb olan ən böyük miqrant dalğası qanunsuz kollektivləşdirmənin baş verdiyi 1928-1932-ci illəri əhatə edir. Qazax xalqına qarşı təzyiq və deportasiyalar 1 milyon 30 min qazaxın Ana vətənini tərk etməsinə səbəb oldu. Rusiya, Özbəkistan, Türkmənistan, Əfqanıstan, Monqolustan və İrana köç edən qazaxlar burada öz icmalarını yaratmış, buraya köçmüş əvvəlki nəsillərlə birlikdə müasir qazax diasporunun bünövrəsini qoymuşlar.

1960-cı illərdən başlayaraq, qazaxlar İstanbul, İzmir, Ankara və digər şəhərlərə miqrasiya etməyə başladı. Bu il-

lərdə qazaxlar sayəsində türk iqtisadiyyatında yeni sənaye sahəsi – dəri tikişi inkişaf etdi.

1960-cı illər qazax diasporu arasında təhsil səviyyəsinin artırılmasında əhəmiyyətli irəliləyişlərin olması ilə yadda qaldı. Qazaxların Qərbi Avropa və Şimali Amerikaya təhsil miqrasiyası qazax diasporunun intellektual bazasını formalaşdırdı. Qazaxların bu illərdə məskunlaşdığı Almaniya, İsveç, Türkiyə kimi ölkələrdə qazax əmək miqrantlarının ölkəyə gətirilməsi ilə məşğul olan xüsusi firmalar fəaliyyət göstərirdi. Yeddi min rubl qarşılığında müqaviləyə imza atanları Avropada dərhal işlə təmin edirdilər. Bu işə gələn qazaxlar isə daha uzun müddətə qalmaq üçün müxtəlif sahələrdə çalışır və beləliklə, qazax diasporunun ikinci nəsil dalğasının bünövrəsini qoyurdular.

**Qazax diasporunun müasir vəziyyəti.** Bu gün qazax diasporu öz etnik kimliklərini qorumaq üçün dil, ailə, qohumluq, vətənlə əlaqələr, milli musiqi və milli mətbəxlərinə çox güvənirlər. Eyni zamanda, xarici ölkələrdə digər türkdilli xalqların diasporları ilə əlaqələr assimilyasiyalarını əngəlləyən amillərdən biridir. Müstəqil Qazaxıstanın dünya birliyinə qoşulmasından sonra lobbiçilik və milli dəyərlərin təbliği kimi öhdəlikləri üzərilərinə götürən qazax diasporu öz aralarında ana dilində danışmağa böyük önəm verir. Diasporun ikinci və üçüncü dalğası olanlar yeni nəsil qazax gənclərinin ana dillərini unutmamaları üçün milli məktəblərə getməsini zəruri hesab edir və onlar bunun üçün xüsusi olaraq maliyyə vəsaiti ayırırlar.





Qazaxlar qarışıq nikaha az üstünlük verən xalqlardan sayılır. Daha çox qazax və digər Orta Asiya mənşəli şəxslərlə nikaha girən qazax gəncləri övladlarının qazax olaraq yetişməsinə çalışırlar. Dövlət qazax diasporu ilə əlaqələrə xüsusi əhəmiyyət verir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin 21 noyabr 2005-ci il tarixli 1673 saylı qərarı ilə "2005-2007-ci illər üçün xaricdə yaşayan qazaxlara dəstək" adlı Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram ardıcıl olaraq iki ildən bir yenilənir və prezident tərəfindən vaxtı uzadılır. Bu proqramın məzmunu aşağıdakı kimi formalaşır:

1. Pasport;
2. Giriş;
3. Mövcud problemin analizi;
4. Proqramın məqsəd və hədəfləri;
5. Əsas istiqamətlər və Proqramın tətbiq olunması mexanizmləri:

5.1. Xaricdə yaşayan soydaşlarla bağlı qanunvericiliyin normativ bazasının təkmilləşdirilməsi;

5.2. Xaricdə yaşayan soydaşlarla sıx iqtisadi əlaqələrin qurulması üçün əlverişli şəraitin yaradılması;

5.3. Xaricdə yaşayan soydaşlarla daimi mədəni-humanitar əlaqələrin qurulması üçün şəraitin yaradılması;

5.4. Xaricdə yaşayan soydaşların davamlı informasiya ilə təmin edilməsi;

5.5. Qazaxıstan Respublikasında xaricdə yaşayan soydaşların ali məktəblərdə təhsil almaları üçün hazırlıqların görülməsi;

5.6. Qazax diasporunun birliyinə kömək etmək.

6. Görüləsi işlərin maliyyələşdirilməsi üçün maliyyə qaynaqları və ehtiyatların ayrılması;

7. Görülən işlərin nəticələrinin qiymətləndirilməsi.

Bu proqramın əsas məğzi ondan ibarətdir ki, dövlət xaricdə yaşayan qazaxları vahid qazax millətinin bir parçası hesab edir. Xaricdə yaşayan qazaxlar milli ənənə və adətlərinə hörmətlə yanaşmalı, Qazaxıstanı tarixi yurd olaraq qəbul etməli, öz ana dilində danışmalıdırlar. Xarici ölkələrdə qazax diasporu nümayəndələrinin ana dillərində təhsil alması üçün milli mədəniyyət ocaqlarının yaradılması prioritet vəzifələrdən hesab olunur. Qazaxlar məskunlaşdıqları ölkələrdə vətəndaşlıq almalıdır, yerli cəmiyyətə adaptasiya olmalıdır, onlar yüksək vəzifələr tutmalı, ali təhsil almalı, gənclərə dəstək göstərməlidir. Bütün bunlar Qazaxıstanın diaspor istiqamətində yeritdiyi siyasətin əsas istiqamətləridir.

Bu proqramla paralel olaraq "Ana Vətən – Qazaxıstana xaricdə yaşayan qazaxların geri dönüşü" adlı dövlət proqramının da icrası həyata keçirilir. Proqramın əsas məqsədi geri dönmək istəyən soydaşlar üçün əlverişli imkanların yaradılmasıdır. Proqrama müvafiq olaraq geri





dönmək istəyən qazaxlar üçün ev və torpaq almaq sənədləşməsinin sadələşdirilmiş formada aparılması, onlar üçün yeni iş yerlərinin yaradılması, biznes qurmaq istəyənlər üçün vergi və gömrükdə uyğun şərtlərin təqdim olunması, ali məktəblərdə tələbə kvotasının ayrılması, orta məktəblərdə xüsusi proqramların hazırlanması, gənclərin vaxtlarını asudə keçirməsi üçün müvafiq bazanın yaradılması, sosial-tibbi güzəştlərin verilməsi və s. nəzərdə tutulmuşdur.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev diaspor məsələsinə xüsusi önəm verir. Bu günə qədər Qazaxıstanda üç dəfə dövlət səviyyəsində Dünya Qazaxlarının Qurultayı keçirilmişdir:

– Birinci qurultay 29 sentyabr 1992-ci ildə Almatı şəhərində keçirilmişdir. Bu Qurultay müstəqillik qazanan Qazaxıstana uzun illər xaricdə yaşayan qazaxların ilk böyük səfəri və Ana vətənlə tanışlıq xarakteri daşıyırdı. Burada qəbul edilən əsas sənədlər dünya qazaxlarının birliyi, ölkənin xaricdə tanıdılması, dövlətin onların problemlərinə qayğı ilə yanaşması, xarici ölkələrdə qazax dilində məktəblərin açılması və digər məsələlərlə bağlı idi.

– İkinci qurultay 23-24 oktyabr 2002-ci ildə Türküstan şəhərində keçirilmişdir. Bu qurultayın müzakirə etdiyi əsas məsələlər birinci qurultaydan keçən dövr ərzində görülən işlərin hesabatı, Qazaxıstanla məskunlaşdıqları ölkələr arasında

ikitərəfli münasibətlərin qurulmasında rol və vəzifələri, diaspor təşkilatlarının formalaşdırılması və s. məsələlər idi.

– Üçüncü qurultay 28-30 sentyabr 2005-ci ildə Astana şəhərində keçirilmişdir. Burada artıq inkişaf edən diasporun dövlətlə münasibətlərində yeni hüquqi bazanın yaradılması, xaricdə tanınma məsələsi, lobbiçilik, Qazaxıstan iqtisadiyyatına kapital qoyulması və digər məsələlər müzakirə edilmişdi.

Bu qurultayların əsas məqsədi qazaxların bütün dünyada yayılmış bir xalq olduğunu, onların Qazax mədəniyyətini, dilini və dinini qoruyaraq bu günlərə gəldiyini ifadə etməkdən ibarət idi. Dünyada yaşayan qazax icmalarının yaxşı təhsilli və məlumatlı olmasını qarşıya məqsəd qoyan bu qurultaylar diasporun güclənməsinə təkan verən amil olaraq götürülür. Nursultan Nazarbayevin fərmanı ilə 15 milyard tenge (20 milyon dollar) maliyyənin sırf gənclərin Avropada və Amerikada təhsil alması üçün ayrılması diasporun intellektual bazasının güclənməsinə xidmət edir.

Berlin Qazaxları Cəmiyyətinin sədri Yunusbey Toramanın diasporda gənc nəslin formalaşması ilə bağlı nitqi qazax diasporunun keçdiyi inkişaf yolunu qiymətləndirmək baxımından çox maraqlıdır: «Böyüklərimiz 30-40 il əvvəl Avropaya işçi olaraq gəldiklərində nə bu ölkələrin dilini və cəmiyyətini bilirdilər, nə də onlara yardımçı olacaq təşkilatlar var idi. Onlar bütün səylərini işləmək və ailələrini dolandırmağa yönəldirdilər. Lakin aradan keçən zaman içində gənc nəsillərin daha yaxşı almanca, ingiliscə, fransızca öyrənməsi, təhsil və peşə ixtisasında irəliləməsi yeni bir vəziyyət yaratdı. Bu gün içində yaşadığımız cəmiyyəti daha yaxşı başa düşürük. Bu gün çox sayda gənclərimiz yüksək təhsil görməkdə və cəmiyyətə inteqrasiya olunmaqdadır. Bundan 19 il əvvəl müstəqilliyinə qovuşmuş olan Ata Yurdumuz Qazaxıstanın varlığı və Qazax dövlətinin diaspora istiqamətlənmiş siyasəti, Avropadakı Qazax cəmiyyəti üçün yeni imkanlar və perspektivlər açmaqdadır. Bunları yaxşı dəyərləndirməklə Avropa qazaxlarının ənənələrinə bağlı və çağdaş bir icma olaraq özünü tanıtmasına nail ola bilərik.»





Hazırda qazax diasporu dünyanın bir çox ölkələrində formalaşmışdır. Onların say etibarı ilə çoxluq təşkil etdiyi ölkələr içərisində Türkiyə, Rusiya, Çin, Qırğızıstan, ABŞ, Özbəkistan, Monqolustan üstünlük təşkil edir.

**Türkiyə.** Türkiyədəki qazax türkləri bu ölkəyə ilk olaraq, 1952-ci ilin sonlarından etibarən gəlməyə başlayıblar. Çinin Şərqi Türküstan bölgəsindən Türkiyəyə edilən bu köç bir neçə mərhələdə həyata keçirilib. Çinin Homindan hökumətinin Şərqi Türküstan Ümumi Qubernatoru Sheng Shi Tsaiyə üsyan edən qazaxların bir qismini 1941-ci ildə Tibet üzərindən Hindistana sürgün etdi. Bunlara Elishan Elifoğlu ilə Zəif Teyci liderlik edirdi. Bu icma on ildən çox bir vaxtda Hindistan və Pakistanda yaşamağa məcbur oldu.

İkinci mühacirət dalğası Çindəki 1949-cu il qiyamından sonra reallaşdı. Sultan Şərif Zuvkaoğlu, Hüseyn Teyci Tölevbayoğlu, Alibek Hakim Rahimbekoğlu, Delihan Ca-

naltay Canımhanoğlu kimi liderlərin başçılığı ilə Hindistanın Kəşmir şəhərində qazax icması yerləşdi. Hər iki köçün mənsubları 13 Mart 1952-ci ildə Türkiyə Nazirlər Kabinetinin qərarı ilə, Türkiyəyə daimi yaşayış hüquqlu immiqrant olaraq qəbul edildi. Sayları təxminən iki minə qədər olan qazaxlar 1952-ci ilin sentyabrından etibarən Türkiyəyə icma şəklində köçməyə başladılar. Son qrup 1954-cü ilin yazında gəldi. Qazaxlar öz istəklərinə əsasən, Türkiyənin Kayseri, Manisa, Nigdə və Konya vilayətlərində müxtəlif mahal və kəndlərə yerləşdirildi.

Zaman içində qazaxlar, Türkiyədəki urbanizasiya prosesləri nəticəsində İstanbula yerləşməyə başladılar. Onların İstanbulda ilk seçdikləri yer Zeytinburnu oldu. Daha sonra Kiçik Çəkməcə, Səfaköy, Bağçılar və Ümraniyə kimi ərazilərdə də yerləşdilər. Qazaxlar tikinti, dəmiryolu və digər işlərdə özlərini bacarıqlı işçi kimi göstərdilər. Daha sonra dəri-parça sektorunda fəaliyyətə başlayan qazaxlar ilk dəfə tullantı dəri parçalarının emalı sahəsində liderliyi ələ aldılar. Qazaxların bir hissəsi 1960-cı illərdən etibarən Türkiyədən Avropaya işçi axınına da qatılaraq Almaniya, Fransa, Böyük Britaniya və İsveç kimi ölkələrə yerləşdilər.

1970-ci illərdə İstanbul kimi bahalı bir şəhərdə kirayədə oturmanın çətinliyi nəzərə alınaraq, diaspor liderlərindən Delilhan Canaltayın başçılığı ilə mənzil kooperativi quruldu. Beləcə 300-ə qədər ailə Bağçılar mahalında, bu gün Kainat Məhəlləsi olaraq xatırlanan yerdə Qazaxkənd adlı məhəllə





saldı. Həmin ildən başlayaraq, qazax diasporunun ölkə iqtisadiyyatına inteqrasiyası başlanır və dəri işində onlar yerli biznesə öz şirkətlərini qoşmaq imkanları əldə etdilər. İstanbul, Ankara və digər şəhərlərdə atelye və mağaza sahibləri olan qazaxlar içərisində varlı təbəqə formalaşmağa başlandı. “Altaylar”, “Altay Plastik”, “Türküstan Altay” kimi firmalar yerli və xarici müəssisələrlə rəqabətə girməkdən çəkinmirdilər. 1976-cı ildə məhz bu sahibkarların sayəsində Qazaxkənd ərazisində qazax dilinin tədris edildiyi orta və «Həftə sonu» məktəblərinin tikilməsinə başlandı. 1977-ci ilin sentyabrında qazax orta məktəbinin açılışı oldu.

1986-cı ildə Türkiyə qazaxlarının mədəniyyət mərkəzi olan cəmiyyət təsis edildi. Bu təşkilatın yaranmasını zəruri edən Alma-Atıda baş verən hadisələr idi. Qurumun yaranması üçün Qazaxıstandan Türkiyəyə gələn bir qrupun təşəbbüsü ilə təşkilatın ilk bülletenində dünya ölkələrinə və qazax diasporuna müraciəti dərc edildi. Sənəddə baş verən hadisələrdə Sovet üsul-idarəsini tənqid edərək Qazaxıstanın müstəqilliyinin elan edilməsi üçün dünya birliyindən dəstək istənilirdi. 16 dekabr 1991-ci ildə Qazaxıstan Nursultan Nazarbayevin liderliyi ilə müstəqilliyini elan etdi. Qazaxıstan müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Respublikası oldu.

Müstəqilliyini elan edən Qazaxıstan xarici ölkələrdəki soydaşları ilə təxminən 70 ildir itən əlaqələrini düzəltmək istiqamətində addımlar atdı. 1992-ci ildə ilk dəfə Dünya Qa-

zaxlarının Qurultayı keçirildi. Türkiyədən bu mühüm tədbirdə 104 nümayəndə iştirak etdi.

Qurultay əsnasında Dünya Qazaxları Cəmiyyəti təsis edildi. Sədrliyə Nursultan Nazarbayev, müavinliyə Qazaxıstan Yazıçılar Birliyinin sədri Kaldarbek Naymanbayev seçildi. Cəmiyyətin İdarə heyətinə Türkiyə Qazax diaspor üzvlərinin liderlərindən Delilhan Canaltay seçildi. Qurultay əsnasında ayrıca, xarici ölkələrdə yaşayan qazaxların hüquqları ilə bağlı qanun qəbul edildi. Bu qanuna uyğun olaraq, xaricdə yaşayan qazax diasporunun nümayəndələrinin ikili vətəndaşlıq daşımasına icazə verildi.

1995-ci ilin YUNESKO tərəfindən Abay İli elan edilməsi ilə əlaqədar İstanbulun Zeytinburnu məhəlləsində yerləşən prospektlərdən birinə Abay adı verildi. 1997-ci ildə Dünya Qazax Cəmiyyəti və Qazax Türkləri Vəqfi İstanbulda bir qurultay reallaşdırdı. Türk hökumətinin də dəstək verdiyi qurultay əsnasında Qazax Türkləri Vəqfinin binasının açılışı edildi.

Hazırda Türkiyədə qazax diasporunun qarşısında dörd əsas məsələ durur:

- Qazaxları dünyaya tanıtma;
- Qazaxların özlərini türk xalqına və öz nəsillərinə tanıtması;
- Türkiyədəki qazaxların özlərini Qazaxıstana tanıtması.





**Özbəkistan.** Təxmini hesablamalara görə, bu ölkədə yaşayan qazaxların sayı 1-1.5 milyona qədərdir. Burada qazaxlar demək olar ki, kompakt halda yaşamır. Qaraqalpastda əhalinin 24,8 faizi, Daşkənddə 13,7 faizi, Nəvaidə 10,2 faizi və Ciazkda 6,6 faizini qazaxlar təşkil etməsinə baxmayaraq, onların bir-biriləri ilə əlaqələri zəifdir.

Qazaxlar Özbəkistanın elm, təhsil, səhiyyə, mədəniyyət, ədəbiyyat, iqtisadiyyat və ictimai həyatında mühüm rol oynayır. Sovet dönəmində ölkə rəhbərləri arasında etnik qazaxların sayı da nəzərəçarpacaq dərəcədə idi. Lakin Özbəkistan müstəqillik əldə etdikdən sonra qazaxların bir qismi ölkəni tərk etmişdir.

**Almaniya.** Almaniyanın üç böyük şəhərində – Berlin, Münhen və Kölndə qazax diasporunun yeddi mindən çox nümayəndəsi məskunlaşıb. Avropanın inkişaf etmiş dövlətlərindən biri sayılan Almaniyaya qazaxların mühacirəti 1960-cı ildə Türkiyədən köçlə başlandı. Zamanla bu ölkəyə inteqrasiya edən qazaxlar 90-cı illərdən etibarən diaspor təşkilatlarını yaratmağa başladılar. Yaradılan qazax mədəniyyət mərkəzlərində ana dilinin təbliğ olunması, Qazaxıstanla bağlı həqiqətlərin yerli ictimaiyyətə çatdırılması, milli mədəniyyətin tanıdılması ilə əlaqədar tədbirlər təşkil edilir.

**Amerika Birləşmiş Ştatları.** Amerika Birləşmiş Ştatlarına qazaxların miqrasiyası və burada məskunlaşaraq diaspor formalaşdırması İkinci dünya müharibəsindən sonrakı

dövrə təsadüf edir. ABŞ-da qazax diasporunun tərkibini formal olaraq bir neçə qrupa bölmək olar:

– Birinci dalğanın tərkibini İkinci dünya müharibəsi dövründə əsir düşərək qazax legionlarında Sovet İttifaqına qarşı döyüşlərdə iştirak etmiş və müharibə bitdikdən sonra Vətənə qayıtmayan qazaxlar və onların nəsilləri təşkil edir. Onlar bu ölkəyə Türkiyə və Almaniya üzərindən keçərək gəlmişlər və burada gizli həyat yaşamağa məcbur olmuşlar. Sovetlərin əsir düşmüş şəxslərə qarşı rəftarı haqqında məlumatlar onların geri qayıtmamasının əsas səbəbi olmuşdur.

– İkinci dalğanı Türkiyə vətəndaşlığı əldə edib daha sonra türk əməkçi miqrantları ilə birlikdə Amerikaya köçənlər təşkil edir.

– Üçüncü dalğanın nümayəndələri Çində təzyiqlərə məruz qalaraq yaşadıqları yeri tərk etməyə məcbur olanlar, ABŞ-a bir daha geri qayıtmamaq üçün miqrasiya edənlərdir.

– Amerikaya işləməyə gələn və burada yerli qadınlarla nikaha girən qazaxlar diasporun dördüncü dalğasını təşkil edirlər.

– Təhsil almaq üçün bu ölkəyə gələn və öz intellektləri sayəsində yüksək gəlirli iş təklifi alaraq Amerika vətəndaşlığı alan beşinci dalğa qazax diasporunun nümayəndələri ziyalı təbəqəyə daxildir.

1960-cı ildə Harvard Universitetinin hazırladığı illik ensiklopedik məlumat kitabında Vaşinqton, Kaliforniya və Nyu-Yorkda cəmi 20 qazax ailəsinin (rəsmi vətəndaşlıq





alan) olduğu qeyd edilir. Məlumatda qeyd edilirdi ki, bu ailələr assimilyasiyaya meylli deyillər, öz adət-ənənələrinə sadiqdirlər və çox yaxşı işçi sayılırlar. Qazaxlar öz aralarında nikah qururlar, köhnə nəsillə daima əlaqə saxlayırdılar.

İngilis, rus, türk və qazax dillərini bilən qazax diasporu nümayəndələrinin təhsil aldığı İndiana Universitetində "Qazax Tələbələr Assosiasiyası" fəaliyyət göstərir. 1985-ci ildən etibarən, Türkiyə və Çindən gələnlər cəmiyyətlər formalaşdırmağa başladılar. 1992-ci ildən bu cəmiyyətlər Qazaxıstanın təbliği istiqamətində iş aparır. Hazırda ABŞ-ın 6 universitetində Mərkəzi Asiya üzrə fakültələr mövcuddur.

**Rusiya Federasiyası.** 1820-1890-cı illərdə aparılan siyahıyaalma zamanı Rusiyanın müxtəlif bölgələrində XVII əsrdən qazaxların yaşadığı məlum olur. Hazırda Rusiyada qazax diasporu sayına görə tatar, başqırd və çuvaşlardan sonra dördüncü ən böyük türkdilli xalq hesab olunur.

Qazaxlar müasir dövrdə Rusiyada müxtəlif peşələrdə çalışırlar. Onlar daxili nikaha üstünlük versələr də, son illərdə qarışıq nikahların da sayı artmaqdadır.

Rusiyada qazaxlar iki dildə – rus və qazax dillərində sərbəst danışırlar. Mərkəzi Asiyanın digər dövlətlərindən fərqli olaraq, qazaxların miqrasiyası mövsümi və əmək xarakteri daşımır. Lakin onlar burada uzun müddətə qalmırlar. Yəni, onlar Rusiyada yaşamağa deyil, vətənlərinə geri dönməyə üstünlük verirlər. Qazaxların Rusiya ərazisində məskunlaşma coğrafiyası aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Region | Say | Şəhərdə məskunlaşanlar (faizlə) | Kənddə məskunlaşanlar (faizlə) | Yaş həddi |
|---|---|---|---|---|
| Astraxan | 142.633 | 33,2 | 66,8 | 30,1 |
| Orenburq | 125.568 | 21,8 | 78,2 | 29,2 |
| Om | 81.618 | 47,7 | 52,3 | 28,5 |
| Saratov | 78.320 | 21,35 | 78,65 | 30,9 |
| Volqoqrad | 45.301 | 21,08 | 78,92 | 29,6 |
| Çelyabinsk | 36.219 | | | |
| Samara | 14.918 | | | |
| Kurqan | 14.804 | | | |
| Tümen | 12.977 | | | |
| Altay | 12.108 | 8,1 | 91,8 | 25,7 |
| Novosibirsk | 11.691 | | | |
| Moskva | 10.290 | | | |
| Altay vilayəti | 9.825 | | | |
| Kalmikiya | 3.011 | | | |
| Sverdlovsk | 4.403 | | | |
| Xanti-Mansiysik | 4.258 | | | |
| Başqırdıstan | 4.092 | | | |
| Rostov | 3.021 | | | |
| Sankt-Peterburq | 2.830 | | | |
| Krasnoyarsk | 2.521 | | | |
| Saxa | 1.525 | | | |
| Tomsk | 1.215 | | | |
| *Cəmi* | 653.962 | 32,5 | 67,5 | 30,2 |





Rusiyada ilk dəfə olaraq, 2006-cı ilin dekabrında Samara şəhərində Ümumrusiya Qazaxlarının Qurultayı keçirildi. Qurultayda Rusiyadakı qazax diasporunun birgə fəaliyyəti və gələcək işləri müzakirə olundu. Qurultay qərara gəldi ki, 2006-cı ildən etibarən Rusiyadakı qazaxların bir mərkəzdən idarə olunması mühümdür. Milli kimliyin təbliğ edilməsi də qurultayın əsas qərarlarından biri idi.

Qeyd edək ki, bu gün müasir Qazaxıstan İnsan inkişafı amilinə xüsusi diqqət verir. Xüsusilə, xaricdə yaşayan qazaxlarla bağlı yeridilən siyasətdə bu amilə mühüm yer verən Qazaxıstan dövlətinin təcrübəsi, insan inkişafına verdiyi diqqət çox maraqlıdır və böyük əhəmiyyət kəsb edir. İnsan inkişafı ilə bağlı Qazaxıstanda bir sıra siyasi strateji sənədlər, "Qazaxıstan-2010", "Qazaxıstan-2030" milli, regional, sektoral proqramlar qəbul edilmişdir. Məlumat üçün bildirək ki, İnsan inkişafı ideyası – bu anlam geniş mənada götürülür: siyasi, iqtisadi və sosial imkanlarının genişlənməsi, şəxsi, yaradıcı potensialının inkişafı, savadlı, sağlam həyat tərzinə malik olmaq, təhlükəsiz yaşamaq və s.

## QIRĞIZ DİASPORU

**Qısa tarixi məlumat:** Bu gün qırğızlar Qırğızıstandan başqa, Özbəkistan, Uyğurustan, Əfqanıstan, Tacikistan və dünyanın müxtəlif bölgələrində yaşamaqdadırlar. Uyğur-Sincuq Muxtar bölgəsində Qızılsu Qırğız Muxtar Əyaləti də mövcuddur.

Sovetlər Birliyinin dağılması nəticəsində bütün keçmiş müttəfiq respublikalarda olduğu kimi, Qırğızıstanda da etnik azlıqların Rusiya Federasiyasına, Almaniyaya və digər ölkələrə miqrasiyası başlandı. 1989-1991-ci illər arası Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanda yüzlərlə adamın ölümü ilə nəticələnən etnik qarşıdurmalar Sovet dövründə bölgəyə yerləşmiş xalqların miqrasiya etməsinə səbəb oldu.

Əhalinin 40 faizindən çoxunun yoxsulluq səviyyəsində yaşadığı Qırğızıstanda müstəqilliyin ilk dövrlərindən başlayan və indi də davam edən zəka axını mütəxəssis qıtlığı yaratmışdır. Əmək miqrasiyası nəticəsində 300.000 Qırğızıstan vətəndaşı Rusiya Federasiyasına köçdü.

Müstəqilliyin ilk illərindən başlayaraq, immiqrasiya prosesinin idarə edilməsi məsələsi də gündəmə gəldi. Bu dövrdə qırğızların xaricə miqrasiyası vüsət almağa başladı və nəticədə dünyanın bir çox ölkələrində qırğız diasporları formalaşmağa başladı. Son statistikaya nəzər salsaq, müasir dövrdə dünyada yaşayan qırğızların sayını aşağıdakı qaydada qeyd edə bilərik:





- Qırğızıstan - 5.100.000
- Özbəkistan - 410.000
- Çin Xalq Respublikası - 210.000
- Tacikistan - 81.000
- Rusiya Federasiyası - 360.000
- Qazaxıstan - 40.000
- Ukrayna - 3.000
- Əfqanıstan - 15.000

Qırğızıstan Miqrasiya İdarəsinin hesablamalarına görə, xaricdə yaşayan qırğızların sayı 6 yüz min - 1 milyon nəfərə qədərdir. Qırğızların sayının çox olduğu ölkələr əsasən Rusiya, Qazaxıstan, ABŞ və Türkiyədir. Rusiya rəsmilərinin hesablamalarına görə, Rusiyada 360 min nəfər yaşayır ki, onların da 190 mini vətəndaşlıq əldə edib.

Qırğızıstanın xarici siyasət konsepsiyasında diaspor məsələsi önəmli yerlərdən birini tutur. Qırğız milli kimliyinin, tarixi haqlarının, milli maraqların qorunması və təbliğində dövlətlə yanaşı, xaricdə yaşayan qırğızlar da önəmli işlər həyata keçirirlər. "Manas" dastanı, "Böyük ipək yolu" kimi strateji xəttin bura ilə sıx bağlı olması, İssık-Kul gölünün dünyada istirahət mərkəzi kimi tanınması, milli mətbəx və musiqi qırğızların qürur yeri olmaqla yanaşı, diasporun təbliğatında da əsas yerlərdən birini tutur.

Qırğızıstan qonşu Qazaxıstanın təcrübəsindən yararlanaraq, xaricdə yaşayan qırğızların ölkəyə geri qayıdaraq vətəndaşlıq əldə etməsinin demoqrafik inkişafla yanaşı, mütəxəssis azlığı probleminin aradan qalxmasına böyük təkan verəcəyini nəzərə almış və "Kayrılman" proqramı işləyib hazırlamışdır. "Kayrılman" proqramının əsas məqsədi xaricdə yaşayan qırğızlar üçün ölkə daxilində geniş imkanların yaradılması və onların müxtəlif üstünlüklər əldə etməsidir. Proqramın tətbiqi üçün "Vətəndaşlıq haqqında" və "Xarici miqrasiya haqqında" qanunlara dəyişiklik və əlavələr edildi.

"Kayrılman" proqramının tam adı belədir: "Tarixi vətənə geri dönən etnik qırğızlar üçün dövlət təminatı verən Qırğızıstan Respublikasının Qanunu". Bu sənəd 10 oktyabr 2007-ci ildə Qırğızıstan parlamenti tərəfindən qəbul edilib. Proqramın ümumi müddəalarında deyilir ki, "Kayrılman" xarici vətəndaş, yaxud vətəndaşlığı olmayan şəxs sayılan və könüllü olaraq tarixi vətəninə geri dönərək "Kayrılman" statusu alan etnik qırğızdır. "Kayrılman" statusu şəxsə müvəqqəti olaraq Qırğızıstan Respublikası vətəndaşlığını təmin etməyə imkan verir. Qırğızlara verilən bu hüquqlar isə beynəlxalq hüquq və milli qanunvericilik normaları çərçivəsində müəyyən edilir və qorunur. "Kayrılman" proqramı onların insan haqları, yaşamaq hüquqları, iqtisadi və sosial haqlarını, seçilmək və seçmək hüquqları ilə yanaşı, digər haqlarını tənzimləyir. Bu proqramı qəbul edən dövlət təminat verir ki, onların vətənə geri qayıdacağı təqdirdə sosial-





iqtisadi adaptasiyasına yardım edəcək, hüquqlarını rəsmən qoruyacaq və buna tam əməl ediləcək.

Proqramdan irəli gələrək, "Kayrılman" statusu alan ailə başçısının həyat yoldaşı və övladları da avtomatik olaraq bu statusu əldə etmiş olur. "Kayrılman" statusu alan şəxsə miqrant hüququnu tanıyan rəsmi sənəd təqdim edilir. Burada onun haqqında tam məlumat və qeydiyyatda olduğu yer göstərilir.

18 yaşına çatmayan şəxslər üçün isə valideynlərin razılıq sənədi olmalıdır. Bu statusu almaq üçün qırğızlar xaricdə yerləşən səfirliklərə və Xarici İşlər Nazirliyinə müraciət etməlidirlər. Bu statusu alan şəxs sonradan başqa bir ölkəyə köç etməsi nəticəsində onu avtomatik olaraq itirir. Cinayət işində ittiham olunan, axtarışda olan, Qırğızıstanın milli maraqlarına zidd fəaliyyət göstərmiş şəxslərin bu statusu almaq hüquqları yoxdur.

"Kayrılman" proqramını qazanan şəxslər ali və orta təhsil müəssisələrində oxumaqda güzəştlər əldə edirlər. Onların övladları pulsuz olaraq ana dili öyrənmək imkanlarına malik olur və iş tapmaqda xüsusi güzəştlər əldə edir. Sosial təminat, pensiya, sosial yardım, işsizlik müavinəti yerli vətəndaşlarla paralel olaraq onlara da tətbiq edilir. Tibbi güzəştləri alan "Kayrılmanlar", eyni zamanda, qeydiyyatda olduğu yerdə istənilən sənəd və arayış almaq hüququ əldə edirlər. "Kayrılman" proqramını qazanan şəxslər Qırğızıs-

tan vətəndaşlığı alan zamandan bütün seçkili orqanlara namizəd olaraq iştirak edə bilər.

**ABŞ**. Amerikada qırğızların yaşadıqları əsas ərazilər Virciniya, Merilənd, Filadelfiya, Pensilvaniya, Vaşinqton, Nyu-York, Nyu-Cersi, habelə digər ştat və şəhərlərdir. Rəsmi mənbələrdən verilən məlumata görə XX əsrin əvvəllərində sovetlərin işğalçı siyasəti, II dünya müharibəsi və Sovetlər Birliyinin dağılmasından sonrakı illərdə baş verən miqrasiya nəticəsində qırğızlar okeanın o tayında məskunlaşmağa başlamışlar. Qırğız diasporunun əsasını Amerikada əsasən 1990-cı illərdən sonra miqrasiya edən şəxslər qoymuşlar. ABŞ-da Qırğızıstan Respublikasının Səfirliyi açılandan sonra aparılan hesablamalarda qırğızların sayının bir neçə dəfə artdığı bildirilir. Onların çoxu beyin axını, əmək miqrasiyası, "green-card" lotereyası, nikah müqaviləsi və təhsil ardınca gələrək buranı daimi yaşayış məskəni seçənlərdən ibarətdir.

Bu gün təşkilati cəhətdən geri qalmalarına baxmayaraq, qırğızlar Amerikada sevilən etnik qruplardan sayılır. Qırğızıstan rəsmiləri bu ölkəyə səfəri zamanı tez-tez diaspor üzvləri ilə keçirdikləri görüşlərdə yerli məmurların iştirakını da təmin edirlər və bu da qırğız diasporunun rəsmi qurumlar tərəfindən dəstəklənməsinə şərait yaradır. Siyasi səbəblə miqrasiya edənlərin çoxu diaspor işində fəal olmasalar da, qırğız millətinin layiqli təmsilçisi kimi çıxış edirlər.





Qırğızıstanın BMT-də daimi nümayəndəliyinin və səfirliyin hesablamalarına görə, leqal və qeyri-leqal miqrasiyanı nəzərə alsaq, hazırda Amerikada 5 minə yaxın qırğızın yaşadığını qeyd etmək olar.

Səfirliyin verdiyi məlumata görə, Amerikada ilk vətəndaşlıq alan qırğız miqrant ailəsində anadan olan Əzəmət Altay adlı şəxs olub. Ondan sonra burada doğulan qırğız uşaqları bugünkü qırğız diasporunun üzvlərinə çevrilirlər.

Bu gün qırğız diasporuna məxsus internet saytlarında (www.kyrgyzclub.com, www.kyrgyznews.com və www.kgcenter.com) da Amerika qırğızlarının xəbərləri verilir. Qırğız gəncləri təhsil aldıqları müəssisələrdə tanınır və onların milli mətbəxi və geyimləri yerli ictimaiyyət tərəfindən sevilir.

**Qazaxıstan.** Burada qırğız diasporunu Qırğız Mədəniyyət Mərkəzi "Meken" təmsil edir. 1996-cı ilin avqustunda yaradılan mərkəz ətrafında burada yaşayan bütün qırğızları birləşdirir. Bu qurum yarandığı gündən Qazaxıstanda bir çox mühüm tədbirlərə imza atmışdır. M.Auezov, Ç.Aytmatovun, M.Şahanovun, A.Kekilbekovun, S.Kirbayevin və digər tanınan şəxslərin yubileylərini və diaspor üzvləri ilə görüşlərini keçirən Mərkəz Qazaxıstan Prezidenti yanında Milli Assambleyanın üzvüdür.

Son məlumata görə, hazırda Qazaxıstanda 40 min qırğız yaşayır. Bunlar rəsmi olaraq bildirilən rəqəmlərdir. Lakin qeyri-rəsmi mənbələrə görə, Qazaxıstanda 200 min qırğız yaşayır. Onlar tütünçülük, neft-qaz emalı, daş-kömür isteh-

salı, bank sektoru, beynəlxalq təşkilatlar və digər işlərdə çalışırlar. Qazaxıstan ali təhsil müəssisələrində qırğız tələbələr də təhsil alırlar. "Manas-Ata" və "Ala-Too" cəmiyyətləri qırğız diasporunun birgə hərəkət etməsinə yardımçı olurlar.

151 saylı qırğız məktəbində diaspor üzvləri üçün ana dili, tarixi və mədəniyyəti tədris olunur. İki qardaş xalqın birgə əməkdaşlığı nəticəsində bu günə qədər burada milli zəmində heç bir insident baş verməmişdir.

**Əfqanıstan.** Qırğızların bu ölkəyə köçməsi rəsmi mənbələrdə 1930-cu illərə aid edilir. Lakin A.N.Bernşted araşdırmasında göstərir ki, müasir Əfqanıstana qırğızlar XVII əsrdə köç etməyə başlayıblar. Pamir boyu səpələnən etnik qırğızlar Bəlx və Kara-Təkin şəhərlərində məskunlaşmışlar. 1869-1873-cü illərdə əfqan-rus sərhədlərini müəyyən edən sənədlərin imzalanmasından sonra köçəri qırğızların Əfqanıstan torpaqlarına miqrasiyası zəifləməyə başladı.

XX əsrin ilk illərindən başlayaraq, qırğız soyu olan Sarı teyit tayfası Əfqanıstanda məskunlaşmağa başladı. Basmaçı hərəkatında fəal iştirak edən bu tayfa sovet qoşunlarına qarşı mübarizə aparan dəstə təşkil etmişdi. Sovet ordusuna ağır zərbələr vuran bu dəstənin lideri olan Rahmankul xan "Pamirin müdafiəçisi" adı aldı.

Lakin sonradan ölkə daxilində baş verən hadisələr, siyasi proseslər Rahmankul xanın Pakistana, oradan da Türkiyəyə köç etməsinə səbəb olmuşdur. Həmin dövrdə bir çox qırğızlar burada qalmağa üstünlük verdilər. Sovetlər Birliyinin dağılmasından sonra baş verən miqrasiya prosesi nəticəsində bura köçən qırğızları da nəzərə alsaq, hazırda Əfqanıstanda 15 min qırğızın yaşadığını qeyd edə bilərik.





Qırğızların əfqan torpaqlarında əsas işləri əkinçilik və heyvandarlıqdır. Bəzi məlumatlara görə, Vaxan vadisində yaşayan qırğızlar narkotik maddələrin aludəçisi və eyni zamanda, onu becərənlərdən sayılırlar. Qırğızlar onun satışını Tacikistan üzərindən edirlər və əldə etdikləri gəlirlə ailələrini dolandırırlar. Bu bəla XXI əsrdə feodal üsulu yaşayan Əfqanıstan üçün xarakterik qazanc mənbəyi sayılır. 2000-ci ildə Əsgər Akayevə müraciət edən əfqan qırğızları ailələrini bu bəladan qurtarmaq üçün onlara Ana vətənlərində vətəndaşlıq verilməsi xahişini edirlər. Bu müraciətdən irəli gələrək, "Kayrılman" proqramının tərtibi gündəmə gəldi və Qırğızıstan hakimiyyəti beynəlxalq təşkilatlara müraciət edərək etnik qırğızların vətənə geri qayıtması üçün kömək istədi. Əfqanıstan qırğızlarının Sarı-Taşa və Alae adlı ərazilərdə yerləşməsi planı belə hazırlandı.

Lakin yerli ekspertlər hesab edirlər ki, bu proses zamanla, davamlı olaraq aparılmalıdır. Birdən-birə belə bir addımın atılması ölkədə sosial-mədəni partlayış yarada bilər. Yəni, uzun müddət əfqan təsiri müasir demokratik düşüncəli insanlarla anlaşılmazlıqlar yarada bilər. Eyni zamanda, linqvistik problem də öz təsirini göstərəcəkdir. Çünki yerli qırğızlardan fərqli olaraq, urdu, fars, ərəb dillərində danışan Əfqanıstan qırğızları rus və qırğız dilində bilən yerlilərlə ün-

siyyət qurmaq çətinlikləri yaşayacaqlar. Bu da öz növbəsində iki qrup arasında sosial-psixoloji gərginliklər yaradacaq.

Bu kimi çətinlikləri aradan qaldırmaq üçün Beynəlxalq Miqrasiya Təşkilatı Qırğızıstan dövləti ilə birlikdə problemlərin həlli yollarını araşdırır.

**Çin.** Tarixən qırğızların sıx məskunlaşdığı ölkələrdən biri olan Çində hazırda Manas şəhəri, Manas gölü və Manas çayının olması qırğız xalqının bu torpaqlarla qədim bağlılığını göstərir. Hazırda burada 210 min qırğız yaşayır ki, onların çoxu 1916-cı ildən sonra buraya köçənlərin nəvə-nəticələri və müstəqillik illərindən sonra müxtəlif səbəblərlə vətənlərini tərk edib işləmək üçün Çinə gələnlərdir. Qırğız diasporunun gənc nəsli içərisində bir çoxları yerli cəmiyyətə adaptasiya olunaraq Çin məktəblərində təhsil almağa üstünlük vermişlər. Hazırda onların çoxu Çin ali məktəblərində oxuyur və dövlət işlərində çalışmağı qarşılarına məqsəd kimi qoymuşlar. Qırğız diasporu ana dillərində ərəb və milli əlifba əsasında media orqanları nəşr edir, qırğızlar arasında informasiya boşluğunu aradan qaldırmağa çalışırlar. Qırğızıstan Təhsil Nazirliyi onları anadilli kitabları və dərslikləri ilə də təmin edir.

Son illərdə uzun müddət vətənləri ilə əlaqələri olmayan Çindəki qırğız diasporunun vətənlə əlaqələri yaranmağa və inkişaf etməyə başlamışdır. Çindəki qırğızların həyatı elmi ictimaiyyət tərəfindən ciddi öyrənilir. Bir çox elmi işlər məhz bu mövzuya həsr edilir.





**Tacikistan.** Jerqe-Tal, Murqab, Şaartuz və Yaval rayonlarında kompakt halda məskunlaşan qırğızlar əsasən dağlıq zonalarda yaşamağa üstünlük verirlər. Bu ərazilərin tarixən onlara məxsus olduğunu bilən qırğızlar burada özlərini diaspor hesab etmirlər. Son məlumata görə, hazırda Tacikistanda 81 min qırğız yaşayır ki, onların əksər hissəsi qırğız məktəblərində təhsil alır. Qırğızıstan dövləti onları daima nəzarətdə saxlayaraq, ədəbiyyat, mətbuat və digər nəşrlərlə təmin edir. Qırğızıstan təhsil müəssisələrində bu məktəbləri bitirən və vətənlərində təhsil almaq istəyən Tacikistan qırğızları üçün güzəştlər tətbiq olunur.

Qırğızıstan Təhsil Nazirliyi Tacikistandakı qırğız məktəblərində işləmək üçün müəllim heyəti göndərir və onların bütün xərclərini ödəyir. Tacikistanda 1990-cı illərdə baş verən daxili siyasi proseslər zamanı qırğızlar da əziyyət çəkmiş və çoxu buranı tərk edərək Qırğızıstana, habelə digər ölkələrə köç etməyə məcbur olmuşlar. Lakin hazırda burada sakit həyat tərzi keçirən qırğız diasporu ölkə daxilində baş verən siyasi proseslərdən uzaq durmağa çalışır.

**Özbəkistan.** Bir çox qırğız epos və dastanlarında onların tarixi torpaqları kimi göstərilən Səmərqənd, Fərqanə vadisi, Əndican, Namanqan və İledə yaşayan qırğızlar özlərini diaspor hesab etmirlər. Onlar bu torpaqları Ana vətən kimi qəbul edir və sərhədlərin müəyyən edilməsində ədalətsizliyə yol verildiyini bildirirlər. 1924-cü ildə dövlət sərhədlərinin müəyyən edilməsindən sonra qırğızların bir çoxu Özbəkistan

ərazisində qalmalı oldular və demək olar ki, müasir dövrdə ölkənin bütün bölgələrində qırğızlar yaşayırlar.

Son məlumata görə, Özbəkistanda 410 min qırğız yaşayır. Qırğız dilində tədris aparan 40 məktəb rəsmi qeydiyyatdan keçibdir. Özbəkistan və Qırğızıstan arasında əbədi dostluq haqqında sazişin imzalanması burada diasporun siyasi proseslərdən uzaq qalmasına səbəb olub. Qırğız diasporu qanuna hörmət edən, seçkilərdə iştirak edən və əsasən hakimiyyətin siyasətini dəstəkləyən qruplardandır. Lakin onların çoxu burada yaşamaq istəmir. Bəzi qırğız ailələri Qırğızıstan parlamentinin hər iki palatasının sədrinə müraciət edərək onların Ana vətənlərinə geri dönməsi üçün yardım etmələrini rica etmişlər. Onlar burada tarixən yaşamış 700 min qırğızın zamanla ölkədən getmələrini əsas gətirərək burada qalmalarına heç bir səbəb olmadığını iddia edirlər. Müraciətə imza atan qırğızlar qeydiyyat zamanı milliyyətlərinin özbək kimi göstərilməsindən də narazılıqlarını ifadə etmişlər.

**Fransa.** Burada min nəfər qırğızın yaşadığı qeyd edilir. Onlar əsasən Paris, Lion, Nitsa kimi şəhərlərdə məskunlaşıblar. Əsasən tələbələr və intellektual insanlardan ibarət diasporun təşkilati strukturu tam olaraq formalaşmayıb. Buna baxmayaraq, Fransa qırğızları bir-biriləri ilə daima əlaqə saxlayır və milli bayramları birgə qeyd edirlər. 2009-cu ilin iyununda Fransada ilk dəfə olaraq, burada yaşayan qırğızların Qurultayı keçirilmişdir. Marsel, Strasburq, Nitsa, Paris kimi şəhərlərdən tədbirə gələn qırğızların iştirak etdiyi





Qurultayda diasporun Qırğızıstanın maraqlarının müdafiəsi və Fransa-Qırğızıstan əməkdaşlığının inkişafında fəal iştirak etmək barədə qərar qəbul edilmişdir. Qırğızıstanın Fransadakı səfirliyi və fəal diaspor üzvlərinin təşkilatçılığı ilə keçirilən Qurultayda diaspor qurumlarının fəaliyyətinin koordinasiya olunması ilə bağlı da qərarlar verilmişdir.

**Sintzyan-Uyğur Muxtar Respublikası.** 2008-ci ilin məlumatına görə, burada 164 min qırğız yaşayır və onlar türk soylu xalqlardan biri kimi qəbul edilir. Buraya onlar Yenisey ətrafından köç ediblər və tarixin müxtəlif dövrlərində məskunlaşıblar. Burada qırğızların məskunlaşması "neysin" (eyni soyadlı) və "30 ailə" strukturu üzrə formalaşıb və dörd böyük tayfadan ibarətdir.

Uyğurstan qırğızları islam dini ilə yanaşı, şamanizmə sitayiş edirlər. Qədim türk inancı olan şamanizmə görə, burada yaşayan qırğızlar Tenqri ilə yanaşı, Ay, Ulduz, Torpaq və Suyu insanlığın yaradıcısı kimi qəbul edirlər.

Qırğızlar əsasən heyvandarlıq, meşə təsərrüfatı və əkinçiliklə məşğul olurlar.

**Türkiyə.** Bu gün Türkiyədə qırğız diasporu 310 ailədən (1100-1200 nəfər) ibarətdir. Lakin bir çox mənbələr bu rəqəmin iki dəfə çox olmasını ehtimal edirlər. Hazırda Türkiyə qırğızlarının sayı araşdırılır. Onlar Ankaranın Akınköy və Şərəflikçi, Konyanın Ceyhanbəyli ilçəsində, Van vilayətinin Qaragündüz kəndi, Ərdiş, Malatya və Adanada kompakt halda yaşayır, milli dillərini və adətlərini qoruyub saxlayırlar.

Qırğızların bura gəlişi XX əsrin 30-cu illərində Əfqanıstanda müqavimət hərəkatının liderlərindən sayılan "Pamir müdafiəçisi" Rəhmankulu xanın dəstəsi və yaxınları ilə Pakistana, oradan da Türkiyəyə keçməsi ilə başlamışdır. Lakin tarixdə türk xalqlarının böyük köçünün iştirakçısı olan qırğızların müxtəlif dövrlərdə monqol və Əmir Teymur orduları tərkibində Anadoluya gəlməsi deyilir.

Bu gün qırğızların Türkiyədə daha qədimlərdən məskunlaşdığını sübut edən bir sıra abidələr mövcuddur. Belə ki, 1330-cu ildə səlcuqların tərkibində müasir Türkiyənin ərazisinə gələnlər içində Mərkəzi Asiyadan olan dəstələrdə qırğızların da olduğu bildirilir. Buna sübut kimi göstərilir ki, qırğız döyüşçülərinin şücaətini nəzərə alan Sultan Orxan Qazi "Qırğız Türbəsi" adlı mavzoley tikilməsini əmr edir. Xalq içində bu mavzoleyə müxtəlif adlar verilsə də, Qırğızıstan səfirliyi 2006-2007-ci ildə bura sahib çıxaraq onu restavrasiya etmişdir.

Qırğızların bura yerləşməsini sübut edən daha bir abidə "Qırğız İskələsi"-dir. XVIII əsrdə tikilən bu abidənin inşasının qırğızlarla bağlı olduğu bildirilir.

1982-ci ildə Türkiyədə yerləşən Rəhmankulu xan qırğız diasporunun banisi kimi qəbul edilir. Baxmayaraq ki, II dünya müharibəsi zamanı əsir düşən türk xalqları içərisində qırğızlar da var idi. Onlar Türküstan ordusunda xidmət etmiş və Stalin rejimindən çəkinərək Türkiyədə məskunlaşmışlar.





1982-ci ildə Rəhmankulu xan başda olmaqla, 1150 qırğız Türkiyə Prezidenti Kənan Evren tərəfindən Adanaya gətirildi və onlar Van, Malatya, Ankara ətrafı, Adana, Konya və digər ərazilərdə yerləşdirildilər. Onların övladlarına yerli məktəblərdə kvotalar açıldı, iş yerləri ilə təmin edildi və yaşayış üçün maksimum şərait yaradıldı. Türk dilini öyrənmək üçün yaşlı nəslə hökumət dəstək verdi. Turqut Özalın vaxtında qırğızlar üçün yeni evlər tikilməyə başlandı. Digər iaşə müəssisələri də onların xidmətinə verildi. 1987-ci ildə Vanda qırğızlar bir yerə toplaşaraq öz kəndlərini qurdular. Ərazinin əvvəlki adı Qızıl Dərə dəyişdirilərək Ulu Pamir adlandırıldı.

Qırğız gənclərinin çoxu təhsillidir. Türkiyəyə gəlmələrindən 20 illik bir müddət vaxt içərisində onlar arasından müəllim, tibb bacısı və müxtəlif peşə sahibləri çıxmışlar. Qırğızlara dövlət tərəfindən bir məktəbin inşa edilməsinə baxmayaraq, onlar bunu yetərli hesab etməyib öz maddi imkanları çərçivəsində daha bir məktəb tikmişlər. Hər iki məktəbdə ildə 700 şagird təhsil alır.

Qırğızların əsas məşğuliyyəti heyvandarlıq, meşə sənayesi, əkinçilik və digər kənd təsərrüfatı sahələridir. Türkiyədə yerli heyvandarlıq sahəsində öz çəkisi olan qırğızlar yerli bazarı təmin etmək gücündədirlər. Bu ərazilərdə meşəbəyi kimi qırğızlara daha çox üstünlük verilir.

Son məlumata görə, Türkiyə ali məktəblərində 1700 qırğız gənci təhsil alır. "Pamir-Qırğız Dayanışma Dərnəyi" onlara daima dəstək göstərir.

Qırğızlar Türkiyədə çox strateji bir bölgəyə yerləşdirilmişlər. Onlar Türkiyənin inkişafı və gələcəyi üçün bütün güclərini əsirgəmirlər. Qırğızlar öz dillərini qorumaqla yanaşı, türkcə də çox yaxşı danışırlar.

**Rusiya.** Rusiyaya qırğızların köçməsi öz tarixini qədim dövrlərdən götürsə də, rəsmi mənbələrdə bu fakt tam olaraq öz təsdiqini tapmır. Rusiyanın iri şəhərlərinə qırğızların miqrasiyası Rusiyanın imperiya siyasəti nəticəsində bu torpaqların işğal olunmasından sonra başladı. Sibirdən tutmuş Sankt-Peterburq, Moskva və digər şəhərlərdə qırğız icmaları formalaşdı. Müxtəlif işlərdə çalışan qırğızlar zamanla vətəndaşlıq statusu əldə edirdilər. Bu gün rəsmi statistikada hazırda Rusiyada 360 min qırğız yaşayır ki, onların 190 mini vətəndaşlıq əldə edib. Qırğızıstanın xaricdə yaşayan soydaşları ilə əməkdaşlığa üstünlük verməsi Rusiyanın Dövlət Miqrasiya İdarəsinin Qırğızıstan səfirliyi ilə fəal əməkdaşlıq etməsinə imkan yaradıb. Qırğızıstanın müvafiq qurumları ilə mütəmadi görüşlər keçirən Miqrasiya İdarəsi qırğızların hüquqi problemlərini vaxtında çözmək üçün səfirliyə birbaşa müraciət edir.

Bu gün Qırğızıstan dövlətinin əsas məqsədlərindən biri Rusiyada yaşayan diasporu bir araya gətirməkdir. Rusiyada qırğızlar müxtəlif sahələrdə çalışırlar və onların bir





mərkəzdən idarə olunması problemlərin aradan qalxmasına şərait yarada bilər. Problemlərə gəldikdə isə, Rusiyada onlar çoxluğu ilə seçilir və onlara ardıcıllıq üzrə nəzər salaq:

– Qeydiyyat problemi: qırğız diasporunun fəal üzvlərinin əksəriyyətinin qeydiyyata düşərək, iş tapmaq və Rusiyada ictimai proseslərə qoşulmaq imkanları məhduddur. Çünki RF-nin yeni miqrasiya qanunvericiliyindən, qeydiyyat üçün üç gün vaxt verilir ki, bu da kifayət qədər qısa müddətdir. Buna görə də, qeyri-leqal olaraq yaşayış yeri tapan qırğızlar ağır işlərə qoşularaq diasporun fəaliyyətində passiv mövqedə dururlar.

– İkinci problem işsizlikdir. Rusiyaya gələn qırğız digər miqrantlar kimi qeydiyyat problemini həll edəndən sonra on iş günü ərzində iş yeri tapmalı və müvafiq müqaviləni miqrasiya idarəsinə təqdim etməlidir. Rusiyada isə qlobal böhran zamanı ancaq yüksək ixtisaslı şəxslərin iş tapmaq imkanı vardır. Qalanları isə mütləq ağır zəhmət tələb edən iş axtarıb tapmalıdırlar. Əks təqdirdə onları geri qayıtmaq təhlükəsi gözləyir.

– Üçüncü ən böyük problem yaşayış yeri ilə təmin olunmaqdır. Çünki rusların öz evlərini etniklərə kirayə verməyə tərəddüd etməsi qırğızların yaşayış yeri tapmasına çətinlik yaradır.

Rusiyada qırğız diasporunun əksər hissəsi vətəndaşlıq üçün çalışsa da, onlar arasında aparılan sorğular göstərir

ki, onlar bu hüquqi statusu ancaq yaşamaq və özlərini qorumaq üçün alırlar. Harada yaşamalarından asılı olmayaraq, milli kimliklərini və adətlərini itirməyən qırğızlar üçün vətənə dönmək ön yerlərdən birini tutur.

Bu gün Rusiyanın müxtəlif bölgələrində qırğız diasporu formalaşıb.

**Tatarıstan**. Buradakı qırğız diasporunu "İntimak" adlanan milli-mədəni qurum təsis etmişdir. 1990-cı illərdə qırğızlar Tatarıstanda "kriminal xalqlardan" sayılırdılar. Zamanla müxtəlif sahələrdə özlərini sübut edən qırğız diasporu tezliklə yerli əhalinin etimadını qazanmağa müvəffəq olmuşdur. Son məlumata görə, hazırda Tatarıstanda 3.500 qırğız yaşayır.

Qırğızlara Tatarıstanda daha çox ticarət və biznes sahələrində rast gəlmək olar. Qırğızların elm, mədəniyyət, təhsil, incəsənət sahələrində də çalışdığına dair məlumatlar var.

**Samara.** Burada təxminən 700 qırğız ailəsi yaşayır ki, onlar 8 şəhər və 16 kənd üzrə məskunlaşıblar. Qırğızlar əsasən kənd təsərrüfatı, ticarət və əmlak işində çalışırlar. Burada qırğız diasporunu ətrafında birləşdirən "Manasta" adlı cəmiyyət onların hüquqlarını qorumaqla yanaşı, yerli cəmiyyətə adaptasiya olunmalarına yardım məqsədilə də mühüm işlər görür. "Manas Ata" adlı fondun yaradılması da qırğızların hüquqlarının qorunmasına və cəmiyyətə inteqrasiyasına yardım məqsədi daşıyır.





**Kareliya.** "Ala-Too" qırğız diasporunun əsas aparıcı təşkilatıdır və ətrafında burada yaşayan bütün qırğızları birləşdirib. Burada yaşayan qırğızlar da müxtəlif işlərdə çalışırlar. Onların milli bayramlarında yerli əhali həvəslə iştirak edir. Qırğız içkiləri və milli mətbəx nümunələri ildə bir dəfə yerlilərin xidmətinə təqdim edilir.

**Tomsk**. Hazırda rəsmi vətəndaşlıq alıb Tomskda yaşayan qırğızların sayı 600-700 arası göstərilir. Mövsümi miqrantları da nəzərə alsaq, burada 3000 qırğız olduğu qeyd edilir və onlar müxtəlif peşələrdə çalışırlar. Əsasən təhsil ardınca buraya gəlib, sonradan yerlilərlə nikah quran və yaxud iş təklifi alan qırğızların 1980-cı illərdə Tomska miqrasiyası burada diasporun formalaşmasına səbəb olmuşdur. 2003-cü ildə isə diasporun rəsmi təşkilatı - "Qırğızıstan" adlı cəmiyyət qeydiyyatdan keçmişdir. Bu təşkilatın əsas fəaliyyəti milli dəyərlərin qorunması və təbliğidir. Ətrafında bütün qırğızları birləşdirən cəmiyyət "Xalqlar dostluğu" adlı illik festivalda qırğız xalqını uğurla təmsil edir.

Hazırda Rusiyada qırğız diasporu qazax diasporu ilə sıx əməkdaşlıq qurub və onların birgə "Zamandaş" adlı cəmiyyəti 2005-ci ildən etibarən qırğız diasporunun siyasi və hüquqi dəstəklənməsinə rəhbərlik edir. Bu cəmiyyət 2004-cü ildə Qırğızıstanda keçirilən "Dünya Qırğızlarının Qurultayı" zamanı yaradılmışdır və onun fəaliyyətinə aşağıdakılar daxildir:

- Rusiya və Qazaxıstanda yaşayan qırğızların hüquqlarının qorunması;

– Xarici ölkələrdə yaşayan soydaşların mədəni-maariflənbdirmə işinin təşkili;

– Xarici ölkələrin iqtisadi həyatında qırğızların təmsil olunmasına yardımçı olmaq;

– Gənc nəslin təhsil və iş problemlərinin həllində vasitəçi olmaq;

– Diasporun Qırğızıstana investisiya qoymasını təmin etmək;

– Qırğızıstanın turizm ölkəsi kimi tanınması üçün birgə reklam işinin qurulması;

– Xaricdə qırğız mədəniyyətini təbliğ etmək;

– Qırğızıstanın Rusiya və Qazaxıstan ilə ikitərəfli əməkdaşlığına töhfə vermək.

14 iyun 2009-cu ildə Ümumrusiya Sərgi Mərkəzində "Qırğızıstana İnvestisiya" mövzusunda rus sahibkarları və qırğız diasporunun sahibkar və iş adamlarının konqresinin keçirilməsində məqsəd diaspora maliyyə dəstəyi verməkdən ibarət olmuşdur. Burada toplaşan imkanlı qırğızlar diasporun inkişafı və dövlətlərinin təbliğində əvəzsiz yardım göstərəcəklərinə dair sənədə imza atmışlar.

Hazırda Qırğızıstan dövləti diasporla əməkdaşlığa böyük önəm verir. Ölkənin rəsmi şəxsləri xarici ölkələrə səfərləri zamanı diaspor üzvləri ilə mütəmadi görüşlər keçirir və onların problemləri ilə maraqlanır. 2008-ci ilin 22 iyulunda Bişkek şəhərində toplaşan Rusiya, İtaliya, Almaniya, Türkiyə, Qazaxıstan, Koreya və digər ölkələrdən olan diaspor üzvləri xaricdə diaspor işinin daha da gücləndirilməsini müzakirə etmişlər.





Bu tədbirin keçirilməsi "Zamandaş" tərəfindən təşkil olunmuşdur. Burada qırğız milli dəyərləri və mədəniyyətinin təbliğ edilməsi istiqamətində diasporun fəaliyyətinin genişləndirilməsi barədə qərar qəbul olunmuşdur. Bundan başqa, toplantıda milli-mənəvi dəyərlərin qorunması və qırğızların yaşadıqları ölkələrdə yerli cəmiyyətə inteqrasiyası sahəsində mövcud vəziyyət ətrafında da geniş fikir mübadiləsi aparılmış, müvafiq sənədlər imzalanmışdır.

Qırğız diasporunun formalaşmasında Dünya Qırğızlarının Qurultayları mühüm rol oynayır. Qeyd edək ki, Qırğızıstanın müstəqillik əldə etməsindən sonra dövlət səviyyəsində diaspora verilən önəm özünü bu qurultayların yüksək səviyyədə keçirilməsində göstərir. Birinci Qurultay 1992-ci ilin 30 avqustunda Toktoqul adına Dövlət Filarmoniyasının zalında keçirilmişdir. Bu tədbir zamanı Qırğızıstan tarixində ilk dəfə dünyanın bütün ölkələrindən olan qırğızları Ana vətənə gələrək birgə müzakirələr apardılar.

2003-cü ilin 29 avqustunda Çolpon-Ata şəhərində Dünya Qırğızlarının İkinci Qurultayı keçirilmişdir. Bu tədbirin təşəbbüskarı olan Əsgər Akayev onun məhz qırğız xalqının dövlətçiliyinin 2200 illik tarixinin qeyd olunduğu gündə – 29 avqustda keçirilməsini tövsiyə etmişdir. Dünyanın 25 ölkəsindən 500-dən çox qonağın iştirak etdiyi bu tədbir ilk açılı-

şını İssık-Kula səfərlə başlamışdı. Daha sonra ölkənin müxtəlif bölgələrinə səfərlər təşkil olunmuş və 31 avqustda Bişkek şəhərində son iclas baş tutmuşdur. Ay-Çurek – ilk milli operanın və Azadlıq abidəsinin açılışında iştirak edən dünya qırğızları 12 illik müstəqilliyin göstəricisi olan hərbi paradı maraqla izləmişlər. İclasda çıxış edən qırğız diasporunun nümayəndələri birinci qurultaydan keçən 11 il ərzində görülən işlər barədə danışmışlar. Dünya qırğızlarının həmrəylik nümayiş etdirməsinin yolları barədə çıxışlar edən qırğızlar Ana vətənlərini yüksək səviyyədə təmsil edəcəklərinə söz vermişlər. Qırğız lobbisinin yaradılması zərurətinə toxunan qonaqlar onlarla işləyəcək bir qurumun yaradılmasına böyük ehtiyac olduğunu dilə gətirmişlər. Tədbir böyük konsert proqramı ilə sona çatmışdır. Bu tədbir qırğız diasporunun birliyinə təkan verən mühüm tarixi hadisə kimi qəbul edilir.

Hazırda Qırğızıstanda diasporla əməkdaşlıq üçün aşağıdakı işlər görülür:

- Diasporun ölkəsi ilə əməkdaşlıq etməsi üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi və müvafiq güzəştlərin edilməsi;
- "Kayrılman" proqramına qoşulmaq istəyən diaspor üzvlərinə imkanların yaradılması;
- Xaricdə yaşayan qırğızlarla əməkdaşlıq edən müvafiq dövlət qurumunun yaradılması prosesinin sürətlənməsi;
- Diaspor üzvləri üçün xarici dillərdə lüğətlərin hazırlanması;





- Diasporda milli mədəniyyətin və musiqinin təbliği;
- Elm və təhsil müəssisələrində diasporun gənc nəsli üçün güzəştlərin edilməsi və s.

## ÖZBƏK DİASPORU

**Qısa tarixi.** Tarixi proseslər zamanı özbəklər bir yerdən digərinə miqrasiya edərək öz diasporlarını formalaşdırmışlar. Miqrasiya prosesinin iştirakçıları olan özbəklərin bir çoxu geri qayıtmayaraq köç etdikləri ərazilərdə daimi məskunlaşmışlar. Özbəklərin kütləvi miqrasiyası əsasən XX əsrdə baş vermişdir. Bu prosesi dörd mərhələyə bölmək mümkündür:

– Rusiya İmperiyasının Mərkəzi Asiya dövlətlərinə qarşı olan müstəmləkəçilik siyasəti nəticəsində minlərlə özbəyin vətənlərini tərk edərək Çin, Əfqanıstan, Türkiyə, İran və digər ölkələrə köçməsi.

– Sovet İttifaqında kolxozlaşma siyasətinə etiraz edən yüzlərlə özbək mülkədarının yaxın bölgələrə miqrasiya etməsi.

– II dünya müharibəsində iştirak edən, legioner və əsir həyatı yaşayan özbəklərin geri qayıtmayaraq Amerika başda olmaqla, inkişaf edən dövlətlərə köçməsi.

– Sovetlər Birliyinin dağılmasından sonra bu gün də davam edən əmək və təhsil miqrasiyası prosesi.

Hazırda xarici ölkələrdə nə qədər özbəyin yaşamasını dəqiq demək qeyri-mümkündür. Özbəkistan hakimiyyətinin bu proseslərə ciddi maraq göstərməməsi özbək diasporunun say tərkibini müəyyən etməkdə çətinlik törədir. Lakin özbəklərin məskunlaşdığı ölkələrin yaydığı statistik məlumatlar əsasında özbək diasporunun məskunlaşma coğrafiyasını aşağıdakı cədvəldə görə bilərik:





| **Diasporun yayılma coğrafiyası** | | | |
|---|---|---|---|
| **Ölkə** | **Özbəklərin sayı (1990)** | **Özbəklərin sayı (2000)** | **Özbəklərin sayı (2009)** |
| Özbəkistan | 14.562.000 | 16.289.800 | 18.101.300 |
| Əfqanıstan | 1.217.300 | 1.629.600 | 3.200.000 |
| Pakistan | 487.700 | 562.000 | 647.300 |
| Qazaxıstan | 336.200 | 345.100 | 375.800 |
| Qırğızıstan | 563.600 | 613.000 | 664.500 |
| Monqolustan | 17.600 | 19.500 | 21.500 |
| Rusiya Federasiyası | 127.700 | 126.900 | 125.600 |
| Tacikistan | 1.243.600 | 1.435.000 | 1.600.000 |
| Türkmənistan | 329.400 | 369.200 | 410.000 |
| Ukrayna | 20.400 | 20.300 | 20.100 |
| Amerika Birləşmiş Ştatları | 20.000 | 21.100 | 22.000 |
| Türkiyə | 25.000 | 50.000 | 70.000 |
| Azərbaycan | 2.000 | 3.500 | 5.000 |

Özbəklərin miqrasiyası 1990-cı illərdə daha geniş vüsət almışdı. Bunun da əsas səbəbi kapitalizmə qəfil keçid edən keçmiş sovet respublikası olan Özbəkistanın yeniliklərə hazır olmaması idi. Kütləvi işsizlik, kasıblıq, ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslər özbəklərin inkişaf edən Qərb ölkələrinə miqrasiya etməsini sürətləndirdi. Zəka

axını, əmək və təhsil miqrasiyası nəticəsində yüzlərlə özbək vətənini tərk edərək səadət, ardınca getdikləri ölkələrdə diasporlarını formalaşdırmağa başladı. 1992-2009-cu illər arası Özbəkistanı tərk edən vətəndaşların sayının 1,3 milyon olduğu qeyd edilir. Rusiya, Amerika, Kanada, Almaniya, Avstraliya və Avropa özbəklərin miqrasiya üçün ən çox müraciət etdikləri ölkələrdir. Köç edənlərin əksər hissəsi gənclər və qadınlardan ibarətdir.

Yüksək ixtisaslı kadrların köç prosesinə qoşulması isə Özbəkistanda kadr qıtlığının yaranmasına gətirib çıxardı. Vaxtilə Özbəkistanda müəllim, texnik, mühəndis kimi çalışanlar bu gün Almaniyada, Rusiyada, Amerikada fəhlə, ofisiant, otel xidmətçisi, fermer kimi daha çox qazandıqlarını etiraf edir və heç bir zaman buraya geri qayıtmayacaqlarını bildirirlər.

Ölkədə qanuni miqrasiyanı nəzarət altında saxlayan Əhalinin Əmək və Sosial Təminatı Nazirliyi 5 minə yaxın kadrın xaricə göndərilməsini təşkil etmişdir. Onların göndərdikləri şəxslərin bir çoxu isə diaspor işinə elə də maraq göstərmir.

Hazırda bu vəziyyətə baxmayaraq, Özbəkistanda xaricdə yaşayan özbəklərlə bağlı siyasət iki istiqamətdə, Dövlətçilik və Özbəkçilik ideologiyası üzərində aparılır.

Dövlətçilik ölkədə uzun illər yaşayan və hazırda bir hissəsi xaricdə özbək diasporunun tərkib hissəsi olan yəhudilər, taciklər, qazaxlar, qırğızlar, ruslar və s. üçün düşünülən si-





yasi ideologiyadır. Özbəkistanda anadan olan bu insanların etnik kimliklərindən asılı olmayaraq, dövlətə bağlılığının vacibliyini önə çəkən bu ideologiyada onların hər zaman doğulduqları ölkəni vətən kimi qavraması tövsiyə edilir.

Özbəkçilik son illərin formalaşmış milli ideoloji konsepsiyasıdır. Özbək milli kimliyini qoruyub saxlamağı özündə ehtiva edən bu ideologiya xaricdə yaşayan özbəklərin tarixlərini və milli ənənələrini unutmamalarını tövsiyə edir. Yaşadıqları ölkədə Ana dilində danışmaları, milli mədəniyyəti, mənəvi dəyərləri qoruyub saxlamaq hər bir özbəyin milli borcu kimi göstərilir.

Hazırda özbək diasporu dünyanın bir çox ölkələrində fəaliyyət göstərir.

**Türkiyə.** Özbəklərin Türkiyəyə gəlməsinin dəqiq tarixini söyləmək qeyri-mümkündür. Tarixi mənbələrdən məlumdur ki, 1401-ci ilin noyabrında Əmir Teymur Osmanlı dövlətinə hücum edərkən orduda xidmət edən özbəklərin bəziləri burada məskunlaşmışlar. Sivas qalasını alan Əmir Teymur İldırım Bəyazidə mesaj göndərərək Anadolunun ona güzəşt edilməsini tələb edir. Lakin aldığı cavabdan narazı qalan sərkərdə Ankara döyüşündə Bəyazidin ordusunu dağıdaraq onu əsir alır. Ardınca Bursa, İzmir və digər şəhərlərin alınmasından sonra Avropa və Asiya dövlətlərini özü ilə hesablaşmağa məcbur edən Əmir Teymur geri qayıdan zaman burada idarəçiliyə özbək sərkərdə və əsgərləri təyin edir. Sərkərdənin ölümündən sonra onun imperiyası-

nın zəifləməsi özbəklərin geri qayıtmaması ilə nəticələnir. Burada ailə quran həmin şəxslər Türkiyəni özlərinə ikinci vətən kimi seçirlər.

İslam dinində müxtəlif təriqətlərin – sufizm, nəqşbəndilik və digərlərinin yayılması özbəklərin bura köçməsinə şərait yaradır. Sufi ordenin özbək üzvləri – təkkələrin sayı Türkiyədə səkkiz idi. Onlar Türkiyənin Mərkəzi Asiya ilə əlaqələndiriciləri rolunda çıxış edirdilər. 1867-ci ildə Buxara əmiri İstanbula nümayəndəsini təyin edir. Burada o, özbəkləri bir arada toplayaraq yerli əhali ilə əlaqələri gücləndirdi. Onlar milli mətbəxi, musiqilərini təbliğ edir, dini mahnıları iki dildə oxuyurdular. Özbək diasporu mərmər üzərində yazı yazmaq sənəti – ebrunu türklərə həvəslə öyrədirdilər. Türkiyədə olan özbəklər nəqşbəndilər idi və onlar bütün ərazilərə səpələnərək bunu təbliğ edirdilər. Üsküdar adlı yerdə isə onların mərkəzi fəaliyyət göstərirdi və burada Özbəkistandan gəlmiş şeyxlər dualar oxuyurdular.

Türkiyənin milli azadlıq mübarizəsi zamanı ingilislərin İstanbulu işğalı illərində özbəklərin Üsküdar təkkəsi əsas bazalardan biri rolunu oynamışdır. Osmanlı İmperiyası və ondan sonra yaranan müasir Türkiyə dövləti zamanı özbəklər bir çox sahələrdə çalışırdılar.

Özbəklərin Türkiyədə məskunlaşmasının növbəti böyük dalğası II dünya müharibəsindən sonra əsir düşərək geri qayıtmayan özbəklərin buraya köçməsi ilə başladı. Faşist ordusuna əsir düşən türk xalqları içərisində özbəklərin





də sayı çoxluq təşkil edirdi. 1945-ci ilin 23 fevralında Sovetlərin təkidlə əsir düşən əsgərlərin geri qayıtmaq tələbinə məcburən tabe olan Türkiyə 6 avqustda Yozqat lagerində olan 195 nəfəri Sovet İttifaqına təhvil verir. Bunun davam etməməsi üçün bir çox özbək buranı tərk edib Amerikaya qaçmalı olur. Burada gizli həyat yaşamağa məcbur olanlar milli kimliklərini uzun illər saxlaya bilirlər.

Sovetlər Birliyi dağılandan sonra Türkiyəyə axını güclənən özbəklər bu gün yerli əhali ilə çox isti münasibət qurublar. TRT-AVAZ vasitəsilə milli musiqilərini, ənənələrini təbliğ edirlər.

**Böyük Britaniya.** Son məlumata görə, rəsmən bu ölkədə 10 özbək ailəsi vətəndaşlıq almışdır. 248 şəxs isə hazırda burada miqrant həyatı yaşayır və özbək diasporunun üzvləri kimi tanınırlar. Bəzi özbək qızları Britaniya vətəndaşları ilə ailə qurub öz soyadlarını dəyişdirdiklərindən, tam olaraq onların bu ölkədəki sayını demək çox çətindir. Oksford və Kembric kimi dünyaşöhrətli ali məktəblərlə paralel olaraq Esseks və digər universitet və kolleclərdə təhsil alan özbəklərin sayı ildən-ilə artmaqdadır. Müqavilə əsasında Böyük Britaniyaya gələn özbək ziyalı və mütəxəssisləri milli kimliklərini qoruyub saxlamağa və diaspor quruculuğunda fəal iştirak etməyə çalışırlar.

Ölkədəki bütün seçkilərdə iştirak edən özbəklər Britaniya cəmiyyətinə milli kimliklərini qoruyaraq adaptasiya olunurlar. Milli dildə internet saytları yaradır, müxtəlif fo-

rumlar və elektron rabitə vasitəsilə bir-biriləri ilə əlaqə saxlayırlar.

**Tacikistan.** 2009-cu ilin məlumatlarına əsasən, bu ölkədə yaşayan özbəklərin təxmini sayı 1 milyon 300 minlə 1 milyon 640 min arası dəyişir. Tacikistanın paytaxtında 100 min, Hatlon vilayətində 500 min, Soqdiy vilayətində 600 min, Hissar vadisində 300 minə yaxın özbəyin yaşadığı qeyd edilir.

Tacikistanda özbəklər yerli əhali ilə qarışıq formada yaşayır, yəni, onların kompakt halda birgə yaşadıqları məhəllə və yaxud küçə yoxdur. Ölkənin təhsil müəssisələrində 300 mindən çox özbəyin təhsil aldığı bildirilir. Tacikistanda rus-tacik-özbək dillərində təhsil verən 565 məktəb mövcuddur ki, burada özbək diasporunun övladları üç dildə təhsil almaq hüququna malikdirlər.

Düşənbə Dövlət Universitetində, Kurqantyub və Xudjan ali məktəblərində özbək filologiyasını tədris edən müvafiq kafedra fəaliyyət göstərir. Bəzi fakültələrdə, hətta özbək dilində təhsil almaq imkanları vardır.

Tacikistanda özbək dilində dövlət səviyyəsində maliyyələşən "Xalk suzi" (xalq sözü) adlı qəzet də nəşr edilir. Ölkənin demək olar ki, əksər şəhərlərinin yerli qəzetlərində özbək dilində səhifələr vardır. Eyni zamanda, "Nafosat" adlı ədəbi-bədii jurnal nəşr edilir ki, burada özbək diasporuna milli ənənələrini və yaradıcılıqlarını təbliğ etmək imkanı verilir. Özbək müəllimləri üçün "Ukuçivilər qəzetəsi" və "Sirdoş" adlı xüsusi buraxılışları olan "Ustsoz" adlı qəzet də çap olunur. Uşaqlar üçün "Boyçiçək" adlı jurnal diasporun gənc üzvlərinə paylanır.





Düşənbədə "Özbəklər Cəmiyyəti" adlı mərkəz də fəaliyyət göstərir. Mərkəzin idarə heyəti 13 nəfər tanınmış diaspor xadimindən ibarətdir. Mərkəzin əsas işi Tacikistanda özbək milli mədəniyyətini və ənənələrini təbliğ etmək, özbəklər arasında koordinasiyanı qurmaq, yerli mediada çıxış etmək, milli bayramları birgə keçirməkdir. Mərkəzin ən ümdə vəzifəsi tacik və özbək xalqları arasında qardaşlıq bağlarını daha da möhkəmləndirməkdir. Mərkəz Özbəkistanda fəaliyyət göstərən "Taciklərin milli mədəniyyət mərkəzi" ilə sıx əlaqə qurmağa da nail olmuşdur.

Özbəklər Tacikistanda yaşayan etnik qruplar içində ölkə qanunvericiliyinə ciddi riayət etməsi ilə seçilir. Seçkilərdə fəallıq nümayiş etdirən özbək diasporu hər zaman etnik zəmində qarşıdurma yaranması cəhdlərinə kəskin reaksiya verir. İcra hakimiyyəti strukturlarında və parlamentdə özbəklər də təmsil olunurlar.

**Qırğızıstan.** Bu ölkədə özbəklər sayına görə ən böyük etnik qrup hesab olunur. Qırğız və özbəklər qohum xalqlar olduğundan, milli adət-ənənələri və mədəniyyətləri oxşardır. 2009-cu ilin statistikasına görə, Qırğızıstan əhalisinin 13,8 faizini özbəklər təşkil edir. Özbək diasporunun əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Burada özbəklər özbək dilinin Fərqanə dialektində danışırlar.

Özbəklər Qırğızıstanda öz milli ənənələrini qoruyub saxlaya bilmişlər. Özbəklərin 34,4 faizi kəndlərdə, qalanları şəhərlərdə yaşayır. Özbəklərin sayı hazırda Oş vilayətində 366 min, Cəlilabad vilayətində 211 min, Baten vilayətində 55 min və digər yerlərdə 10-13 min civarında göstərilir.

Qırğızıstandakı özbək diasporu ana dillə yanaşı, qırğız, rus dillərində də sərbəst danışır. Öz mədəniyyətlərini təbliğ edən özbək diasporu, eyni zamanda, yerli cəmiyyətə də sürətlə inteqrasiya edir.

**ABŞ.** Bu ölkədə özbəklərin məskunlaşması tarixini üç dövrə ayırmaq olar:

• 1930-cu ildən etibarən Amerikaya köçən Əfqanıstan özbəkləri (köhnə nəsil);

• II dünya müharibəsi zamanı gələnlər (orta nəsil);

• SSRİ-nin dağılmasından sonra köç edən özbəklər (yeni nəsil);

Rəsmi məlumatlara görə, təkcə II dünya müharibəsi zamanı əsir düşərək geri qayıtmayan özbəklərin 10 mini Amerikada məskunlaşmışdır. Legionerlər adlanan həmin şəxslər Türküstan ordu birləşməsinin üzvləri olmuş və vətənlərinə geri qayıdacaqları halda Stalin rejiminin təzyiqlərindən çəkinərək Amerikanı özlərinə vətən kimi seçmişlər. 1960-cı illərdə Türkiyə və Səudiyyə Ərəbistanında yaşayan özbəklərin bir qismi ABŞ-a miqrasiya etmişdi.

Hazırda ABŞ-da 22 mindən çox etnik özbəyin yaşadığı qeyd edilir ki, onların da müəyyən hissəsi Amerika hö-





kuməti tərəfindən keçirilən "green card" lotereyasının qalibləridir. Amerikada özbəklər əsasən Florida, Tennesi, Virciniya, Pensilvaniya, Nyu-Cersi, Miçiqan və digər ştat və şəhərlərdə yaşayırlar. Özbəklər Orta Asiya mənşəli digər diasporlardan fərqli olaraq bir-biriləri ilə daimi əlaqə saxlayır. SSRİ-nin dağıdılmasından sonra bura köç edən özbəklərin 75 faizi qeyri-leqal miqrantlardır.

ABŞ-da özbəklərin əksər hissəsi biznes sahəsində fəaliyyət göstərir. İndiana, Vaşinqton, Nyu-York və Merilənd universitetlərində özbək alimlər çalışır. Amerikanın bəzi ştatlarında yerli idarəçilik və qanunvericilik orqanlarında etnik özbəklər təmsil olunur.

Özbək diasporu 1950-ci illərdən fəal ictimai işə qoşulmuş, türkdilli xalqların diasporları arasında əməkdaşlığın qurulması istiqamətində səylər göstərmişdir. 13 dekabr 1958-ci ildə Pensilvaniya ştatının Filadelfiya şəhərində Amerika Türküstan Assosiasiyası formalaşdırılmışdır. Burada dövlət qeydiyyatına alınan təşkilat daha sonra Nyu-Yorkda qeydiyyatdan keçmişdir. Özbək diasporu tərəfindən atılan bu addım işçi qrupunun yaranmasına gətirib çıxartdı ki, nəticədə "Nizamnamə" və "Məramnamə" adlanan iki sənəd hazırlandı. Nyu-Yorkda 300 nəfərin iştirakı ilə Amerika Türküstan Assosiasiyasının təsis qurultayı keçirildi və təşkilatın ilk sədri İsokjan Narziqulu seçildi. Qeyri-hökumət və kommersiya məqsədi güdməyən təşkilat kimi qeydiyyatdan keçən qurum mərkəzi Asiya xalqlarının Amerika cəmiyyətinə inteqrasiya-

sını həyata keçirməyi qarşısına məqsəd kimi qoymuşdur. Kütləvi-mədəni və təbliğat-xeyriyyə tədbirləri təşkil edən qurum türk xalqlarının milli mədəni dəyərlərini təbliğ etmək məqsədilə bir çox işlərə imza atmışdır. Cəmiyyət ağsaqqallar şurası, qadın və gənclərlə iş üzrə departamentlər təsis etmiş və bura fəal şəxsləri cəlb etmişdir. 1961-ci ilin martında Azadlıq radiosunun "Özbək bürosu" yaradılmışdır.

Bu gün özbək diasporu milli mədəniyyət, musiqi, ana dili və ədəbiyyatını Amerikada təbliğ etməklə məşğuldur. Milli bayramları diasporun üzvləri ilə birgə keçirən özbəklər bura yerli əhalinin nümayəndələrini də dəvət edir. "Özbəklər ingilis dili ilə yanaşı, fars, ərəb, türk, rus və ispan dillərini öyrənməyə meyllidirlər. Bu gün Nyu-Cersidə "Özbək evi" fəaliyyət göstərir.

ABŞ-da, eyni zamanda, Buxara yəhudiləri də özbək diasporunun tərkib hissəsi kimi təmsil olunur. Buxara yəhudiləri 1914-cü ildə Amerikaya miqrasiya etmişlər. 1920-ci ildə təkcə Nyu-Yorkda 15 ailə yaşayırdı. 1963-cü ildə Buxara yəhudiləri təşkilatlanma prosesinə başladı. 1979-cu ildə Buxara yəhudilərinin sayı 2 mini ötüb keçmişdi.

Buxara yəhudilərinin Amerikaya ən böyük miqrasiya dalğası 1986-cı illərdən etibarən başladı. Hazırda burada 50 mindən çox Buxara yəhudisi yaşayır. Özbək diasporunun ziyalı təbəqəsini təşkil edən Buxara yəhudiləri 50 cəmiyyət təsis ediblər. Onların ən böyük diaspor təşkilatı Kanada və Amerika Buxara yəhudiləri Konqresidir.





**Azərbaycan.** Azərbaycanda etnik özbəklər Bakı, Gəncə və digər şəhərlərdə yaşayırlar. Onların əksər hissəsi azərbaycanlılarla ailə quran şəxslərdir. Özbəklərin Azərbaycana miqrasiyası əsasən Sovetlər Birliyi tərkibində olan zaman daha fəal olmuşdur. Özbəklər ölkədə müxtəlif sahələrdə çalışırlar. Onlar ali məktəblərdə təhsil alırlar. Hər iki xalqın milli ənənələri oxşar olduğundan, bir çox bayramları birgə keçirirlər.

**Ukrayna.** Burada özbəklər azsaylı olmalarına baxmayaraq, fəallıq göstərirlər. Onların 2002-ci ilin 11 yanvarında təsis etdikləri "Dustlik" (Dostluq) cəmiyyəti Kiyevdə rəsmi qeydiyyatdan keçmişdir və əsas fəaliyyət istiqaməti milli ənənələrin təbliğ edilməsi, xalq arasında əlaqələrin inkişaf etdirilməsidir.

**Benilüks ölkələri.** Hazırda bu ölkələrdə 1000 nəfər özbək yaşayır ki, onların fəal diaspor işi qurmaları üçün Özbəkistan Respublikasının səfirliyi bütün gücü ilə çalışır. Onların hüquqlarını qoruyan səfirlik, eyni zamanda, onların bir arada olmasının yeganə səbəbkarıdır.

Bu ölkələrdə yaşayan özbəklər müxtəlif peşələrdə çalışırlar. Tələbə qismində bura gələn gənclərin bəzi hissəsi təhsilləri bitdikdən sonra yerli qurumlar tərəfindən işə dəvət alır və burada məskunlaşırlar. Özbək diasporu həvəslə yerli festivallarda və rəsm sərgilərində təmsil olunur. Özbək rəssamlarını və musiqi qruplarını bu tədbirlərə dəvət edən diaspor onların sayəsində milli kimliklərini təbliğ edə bilirlər.

**Qazaxıstan**. 2009-cu ilin statistikasına əsaslansaq, hazırda Qazaxıstanda özbək diasporunun sayının 375.800 olduğunu qeyd etmək olar. Cambul vilayətində təxminən 20 min özbək kompakt halda yaşayır. Digərləri Almatı, Astana və başqa şəhərlərdə məskunlaşıblar. Özbəklərin sayı bu ölkədə digər diasporlardan azdır. Lakin bu gün Qazaxıstanda müxtəlif sferalarda özbəklərə rast gəlmək olar. Müəllim, elmi işçi, biznesmen, fermer, sahibkar, həkim, siyasətçi, sənətşünas, musiqiçi və digər peşə sahibləri olan özbək diasporunun üzvləri özlərini tanıtmağa nail olublar.

Özbəklər Orta Asiya ölkələri içərisində yalnız Qazaxıstanda etnik zəmində problemlə üzləşməyiblər. Bu isə iki xalq arasında etnik bağlılığın güclü olmasından irəli gəlir.

Lakin informasiya sahəsində özbək diasporu bir çox çətinliklərlə üzləşir. Bu özünü ana dildə nəşr olunan media orqanlarının sayının azlığında büruzə verir. Buna baxmayaraq, özbəklər yerli siyasətçilərə və hakimiyyətə loyal münasibət göstərirlər. Sosioloji sorğular zamanı özbəklərin əksəriyyəti Ana vətən kimi Qazaxıstanı göstəriblər və heç bir zaman buranı tərk etmək niyyətlərində olmadıqlarını etiraf ediblər.

**Əfqanıstan.** Burada özbəklər sayına görə, dördüncü etnik qrup sayılırlar – 3.200.000 nəfər. Ölkənin müxtəlif bölgələrində yaşayan özbəklər əsasən kənd təsərrüfatı ilə məşğul olurlar.

**Rusiya Federasiyası.** Rusiyada hazırda özbək diasporunun çoxsaylı nümayəndələri yaşayır. Keçmiş "qardaş"





ölkə olan Rusiyada hazırda leqal və qeyri-leqal yaşayan özbəklərin tam sayını müəyyən etmək qeyri-mümkündür. Özbəklərin bu ölkəyə miqrasiyası tarixi öz başlanğıcını qədimdən götürsə də, kütləvi köç prosesi Rusiya İmperiyası və Sovetlər Birliyi tərkibində olan zaman baş vermişdir.

Bu gün Rusiyadakı özbək diasporunun fəaliyyətinin koordinasiya edilməsini Özbəkistan-Mədəni İnformasiya və Biznes Mərkəzi həyata keçirir. Bu qurumun əsas məqsədi Rusiyanın müxtəlif bölgələrinə səpələnən özbəkləri bir arada saxlamaq, onların hüquqlarını qorumaq və Rusiyada özbək mədəniyyətini təbliğ etməkdir.

Hazırda özbəklərin daha çox yaşadıqları şəhərlərdən biri Sankt-Peterburqdur. Burada ən fəal diasporlardan sayılan özbəklər ildə Əlişir Nəvainin doğum gününü, Novruz bayramını və digər bayramları təntənə ilə qeyd edirlər.

Rusiyada iri özbək biznes şirkətləri, diaspor təşkilatları fəaliyyət göstərir. Onların bəziləri milli kimliklərinin təbliği bəziləri biznes, bəziləri isə ikitərəfli əlaqələrin inkişafı məqsədinə xidmət edirlər.

Hazırda Özbəkistanın latın qrafikalı əlifbaya keçmək qərarı diaspor tərəfindən müsbət qarşılanır. Xatırladaq ki, Özbəkistan latın qrafikasına keçidlə bağlı qərarı hələ 1990-cı ilin əvvəllərində qəbul etmişdir. Amma bu vaxta qədər latın əlifbasına keçid iki dəfə təxirə salınıb. Hazırkı özbək gəncliyi latın əlifbasında yazıb oxumağı öyrənsə də, əhalinin çox hissəsi yalnız kiril əlifbasına üstünlük verir. Yeni ki-

tabların çoxu latın əlifbası ilə dərc olunub. Amma bir çox müasir və klassik ədəbiyyat nümunələri, milli mətbuat və hökumətin internet saytları hələ də kiril əlifbası ilə yayımlanır. Küçə və mağaza lövhələri bir çox hallarda həm kiril, həm də latın əlifbası ilə yazılır.





## TÜRKMƏN DİASPORU

**Türkmənlər** türk xalqlarının Oğuz qrupunun şərq qolunu təşkil edirlər. Türkmənistan, Əfqanıstan və İranda kompakt halda yaşayan türkmənlər Türkiyə türklərindən, azərbaycanlılardan, özbəklərdən, uyğurlardan və qazaxlardan sonra ən böyük türkdilli xalq hesab olunur. Türkmənlər 1995-ci ildə aparılmış siyahıyaalmanın rəsmi nəticələrinə əsasən, Türkmənistan Respublikasının əhalisinin 77 faizini təşkil edirlər.

Türkmənistan müstəqillik qazandıqdan sonra diqqət verdiyi məsələlərdən biri də diaspor problemidir. Türkmənistan miqrasiya proseslərinə ciddi fikir verir. Son məlumata görə, hazırda dünya üzrə yaşayan türkmənlərin məskunlaşma coğrafiyası aşağıdakı kimidir:

| | |
|---|---|
| Türkmənistan | 5.500.000 |
| İran | 2.100.000 |
| Əfqanıstan | 932.000 |
| Pakistan | 60.000 |
| Rusiya Federasiyası | 39.700 |
| Özbəkistan | 122.000 |
| Suriya | 500.000 |
| Tacikistan | 20.500 |

Türkmənistan müstəqillik əldə edəndən sonra dünya türkmənlərinin problemlərinin öyrənilməsinə də diqqət verir. Bu məqsədlə 1993-cü ilin 15 martında türkmən xalqının tarixinin obyektiv öyrənilməsi üçün dövlət komissiyası yaradılmışdır. Bu Komissiyanın səlahiyyətlərindən biri də tarixin müxtəlif dövrlərində dünya ölkələrinə səpələnən türkmənlərin məskunlaşma coğrafiyasının, sosial problemlərinin tədqiqi olmuşdur. Bu məqsədlə 1991-ci ilin mayında Türkmənistan Prezidenti Saparmurad Niyazovun sədrliyi ilə Dünya Türkmənlərinin Humanitar Assosiasiyası yaradılmışdır. Burada çıxış edən Niyazov vətənə gələn hər bir türkmən üçün normal şərait yaradılacağını söyləmişdir.

Qeyd edək ki, Assosiasiyanın əsas məqsədi xaricdə yaşayan türkmənlərlə iş aparmaqdır. Qurum yaradılandan bir müddət sonra türkmənlərin həyat tərzini, yaşayış şəraitlərini, məskunlaşma coğrafiyasını, tarixini öyrənmək üçün dövlət büdcəsindən ayrılan vəsaitlə ekspedisiya qrupları təşkil edir. Bu qruplar İran, Türkiyə, Rusiya, Pakistan, Gürcüstana səfər edərək burada yaşayan türkmənlərin həyatını və tarixini öyrənirdi. Tədqiqat qruplarının hazırladıqları hesabatlardan irəli gələrək, 1994-cü ildə Türkmənistan Prezidenti yanında dünya türkmənlərini öyrənən Elmi-Tədqiqat İnstitutu yaradılmışdır.

Dünya Türkmənlərinin Humanitar Assosiasiyasının əsas işi diasporla əlaqələrin qurulmasıdır. Assosiasiyanın mərkəzi Aşqabadda yerləşir. "Mekan" sarayı adlanan mərkəzin inşasına 4 milyon dollar vəsait ayıran Türkmənistanın keçmiş Prezidenti Niyazov onun tam texniki cəhətdən təmin olunması tapşırığını vermişdi. Ədliyyə Nazirliyində beynəlxalq humanitar ictimai təşkilat kimi qeydiyyatdan keçən qurum türkmənlərin məskunlaşdığı çoxsaylı ölkələrdə filiallara malikdir. Hazırda 25 ölkədə nümayəndəliyi olan Dünya Türkmənlərinin Humanitar Assosiasiyasının 14 ölkədə nümayəndəliyi rəsmi qeydiyyatdan keçmişdir.





Dünya Türkmənlərinin Humanitar Assosiasiyasının təsisçiləri kimi 340 yerli və beynəlxalq təşkilat çıxış edir. Qurum dünyanın müxtəlif ölkələrində türkmən diasporunun birləşməsinə çalışır və çoxşaxəli işlər həyata keçirir. Dünya türkmənlərinə humanitar yardım edən qurumun nəşr etdiyi türkmən, rus, ingilis, ərəb, fransız və türk dillərində materiallar diaspora paylanır. Bu günə qədər 12 böyük konfrans keçirən qurum dövlətin xarici siyasət kursunun həyata keçirilməsində də mühüm işlər görür. Qurumun "Türkmən dünyası" adlı qəzeti nəşr edilir.

Türkmənlər bu gün dünyanın müxtəlif ölkələrində məskunlaşıblar.

**Qazaxıstan.** Burada ilk dəfə olaraq türkmən diasporu özünü 1995-ci ildə Almatı və Almatı vilayətində ilk Türkmən ictimai-mədəni təşkilatının yaradılması ilə göstərdi. Bu mərkəzin yaradılması Qazaxıstanda Xalqlar Assambleyasının yaradılması ilə eyni vaxta təsadüf etmişdi. Mərkəz yaradılan zaman türkmən milli kimliyini və adət-ənənələrini

təbliğ etməyi qarşısında məqsəd qoymuşdu. Cəmiyyət, həmçinin, Qazaxıstan-Türkmənistan ikitərəfli əməkdaşlığına öz töhfəsini verməyi məqsədlərindən biri elan etmişdir. 1998-ci ildə mərkəzin ətrafında türkmən diasporuna məxsus olan Manqitan Milli-Mədəni Mərkəzi, Kostan və Qaraqanda milli mədəni cəmiyyətləri birləşərək diasporların bir mərkəzdən idarə olunması üçün işlər aparmağa başladılar. Almatı Türkmən ictimai-mədəni təşkilatı Dünya Türkmənlərinin Humanitar Assosiasiyasına üzv seçiləndən sonra ölkədə ictimai fəaliyyətini artıraraq mediada çıxışlar etməyə və müxtəlif mədəni tədbirlər keçirməklə türkmən diasporunun üzvlərini bir arada saxlamağa çalışır. Onların fəaliyyəti nəticəsində Niyazovun Qazaxıstana səfəri zamanı onunla görüşə diasporun üzvlərini toplayan Mərkəzin sədri Qazaxıstanın "Dostluq" ordeni ilə təltif edilmişdir.

Mərkəz Mərkəzi Asiyada keçirilən müxtəlif tipli tədbirlərdə türkmən diasporunu təmsil edir. Qazaxıstan Prezidenti yanında türkmən diasporunun rəsmi təmsilçisi olan Mərkəz türkmən ədəbiyyatının müxtəlif nümunələrini qazax dilinə tərcümə etmişdir. Mərkəzin nəzdində rəqs ansamblı fəaliyyət göstərir və türkmən milli mahnı və rəqslərini qazax xalqına təbliğ edir.

**Özbəkistan.** Bu ölkədə türkmən diasporunun sayı 122 min nəfər göstərilir. Türkmənlərin özbək torpaqlarına ilk köçünün tarixi X əsrə təsadüf edir. Ərəb tarixçisi Əl-Müqəddəsinin yazdığına görə, Özbəkistan ərazisinə türkmənlər





985-ci ildə köçməyə başlayıblar. Səlcuqların hakimiyyət illərində bura kütləvi köçən türkmənlər Buxara və Səmərqənddə məskunlaşırdılar. Türkmənlər yerli xalqa qaynayıb-qarışandan sonra bu torpaqların azadlığı uğrunda canlarından keçmişlər. Xüsusilə, Xarəzmlərin monqol istilalarına qarşı mübarizəsində türkmən əsgərləri böyük rəşadət göstərmişlər. Babürün Hindistana səfərində də özbək qoşunlarının tərkibində türkmən döyüşçülər var idi. Zamanla yerli cəmiyyətə adaptasiya olunan türkmənlər tarixin müxtəlif dövrlərində Özbəkistan ərazisinə köçmüşlər və 1924-cü ildə təkcə Buxara əmirliyində onların sayının 25 minə çatdığı bildirilirdi. Türkmənlər Buxara, Səmərqənd, Qaşqadərya, Qaraqalpaq, Xarəzm, Surxandərya, Daşkənd və digər ərazilərdə məskunlaşırdılar.

1920-ci ildə Özbəkistanda türkmən teatrı, 1922-ci ildə Türkmən-Özbək teatr truppası təsis edildi.

Türkmənlərin ilk diaspor təşkilatı Buxarada yaradılmış və onun ardınca digər ərazilərdə milli-mədəni mərkəzlər formalaşdırılmışdı. Müasir dövrdə Özbəkistanda "Aydineli" qəzeti nəşr edilir və "Orzu" adlı rəqs ansamblı fəaliyyət göstərir.

2001-ci ilin 17 fevralında ilk dəfə olaraq Daşkənd şəhərində Özbəkistan Respublikası ərazisində yaşayan türkmənlərin təsis qurultayı keçirildi. Bu tədbirdə türkmən diasporunu bir mərkəzdən idarə edəcək olan qurum – Respublika Türkmən Mədəni Mərkəzinin Nizamnaməsi qəbul

edildi. Mərkəz elə həmin ilin mayında Özbəkistan Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. Mərkəzin yaradılmasında əsas məqsədlər aşağıdakılar idi:

– Özbəkistan Respublikasında yaşayan türkmən diasporunun milli, mədəni, sosial və maarifləndirici inkişafına nail olmaq;

– milli dilin, adət və ənənələrinin, ana dilin və tarixi dəyərlərin qorunması;

– Türkmən milli cəmiyyətlərinə metodik yardımların edilməsi;

– Digər milli diasporlar ilə əməkdaşlıq və s.

Özbəkistan xalqı və rəsmi qurumları tərəfindən daima dəstəklənən türkmənlərin eyni etnik kökdən olması onların cəmiyyətə daha sürətlə inteqrasiya olunmasına şərait yaradır.

**Suriya.** Suriyadakı türkmənlərin VII və VIII əsrlərdən bəri Fərat və Dəclə boylarına endikləri, eyni zamanda, Mesopotomiyadan və Anadoludan Suriyaya köçdükləri, IX və XI yüzildən bu yana bölgədə yaşadıqları bildirilir. Daha öncə Misirdə bir türk sərkərdəsi Tolunoğlu Əhməd öz xanədanını qurmuş (875) və bu xanədan 905-ci ilə qədər davam etmişdir. Tolunoğlu Əhməd Suriyanı 877-ci ildə almışdır. Daha sonra başqa bir türk sərkərdəsi Toğac oğlu Mühəmməd Əbu Bəkir bir xanədan qurmuş və bu da 935-969 illər arasında bölgəyə hakim olmuşdur.

Türkmənlərin bölgəyə növbəti köçü Səlcuqlar İmperiyasının Qəznəlilərlə Dandanakan döyüşündən sonra baş vermişdir. Türkmənlər bu döyüşdən sonra 1063-cü ildən etibarən öz həyat tərzlərinə uyğun bildikləri bu bölgəyə yerləşməyə başladılar. Xüsusilə, Hələb, Lazzikiyə, Trablusğam və Asi İrmağı vadisi boyunca Hama, Humus və Şam bölgəsində yerləşdilər. Türkmənlərin buraya axını Afşin və Sandıq Bəylər rəhbərliyində Hələbə qədər davam etmişdir. 1069-1070-cı illərdə Kurlu və Atsız Bəylər Güney Suriyanı tamamən ələ keçirmişlər.

1071-ci ildə Malazgirt döyüşündən sonra aşağı və yuxarı Fərat boylarında saltuklar, məngücəklər, danışməndilər, yaşnalıoğullar, artuklar kimi türk bəylikləri qurulmuşdur.

1077-ci ildən sonra Suriya Səlcuqlu məliki olan Tutuğ özünü sultan elan edərək oğuzların yuva boyu ilə bayat, avşar, bəydillilərlə Şam və Hələbdə yerləşmişlər.

1117-cı ildən bölgədə hakimiyyət Atabəylərin əlinə keçdi. Suriya Səlcuqlarının Şam qolu Atabəy Tuğtəkin tərəfindən idarə olunurdu. Səlahəddin Əyyubinin ölümündən sonra bölgəyə bir başqa türk dövləti olan Məmlükilər hakim olmuşdur. Anadoluya hakim olan Səlcuqlu Dövləti isə 1243-ci ildə Moğollarla döyüşdə məğlub olmuşdur. Bu basqının nəticəsində, xüsusilə, Kayseri və Sivasda yaşayan türkmənlər Məmlük sultanı Baybars zamanında Suriya bölgəsinə yerləşmişlər. Bu dövrdə Suriyaya gəlib Şamda yerləşən türkmənlər Elxanlı hökmdarı Əbu Səid Bahadır xanın ölümündən sonra çıxan siyasi münaqişədən faydalanaraq, 1337-ci ildə Elbistan

yaxınlığında Dulqadiroğulları bəyliyini qurmuşlar.

Yavuz Sultan Səlim 1516-cı ildə Məmlükiləri məğlub edərək bugünkü Suriya torpaqlarını Osmanlı İmperiyasına birləşdirmişdir. Bölgədəki türk hakimiyyəti 402 il sürmüşdür. Bu müddətdə bölgə insanları türk mədəniyyətinin təsiri altında qalmışdır. Bu təsir özünü ən çox dil sahəsində göstərmişdir. Suriya ərəblərinin ləhcəsi ən çox türk sözləri qəbul etmiş ərəb ləhcəsidir.

Birinci dünya müharibəsinin sonuna qədər Osmanlı hakimiyyətində qalan Şam, Trablus və Hələb əyalətləri sabitlik və inkişaf dövrünü yaşamışdır. 30 oktyabr 1918-ci il Mudros müqaviləsinə qədər Suriya ingilis və fransız işğalına məruz qalmış, 1936-cı ildə isə Fransadan asılı respublika olmuşdur. XX əsrin ortalarında çox sayda Suriya türkməni ərəbləşmiş, beləcə bu ölkədə yüz illərdir sürən assimilyasiya davam etmişdir.

Oğuz türkmənlərinin və Məmlük qıpçaqlarının nəvənəticələri olan Suriya türkmənlərinə Bayır-Bucaq türkmənləri də deyilməkdədir. Türkmənlər Suriyada milli azlıq kimi qəbul edilir. Suriyada Bayat, Afşar, Kadirli, Ərəbli, Bəymişli, Hacəli, Qarakeçili, Əsabəli, Musabəyli, Elbəyli, Axar, Heyran, Qaraşlı, Candırlı, Günəşli, Sincar kimi türkmən boyları yaşayır. Bu türkmən boyları ilə Anadoludakı türk boyları arasında inanclar, ənənələr və folklor baxımından çox önəmli bənzərliklər var. Suriyada yaşayan türkmənlərin sayı təxmini məlumatlara görə 500 minə yaxındır. Gerçək rəqəmlər 1.8 - 2 milyon arasında təxmin edilir.





Suriyada 523 türkmən kəndi vardır. Suriya hökuməti son illərdə türkcə yer adlarını ərəbləşdirməyə başlayıb. Əsabəyli - Əsəviyyə, Kabamaz - Bəlutiyyə, Merhan - Salva, Daşlıoyuk - Talhacr, Turunca - Umitüyur, Karınca - Behlüliyyə adlandırılmışdır. Suriyada türkcə təhsil verən bir məktəb olmadığı üçün türkmənləri bir araya gətirən təşkilat da yoxdur. Kənd və qəsəbələrdə yaşayan türkmənlər öz aralarında türkcə danışır. Yüksək təhsil alan türkmənlərin sayı çox azdır və onlar da Türkiyədəki məktəblərdə oxumuşlar.

Türkcə mətbu yayın orqanları 1922-ci ildən 1937-ci ilə qədər sürgündə olmuş Refik Halitin sayəsində çıxan "Doğru Yol" və "Vəhdət"dir.

**İran.** Türkmənlər əsasən Gülüstan vilayətində, müəyyən hissəsi isə Xorasanda yaşayır. Türkmənlərə qonşu olan Xorasan türklərinin özləri isə dağınıq halda yaşayır. Türkmənlərin yaşadığı ərazinin 23 min kv. km, Xorasan türklərinin yaşadığı ərazinin isə 52 min kv. km olduğu bildirilir. İranın güneyində və mərkəzində məskunlaşmış türklər isə bölgəyə dağılaraq başqa millətlərlə birlikdə yaşayır. Bu əraziyə İsfahan, Fars, Buşəhr, Yəzd, Bəxtiyari, Boyər, Kirman kimi bölgələr daxildir. Bu ərazilərin ümumilikdə 65 min kv. km olduğu bildirilir.

İranda yaşayan türkmən xalqı ən qədim dövrdən günümüzədək, xüsusilə son əsrlərdə inkişaf etmiş bir şəkildə, heyvandarlıq, balıqçılıq və əkinçilik, eləcə də toxuma səna-

yesi ilə məşğul olmuşdur. Manqışlaq, Balxan və Türkmənşəhr ərazilərində yaşayanlar əkinçilik, Xəzər Dənizi kənarında məskunlaşanlar balıqçılıqla məşğuldurlar. XIX-XX əsrlərdə türk imperatoru olan Nadir Şahın imperatorluğu dağıldıqdan sonra türkmənlər özlərini qorumaq üçün birləşməyə meyl etmişlər. O dövrdə türkmən ədəbiyyatı şiddətlə müstəmləkəçiliyə və imperializmə qarşı çıxmışdır. Yenə eyni dövrdə Azərbaycan, türkmən və özbək ədəbiyyatları arasında əlaqələr qüvvətlənmiş və bu əlaqələr türkmən ədəbiyyatının inkişaf etməsinə yardım göstərmişdir. Məhəmməd Azadi, Qanbi, Əndəlib və digər türkmən şairləri bu ədəbi cərəyanın nümayəndələri olmuşlar.

XIX əsrin sonu və XX əsrin əvvəllərində yeni sosial və siyasi şərtlərin yaranması türkmən xalqının azadlıq mübarizəsinin güclənməsinə şərait yaratdı. Quzeydə müstəqil Türkmənistan Cümhuriyyətinin yaranması bu mübarizənin məntiqi nəticəsi idi. XX əsrin birinci yarısı Azərbaycanın görkəmli oğlu Məhəmməd Tağıxanın rəhbərliyi ilə Şirvan, Qoçan və bütün Xorasanda başlayan milli azadlıq hərəkatında türkmən xalqı da fəal iştirak etmiş, öz milli azadlıqları üçün mübarizə aparmışdır.

1978-ci ildə Pəhləvi rejiminin zəifləməsi nəticəsində türkmən xalqının milli azadlıq hərəkatı olduqca gücləndi. Xalq yenidən, birlikdə hərəkətə keçmiş, milli istiqlaliyyət uğrunda yeni addımlar atmışdı. Məhəmməd Rza şah Pəhləvi qaçmazdan əvvəl iki milyon yarım türkmən ayağa qalxaraq şəhərlərdə və kəndlərdə şuralar qurdular. Daha sonra bu şuralar türkmən xalqını hökumət halına gətirdi. Türkmən xalqı öz müqəddəratını təyin etmək haqqını həyata keçirdi. Bu məqsədə çatmaq üçün kəndli, şəhərli, tələbə və aydınlar, 15 mart 1978-ci ildə Türkmənsəhrada öz hökumətlərini qurdular.





80 il əvvəl Türkmənsəhranın əhalisi tamamilə türkmənlərdən ibarət olsa da, indi onların sayı bir qədər azalaraq 60-70 faiz təşkil edir. Kürdlər, zabulilər və sistanilər bu regionda yaşayan digər azlıqlardır.

**Əfqanıstan.** Səlcuqların zamanında bu torpaqlara gələn türkmənlər Əfqanıstanın şimal bölgəsində yaşayırlar. Onların təxmini sayının 932 000 olduğu qeyd edilir. Əfqanıstanda aparılmış siyahıyaalmalarda türkmənlərin yaşamış olduqları bəzi kənd və qəsəbələrin adları siyahılara daxil edilməmişdir.

Kunduz vilayətində əfqanlar Həzrəti İmam, Deşti Acçı, Qalası-Zal, Çar-dərə kimi mahallar və Kunduz mərkəzində yaşayırlar. Xan-abad mahalında da dağınıq olaraq məskunlaşmışlar. Qalası-Zal mahalının 90 faizi türkməndir.

Belh (Məzarı Şərif) vilayətində Kelder, Hayratan, Şortepe, Dövlət-abad, Çai, Belh, Çimtal, Çarbölek mahallarında və Məzarı Şərif şəhər mərkəzində yaşayırlar. Kelder, Şortepe, Hayratan və Çai mahallarında yaşayanların hamısı türkmənlərdir.

Cüzcan vilayəti sakinlərinin əksəriyyətini türkmənlər təşkil edir. Qərğin, Xamı AB, Mengecik və Mürdiyen mahalları tamamilə türkmənlərlə məskundur. Axça, Andhoy, Karamkol, Hançarbağ, Korgan və Hücedükke mahallarında da yenə türkmənlər əksəriyyət təşkil edir. Feyzabad mahalı ilə Şibirgan (Cüzcan) şəhərinin mərkəzində də türkmənlər vardır.

Faryab vilayətində Dövlət-abad, Şah, Sürüşsəyər, Şirin-tegab və Cumabazar mahallarında yaşamırlar.

Badgis vilayətinin Marçak (Mervçak) mahalı əhalisinin hamısı türkmənlərdən ibarətdir.

Bundan başqa, türkmənlər Herat vilayətinin Turgundi, Gulran, Guriyan və Encil mahallarında, Semangan vilayətinin Hulm mahalında da məskunlaşmışlar.

Bağlan vilayətinin Pülü Homri mahalında və Dahiliyinəni Gori mahalına bağlı Bulaqı Şeir qəsəbəsində də türkmənlər yaşamaqdadırlar.

Səribil vilayətinin mərkəzində, Fərah, Leşkergah, Kandahar, Qabil şəhərlərində də türkmənlərin yaşadığına dair məlumatlar var.

**Qırğızıstan**. Türkmənlərin bu əraziyə gəlməsi tarixi qədim dövrlərə təsadüf etsə də, diasporun formalaşması Sovet dövründən başlayır. Əsasən Bişkekə təhsil almağa gələn gənclərdən olan türkmən diasporunun digər bir hissəsi isə biznesmenlər və xırda ticarətlə məşğul olanlardır. Bu gün Bişkekin yerli bazarı "Dordoy"da çalışanların əksəriyyəti türkmənlərdir.





Diasporun əsas bazasını təşkil edən 7 mindən çox türkmən tələbə müxtəlif ixtisaslar üzrə təhsil alır. Türkmən diasporu burada milli adət- ənənələrini qoruyub saxlayır, siyasi proseslərə qoşulmur, milli bayramlarını bir yerdə keçirməyə çalışırlar.

**Tacikistan**. Cənubi Tacikistanda türkmən əhalisinin məskunlaşması X əsrə təsadüf edir. Bu dövrdə ilk türkmən qrupları Maver-ən-nəhrə gəlmişlər. Orta əsr tarixçiləri türkmənlərin sayının o zamanlar burada 200.000-ə yaxın olduğunu qeyd edirlər. Tacikistanda yaşayan türkmənlərin Nurata türkmənləri ilə genetik bağları vardır. Türkmənlərin bir hissəsi müxtəlif yerlərə köç etmiş, qalanları isə tacik və özbəklər arasında assimilyasiya olunmuş və nəticədə sayları azalmışdır. Müasir dövrdə Tacikistanda 20.500-dən çox türkmən yaşamaqdadır. Bunların 14.000 nəfəri Cılıköl bölgəsində yaşamaqdadır. Bu türkmənlər heyvandarlıq, pambıq əkinçiliyi və xalçaçılıqla dolanmaqdadırlar. Burada türkmən dilini tədris edən məktəblər var.

14 fevral 2004-cü ildən burada Türkmən Mədəni-İnformasiya Mərkəzi fəaliyyət göstərir.

**Çin Xalq Respublikası.** Türkmənlər burada Şanghay və Kansu ellərində və Uyğur muxtar dövlətlərində məskunlaşıblar. Əsas işləri əkinçilik, heyvandarlıq və sənətkarlıqdır. Sayı 72.000 ətrafındadır.

**Türkiyə.** XI–XII əsrlərdə başlayan Moğol işğalı zamanı Maver-ən-nəhr, Xorasan və Azərbaycanda yaşayan türkmən-

lərin çoxu Anadoluya köç etmişlər. Türkmən köçü Anadolunun türkləşməsi ilə başlamışdır. Bu gün Anadoluda daha çox Konya, Mersin və Adana şəhərləri və ətrafında məskunlaşmış türkmənlər yarı köçəri bir həyat yaşamış və öz milli ənənələrini qorumuşlar. Müasir dövrdə Ərzurum, Çorum və Qars ətrafında isə kiçik türkmən qrupları yaşamaqdadır.

Türkiyədəki türkmən boylarının ən böyüklərindən biri Kınık boyudur. Türkiyədəki türkmənlər Qaradaşlı, Salar, Təkə, Bayat, Barat, Afşar, Begdili, Mütərəqqi, Kayı, Qaraqoyunlu, Ağqoyunlu və digər boylardandır. Türkiyədə əsli türkmən olan Abdallar və Yörüklər kimi etnik qruplar da mövcuddur. Yörüklərin içində əsli türkmənlərdən olan Türkmən, Təkəli, Stansiyaya Təkəli, Məmməd Təkəli, Qaraqkoyunlu, Köhnə, Qaraevli kimi qollar da var.

**Rusiya Federasiyası.** 2009-cu ilin məlumatına görə, Rusiyada 39.700-dən çox türkmən yaşayır. Onlar əsasən Rusiyanın iri şəhərlərində - Moskva və Sankt-Peterburqda, müəyyən bir qismi isə vilayət və muxtar respublikalarda məskunlaşmışlar.

***Stavropol.*** Burada türkmənlərin məskunlaşması XVII-XVIII əsrlərə təsadüf edir. Türkmənlərin rəsmi sayının 2009-cu ildə 14 mindən çox olduğu qeyd edilir. Burada 1927-ci ildə Türkmən rayonu yaradılmışdır. Bunun nəticəsində türkmənlər fəal diaspor işinə başlamışlar. Yerli iqtisadiyyatın inkişafında mühüm rolları olan türkmənlər kənd təsərrüfatı, əkinçilik və maldarlıqla məşğul olurlar. Burada





türkmən dilində ədəbiyyatların yerləşdiyi kitabxana, teatr truppası, media mərkəzləri, türkmən dilinin tədris edildiyi orta məktəblər var.

***Krasnoyarsk.*** Sovet rejimi qurulandan sonra türkmənlərin məskunlaşdığı ərazilərdən biri olan Krasnoyarskda hazırda 280 türkmən ailəsinin yaşadığı göstərilir. Türkmən diasporu burada təşkilati struktura malik olmasa da, milli həmrəylik nümayiş etdirir və adət-ənənələrini qoruyur, ana dillərini unutmur.

***Həştərxan.*** 1929-cu ilin tarixi məlumatlarına görə, 1811-ci ildə 2300 türkmən buraya köçmək üçün hökumətdən icazə istəmişdir. Hökumət bu müraciətə rədd cavabı versə də, 1500-ə yaxın türkmən icazəsiz olaraq buraya köçmüşdür. 1927-ci ildə Həştərxan türkmənlərinin sayının 1500 olduğuna dair məlumatlar mövcuddur.

***Tatarıstan.*** Buraya türkmənlərin köçməsi XX əsrin 50-ci illərinə təsadüf edir. Əsasən Kazan ali məktəblərində təhsil almağa gələn 2000-dən çox türkmən gənci müxtəlif ixtisaslara yiyələndikdən sonra burada qalıb yaşamağa və işləməyə qərar verirdilər. Hazırda türkmən diasporunun 1999-cu ildə təsis etdiyi Milli-Mədəniyyət Mərkəzi diasporu burada təmsil edir və türkmən milli kimliyinin təbliğatı ilə məşğul olur. Bu Mərkəz 2000-ci ildən etibarən Dünya Türkmənləri Humanitar Assosiasiyasının Tatarıstan nümayəndəliyi kimi fəaliyyət göstərir.

## TATAR DİASPORU

Tatarların ətraf regionlara səpələnməsinə təkan verən Qızıl Orda xanlığının dağılması diasporun formalaşmasına şərait yaratdı. XVI əsrdə rus çarı İvan Qroznı Kazan şəhərini işğal etdikdən sonra tatarların Ural, Qərbi Sibir və Orta Asiya ölkələrinə məcburi miqrasiyası başlandı. 1921-ci ildə isə ölkədə yaranmış iqtisadi böhran və aclıq tatar miqrasiyasının kütləvi hal almasına gətirib çıxardı. Tatarlar Rusiya ilə yanaşı, Ukrayna, Qafqaz, Türkiyə, Yaponiya, Avstraliya, Çin, Finlandiya, ABŞ və digər dövlətlərə miqrasiya etdilər. Bu ölkələrdə zamanla güclü tatar diasporunun formalaşması başlandı. Bu prosesdə xüsusilə tatar ziyalıları böyük rol oynamışlar. Onlar diaspor halında yaşayan tatarlar arasında güclü maarifləndirmə işini qurmuş və bununla da mədəniyyətlərinin assimilyasiya olunmasının qarşısını ala bilmişlər. Bu gün dünyanın müxtəlif ölkələrində 7 milyondan çox tatar yaşayır.

Tatar diasporunun formalaşması bir neçə tarixi dövrə bölünür:

– 1920-ci ildə Sovetlər Birliyinə əks çıxan 60-70 min Krım tatarının kütləvi qətllərə məruz qalmasından sonra onların ailələri öz doğma yurdlarını tərk etməli oldular;

– 1928-ci ildə 3500-dən çox tatar Sibirə sürgün edildi;





– 1929-1930-cu illərdə 35-40 min Krım tatarı Ural və Sibirə sürgünə göndərildi;

– 18 May 1944-cü ildə Krımdan demək olar ki, əhalinin çox hissəsinin zorla digər ərazilərə köçürülməsi əmri verildi;

– Sovetlər Birliyi çökəndən sonra baş verən davamlı miqrasiya prosesləri nəticəsində tatarların bir qismi Rusiyanın digər regionlarına, habelə xarici ölkələrə köçdü.

Tatarıstan Muxtar Respublikasında Dünya Tatarları Konqresinin icraçı katibliyi fəaliyyət göstərir və respublika rəhbərliyi ilə birgə əməkdaşlıq quraraq xaricdəki həmvətənləri ilə iş aparırlar. Asiya və Avropanın kəsiyində öz gözəlliyi ilə seçilən Kazan şəhəri dünya tatarlarının istinad mərkəzi kimi qəbul edilir.

Hazırda tatar diasporu ilə əməkdaşlıq Tatarıstan Respublikasının Prezidentinin Xarici Əlaqələr Departamenti, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, DİN Miqrasiya işləri üzrə İdarəsi və Dünya Tatarlar Konqresinin icraçı katibliyi tərəfindən həyata keçirilir.

Tatarıstan Respublikası Konstitusiyasının 14-cü maddəsi özündə xaricdə yaşayan tatarlarla əlaqələrin qurulmasını, onların hüquq və azadlıqlarının qorunmasını ehtiva edir. Bu gün təkcə keçmiş postsovet respublikalarında 1 milyona yaxın tatar yaşayır.

Rusiya Federasiyasında 5554601 nəfər (2002-ci il siyahıyaalınmaya əsasən), Qırğızıstanda 45503 nəfər (1999-cu il

siyahıyaalınmaya əsasən), Qazaxıstanda 248954 nəfər (1999-cu il siyahıyaalınmaya əsasən), Ukraynada 73304 nəfər (2001-ci il siyahıyaalınmaya əsasən), Rumıniyada 24137 nəfər (2002-ci il siyahıyaalınmaya əsasən), Çin Xalq Respublikasında 4890 nəfər (2000-ci il siyahıyaalınmaya əsasən), Belarusda 10146 nəfər (1999-cu il siyahıyaalınmaya əsasən), Estoniyada 2582 nəfər (2000-ci il siyahıyaalınmaya əsasən), Tacikistanda 19 min nəfər (2000-ci il siyahıyaalınmaya əsasən), Litvada 3235 nəfər (2001-ci il siyahıyaalınmaya əsasən), Polşada 447 nəfər (2002-ci il siyahıyaalınmaya əsasən), Özbəkistanda 275,4 min nəfər (2002-ci il siyahıyaalınmaya əsasən), Kanadada 2300 nəfər tatar yaşayır.

Rus İmperiyası zamanında imperiya ərazisindəki bütün türk-müsəlmanları, eləcə də azərbaycanlıları bu adla tanıyar və rəsmi sənədlərdə də onları bu cür qeyd edərdilər.

27.01.1999-cu il əhalinin siyahıyaalınması nəticəsində Azərbaycan əhalisinin 0,38 faizinin (30 min nəfər) tatar olduğu aydınlaşmışdır.

Xarici ölkələrdə də tatar diasporu öz fəallığı ilə seçilir.

**Avstraliya.** Avstraliyada tatar diasporunun ilk nümayəndəsi 1916-cı ildə rus dənizçisi kimi Melburna gələn Əbdül Ganivahoff olub. Sonradan o, öz qohumlarını yaşıl qitəyə gətirmişdir. 1945-ci ildə vaxtilə Çinin Mancuriya ərazisinə miqrasiya etmiş tatarların Sovet qoşunlarına təslim olmayaraq köç etdikləri ölkələrdən biri olan Avstraliyada hazırda 500 tatar ailəsi yaşayır. Təxminən 100 tatar ailəsi





Adelaidada məskunlaşmışdır. Bundan başqa, Sidneydə və Melburnda kiçik tatar icmaları mövcuddur. Adelaida, Melburn və Sidneydə məskunlaşan tatar icmaları 1985-ci ildə birləşərək Cənubi Avstraliyanın Tatar-Başqırd Assosiasiyasını təsis etmiş və 1995-ci ildə rəsmən qeydiyyatdan keçmişlər. Assosiasiyaya üzv təşkilatlar tatar adət-ənənələrini, mətbəxini, musiqi və s.-ni təbliğ etməklə məşğul idilər. Bu işdə 1984-cü ildə Adelaida şəhərində yaradılan Tatar Mədəni Cəmiyyəti xüsusi fəallığı ilə seçilir. Cənubi Avstraliyada Tatar Gəncləri Assosiasiyası da təsis edilmişdir. Şəhərdə, eyni zamanda, tatar «Həftə sonu» məktəbləri də fəaliyyət göstərir. Tatar diasporu burada digər türkdilli xalqlarla da əməkdaşlıq edir. 2004-cü ildə Avstraliyada fəaliyyət göstərən Türk Xalqları Assosiasiyası "Turan"-a mənşəcə tatar olan İrek Qəribov rəhbər seçilmişdir.

**Azərbaycan.** Azərbaycan əsrlər boyu Tatarıstanla bağlı olmuşdur. Xalqlarımız eyni tarixi köklərə malikdir, ənənələrimiz, mənəvi dəyərlərimiz bir-birinə çox oxşardır, dinimiz eynidir. Bütün bunlar Azərbaycan və tatar xalqları arasında əməkdaşlığın, dostluğun və qardaşlığın təməlini təşkil edir.

Azərbaycan ilə Tatarıstan arasında iqtisadi əlaqələr də həmişə sıx olmuşdur. Keçmiş vaxtlarda bir-biri ilə əsasən Volqa və Xəzərdə gəmiçilik vasitəsilə əlaqə saxlamış Azərbaycan və Tatarıstan arasında geniş ticarət əlaqələri olmuşdur. Bir vaxtlar Azərbaycandan Tatarıstana və Tatarıstandan Azərbaycana bir çox mallar, avadanlıq göndərilirdi.

Tatar millətindən olan bir çox şəxslər Azərbaycanın yerli sakinləridir və onlar elm və mədəniyyətimizin inkişafına böyük töhfə vermişlər. Bununla yanaşı, bir çox azərbaycanlı Tatarıstanı özünün vətəni hesab edir, onların neçə-neçə nəsilləri orada yaşamış və yaşayır, tatar xalqının bir hissəsidir. İkinci dünya müharibəsindən sonra Tatarıstanda neft yataqları işlənilməyə başladıqda, Azərbaycan neftçiləri bu yataqların kəşfinə və onlardan istifadə edilməsinə böyük töhfə vermişlər. XIX əsrin sonları Bakı Qafqazda tatarların ən çox miqrasiya etdiyi şəhər idi. Tatar miqrantların Bakıya üz tutmasının əsas səbəbi buranın yalnız sənaye şəhəri olması, neft sənayesində işçilərə yaranmış ehtiyac deyil, həm də dil, din, mədəniyyət, adət-ənənə yaxınlığı idi. Bu dövrdə Bakıda artıq tatar ziyalıları öz birliklərini qurur, qəzet və jurnal nəşr edir, kitab çap edir və cəmiyyətin inkişafına töhfələrini verirdilər.

Sovet işğalı illərində Tatarıstan-Azərbaycan münasibətləri geniş inkişaf etməyə başlayır. Rusiya ərazilərində neft axtaran və çıxaran azərbaycanlıların öz biliklərini tatarlarla bölüşməsi ikitərəfli mübadilə proqramının güclənməsinə təkan verir. Nəticədə bir çox tatar ailəsi Azərbaycana köçərək Bakıda məskunlaşmalı olur. Sumqayıt şəhəri salındıqdan sonra isə tatar miqrantların bir qismi burada məskunlaşıb sənaye müəssisələrində çalışmağa başlayır.

Müasir dövrdə Azərbaycanda tatarların sayı 30 minə yaxındır. Azərbaycanda Tatarıstan Respublikasının daimi





nümayəndəliyi, "Tukay" adına Tatar Mədəniyyət Mərkəzi, "Turan El" Tatar Mədəniyyət Cəmiyyəti fəaliyyət göstərir. 1996-cı ildə Bakı şəhərində ilk dəfə olaraq tatar icmasının qurultayı keçirilmişdir. İcmanın əsas məqsədi Azərbaycan ərazisində yaşayan tatarların həmrəyliyi və yerli cəmiyyətə inteqrasiyasının güclənməsidir.

**Qazaxıstan.** Tatar diasporunun sayca çoxluq təşkil etdiyi ölkələrdən biri də Qazaxıstandır. 250 minə yaxın tatar ölkə əhalisinin 1,7 faizini təşkil etməklə yanaşı, 15 əsas əyalətdə məskunlaşmışdır. 2007-ci ilin statistikasına əsaslansaq, tatarlar bu ölkədə sayına görə altıncı böyük xalqdır. Qazaxıstan tatarları buraya əsasən Tatarıstan və Çin ərazisindən miqrasiya etmişlər.

Tatarların Orta Asiyanın bu ölkəsinə köçməsi barədə rəsmi məlumatlar VIII əsrə gedib çıxır. Dil, din və mədəniyyət yaxınlığı tatar ailələrinin Qazaxıstana köçməsini şərtləndirən əsas amillərdən olmuşdur. Artıq XIX əsrin ortalarında tatarlar Qazaxıstanın Akmali, Atbasar, Gökçətəpə və digər şəhərlərində öz icmalarını yarada bilmişdilər. Bu ölkədə tatarlar kiçik sahibkarlıqla məşğul olurdular.

Sosial həyatda da tatarlar fəallıq nümayiş etdirirdilər. Tatarların yerli cəmiyyətə sürətlə inteqrasiya etməsi diaspor quruculuğu istiqamətində addımların atılmasına imkan yaratdı. Qazaxıstan şəhər və qəsəbələrində tatar məscidləri, məktəbləri, milli mərkəzlər və digər qurumlar yarandı. Tatar milli adətləri, musiqi və mətbəxi təbliğ edilməyə baş-

landı. Tatar-qazax dostluq cəmiyyətləri, xeyriyyə fondları, mətbuat orqanlarının təsis edilməsi diasporun güclənməkdə olduğundan xəbər verirdi. Ziyalı təbəqəsi diasporda öz mövqeyini möhkəmləndirməklə yanaşı, Qazaxıstanda da ictimai nüfuz qazanır və onların dəstəyi ilə tatarlar çalışdıqları idarə və müəssisələrdə uğurlu karyera qurmaq imkanlarını əldə edirdilər.

Qazaxıstanda zərgər məmulatlarının satışı ilə məşğul olan Musin qardaşlarının kapitalına və xeyriyyəçilik fəaliyyətinə görə tanınması diasporun inkişafında, sosial problemlərinin həllində mühüm rol oynamışdır. Onlar burada yaşayan hər bir tatar ailəsi üçün aylıq yardım norması təyin etmiş və bunun sayəsində tatarlar ciddi sosial problemlərlə qarşılaşmamış, zaman keçdikcə iqtisadi həyatda fəal iştiraka nail olmuşlar.

Tatarlar əsasən Qaraqanda, Cambul, Şımkənd və digər rayonlardakı şaxtalar və sosial təsərrüfatlarda – sovxozlarda çalışırdılar. Tatar icmasının ölkənin inkişafına verdiyi töhfələr diasporun nümayəndələrinin bütün sahələrdə irəli çəkilməsinə şərait yaradırdı. Qazaxıstanın siyasi həyatında Fərid Halimov, Mahmud Müslimov, incəsənət sahəsində Lətif Həmidi, Rəşad və Müslim Abdullinlər, elm sahəsində Şövkət İbrahimov, Alfarid İlyələtdinov və digərlərinin adı bu gün də hörmətlə çəkilir.

Qazaxıstanda tatarların cəmiyyət və birlikləri də fəaliyyət göstərir. Bunlardan "İdel" Tatar və Tatar-Başqırd Cəmiyyəti və Birliklərinin Assosiasiyası daha fəaldır. Tatar-Başqırd Cəmiyyəti və Birliklərinin Assosiasiyası ətrafında 18 milli-mədəni mərkəzi birləşdirir. Assosiasiya rəsmi olaraq, ölkə prezidentinin yanında Qazaxıstan Xalqları Assambleyasının üzvüdür. Əsas məqsədi elmi, mədəni və kütləvi tədbirlər keçirmək olan Assosiasiya ölkədə tatarların problemlərinin həll edilməsi üçün lobbiçilik işi aparır. «Həftə sonu» məktəblərinin maliyyəsini də Assosiasiya öz üzərinə götürüb.





**Qırğızıstan.** Orta Asiyanın bu ölkəsində tatarların sayı 45.500 nəfərə yaxındır. Burada 18 ildən çoxdur ki, tatar-başqırd mədəni mərkəzi olan "Turan eli" cəmiyyəti fəaliyyət göstərir. Ölkənin rəsmi televiziya kanalında 20 dəqiqəlik, radio kanalında isə 10 dəqiqəlik verilişlər yayımlanır. Aylıq Tatar qəzetində isə burada yaşayan tatarların həyatından məlumatlar verilir. Tatar gənclərə Qırğızıstan ali məktəblərində ana dilində təhsil almaq imkanı yaradılmışdır. Bişkek şəhərində mərkəzi məktəblərin birinin nəzdində tatar orta məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə tatar tarixi ilə yanaşı, Tatarıstan coğrafiyası, ədəbiyyatı və mədəniyyəti tədris edilir. "Turan Eli" Mərkəzində «Həftə sonu» məktəblərinə müraciət edənlərin sayı ildən-ilə artmaqdadır.

**Çin Xalq Respublikası.** Tatarlar Asiyanın ən güclü dövlətlərindən biri olan Çinin Qərb (Sintzyan) və Şimal-Şərq (Mancuriya) ərazilərində kompakt halda məskunlaşmışlar. Çin tarixçilərinin əsərlərinə istinad edərək qeyd etmək olar ki, tatar tacirlərinin Sintzyan bölgəsinə ilk səfərlə-

rinin tarixi XIX əsrə təsadüf edir. Artıq bu əsrdə Sintzyan vilayətində iri tatar ticari mərkəzləri yaradılmışdı. Ticarət, dəri emalı və tikiş işləri tatarların əsas məşğuliyyəti idi. Çinin iri şəhərlərindən biri olan Quludada tatarların kompakt yaşadıqları "Nogay-şəhər" adlı şəhər də mövcud idi. Burada məktəb, mədəniyyət mərkəzi, məscid, teatr və milli adətlərin təbliğ edildiyi mərkəzlər fəaliyyət göstərirdi.

1927-ci ildə Homindan rejimi zamanı tatarların müflis olması onların bir çoxunun bu ərazilərdən köç etməsinə şərait yaratdı. Ərazini tərk etməyən tatarlar isə müqavimət hərəkatının fəal mübarizlərinə çevrildilər. Alixan-türe, Abdukerim Abbasov, Fatih Müslimov və Rəhimcan Sabirhaciyev kimi tatar fədailəri Homindana qarşı mübarizədə fəal iştirak etmişlər. 1954-cü ildə Maoya dəstək verdiklərinə baxmayaraq, Sovetlərin tələbi ilə yeni Çin hökuməti tatarları deportasiya etməyə başladı. Burada qalanların bir çoxu isə böyük çətinliklərlə üzləşdi.

Hazırda Sintzyan-Uyğur ərazisində, yəni Uyğurustan torpaqlarında 5 min nəfərə yaxın tatar yaşayır. Urumçi və Quldja şəhərində tatar milli mərkəzləri fəaliyyət göstərir.

**Finlandiya.** Finlandiyaya tatarların ilk miqrasiyası XIX əsrin əvvəllərinə təsadüf edir. 1809-cu ildə Rusiya ordusunun tərkibində 46 tatar ailəsi bu soyuq adaya köçmüşdür. Onlar Helsinki şəhərində məskunlaşaraq ilk icmalarını qurduqdan sonra öz ailələrini və qohumlarını da buraya gətirdilər. Tatarlar ilk günlərdən ticarətə başladılar və burada





gön-dəri biznesini tamamilə ələ aldılar. Tatar icması tərəfindən 1925-ci ildə "İslamiyyə" cəmiyyəti təsis edildi və 1948-ci ildə ilk tatar dilli məktəb açıldı. Hazırda Dünya Tatar Konqresinin rəsmi məlumatına görə, Finlandiyada 1000 nəfər tatar yaşayır. Helsinki, Tamper və Turku tatarların daha çox yaşadığı şəhərlərdir. "İslamiyyə" cəmiyyətinin mərkəzi paytaxtda beşmərtəbəli binada yerləşir. Burada tatar milli mədəniyyət mərkəzi, "Ulduz" idman klubu, kitabxana və «Həftə sonu» məktəbi yerləşir.

"Fin-Tatar Birliyi" cəmiyyəti bu ölkədə tatarların ən böyük təşkilatlarından biridir. Tatar icması gənclər məktəbi, tatar musiqi mərkəzi, uşaq klubları da təsis etmişdir. 1934-cü ildə yaradılan "Qızıl Orda" futbol klubu daha sonradan "Ulduz" adı ilə yerli çempionatda iştirak edir.

**Litva.** Baltik ölkələri içərisində tatar diasporunun daha fəal olduğu ölkələrdən biri Litvadır. Vilnüs, Klaypede və Kretinq şəhərlərində kompakt halda yaşayan tatarlar əsasən ticarət və kənd təsərrüfatı sahəsində uğur qazanıblar. Burada onlar yerli seçkili orqanlarda iştirak edir, tatar milli mədəniyyətinin təbliği ilə məşğul olur və digər türkdilli diasporlar ilə qarşılıqlı əməkdaşlıq edirlər.

**Kanada.** Monreal və Toronto şəhərlərində 100-ə qədər rəsmi vətəndaşlıq alan tatar ailəsi məskunlaşmışdır. Kanadada onların adət-ənənələrinə maraq olduqca böyükdür. Tatarların milli bayramı olan "Sabantuy" günündə yerli əhali sevə-sevə iştirak edir. Kanada tatarlarının lideri Talib Kudaki rəsmi dairələrdə böyük nüfuza malikdir.

**Almaniya.** Tatarların Almaniyaya gəlişi qədim dövrlərə təsadüf edir. 376-cı ildə hunların Mərkəzi Avropaya yürüşləri zamanı onların ordularında tatar tayfaları da var idi. Yerli alman xalqları Atilla ilə müttəfiqlik edərək burada qalan türk tayfalarına qarşı loyal münasibət bəsləyirdilər. Atillanın ölümündən sonra tatarların bir çoxu geri qayıtmayaraq almanlarla birgə Avropada yaşamağa başladı, digər bir qismi isə Britan adalarına köçdü.

Mərkəzi Avropada mövcud olan Avar xaqanlığı (müasir Macarıstan ərazisində türk dövləti, 800-ci ildə Böyük Karl tərəfindən dağıdılıb) ərazisində baş verən qarşıdurma nəticəsində tatarların bir qolu olan bulqarlar Almaniya ərazisinə miqrasiya etmişlər. Tarixə nəzər salsaq, almanlar tatarları Batı xanın adı ilə də xatırlayırlar. 1300-cü ildə türk-latın dilində tatarların yürüşlərinə həsr edilən "Hedviq haqqında əfsanə" alman dilinə tərcümə edilmişdir. Burada Almaniyaya səfər zamanı tatarların başlarına gələnlərdən bəhs edilir.

Bu gün alman mifologiyasında qalan tartar, tater, tatter tayfaları haqqında məlumatların məhz türk xalqı olan tatarlara aid olduğu şübhə doğurmur.

Tatar tarixi mənbələrinə görə, 290 il bundan öncə Polşa ərazisini keçməklə Prussiya ordusunda qulluq etmək üçün tatar-müsəlmanlar Almaniyaya gəlirlər. Bu şəxslər "Qızıl Orda" Toxtamışın sərkərdələrinin nəvə-nəticələri idilər və onlar alman ordularında cəsarətlə xidmət edirdilər.





Tatarların Almaniya ərazisində yeni məskunlaşması Napoleon müharibələrindən sonra Avropada inkişaf edən ticarətlə bağlı idi. Berlində bir çox ticarət mərkəzləri tatarlara məxsus idi.

Almaniyada tatarların mövcud olması II dünya müharibəsində "Dolunay lageri" və "Üzümlükdə lager" ilə bağlıdır və burada tikilən tatar məscidi və salınan məzarlıq bu gün alman hökuməti tərəfindən abidə kimi qorunur.

Sovetlər Birliyinin çökməsindən sonra tatarların Almaniyaya mühacirəti başlayır. Əsasən ziyalı təbəqənin nümayəndələrinin Tatarıstanı tərk etməsi iqtisadi səbəblərlə bağlı idi. 1999-cu ildə Berlində Tatar-Başqırd Mədəniyyət Mərkəzi təsis edilmişdir. Cəmiyyətin əsas işi alman cəmiyyətində tatar-başkir mədəniyyətini və ənənələrini təbliğ etməkdir.

2002-ci ildən etibarən tatar-başqırdlar "Bertuqan" adlı jurnal nəşr etməyə başladılar. Nəşrin ilk iki nömrəsi Almaniyada yaşayan tatarlara həsr edilmişdi. Bu cəmiyyətin xətti ilə hazırda tatarlara məxsus bir çox kitab alman dilində çap olunmuşdur. 2006-cı ildə təsis edilmiş "Döçlənddə tatarlar" adlı mərkəz tatar diasporunun bütün üzvlərini ətrafında birləşdirməyə çalışır. Bu mərkəz "Altbaş" adlı elektron jurnal və qəzet təsis etmişdir.

**Əfqanıstan.** Asiyanın bu dövlətində tatarların məskunlaşması XIX əsrə təsadüf edir. Bu Rusiya İmperiyasının xarici siyasətində Əfqanıstanın mühüm əhəmiyyət kəsb etməsi ilə bağlı idi və tatar ticarəti burada çarın birbaşa nəza-

rəti ilə geniş əlaqələr qurmuşdu. Məhz bu tacirlər Əfqanıstanda tatar diasporunun bünövrəsini qoydular. Tatarlar, eyni zamanda, Əfqanıstanın azadlığı uğrunda milli-azadlıq mübarizəsində də fəallıq göstərmişlər.

Bu gün tatarlar ölkədə yerli əhali ilə özbək, dari, puştun dillərində ünsiyyət qururlar. Ruye-Duab-Samanqan əyalətində kompakt halda yaşayan tatarlar ticarət və heyvandarlıqla məşğul olurlar. Əfqan hökuməti tatarların sayının 500 nəfər olduğunu iddia etsə də, Dünya Tatar Konqresinin araşdırmalarında bu rəqəm 2000-dən çox göstərilir.

Hazırda ölkədə Əfqanıstan Tatarlar Cəmiyyəti qeydiyyatdan keçib və tatarların cəmiyyətə inteqrasiyası, milli mədəniyyətinin təbliği istiqamətində fəaliyyət göstərir.

**Belarus**. Tatarların bu ölkədə yaşaması tarixini 600 il öncədən götürür. Düzdür, bu illər onların ana dilini unutmalarına səbəb yaratsa da, yeganə olaraq onların tatarlığını sübut edən dinləri İslamdır. Sovet dövrünə qədər Belarusda 20 müsəlman məscidi var idi ki, onların tikilməsi tatarların adı ilə bağlı idi. Bolşeviklərin 19 məscidi yerlə-yeksan etməsindən sonra tatarların birləşdiyi yeganə yer İvye məscidi idi.

1991-ci ildən başlayaraq, tatarların fəal diaspor fəaliyyətinə burada "Əl-Kitab" adlı tatar-müsəlman cəmiyyətinin yaradılması ilə başlanıldı. Hazırda burada 10 min nəfərdən çox tatar məskunlaşıbdır. 25 dini cəmiyyəti qeydiyyatdan keçibdir.





**Ukrayna.** Tatarların çoxsaylı yaşadıqları ölkələr içərisində Ukrayna xüsusilə seçilir. Təkcə Kiyevdə 30 min tatar yaşayır ki, onlar da 1993-cü ildə "İldaş" (soydaşlar) ətrafında sıx birləşdikləri cəmiyyəti yaratmışlar. Cəmiyyət ilk günlərindən fəal işə qoşularaq bütün yaş təbəqələri üçün «Həftə sonu» məktəblərində ana dili ilə yanaşı, milli rəqs və folklorunu tədris edir. Həftəlik poeziya və milli rəqslər günü keçirmək cəmiyyətin ənənələrinə daxildir və Tatarıstandan gələn qonaqlar mütləq bu cəmiyyətin qonaqları olurlar.

1998-ci ilin 9 yanvarında Ukrayna Ədliyyə Nazirliyində "Tuqan eli" (ana dil) Ümumukrayna Tatar Mədəniyyət Mərkəzi qeydiyyata alındıqdan sonra, 14 əyalət nümayəndəliyi ilə tatar diasporunun əsas təşkilatlarından birinə çevrilmişdir. "İldaş"-ın da daxil olduğu Mərkəz dünya tatar diasporları ilə sıx əlaqə qurmaqla yanaşı, milli mədəniyyəti təbliğ edən əsas təşkilat kimi Ukrayna rəsmiləri tərəfindən qəbul edilir. Tatarıstan dövləti tərəfindən dəstək görən mərkəz Dünya Tatarlar Konqresinin fəal üzvlərindən biridir. Mərkəzdə "Şadlıq" və "Əsil Yar" adlı ansambllar yaradılıb və onlar yerli və beynəlxalq tədbirlərdə iştirak edirlər. Mərkəz, eyni zamanda, "Syümbika" adlı qadın klubunu da təsis edib ki, burada tatar xanımlarına tatar ailəsi ənənələri öyrədilir. Klub xeyriyyə tədbirləri keçirir və burada diplomatik nümayəndələrin xanımları, beynəlxalq təşkilatların qadın işçiləri iştirak edirlər.

Tatar diasporu Ukrayna cəmiyyətində bütün sferalarda təmsil olunur. Öz milli ənənələrini qoruyub saxlayan ta-

tarlar ictimai sektorda fəaldırlar.

**ABŞ.** Bu gün Nyu-York, Los-Anceles, San Fransisko, Vaşinqton və digər şəhərlərdə yaşayan tatar diasporu Rusiya, habelə Avropa və Asiya ölkələrindən gələnlərdən ibarətdir. Burada tatar diasporu milli kimliklərini nisbətən qoruyub saxlaya bilmişdir. Tatar diasporunun ABŞ-da qarşılaşdıqları bir sıra problemlər də mövcuddur.

Ufa və yaxud Kazandan yeni köçüb gələn tatarların əksər hissəsi dil baryerini aşa bilməyərək yerli cəmiyyətə inteqrasiyada ciddi problemlər yaşayır. Qohumlarının yanına köçən tatarlar ailədə ana dilində danışır, ingilis dilini tam öyrənməyə meyl etmir. Tatar icmasının gənc nəsli isə diaspor işinə maraq göstərmir və daha çox yerli ab-havaya düşür, özlərini əsl amerikalı kimi aparırlar. İngilis dilində sərbəst danışa bilən və ali təhsil alanların isə başları karyera qurmağa qarışdığından diasporun təkliflərinə laqeyd yanaşırlar.

Amerika cəmiyyətinə çətin inteqrasiya olunan tatarlar yaratdıqları cəmiyyətləri bir mərkəz altında formalaşdırmaq problemi ilə də üzləşir. Ümumi koordinasiyanın qurulması mümkün olmamışdır və hətta son iki ilə qədər tatar diasporunu informasiya ilə təmin edən Amerika Tatar Forumunun saytı maliyyə səbəbləri üzündən fəaliyyət göstərmir. Dünya Tatar Konqresinin qurultaylarında dəfələrlə Amerika Tatarlar Konqresinin yaradılması təklif olunsa da, bu hələ də təklif olaraq qalmaqdadır.





Tatarıstan tərəfindən Amerikadakı tatar cəmiyyətlərinə maddi dəstəyin göstərilməməsi onların özlərinin dedikləri kimi, "sahibsiz" qalmalarına şərait yaradıb. Rusiya səfirliyi rusdilli tatarlara öz qüvvəsi daxilində kömək edir və onları rus diasporunun bir parçası kimi təqdim edir.

İngilis dilini mənimsəmiş, yerli cəmiyyətə inteqrasiya etmiş tatar yerli amerikalılar və türkdilli xalqların nümayəndələri ilə ailə qurmağa üstünlük verir. Tatar qızlarının da mühafizəkar ailə ənənələrinin təsirindən kənara çıxaraq amerikalı gənclərlə ailə qurmasına dair faktların sayı da getdikcə artmaqdadır. Bu ailələrdən doğulan uşaqların isə tatar diasporunun fəalları olacağı şübhə doğurur.

Tatar diasporunu araşdırmaqla məşğul olan tədqiqatçı və ekspertlərin fikrincə, Amerikada tatar diasporunun güclənməsi üçün yeganə çıxış yolu dövlətin onlara birbaşa qayğı göstərməsi ola bilər. Amerika kimi müxtəlifliklərin olduğu bir ölkədə tatar milli kimliyinin qorunub saxlanmasında Tatarıstanın özü maraqlı olmalıdır.

**Türkiyə.** Tatarların ən sıx məskunlaşdıqları bölgə Əskişəhərdir. Türkiyədə tatarların sayının 150 min nəfər olduğu qeyd edilir. Əskişəhərdəki tatarlar 33 kənddə yaşayır.

Aşağıda Əskişəhərin tatarlar yaşadığı kəndləri göstərilmişdir:

Əskişəhər eli

a) Əskişəhər mərkəz mahalı

- Boyacıoğlu (qismən Tatar)

- Qaraçoban
- Göydərə
- Kireçköy, tatar dilində Kireş (5 Tatar evi qalmış)
- Qaraçay, tatar dilində Karaşay (34 Tatar ev, 1 Kürd, 1 Meyvəsatan)
- Qalxanlı

b) Alpı mahalı
- Göyçəoğlu, tatar dilində Köksə
- Fevziyə, tatar dilində Pevziye
- Güneli, köhnə Xoşa - Ağtəpə, tatar dilində və Nogayca Rıpkiye
- Yaşıldon
- İşıqgörən, köhnə Ərəbquyusu (Noqay kəndi)
- Giroluk, digər adı Qızılsuvat
- Çuyurhisar (qismən Tatar)
- Çardaqbaşı
- Əsəncə, köhnə Yellicə (yarısının Noqay olduğu qeyd edilir)

c) Mahmuduya mahalı
- Məsuduya, köhnə Daşlıhöyük ~ Taslıköy
- Sərəfiyə, tatar dilində Serepiye (Tatarlar Krımdan)
- Fəxriyə, tatar dilində Pahriye
- Həmidiyə, tatar dilində Amidiye ~ Amdiye (qismən Tatar)
- Ağyurt, köhnə Lütfüyə, tatar dilində Lütpiye - Güllücə, köhnə Xeyiriyə, tatar dilində Ayriye





- Tokatməcidiyə

d) Sivrihisar mahalı
- Ortaqlar (qismən Tatar)
- Paşaqadın
- Yaverörən
- Qaraqaya (qismən Tatar)

e) Cütələr mahalı, tatar dilində Şıpteler
- İlicəbaşı, tatar dilində Olca
- Xeyiriyə, tatar dilində Ayriye, köhnə Söngülük
- Zəfərhəmid (qismən Tatar)
- Yıldizörən, köhnə Məcidiyə körpüsü (qismən Tatar)

f) Seyitqazi mahalı
- Axsaqlı
- Yenikənd, digər adları Yeniköy, tatar dilində Canköy.

Yuxarıda da deyildiyi kimi, tatarların sıx olduğu ikinci bölgə on bir kəndlə Ankara eli Poladlı mahalıdır.

Ankara eli

Poladlı mahalı
- Əskipoladlı
- Qaraqaya
- Qaraquyu
- Qarapınar
- Qarayavşan
- Qaşpınar
- Tatlıköyü
- Dırnaqsız (indi Sakarya)

- Toydəmir
- Yenidoğan.

Bölgənin sərhədləri xaricində ancaq şəhərə olduqca yaxın digər bir tatar kəndi vardır: Axırlığını.

Yasdıhöyük (andıq Gordiona yaxın) və yaxın zamanlarda tatarların köçdüyü Üçpınar da tatarların yaşadığı kəndlərdir. Tatarların bir hissəsi də Poladlıda yaşayır. Ankaranın cənubunda yerləşən Noqay kəndlərində, Duz Gölünün sahilləri yaxınlığında, Konya və Ağsaray yollarının kəsişdiyi yerlərdə tatar ailələri məskunlaşmışdır.

Konya eli

Qulu mahalı

- Qırxquyu
- Boğazörən, köhnə Köstengil
- Ağılbaşı, köhnə Mandıra
- Seyidəhmədli, Seydametli şəklində tələffüz edilməkdədir.

Ankara eli

a) Şərəfliqoçhisar mahalı

- Axın, Agın, 232 yaşayan, 75 ev
- Şəkər Kəndi, Şəkər, bəzi Noqaylar da Seker deyirlər
- Doğanqaya, eyni zamanda, Qaraqaya və Abdülgedigi.

b) Ankara mərkəz mahalı

- Ahiboz, Ayboz ~ Aboz şəklində tələffüz edilər (qismən Noqay)
- Ballıq
- Daşpınar





- Günalan, digər adı Koloz ~ Holos

c) Bala mahalı

- Əhmədçayırı

d) Haymana mahalı

- Cıngırlı (əvvəllər Noqay kəndi ikən, indi Noqaylar dörd evdə yaşamaqdadır). Bir neçə ailənin Cahanbəylinin Böyrüdəlik (Konya Eli) kəndindən gəldiyi deyilir.

Ağsaray eli

Ağsaray mərkəz mahalı

- Alaca, köhnə Həmidiyə.

Türkiyənin cənubunda Adana ətrafında Ceyhan mahalında da Krım-tatar kəndlərinin olduğu bildirilir.

İndiki vaxtda tatarların çoxu kəndlərinin yaxın olduğu, iş və məktəb tapa bildikləri mahal və şəhər mərkəzlərində yaşayırlar. Sürətli assimilyasiya prosesinə baxmayaraq, tatar kəndləri ilə türk kəndləri arasında ciddi fərqlər mövcuddur. Kəndlər standart bir nizama sahib deyil, bir neçə kənd müasir Krım kəndlərinin oxşarıdır.

Türkiyə Radio Televiziya (TRT) Şurasının "Türkiyənin Səsi (Tatar tərəfindən)" radiosu var və hazırda onu dünya tatarları internetdən dinləmək imkanı əldə ediblər. Eyni zamanda, İstanbul, Ankara, İzmir və digər iri şəhərlərdə tatar cəmiyyətləri və mərkəzləri var. Türkiyəyə tarixin müxtəlif dövrlərində köçən tatarlar keçən əsrin ortalarından birlik üçün səylərini əsirgəmirlər. 1970-ci ildə ilk dəfə olaraq “Kazan” cəmiyyətini quran tatarlar fəal 150 üzvü ilə

birgə tatar diasporunun ölkədə tanıdılması işinə başlayblar. "İdel-Ural" diaspor cəmiyyəti olaraq İstanbulda iş aparır və tatarların yerli cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Tatar-türk birgə ansamblı uzun illərdir tatar milli mahnı və rəqslərini Türkiyədə tanıdır.

Dünya tatarlarını ətrafında birləşdirən Dünya Tatar Konqresinin (DTK) formal olaraq yaranma tarixi 24 aprel 1998-ci ildən başlanır. Çünki bu qurum Rusiya Federasiyası Ədliyyə Nazirliyindən rəsmən qeydiyyatdan keçmişdir. İlk dəfə olaraq tatar diasporu tarixində 1992-ci ilin iyununda Dünya Tatarlarının Birinci Qurultayı keçirildi. Tatarıstanın paytaxtı Kazan şəhərinə RF vilayətləri daxil olmaqla, MDB və dünyanın müxtəlif ölkələrindən, ABŞ, Almaniya, Fransa, Avstraliya, Kanada və digərlərindən çoxsaylı tatarlar toplanmışdı. Bu Konqres Tatar diasporunun formalaşmasında mühüm rol oynadı. Qurultay zamanı yaradılan Dünya Tatar Konqresinin Rəyasət Heyəti fəaliyyət göstərdiyi 1992-1997-ci illər arasında çoxsaylı görüş və konfransların keçirilməsinin təşəbbüskarı olmuşdur. Bunlara biz dünya tatar alimlərinin "Elm", "Ağ qalfaq" Beynəlxalq Tatar Qadın Assosiasiyasını və digər müvafiq konfransları aid edə bilərik. "Dünya" adlı tatar radiosunun fəaliyyətə başlaması da məhz bu illərə düşür.

Dünya Tatarlarının İkinci Qurultayı 1997-ci ildə keçirilmişdir. Bu Qurultay zamanı dəyirmi masalar, tatar gəncləri, alimləri və digər mövzularda dinləmələr və iclaslar tatar diasporunun güclənməsinə xidmət edən fəaliyyət metodlarının tapılmasına həsr edilmişdi. Bu qurultayın yadda qalan məqamı DTK-nın Nizamnaməsinin qəbul edilməsi oldu. Nizamnaməyə uyğun olaraq, rəsmi idarəçilik beş ildən bir keçirilən Şuraya tabe edilirdi. Hüquqi idarəçiliyi isə Rəyasət Heyətinə aid idi. Nizamnamədən irəli gələrək, DTK RF daxilində və xarici ölkələrdə nümayəndəliklər açmağa başladı. Nizamnamədə nəzərdə tutulan müddəalara dünya tatarlarının həmrəyliyinə nail olmaq, Tatarıstanın iqtisadi, sosial, milli-mədəni və siyasi inkişafına dəstək vermək, onun suverenliyini qoruyub saxlamaq kimi məsələlər daxildir.

Dünya Tatarlarının Üçüncü Qurultayı 2002-ci ilin avqustunda keçirildi. Bu Qurultayın əsas mövzusu milli dövlətləri olan Tatarıstanın dövlətçilik məsələsi idi. Tatarıstanın müstəqil dövlət kimi olması, yoxsa RF daxilində respublika statusunun qalması, Rusiyanın milli siyasətinin tatar xalqının formalaşmasına təsiri, tatarların bir millət olaraq bir neçə etnik qrupa bölünməsi, tatar əlifbasının latın qrafikasına keçirilməsi ilə bağlı məsələlər bu qurultayın əsas müzakirə mövzuları olmuşdur.

Qurultay zamanı tatar diasporunun nümayəndələri beş müddəadan ibarət qərar qəbul etdilər:

– Tatar icmalarının inkişafı üçün maddi bazanın formalaşdırılması;

– Tatar və başqırd elitalarının yaxınlaşması yollarının aranması;

– Tatar diasporunun maksimum səviyyədə tatar dərslikləri ilə təmin olunması;

– Qloballaşma dövründə Rusiya daxilində yaşayan tatarların beynəlxalq aləmdə təmsilçisi olan DTK-nın fəaliyyətinin genişlənməsi;

– Bir sıra ölkələrdə mövcud tatar diasporları arasında həmrəyliyə mane olan narazılıq və fikir ayrılıqlarının tezliklə aradan qaldırılması.

Qurultayın bu qərarından sonra, 2002-2007-ci illər arasında DTK-nın Rəyasət Heyəti tərəfindən müxtəlif istiqamətdə işlər həyata keçirilmişdir. 2007-ci ildə Dünya Tatar Alimlərinin Forumunun, 2004-cü ildə "XXI əsrdə tatar millətinin əsas inkişaf istiqamətləri" adlı konfransın keçirilməsi, bir çox ölkələrdə tatar bazar günü məktəblərinin açılması, məscidlərin Rusiyanın müxtəlif ərazilərində və xarici ölkələrdə tikilməsi və bərpası, milli bayramların qeyd edilməsi, tatar dilində kitabların çapı, müxtəlif festivalların, idman yarışlarının təşkili, tatar gənc və uşaq teatrının inkişafı ilə bağlı görülən tədbirlər buna misaldır.

Qurum, eyni zamanda, 37 ölkədə yaradılan və fəaliyyət göstərən 146 diaspor təşkilatı ilə əməkdaşlığı gücləndirmişdir. 14 MDB dövləti və 23 xarici ölkədə hazırda 1 milyon 100 minə yaxın tatarı əlaqələndirən diaspor təşkilatları ilə DTK arasında sıx əməkdaşlıq mövcuddur. DTK-nın sayəsində 2002-2007-ci illərdə bu ölkələrə tatar dilində 62 min





kitab, 150 min videokaset və "Tatar karaokesi" başlıqlı 400 kompakt disk paylanmışdır. Cəmiyyətin nəzdində hüquqşünaslardan ibarət komanda formalaşdırılmışdır ki, onlar xaricdəki tatarlara hüquqi yardım edirlər.

Mədəniyyətin təbliğ olunmasında da mühüm işlərə imza atılmışdır. Bunlara biz Qazaxıstanda "İrtış Mahnarı", Çuvaşıstanda "Urmay Mahı", Saratovda "İdel Ulduzları", Ukraynada "Kiyev sanduqaçı", Tümendə "Tah Ulduzu" və digər bu kimi musiqili-milli festivalları nümunə göstərə bilərik. Milli bayram "Sabuntay" isə hər il bütün tatar diasporunun olduğu ölkələrdə qeyd edilir.

Tatar diasporu gənclərlə də fəal iş aparır. Müxtəlif gənclər təşkilatları yaradılır və onlara tam dəstək verilir. Eyni zamanda, sahibkar tatarlara da diqqət verilir. Onların ölkədə və xaricdə biznes qurmalarına əlverişli şəraitin yaradılması istiqamətində təşəbbüslərin sayı artmaqdadır.

İnformasiya sahəsinə də diqqət artmağa başlamışdır. Hazırda xarici ölkələrdə tatar icmaları tərəfindən yeni KİV-lər yaradılır, vahid tatar diaspor informasiya sisteminin qurulmasına səy göstərilir, radio və TV proqramların açılması sahəsində təşəbbüslər edilir. Bu gün Rusiya Federasiyasında tatar diasporunun 24, MDB-də 7 və xarici ölkələrdə 3 qəzet və jurnalı fəaliyyət göstərir. Bunlara Ukraynadakı "Dustluk", Qazaxıstandakı "Sempiliat tatarları", Rusiyada yayınlanan "Tatar xəbərləri"ni misal göstərə bilərik.

Dünya Tatarlar Konqresinin təşkilatçılığı ilə 13-15 dekabr 2007-ci ildə Kazanda VI qurultay keçirilmişdir. Qurultayda aşağıdakı qərarlar qəbul edilmişdir:

- Tatarıstanın Ana Vətən olaraq dünya tatarlarının əsas mərkəzi kimi iqtisadi, siyasi, mədəni inkişafı üçün bütün qüvvələri səfərbər etmək;
- Diasporda olan gənclərlə fəal işin qurulması;
- Ana dilinin qorunub saxlanması və təbliğ edilməsi;
- Milli idman "Görəş"-Güləşin inkişafı və yarışların keçirilməsi;
- Tatar məktəblərinin sayının artırılması;
- Tatar ailələrində milli kimliyin qorunub saxlanması;
- Distant təhsil sisteminin qurulması;
- Kabel və sputnik TV və radiolarının yaradılması;
- BMT, ATƏT, Avropa Birliyi kimi qurumlarla əlaqələrin yaradılması;
- Tatarların hüquqlarının qorunması;
- Biznesin inkişafı üçün tatarlara dəstək verilməsi;
- Tatar xalqının milli kimliklərinin qorunub saxlanması üçün tədbirlərin görülməsi və s.





## TARİXİ VƏ MÜASİR TÜRK DÖVLƏTLƏRİ

### İmperiyalar – 16 Böyük Türk Dövləti

| | |
|---|---|
| Böyük Hun İmperiyası | e.ə. 204 - b.e 216 |
| Qərbi Hun İmperiyası | e.ə. 40 - 216 |
| Avropa Hun İmperiyası | 375 - 454 |
| Ağ Hun İmperiyası | 420 - 562 |
| Göytürk İmperiyası | 552 - 743 |
| Avropa Avar İmperiyası | 565 – 803 |
| Xəzər xanlığı | 651 – 983 |
| Uyğur dövləti | 744 – 1335 |
| Qaraxanlı dövləti | 840 – 1212 |
| Qəznəvilər dövləti | 963 – 1183 |
| Böyük Səlcuq İmperiyası | 1040 – 1157 |
| Xarəzmşahlar dövləti | 1157 – 1231 |
| Qızıl Orda dövləti | 1227 – 1502 |
| Osmanlı İmperiyası | 1299 – 1922 |
| Teymur İmperiyası | 1370 – 1507 |
| Böyük Moğol İmperiyası | 1526 – 1858 |

### Digər İmperatorluqlar

| | |
|---|---|
| Şərqi Göytürk İmperiyası | 582 - 630 |
| Qərbi Göytürk İmperiyası | 582 - 630 |

| | |
|---|---|
| İkinci Göytürk İmperiyası | 681 - 744 |
| Əyyubilər dövləti | 1171 - 1348 |
| Dehli sultanlığı | 1206 - 1413 |
| Çağatay dövləti | 1227 - 1370 |
| Misir Məmlük dövləti | 1250 - 1517 |
| Elxanilər dövləti | 1256 – 1336 |
| Səfəvilər dövləti | 1501 - 1722 |

**Dövlətlər**

| | |
|---|---|
| Çu dövləti | e.ə. 1050 - b.e 249 |
| Şimali Hun dövləti | 48 - 156 |
| Cənubi Hun dövləti | 48 - 216 |
| Asya Avar dövləti | 216 - 552 |
| Birinci Chao Hun dövləti | 304 - 329 |
| İkinci Chao Hun dövləti | 328 - 352 |
| Tabqaç dövləti | 386 - 557 |
| Şimali Liang Hun dövləti | 401 - 439 |
| Hsia Hun dövləti | 407 - 431 |
| Lov-lan Hun dövləti | 442 - 460 |
| Şərqi Tabgaç dövləti | 534 - 557 |
| Qərbi Tabgaç dövləti | 534 - 557 |
| Doqquz Oğuz dövləti | ? - ? |
| Otuz Oğuz dövləti | ? - ? |
| Onogur dövləti | ? - ? |
| Türgiş dövləti | 717 - 766 |





| | |
|---|---|
| Karluk dövləti | 766 - 1215 |
| Qırğız dövləti | 840 - 1207 |
| Tolunğulları dövləti | 868 - 905 |
| Sacilər dövləti | 879 - 941 |
| Macarlar dövləti | 896 - 955 |
| Kansu Uygur dövləti | 905 - 1226 |
| Liang Şa-t'o Türk dövləti | 907 - 923 |
| Şərqi Türküstan Turfan-Uygur dövləti | 911 - 1368 |
| Tana Şa-t'o Türk dövləti | 923 - 936 |
| Akşitlər dövləti | 935 - 969 |
| Tsin Şa-to Türk dövləti | 937 - 946 |
| Oğuz Yabqu dövləti | ? - 1000 |
| Şərqi Qaraxanlı dövləti | 1042 - 1211 |
| Qərbi Qaraxanlı dövləti | 1042 - 1212 |
| Fərqanə Qaraxanlı dövləti | 1042 - 1212 |
| Suriyə Səlcuqlu dövləti | 1092 - 1117 |
| Kirman Səlcuqlu dövləti | 1092 - 1187 |
| Türkiyə Səlcuqlu dövləti | 1092 - 1307 |
| İraq Səlcuqlu dövləti | 1157 - 1194 |
| Basaraba Türk dövləti | 1330 - 1360 |
| Ağqoyunlular dövləti | 1350 - 1507 |
| Qaraqoyunlular dövləti | 1380 - 1469 |
| Əfşarlar dövləti | 1736 – 1802 |
| Qacarlar dövləti | 1794 - 1925 |

| | |
|---|---|
| Kazan Xanlığı | 1437 - 1552 |
| Krım Xanlığı | 1440 - 1475 |
| Kasım Xanlığı | 1445 - 1681 |
| Astraxan Xanlığı | 1466 - 1554 |
| Noqay Xanlığı | ? - ? |
| Hivə Xanlığı | 1512 - 1920 |
| Küçüm Sibir Xanlığı | 1556 - 1600 |
| Buxara Xanlığı | 1599 - 1785 |
| Qarabağ Xanlığı | 1748 - 1805 |
| Kaşqar-Turfan Xanlığı | 1800 - 1877 |
| Hoxand Xanlığı | 1710 - 1876 |
| İrəvan Xanlığı | 1780 - 1828 |
| Qırğız Xanlığı | 1800 - 1876 |
| Qazax Qırğızları Xanlığı | 1800 - 1876 |
| Türkmənistan Xanlığı | 1860 - 1885 |

**Respublikalar**

| | |
|---|---|
| Qərbi Trakya Türk Respublikası | 1913 - 1913 |
| Azərbaycan Demokratik Respublikası | 1918 - 1920 |
| İdil Ural dövləti | 1918 - 1919 |
| Şərqi Türküstan Respublikası | 1920 - 1925, 1932 - 1934, 1944 - 1949 |
| Tannu Tuva Xalq Respublikası | 1921 - 1944 |





| | |
|---|---|
| Hatay dövləti | 1938 - 1939 |
| Cənubi Azərbaycan Muxtar Respublikası | 1945 - 1946 |

**Müasir Türk dövlətləri**

| | |
|---|---|
| Azərbaycan Respublikası | 1991 |
| Türkiyə Respublikası | 1923 |
| Qazaxıstan Respublikası | 1991 |
| Qırğızıstan Respublikası | 1991 |
| Türkmənistan Respublikası | 1991 |
| Özbəkistan Respublikası | 1991 |
| Şimali Kipr Türk Respublikası | 1976 |

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

**Azərbaycan dilində:**

1. Abbasov A. Bir-birindən asılı dövlətlər birliyi. Bakı, Bakı Slavyan Universiteti. Kitab aləmi NPM, 2005.
2. Abdullayev M.İ. Azərbaycan-Türkiyə əlaqələri. Bakı, 1998.
3. Adcı M. Türk və dünya.: Munis tariximiz. Bakı, Slavyan Universitetinin nəşri, 2006.
4. Allahverdiyev S., Haqverdiyev Ə. Türk dünyası xalqları tarixi. Bakı, 1996.
5. Alper Tan. Asiya Birliyi. // TDC XI DQƏQ mater. Bakı, Yurd NPB, 2008.
6. Arzumanlı V. Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı, Qartal, 2001.
7. Arzumanlı V., Ağayev İ. Dünya Azərbaycanlıları Konqresi, dünən, bu gün və sabah. Bakı: Qartal, 2007.
8. Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanlı...(xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri). Bakı, Qorqud, 1994.
9. Avropa Azərbaycanlıları Konqresinin fəaliyyət proqramı (2007-2009-cu illər). Bakı, Yurd, 2007.
10. Aydınqızı, A. Ümumtürk mənbəşünaslığı: Dərs vəsaiti. Bakı, Bakı Universiteti, 2003.
11. Azərbaycan – Türkiyə: Bir Millət, İki Dövlət, Vahid Diaspor. Bakı, 2007.





12. Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006.
13. Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu; red. Y.Mahmudov, elmi red. M. Seyidbəyli. Bakı, Aspoliqraf LTD, 2005.
14. Azərbaycan diasporuna dövlət qayğısı. Bakı, "Çaşıoğlu", 2006, II Kitab.
15. Azərbaycan diasporuna dövlət qayğısı. Bakı, "Çaşıoğlu", 2003, I Kitab., Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni təşkilatları (sorğu kitabçası). Bakı, 2001.
16. Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ. Bakı: "Çaşıoğlu", 2006.
17. Azərbaycan - Qırğızıstan ikitərəfli münasibətləri. www.mfa.gov.az.
18. Azərbaycan Respublikası Xarici Siyasət Strategiyası: www.mfa.gov.az.
19. Azərbaycan və türk diasporları təşkilatları koordinasiya şurasının illik toplantısı materialları. Bakı, Yurd, 2008.
20. Azərbaycan və türk diasporlarının birgə fəaliyyət strategiyası. Bakı, Yurd, 2007.
21. Azərbaycançılıq – birliyimizin əsasıdır: 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında və "Gülüstan" sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı, Azərbaycan nəşriyyatı, 2002.

22. Azərbaycan - Özbəkistan ikitərəfli münasibətləri. www.mfa.gov.az.
23. Azərbaycan-Türkiyə iqtisadi münasibətləri .www.aliyev-hertage.com.
24. Azərbaycan-Türkiyə: Dostluq, Qardaşlıq, Strateji əməkdaşlıq: Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri. Tərtib edəni: Ş.Şahməmmədov, O.Sadıxov.- Bakı, Şərq-Qərb, 1997.
25. Babayev X. Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. Bakı, Borçalı, 2004.
26. Cahangirli C. Azərbaycan-Türkiyə: [Heydər Əliyev, Süleyman Dəmirəl, İhsan Doğramacı haqqında]. Bakı, Çaşıoğlu.
27. Cəfərov Nizami Qulu oğlu. Türk dövlətlərinin birliyi labüddür. "İki Sahil". 2008, 21 may, s.5.
28. DAK-ın Əsasnaməsi. www.dak.az.
29. Dünya Azərbaycanlıları. I cild, Bakı, Azərbaycan Nəşriyyatı, 2006.
30. Dünya azərbaycanlıları: tarix və müasirlik: Elmi-nəzəri toplu. I buraxılış. red.: Y.M.Mahmudov; Bakı Dövlət Universiteti, tarix fakültəsi; Azərbaycanşünaslıq Elmi-Tədqiqat Mərkəzi, "Dünya azərbaycanlıları" bölməsi. Bakı, Bakı Universiteti, 2003.
31. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Azər-Tac-İnformasiya Agentliyi.





32. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, "Azərbaycan nəşriyyatı", 2002.
33. Dünya Azərbaycanlılarının II Qurultayı. Bakı, Çaşıoğlu, 2006.
34. "Dünya Azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat". Bakı, "AM965" MMC mətbəəsi, 2008.
35. Dünya Azərbaycanlılarının II Qurultayı. Bakı, Çaşıoğlu, 2006.
36. Tağıyev Ə.M. Milli ideya və milli ideologiya. Bakı, Təbib, 2000.
37. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Tuna, 1998.
38. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. Bakı, Azərnəşr, 1997.- 1-ci kitab.
39. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. Bakı, Azərnəşr, 2000.- 9-cu kitab.
40. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. Bakı, Azərnəşr, 2006.-19-cu kitab.
41. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. Bakı, Azərnəşr, 2007.-20-ci kitab, s.538.
42. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. Bakı, Azərnəşr, 2005.-14-cü kitab, s.520.
43. Əliyev Z.B. "Diaspor: İzahlı sözlük və məlumat kitabı". Bakı, Yurd, 2007.
44. Əliyev Z.B. Dünya diasporları. Bakı, Qismət, 2005.

45. Əliyev Z.B. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı, Nurlan.
46. Əliyeva A.İ. Turanın bir eli var və yalnız bir dili var. Bakı, YOM Yayınları, 2007.
47. Əlizadə M. Heydər Əliyevin inam və idrakı. Bakı, 2006.
48. Əliyev H. Müstəqillik yolu. Bakı, 1997.
49. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, Şərq-Qərb, 2001.
50. Hacalıyev E. Azərbaycan Respublikası və Orta Asiya türk dövlətləri arasında siyasi münasibətlər [Mətn]: Siyasi e.n.a.dər.a.üçün təqdim edilmiş dis-nın avtoreferatı: 23.00.04. /Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Bakı, 2007.
51. Həbiboğlu V. Azərbaycan diasporu yeni mərhələdə. Bakı, "Elm", 2006.
52. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, 2006.
53. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti. Bakı, 2005.
54. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. elmi red. R.Ə.Mehdiyev. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002.
55. Hüseynov İ.Q. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin iqtisadi səmərəliliyi və regionun iqtisadi inkişafında doğuracağı dəyişikliklər". Bakı-Tbilisi-Ceyhan neft kəmərinin beynəlxalq əhəmiyyəti" adlı beynəlxalq konfransın tezisləri. Bakı, Adiloğlu, 2002.





56. Hüseynov Miribrahim Mirqəyyum oğlu. Dünya türklərinin müxtəsər tarixi. Bakı, Elm, 1999.
57. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1992.
58. İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının IV Zirvə toplantısı. "Azərbaycan" qəzeti, 15 may 1996.
59. İsmayılov İ. Türk Dünyası XX əsrin 90-cı illərində. Bakı, Zaman, 2001, s.198.
60. İsmayılov İ.Z. Dünya azərbaycanlıları XX əsrdə (müxtəsər oçerk). Bakı, DHA Mətbəəsi, 1992.
61. İsmayılov H. Ortaq türk keçmişindən gələcəyinə: Ulu öndərimiz Heydər Əliyevin türk dünyasının siyasi, iqtisadi və mənavi birliyi üçün müəyyən etdiyi konsepsiya bu ideyaya əsaslanır. Azərbaycan, 2006, 13 dekabr.
62. Kazımov M. Azərbaycançılıq – Heydər Əliyevin dövlət quruculuğu prinsipidir // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, Azərbaycan Nəşriyyatı, 2005.
63. Kəngərli Q.N. Erməni lobbisi. Azərbaycan faciəsi. Bakı, Yazıçı, 1992.
64. Mehdiyev Ə.T. Millətin səsi: Azərbaycanlılar MDB məkanında. I hissə. Bakı, ŞƏMS, 2006.
65. Mehdiyev R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi. "Azərbaycan" qəzeti, 2007, 9 noyabr.
66. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005.

67. Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2001.
68. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, Azərbaycan, 2006.
69. Mehdiyeva N. Türk xalqlarının tarixi: yeni dövr: XIX-XX əsrin əvvəlləri. Bakı, 2003.
70. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə: monoqrafiya. Bakı, AzAtaM, 2005.
71. Məmmədov R. Azərbaycan diasporu və milli mətbuat. Bakı, Qartal, 2004.
72. Məmmədov R.H. Rusiya: ziyalılarımız, mətbuatımız, münasibətlərimiz. Bakı, Şirvannəşr, 2003.
73. Məmmədov R. Azərbaycan diasporu və milli mətbuat. Bakı, Qartal, 2004.
74. Məmmədov Ə.M. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-cı illərin sonu-1997-ci il). Bakı, Elm nəşriyyatı, 1999.
75. Abdullayev M. Avropadan Mərkəzi Asiyaya körpü. "Ülfət" qəzeti, 12 sentyabr 2008.
76. Muxtarov K. XX əsrdə türk xalqlarının birliyi ideyası. Bakı, Qartal, 2002.
77. Muxtarova Ə. Türk xalqlarının tarixi (Qədim dövr və orta əsrlər). www.tarix.az.
78. Cəfərov N.Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə. Dirçəliş–XXI əsr, 2004, №74-75.
79. Yaqublu N. Azərbaycan legionerləri. Bakı, 2002.



Türkdilli xalqların diasporları

80. Nazim Rizvan. Azərbaycan diasporu tarixindən. Bakı, 2000.
81. Qaraoğlu Fazil. Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları. Bakı, Nurlar, 2007.
82. Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, Mütərcim, 1997.
83. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı, 1996.
84. Qəndilov S. Müstəqillik illərinin düşüncələri: dərs vəsaiti. Bakı, Naksuana, 2006.
85. Qiyasi C. Yaxın-uzaq ellərdə: (orta əsr Azərbaycan memarlığının beynəlxalq əlaqələri haqqında). Bakı, İşıq, 1985.
86. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya – iqtisadi və beynəlxalq münasibətlər: II beynəlxalq konqresin materialları, Bakı, Qafqaz Universiteti, 2007.
87. Musabəyov R., Abbasov F. Qazaxıstan: Xəzərdə Ən Etibarlı Tərəfdaş. "Məşvərət", №24, 1999.
88. Rəhmanzadə F. Yol. Bakı, Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyi, 1994.
89. Ruintən S. Azərbaycan Türk dövlətləri ilə siyasi əlaqələr sistemində: XX əsrin 90-cı illəri. Bakı, Adiloğlu, 2005.
90. Rüstəmov Y. Türk fikir tarixi haqqında mülahizələr. AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Azərbaycanda Atatürk Mərkəzi. Bakı, Çaşıoğlu, 2005.
91. Şirvan S. Turan yolu. Bakı, "Vektor" Nəşrlər Evi, 2006.
92. Saleh bəy. Dünyanın taleyi. Bakı, Elm, 1998.

93. Səmədli Z. Türk dövlətlərinin beynəlxalq münasibətlərdə rolu: siyasi elm. namiz. dis. avtoreferatı: 23.00. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Bakı, 2005.
94. Şəmsizadə N. Azərbaycançılıq. Bakı, Nurlar, 2006.
95. Starodumova K.İ. Mövqe. Bakı, 2005, Nurlan.
96. TİKA-2004. Fəaliyyət Hesabatı. http://www.tika.gov.tr.
97. Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının materialları. Bakı, Yurd, 2008.
98. Türk dünyası. [Dərs vəsaiti] /Müəllif-tərt. Q.Allahverdiyev, V.Sultanzadə; Şərq Araşdırmalar Mərkəzi. - Altıncı kitab. Heydər Əliyev və Şərq: Altı cilddə. Bakı, Çaşıoğlu, 2006.
99. Türk dünyası. VI kitab. Bakı, Çaşıoğlu, 2006.
100. Türk xalqlarının ortaq ata-babaları. Yılmaz M.U; tərc. Karaoğlu F.; baş red. Nəzərli S.; red. Rəhim qızı N. - Bakı, Göytürk.
101. Türkmənistan-Azərbaycan əlaqələri. www.mfa.gov.az.
102. Türkiyə Prezidenti S.Dəmirəlin Azərbaycana səfəri. "Xalq qəzeti". 12 may 1998.
103. Ulutürk R. Türk dünyasının birliyi və əlaqələri möhkəmlənir. Respublika. 2007, 1 dekabr.
104. Abdullayev V. Millət ideyası: Siyasi aspekt. Bakı. Təbib, 1998.
105. Vəliyeva S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq ideyası. Bakı, Azərbaycan, 2003.





106. Vətəndaş cəmiyyəti və milli ideologiya, Azərbaycanda siyasi proseslərin fəlsəfəsi. Bakı, 1995.
107. Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni təşkilatları (sorğu kitabçası). Bakı, 2001.
108. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülmüş işlər haqqında məlumat. Bakı, Yurd, 2006.
109. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin 2005-ci ilin yekunlarına dair hesabatı.
110. Xəlilov C. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, 2004.
111. Xəlilov S. Milli təhlükəsizlik milli şüur kontekstində. Bakı, Vətən, 2006.
112. Yılmaz M. Türk xalqlarının ortaq ata-babaları. Bakı, Göytürk, 1997.

**Türk dilində:**

1. "İzmir Tatarı Behzat Aktaş Belen Enggeme". 28.12.2007 (Tatar Pres:420).
2. "Rusya'yı KGB Ajanları Yönetiyor". VATAN Gazetesi, 15.12.2006.
3. Kurat A.N. Peçenek Tarihi. İstanbul, 1937.
4. Abdülkadir İ. Eski Türk Dini Tarihi. İstanbul, 1976.
5. AZATLIK, İctimagıy-Siyasi Gazete (elektronik gazete).
6. Bahaeddin Ö. Büyük Hun İmparatorluğu Tarihi. Ankara, 1981.

7. Bahaeddin Ö. İslamiyetten Önce Türk Kültür Tarihi. Ankara, 1962.
8. Bahaeddin Ö. Kültür Tarihine Giriş. İstanbul, 1978.
9. Bahaeddin Ö. Türk Mitolojisi. Ankara, 1971.
10. Çağatay U. İlk Müslüman Türk Devletleri. İstanbul, 1977.
11. Çeçen A. Tarihte Türk Devletleri. İstanbul, 1986.
12. De Lamartine. Alphonse. Osmanlı Tarihi. Cilt 1, Sabah Yayıncılık, İstanbul, 1991.
13. Devlet N. "Uyanan Dev Çin ve Uygurlar" Doğu Türkistan'ın Sesi. sayı.66, yıl 2006.
14. Erol G. Tarihte Türkler. İstanbul, 1989.
15. Faruk S. Karakoyunlular. Ankara, 1984.
16. Faruk S. Oğuzlar. İstanbul, 1980.
17. Goldfarb, Alex ve Litvinenko, Marina, LİTVİNİNKO-Bir Muhalifin Ölümü, İstanbul, 2008.
18. Hüseyin N. Eski Türk Yazıtları. İstanbul, 1986.
19. Hüseyin N. Türk Tarihi. Ankara, 1946.
20. İbrahim K. Harzemşahlar Devleti Tarihi. Ankara, 1956.
21. İbrahim K. Selçuklu Tarihi. İstanbul, 1972.
22. İbrahim K.Türk Milli Kültürü. Ankara, 1983.
23. Kurban İ. Doğu Türkistan İçin Savaş. Ankara, 1995.
24. Kurban İ. Yaşlı Tarihin Yankısı. İstanbul, 1998.
25. Altay K. Büyük Selçuklu İmparatorluğu Tarihi. Ankara, 1954.
26. Muharrem E. Orhun Abideleri. İstanbul, 1977.





27. Nadir D. "Milli Liderlerni Üzegezde Üsteregez". İrek Meydanı № 16, yıl 2007.
28. Nimet K. Karadeniz Kuzeyindeki Türk Kavimleri ve Devletleri. Ankara, 1972.
29. Esad O. Türk Sanat Tarihi. İstanbul, 1955.
30. Osman T. Türk Cihan Hakimiyeti Mefrukesi Tarihi. İstanbul, 1978.
31. Öztürk Kazım (1992). Atatürk'ün TBMM Açık ve Gizli Oturumlarındaki Konuşmaları. Cilt 1-2, Kültür Bakanlığı-Atatürk Dizisi. ISBN 975-17-0635-1.
32. Putin. "Rusya Ulusal Bir Rönesans Yaptı". "VATAN" Gazetesi, 02.01.2008.
33. Ronan C. A. Bilim Tarihi. Ankara, 2003.
34. Rusya Federasyonu Ankara Büyükelçiliği, TÜRKSOY. İki Kişilik Davetiye. 04.Ekim 2005.
35. Türkiye Cumhuriyeti. Meydan Larousse, Meydan Yayıncılık. 1988, Cilt 12. Temel Britannica, Ana Yayıncılık-Encyclopaedia Britannica, 1992, Cilt 18, s. 41-96. Türkiye. ISBN 975-7760-02-1.
36. Türklerin ve Türkiye'nin Tarihi Ansiklopedisi. Milliyet Yayınları, 1982.
37. Velidi T. Umumi Türk Tarihine Giriş. İstanbul, 1970.
38. Yusuf H.B. Hindistan Tarihi. Ankara, 1946.

## Rus dilində:

1. Абрамзон С.М. Народные предание как источник для изучения этнической истории киргизов Центрального Тянь-Шаня Этническая история народов Азии. – М., Наука. – 1972.
2. Айдаров Г. Библиографический указатель литературы по енисейско-орхонским и таласским памятникам древнотюркской письменности. Алма-Аты, 1979.
3. Анготкин А. Азербайджанцы в Бурятии. Информ Полис. – 2000, 10 мая.
4. Бажанов Е. Актуальные проблемы международных отношений. Избранные труды. В 3 томах. Том I. 2001 ISBN: 5-7671-0062-4. стр.464.
5. Бернштам А.Н. Историческое прошлое кыргызского народа. Избранные труды по археологии и истории Кыргызов и Кыргызстана. Том II. Бишкек, Айбек, 1998, стр.517.
6. Боровков А.К. Лексика среднеазиатского тефсира XII-XIII вв. М., 1963.
7. Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор. Общественные науки современности. 2000, №3.
8. Гапеева А. Национально-культурные центры как фактор стабильности межкультурных отношений в полиэтническом обществе: Дис. канд. Культурологи. Улан-Удэ, 2002.
9. География этноса в исторический период. Л., Наука. 1990, стр.253.





10. Гибадулин Я.Н. Тюркский мир. Сборник научных статей. 2004, ISBN: 5-85840-326-3, кол-во стр.: 104.
11. Градировский С., Тупицын А. Диаспоры в менявшемся мире Содружество НГ (Ежемесяцное приложение к «Независимой газете»), №7, 1998.
12. Градировский С. Россия и постсоветские государства: искушение диаспоральной политикой. Диаспоры №2.
13. Диаспоры в концептах государственной и региональной национальной политики. М., 2002.
14. Древнетюркский словарь. Л., 1969.
15. Дырылдаев А. О миграционных процессах в Кыргызской Республике. Текущий архив Бишкекского офиса МОМ (IOM). 1997, стр.1.
16. Дятлов В. Диаспора: попытка определится в понятиях. Диаспоры. М., 1999, №1.
17. Закиев М.З. История татарского народа (Этнические корни, формирование и развитие).
18. Из истории Евразии. М., Изд-во Искусство, 1993.
19. Иларионова Т.С. Этническая группа: генезис и проблемы самоидентификации (теория диаспоры). М., 1994.
20. Керимбекова Н., Конкобаев К., Мокрынин В., Плоских В. Кыргызская диаспора за рубежом. Фрунзе, 1992.
21. Кисляков Н.А. Очерки по истории Каратегина. Сталинабад, 1954.
22. Князев А. История афганской войны 1990-х гг. и превращение Афганистана в источник угроз для Центральной

Азии. Изд-е 2-е, перераб. и дополн. Бишкек, Изд-во КРСУ, 2002.
23. Князев А. Смутные времена на «крыше мира». Вернутся ли афганские киргизы на историческую родину? «Независимая газета». М., 2000, №229 (2291), 2 декабря.
24. Кононов А.Н. Грамматика языка тюркских рунических памятников VII-IX вв. Л., 1980.
25. Кыргызы и Кыргызстан: опыт нового исторического осмысления. Бишкек, Илим, 1994.
26. Лебедева Н. Социальная психология этнических миграций. М., 1993.
27. Левин З. «Менталитет диаспоры». М. İMMA-PRES, 2002.
28. Малов С.Е. Енисейская письменность тюрков. М. Л., 1952.
29. Малов С.Е. Памятники древнетюркской письменности Монголии и Киргизии. М. Л., 1959.
30. Малов С.Е. Памятники древнетюркской письменности. М. Л., 1951.
31. Марианьский А. Современные миграции населения. М., 1969.
32. Мелиоранский П.М. Памятник в честь Кюль-Тегина. SPб., 1899.
33. Мендикулова Г.М. Казахская диаспора: история и современность. – Алматы, 2006.
34. Мендикулова Г.М. Казахская ирредента в России (история и современность) Евразийское сообщество, 1995, №8, стр.70-80.





35. Мехтиев Р. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики. Баку, Азернешр, 1995.
36. Наджип Э.Н. Историко-сравнительный словарь тюркских языков XIV века. На материале «Хосров и Ширин» Кутба, кн. 1. М., 1979.
37. Мукомеля В. и Паина Э. Новые диаспоры. Государственная политика по отношению к соотечественникам и национальным меньшинствам. Под ред. «Диполь-Т», Москва.
38. Попков В. Как живется кавказцам в российской провинции? (на примере Калуги) Диаспора, 2001, №1.
39. Попков В. Феномен этнических диаспор. Калуга, 2003.
40. Попов В. Афганистан сажает Европу на иглу. «Независимая газета», М., 2000, №233 (2295), 8 декабря.
41. Россия для русских, Татарстан для татар? «Известия», 13 декабря, 2005 г.
42. Арутюнов С. Диаспора – это процесс. Этнографическое обозрение, 2000, №2.
43. Субботина И. Проблемы социально-экономической адаптации выходцев из Закавказья в Москве. Диаспора, 2001, №1.
44. Тишков В. Исторический феномен диаспоры. Этнографическое обозрение, М., 2000, №2.
45. Фазылов Э. Староузбекский язык. Хорезмийские памятники XIV в, т. 1-2. Ташкент, 1966-71.

46. Центральный Государственный архив Республики Казахстан (ЮГА РК). Ф. 698. Ор. 4. Д. 932. Лл. 8, 13, 30, 40, 57; Ф. 698. Ор. 14. Д. 455. Лл. 2, 6-7.
47. Этнография народов Алтая: библиографический указатель (1948-2003) АлтГУ. ИФ. КАЭИ. НБ. БО; сост.: Бельгибаев Е.А., Ухналева Т.В. Барнаул, 2004, стр.29.





## MÜƏLLİF HAQQINDA

Zaur Bilal oğlu Əliyev 1976-cı ildə anadan olub. Bakı Dövlət Universitetinin "Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq" fakültəsinin bakalavr və magistr təhsil pillələrini bitirib. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun aspiranturasında təhsil alıb. "Beynəlxalq münasibətlərdə diasporların rolu", "Dünya diasporları" və "Diaspor: İzahlı sözlük və məlumat kitabı" kitablarının müəllifidir. Dünyanın bir neçə ölkəsi də daxil olmaqla, mövzu üzrə 50-dən çox məqaləsi dərc edilib.

ZAUR ƏLİYEV

# TÜRKDİLLİ XALQLARIN DİASPORLARI

Çapa imzalanmışdır: 08.12.2009
Kağız formatı: 60x90 1/16
Həcmi: 18,5 ç.v.
Sifariş: 426
Sayı: 500

*Kitab "Adiloğlu" nəşriyyatında hazırlanıb,*
*hazir diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.*
*Ünvan: Bakı şəh., Şərifzadə 202,*
*Tel: (012) 418-68-25, 498-68-25, 433-00-43*
E-mail: adiloglu2000@gmail.com